# TÖVHİD mövzularında faydalı bələdçi



Müəllif: Prof. Dr. AbdulQadir İbn Muhəmməd Ata Sufi
Tərcüməçi: Elçin Şunqarov
Elmi redaktor: Fərman İsayev
Tərcümə redaktoru: Elçin Quliyev

# *Tövhid mövzularında faydalı bələdçi*

**Müəllif:**

*Prof. Dr. AbdulQadir ibn Muhəmməd Ata Sufi*

**Tərcüməçi:**

*Elçin Şunqarov*

**Elmi redaktor:**

*Fərman İsayev*

**Tərcümə redaktoru:**

*Elçin Quliyev*

## Mərhəmətli və Rəhm edən Allahın adı ilə

# Müqəddimə

Həqiqətən, həmd Allaha məxsusdur. Ona həmd edir, Ondan yardım istəyir, bağışlanma diləyir və nəfslərimizin şərindən və pis əməllərimizdən Ona sığınırıq. Allah kimi doğru yola yönəldərsə, onu azdıran olmaz, kimi də azdırarsa, onu doğru yola yönəldən olmaz. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə layiq məbud yoxdur, O, təkdir və Onun şəriki yoxdur. Həmçinin şahidlik edirəm ki, Muhamməd *(Allahın ona salavatı və salamı olsun)* Onun qulu və elçisidir.

**"Ey iman gətirənlər! Allahdan Ona layiq olan tərzdə qorxun və ancaq müsəlman olduğunuz halda ölün!"(Ali-İmran, 102).**

**"Ey insanlar! Sizi tək bir candan xəlq edən, onun özündən zövcəsini yaradan və onlardan da bir çox kişi və qadın törədib yer üzünə yayan Rəbbinizdən qorxun! Adı ilə bir-birinizdən cürbəcür şeylər istədiyiniz Allahdan və qohumluq əlaqələrini kəsməkdən çəkinin! Həqiqətən, Allah sizə nəzarət edir ". (Ən-Nisa, 1).**

**"Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz danışın ki, O, əməllərinizi islah etsin və günahlarınızı bağışlasın. Kim Allaha və Onun Elçisinə itaət etsə, böyük bir uğur qazanar ". (Əl-Əhzab, 70-71).**

***"Sonra isə... Həqiqətən, ən xeyirli söz Allahın kitabıdır və ən xeyirli yol Muhammədin (Allahın ona salavatı və salamı olsun) yoludur. İşlərin ən şərlisi*** *(dinə sonradan əsassız əlavə edilən)* ***yeniliklərdir. Hər bir bidət zəlalətdir[1], hər bir zəlalət isə Cəhənnəm odundadır ".[2]***

Həqiqətən, Qiyamət günü gəlməzdən öncə Uca və Qüdrətli Allah peyğəmbərimiz Muhəmmədi *(Allahın ona salavatı və salamı olsun)* haqq din və doğru yolla müjdələyən və xəbərdar edən, yalnız Allaha ibadətə çağıran və nur saçan bir çıraq olaraq göndərmişdir. Uca və Qüdrətli Rəbbimiz onu elçilərin

---

[1] Səhih Muslim, Cümə kitabı, "Xütbəni və namazı yüngülləşdirmək" fəsli.

[2] Bu əlavəni Əbu Bəkr Əl Fəryabi "Qədər" kitabında (s. 284), İbn Xuzeymə "Səhih" (3/143, № 1785), Əl Əcurri "Əş Şəriə" (1/398, № 844), Beyhəqi "Əs Sunən Əl Kubra" (3\214, № 1589), "Əl Əsməu vəs sifət" (1/202, № 137), Əbu Nueym "Hilyətul əvliyə" (3/189), İbn Bətta "Əl İbənətul kubra" (4/85, № 1491) əsərləində qeyd etmişlər və Şeyx Albani səhih demişdir.

göndərilməsinin kəsildiyi dönəmdə, elmin az olduğu bir vaxtda, haqq sözlərin təhrif edildiyi, şəri əhkamların dəyişdirildiyi, insanların haqqı tərk edərək öz nəfsi istəklərinə və rəylərinə istinad etdikləri bir zamanda, onları zülmətlərdən nura çıxarmaq üçün göndərmişdir. Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* gətirdiyi bu din ilə yer üzü zülmətlərdən sonra nurlanmış, dağınıq və bir-birindən ayrı olan qəlblər birləşmişdir. Allah onunla kor gözləri, kar qulaqları və möhürlü qəlbləri açmış, haqqı və batili, hidayət və zəlaləti, doğru yolu və azğınlığı, sadiqlik və yalanı, yaxşını və pisi, Allahın xoşbəxt dostlarını və bədbəxt düşmənlərini bir-birindən ayırd etmişdir. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* dində ehtiyac olan bütün məsələləri insanlara öyrətmədən bu dünyadan köçməmişdir. Onları, gecəsi gündüzü kimi aydın olan elə bir yol üzərində tərk etmişdir ki, ondan sonra bu yoldan yalnız həlak olan kəs azar.

Allah elçisindən sonra onun səhabələri Allahın kitabından və Peyğəmbərin *(Allahın ona salavatı və salamı olsun)* sünnəsindən yapışaraq, insanları hikmətlə və gözəl öyüd-nəsihətlə Quran və Sünnəyə dəvət etmişlər. Onlardan sonra Muhəmməd ümmətinin alimləri bu vəzifəni ən xeyirli şəkildə yerinə yetirmiş və insanlara dinə aid olan hər bir məsələni izah etmişlər. Onların izah etdikləri məsələlərin ən üstünü və ən əzəmətlisi isə əqidədir. Onlar elm öyrədərkən və kitab yazarkən öz səylərində və fəaliyyətlərində xüsusi olaraq əqidəni önə çəkmiş və buna böyük yer ayırmışlar.

Mən isə öz sərmayəmin və səriştəmin az olmasına baxmayaraq, onlara oxşamaq istədim və onların kitablarından[1] bəhrələnərək bu səhifələri yazmaq qərarına gəldim. Uca və Qüdrətli Allahdan diləyirəm ki, bunu Allahın Üzü xatirinə edilən və Qiyamət günü tərəziyə qoyulan saleh əməllərimdən etsin. Muhəmmədə, onun ailəsinə və bütün səhabələrinə Allahın salavatı olsun.

**Dr. Abdul Qadir ibn Muhəmməd Ata Sufi.**
**Mədinə şəhəri, Ramazan ayının 21-ci gecəsi, hicri təqvimlə 1440-cı il.**

---

[1] Bu kitabın əsli, müəllimlər fakultəsində 11 il ərzində (1419-1429 h.) tələbələrə "İslam Əqidəsi" fənnində verdiyim mühazirələrdəndir, "İlin hazırlığı" (s. 101).

# Giriş

**Özündə üç mövzunu əhatə edir:**

**Birinci mövzu:** Bəzi terminlərin izahı.

**İkinci mövzu:** İslam əqidəsinin əhəmiyyəti və onun mənbələri.

**Üçüncü mövzu:** İslam əqidəsinin bəzi xüsusiyyətləri.

# Birinci mövzu: Bəzi terminlərin izahı.

**Bu mövzuda üç məsələ var:**

**Birinci məsələ: "Əqidə" sözünün mənasının izahı.**

**İkinci məsələ: İslam əqidəsinə verilən bəzi adların izahı.**

**Üçüncü məsələ: İslam əqidəsinə sahib olan kəslərə verilən bəzi adların izahı.**

## Birinci məsələ: Əqidənin lüğəvi və terminoloji mənasının izahı.

Əqidənin mənbələri və xüsusiyyətləri barədə danışmazdan öncə, mütləq bu iki məqama diqqət yetirmək lazımdır:

### Birinci məqam: "Əqidə" kəlməsinin lüğəvi mənası

Əqidə kəlməsinin lüğəvi cəhətdən bağlamaq və bərkitmək, bağlı olmaq , əhd bağlamaq, təkid etmək kimi mənaları var:[1]

**1.** Bağlamaq və bərkitmək. Məsələn , kəndiri bağladı və bərkitdi.

**2.** Əhd bağlamaq. İki tərəf arasında olan razılıq və ittifaq nəzərdə tutulur. Uca Allah belə buyurur: "**Ey iman gətirənlər! Əhdlərinizi yerinə yetirin".**[2] Yəni aranızda bir-birinizlə razılaşdığınız işlərə riayət edin.

**3.** Muləzəmə (bağlı olmaq). Məsələn: Kimsə bir şeyə aludə olduqda, deyilir ki, qəlbini ona bağlayıb. Həmçinin Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurub: ***"Qiyamətə qədər (Allah yolunda cihadda istifadə edilən) atın kəkilinə xeyir bağlanıb (yəni onda həmişə xeyir var)".***[3]

**4.** Təkid**.** Məsələn, tərəflər bir şeyi almaq və satmaq istədiklərini təkid etdikdə deyilir ki, əqd (satış müqaviləsi) bağlandı.

---

[1] Bu lüğət kitablarına bax: Cövhəri "Əs Sihəh" (2\510). Firuz əl Abadi "Qamusul Muhit" (səh. 383). Zəməxşəri "Əsasul Bələğah" (2\131-132) və "əl Kəşşəf" (1\466). İbn Munzir "lisənul Arab" (3\295-300)

[2] Əl Maidə, 1

[3] Səhih Muslim, Zəkat kitabı, "Zəkat verməyənin günahı" bölümü

**İkinci məqam: "Əqidə" kəlməsinin terminoloji (şəri termin kimi) mənasının izahı**

Məlumdur ki, hər elm sahəsində o elmin prinsiplərinə uyğun özünəməxsus terminlər istifadə edilir. Əqidə sözünün lüğəvi cəhətdən bəzi mənalarını bildikdən sonra belə bir sual ortaya çıxır ki, elm əhli "əqidə" dedikdə nəyi nəzərdə tutur?

**Bu suala belə cavab veririk ki, istilahi termin kimi (şəriətdə) əqidə:**

1. Uca və Qüdrətli Allahın təkliyini, rububiyyətini, ibadətə tək Onun layiq olduğunu, həmçinin Allahın gözəl adlarına və uca sifətlərinə iman gətirmək kimi Allah üçün təsdiq edilməsi vacib olan şeyləri qəti şəkildə təsdiq etməkdir.[1]

2. İlahi mətləblər, peyğəmbərlik, axirətlə bağlı məsələlər, həmçinin bunlar kimi iman edilməsi vacib olan bütün məsələləri heç bir şəkk-şübhə etmədən qəlb ilə təsdiq edib qəti şəkildə etiqad etməkdir.[2] İlahi mətləblər – Allaha, Onun rububiyyətinə, Uluhiyyətinə və ad və sifətlərinə iman etməkdir.

3. Həmçinin əqidə, insanın qəlbini bağladığı və dini inanc olaraq qəbul etdiyi hər bir şeyə də deyilir.[3]

**Sual: Lüğəvi və şəri (istilahi) mənalar arasındakı bağlılıq nədir?**

**Cavab:** Bu bağlılıq açıq-aydındır. Belə ki, bir şeyi qəti şəkildə təsdiq edən və qəlbinin dərinliyində ona inanan kəs artıq qəlbini o şeyə bağlamışdır və ondan başqa səmtə meyl etmək istəmir.

---

[1] Bax: Şeyx Saleh Əl Ətrumun "Əqidədə suallar və cavablar" (səh 7).
[2] Bax: Dr. Muhəmməd Əmən Əl Cəminin "Aqidətul İsləmiyyəh və Tərixuhə" (səh. 5)
[3] Bax: "Əl Əsilətu vəl Əcvibətul Usuliyyəh" lissəlmən (səh. 23)

## İkinci məsələ: İslam əqidəsinə verilən bəzi adların izahı.

Diqqət etsək görərik ki, "əqidə" sözü bir termin olaraq Quran və Sünnədə varid olmayıb. Ancaq bu sözün kökü Uca Allahın bu kəlamında keçir: **"Allah sizi qəsdiniz olmadan içdiyiniz andlara görə (onları pozmağa görə) cəzalandırmaz, lakin O, sizi qəsdlə içdiyiniz andlara görə cəzalandıracaqdır."**[1] Yəni qəti şəkildə içdiyiniz andları pozduğunuz zaman Allah sizi cəzalandıracaqdır. Bu ayədə keçən **"aqqədtum"** sözüdür. Həmçinin Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* buyurub: ***"Qiyamətə qədər** (Allah yolunda cihadda istifadə edilən) **atın kəkilinə xeyir bağlanıb** (onda həmişə xeyir var)".*[2]

Həmçinin fəzilətli əsrlərdə yaşayan alimlər "əqidə" terminindən istifadə etməyiblər. Bunun əvəzinə isə başqa terminlər işlədiblər. Mənim bildiyimə görə, ilk dəfə bu termindən İmam Əbu Hatim ər Razi *(vəfatı: 327 h.)* "Əsl əs sunnə və itiqad əd din" adlı kitabında istifadə etmişdir. Ondan sonra İmam Əbu Bəkr əl İsməili *(vəfatı: 371 h.)* bu termindən istifadə etmişdir və kitabını "Etiqad əimmətil hədis" adlandırmışdır. Daha sonra bir çox alimlər ona istinad edərək bu termini işlətmişlər: Əbul Qasım Əl Ləlakəi *(vəfatı 418 h.)* "Şərhu usuli itiqadi əhlissunnəti vəl cəməə" kitabında, Əbu Usman Əs Səbuni *(vəfatı 449 h.)* "Əqidətus sələf və əshabil hədis" kitabında, Əbu Bəkr Əl Beyhəqi *(vəfatı 458 h.)* "Əl itiqadu alə məzhəbis sələfi əhlis sunnəti vəl cəməə" kitabında, Əl Əsbəhani *(vəfatı 535 h.)* "Əl huccətu fi bəyənil məhəccəti və şərhu əqidəti əhlis sunnəh" kitabında və s.

İndi biz alimlərin "əqidə" termini əvəzinə istifadə etdikləri digər adlara diqqət yetirəcəyik. Bu elmin digər adlarına diqqət ayırmağımızın səbəbi onun əsas mənbələrini öyrənməkdir.[3]

---

[1] Əl Maidə, 89
[2] Səhih Muslim, Zəkat kitabı, "Zəkat verməyənin günahı" bölümü.
[3] Dr. Nasir əl Qafarinin "Usulud Dini İndəl Əimmətil Ərbəah" kitabı (səh.14)

## 1. Əqidənin "Tövhid" adlandırılması haqqında

Əqidə elminin adlarından biri də Tövhiddir.

### "Tövhid" kəlməsinin lüğəvi mənası:

Lüğətdə tövhid kəlməsi "vahhədə - yuvahhidu" sözünün məsdəridir və "təkləşdirmək" mənasını verir.[1] Təkləşdirmək, inkar və təsdiq etməklə həyata keçir. Yəni təkləşdirilən kəs üçün bir şeyi təsdiqləmək, eyni zamanda digərlərindən həmin şeyi inkar etməklə olur. Məsələn, uluhiyyət tövhidində deyirik ki, "Lə iləhə illəllah" *(Allahdan başqa ibadətə layiq haqq məbud yoxdur)* şəhadətini deyən kəs ilahlığı Allahdan başqalarından inkar edib, onu tək Allah üçün təsdiq etmədikcə, Allahı təkləşdirmiş sayılmır.

### "Tövhid" kəlməsinin şəri (istilahi) mənası:

Allahı, tək olduğu işlərdə və bizə Özünü təkləşdirməyi əmr etdiyi hər bir işdə təkləşdirməkdir. Biz Allahı mülk sahibi olmaqda və etdiyi feillərdə təkləşdiririk. Allahdan başqa Rəbb yoxdur və Onun şəriki yoxdur. Biz Allahı ilahlıqda da təkləşdiririk. Ondan başqa heç kəsin ibadət olunmağa haqqı yoxdur. Həmçinin Allahı ad və sifətlərində də təkləşdiririk. Kamillikdə Allaha bənzər yoxdur və Onun heç bir tayı-bərabəri də yoxdur.

### Əqidə və Tövhid anlayışının bir-birinə uyğunluğu.

Əqidə və Tövhid anlayışlarını bir-biri ilə müqayisə etdikdə görürük ki, əqidə, təkcə tövhidi, yəni Allahı təkləşdirməyi deyil, bundan başqa bir çox mövzuları özündə əhatə edir. Bu mövzulara peyğəmbərlər və onların gətirdiyi şəriətlər, mələklər və onların əməlləri, səmavi kitablar, axirət günü və ona aid olanlar, qəza və qədər, bununla bağlı olan məsələlər, imamlıq (rəhbərlik və müsəlmanların öz rəhbərlərinə qarşı münasibəti), səhabələrə münasibət, hətta müsəlmanların digər firqə və tayfalara qarşı olan mövqeyi və bir çox başqa məsələlər daxildir.

Əqidə elmi özündə çox mövzuları əhatə etdiyi üçün geniş elm sayılır. Müsəlman alimləri onu həmçinin tövhid adlandırıblar. Biz tövhidi və əqidənin

---

[1] Bax: ibn Manzurun "Lisanul Arab" kitabı (3\448)

əhatə etdiyi mövzuları müqayisə etdikdə görürük ki, tövhid əqidənin bir hissəsidir.

Buradan sual yaranır ki, əgər tövhid əqidə elminin bir hissəsidirsə, bəs nə üçün əqidə elminə "tövhid" adı verilib? Nə üçün keçən əsrlərin alimləri əqidə elmində yazdıqları kitabları "Tövhid" adlandırıblar?

**Cavab:** Bəzən bir şey, onun hissələrindən ən üstün və dəyərli hissəsinin adı ilə adlanır. Əqidə elmi də məhz bu baxımdan tövhid adlandırılıb. Çünki tövhid, yəni Allahı təkləşdirmək əqidə elminin əhatə etdiyi mövzuların ən üstünüdür. Amma əqidədə olan digər mövzular; mələklərə iman, səmavi kitablara iman, peyğəmbərlərə iman, axirət gününə iman, qəza və qədərə iman, imamlıq mövzusu, səhabələr barədə və başqa mövzulara gəldikdə isə bütün bunların bünövrəsi və özəyi tövhiddir. Tövhid bunları gərəkdirdiyi üçün bunlar tövhidə daxildir.

## Əqidə və tövhid arasındakı fərq:

Tövhidin və əqidənin mənalarını izah etdikdən sonra sual yaranır ki, bəs onların arasındakı fərq nədir?

Cavab olaraq deyirik ki, əqidə elmi mövzu baxımından daha genişdir. Çünki əqidə elmi özündə həm tövhidi, həm də başqa mövzuları əhatə edir. Belə ki, əqidə elminə imanın altı rüknu (dirəyi), islam alimlərinin başqa dinlərə verdiyi cavabları, firqələr, müasir cərəyanlar və s. daxildir. Tövhid isə ancaq Allahı təkləşdirməkdən bəhs edir və əqidə elminin ən dəyərli və üstün hissəsi sayılır. Həmçinin diqqət edəndə aydın olur ki, kitablara, peyğəmbərlərə, axirət gününə, qəza və qədərə iman, əqidə ləfzinin çərçivəsinə daxildir. Tövhidə gəlincə, bunlara iman gətirməyi gərəkdirdiyi üçün bu mövzular tövhid ləfzinə daxil olur. Çünki Allaha iman etmək, Onun mələklərinə, elçilərinə, axirət gününə, qəza və qədərə, Allahın və elçilərinin xəbər verdiyi digər qeybi məsələlərə də iman gətirməyi gərəkdirir.

## "Tövhid" adı ilə adlandırılan əqidə kitabları:

1. İmam Əl Buxari, Muhamməd ibn İsmail *(vəfatı: 256 h.)* bu termindən istifadə etmişdir. O özünün "Əl Cəmius Sahih" əsərində əqidəyə aid hədisləri cəm edərkən, həmin fəslin adını "Kitəbu ət tövhid" adlandırmışdır.

2. Əbul Abbas Əhməd ibn Omar ibn Sureyc əl Bağdadi *(vəfatı: 306 h.)* əqidəyə aid yazdığı kitabı "Kitəbu ət tövhid" adlandırmışdır.

3. Əbu Bəkr Muhəmməd ibn İshaq ibn Xuzeymə ən Neysəburi *(vafatı: 311 h.)* əqidəyə aid kitab yazmış və adını "Kitabu ət tövhid və isbətu sifəti ər Rabb Azzə və Cəllə" adlandırmışdır.

4. Əbu Abdullah Muhamməd ibn İshaq ibn Məndəh *(Vəfatı: 395 h.)* kitabını "Kitəbu ət tövhid və mərifətu əsməilləhi Azzə və Cəllə və sifətihi aləl ittifaqi vət təfərrud" adlandırmışdır. Daha sonra bu ad altında ard-arda kitablar yazılmağa davam etmişdir.

## 2. Əqidə elminin "Dinin əsasları" adlandırılması haqqında.

Əqidə elminin adlarından biri də "Üsul əd din", yəni dinin əsaslarıdır.

### Dinin əsasları deyildikdə nə qəsd olunur?

Dinin əsasları termini iki sözdən, yəni "din" və "əsaslar" sözündən ibarətdir. Bu səbəbdən də biz bu söz birləşməsinin mənasını bilmək üçün ilk növbədə onun tərkibindəki sözlərin ayrı-ayrılıqda mənasını bilməliyik.

**Üsul (əsaslar)** kəlməsi lüğəvi cəhətdən ağacın kökünə[1] və ya binanın təməlinə deyilir. Məsələn; evin bünövrəsi və ya ağacın kökü, onun əsli (əsası) sayılır.[2]

Şəri (istilahi) termin kimi isə "Üsul" şöbələri və qolları olan əsasa deyilir. Çünki budaqlar və qollar ancaq kökdən şaxələnir.[3]

**"Din"** kəlməsi lüğəvi cəhətdən boyun əymək, zəlil olmaq mənalarına gəlir. Burada isə din dedikdə, İslam dini nəzərdə tutulur. Yəni Allaha itaət etmək, Ona ibadət etmək, Onu təkləşdirmək, Allahın əmrlərini yerinə yetirmək və qadağalarından çəkinmək, həmçinin Allaha edilən bütün ibadətlərdir.

Deməli, dinin üsulu onun bünövrəsi və təməlidir. Məhz bu təməllər olduqda ibadətlər səhih (doğru və keçərli) sayılır, əmrləri yerinə yetirmək və qadağalardan çəkinməklə Allaha və Rəsuluna itaət doğrulmuş olur. Çünki

---

[1] Bax: İbn Fərisin "Mucəmu Məqayisil Luğəh" (1\109). Həmçinin "Əl Mucəmul Vəsit" (səh. 20)

[2] Bax: "Kəşşəfu İstiləhət əl Funun" (1\122-123)

[3] Bax: İbn Nəccər "Kəvkəbul Munir" (1\38)

etiqad elə bir bünövrədir ki, əməlin səhih sayılması və qəbul olunması məhz onun üzərində qurulur.

**Dinin əsasları** onun bünövrəsi və təməlidir. Din onun üzərində qurulur və üstündə dayanır. İslam dini də tövhid əqidəsi üzərində qurulub. Bu səbəbdən də əqidə elmi və ya tövhid elmi "Dinin əsasları" adlandırılıb.

### "Üsul əd Din" (dinin əsasları) termininin şəriətdə həqiqi mənası:

"Dinin əsasları", Uca Allahın bu kəlamında zikr etdiyi imanın altı əsasıdır: **"Yaxşı əməl üzünüzü məşriqə və məğribə tərəf çevirməyiniz deyildir. Lakin yaxşı əməl sahibləri Allaha, Axirət gününə, mələklərə, kitablara, peyğəmbərlərə iman gətirməkdir".**[1] Həmçinin Uca Allah buyurub: **"Həqiqətən də, Biz hər şeyi qədərincə yaratdıq"**[2]**.** Həmçinin Cəbrayıl *(aleyhissələm)* Allah elçisindən *(Allahın ona salavatı və salamı olsun)* iman haqqında soruşduqda, o belə cavab vermişdir: ***"İman – Allaha, mələklərinə, kitablarına, elçilərinə, Axirət gününə, qədərin xeyrinə və şərinə iman etməyindir."*** [3] Qulun imanı bu altı əsas üzərində qurulur və ibadətləri də yalnız bunlarla səhih (doğru və keçərli) sayılır.

### "Dinin əsasları" adı altında əqidə elminə dair yazılmış kitablar:

Öz zamanında məşhur olmasa da, əqidə elmində ilk dəfə bu termindən istifadə edən imam Şafi *(vəfatı: 204 h.)* olmuşdur. *(Allah ona rəhmət etsin).* Belə ki, o, öz "Əl Fiqhul əkbər" kitabının giriş hissəsində belə yazmışdır: "Biz bu kitabda dinin əsaslarına aid olan aydın məsələləri qeyd etmişik. Hər bir mükəlləf onları bilməli və üzərində düşünməlidir."

1. Bu termindən istifadə edənlərdən biri də İmam Əbul Həsən əl Əşari *(vafatı 324 h.)* olmuşdur. O, Əhlüs Sünnə vəl Cəmaatın əqidəsini bəyan etdiyi kitabını "Əl İbənəh an usulid diyənəh" adlandırmışdır.

2. Həmçinin Əbu Hətim ər Razi də bu termindən istifadə etmişdir *(vəfatı 327 h.).* O, kitabını "Əslus sunnə və itiqadud din" adlandırmışdır.

---

[1] Əl Bəqərə, 177

[2] Əl Qamər, 49

[3] Bax: Səhih Muslim, İman kitabı, "İslamın, imanın və ehsanın bəyanı" bölümü.

3. Onlardan sonra Ubeydullah ibn Muhəmməd ibn Batta əl Ukbəri *(vəfatı: 387 h.)* öz kitabını "Əş şərhu vəl ibənə alə usulis sunnə vəd diyənə" adlandırmışdır. Bu kitab "Əl ibənətus suğra" kimi də tanınmışdır.

4. Abdulqahir əl Bağdadi *(Vəfatı: 329 h.)* öz kitabını "Üsulud din" adlandırmışdır.

**Qeyd:**

Bilmək lazımdır ki, əqidənin "Dinin əsasları" adlandırılması, usulu (təməl məsələləri) furudan (şaxələrdən) ayırmaq üçündür. Lakin buradan elə başa düşülməməlidir ki, dində yalnız üsul (təməl) məsələlər götürülməli və yalnız onlara əməl olunmalıdır, furu məsələlərinə (şaxələrə) isə ehtiyac yoxdur. Bu səhv anlayışdır. Çünki din bütövdür və hissələrə ayrılmır. Uca Allah kitabın bir hissəsinə iman edib digər hissəsini inkar etdikləri üçün yəhudi və nəsraniləri qınayaraq belə buyurur**: "Yoxsa siz Kitabın bir qisminə inanıb, digər qismini inkarmı edirsiniz? Sizlərdən bunu edənin cəzası dünya həyatında rüsvay olmaq, Qiyamət günü isə ən şiddətli əzaba məhkum olmaqdır. Allah sizin etdiklərinizdən bixəbər deyildir".**[1]

## 3. Əqidə elminin "Sünnə" adlandırılması haqqında.

Əqidənin adlarından biri də Sünnədir.

### Sünnə sözünün lüğəvi və şəri (istilahi) tərifi:

Sünnə sözünün lüğəvi cəhətdən bir çox mənaları var:

1. **İzlənilən yol.** Sünnə həm təriflənən, həm də məzəmmət olunan yola deyilir. Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* bu hədisində keçən sünnə sözü məhz bu mənada işlənmişdir: ***"Kim İslamda gözəl bir sünnə** (yol) **qoyarsa, onun üçün həm bunun əcri, həm də ondan sonra bu əməli edənlərin əcri qədər əcr olar və bu, onların əcrindən heç bir şey əksiltməz. Kim də İslamda pis bir sünnə** (yol) **qoyarsa, ona həm bunun günahı, həm də sonradan ona əməl edənlərin günahı qədər günah yazılar və bu, onların günahlarından heç bir şey əksiltməz.***[2]

[1] Əl Bəqərə, 85.

[2] Səhih Muslim. Zəkat kitabı, "Sədəqə verməyə həvəsləndirmək" fəsli.

2. **Sira (həyat tərzi).** Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* sünnəsi dedikdə, onun yaşadığı həyat tərzi, yəni həyatı boyu keçdiyi bütün mərhələlər nəzərdə tutulur. Səhih hədislərdə Allah elçisinə *(Allahın ona salavatı və salamı olsun)* nisbət olan hər bir sözə, feilə, vəsfə və görüb dillənmədiyi, yəni iqrar etdiyi şeylərə sünnə deyilir. İbn Əsir belə deyib: "Hədislərdə "sünnə" sözü və bu sözdən əmələ gələn sözlər çox istifadə edilir. Bu sözün əsas mənası "yol" və "həyat tərzi" deməkdir".[1]

3. **Adət.** Bu mənaya Uca Allahın bu sözünü dəlil gətirmək olar: **"Səndən əvvəl göndərdiyimiz elçilərə qarşı da belə davranmışlar. Sən Bizim sünnətimizdə (adətlərimizdə) heç bir dəyişiklik tapa bilməzsən."**[2] Yəni öz içlərindən peyğəmbər seçdiyimiz halda, onu inkar edib əziyyət verənlərə əzab göndərmək bizim adətimizdir.[3]

**Üsul alimlərinə görə sünnə:** Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* dediyi sözlər, etdiyi feillər və görüb dillənmədiyi, yəni iqrar etdiyi şeylərdir.[4]

## Əqidə və Sünnə adlarının arasındakı uyğunluq:

Dinin əsası sayılan etiqad məsələləri mühüm olduğu üçün və İslamda olan bütün əməllər onun üzərində qurulduğuna görə, alimlər Quran və Sünnəyə müvafiq olan etiqad məsələlərini "sünnə" adlandırmışlar.

Şeyxulislam ibn Teymiyyə *(Allah ona rəhmət etsin)* deyib: "Sələflərin sözlərində "sünnə" ləfzi həm ibadətləri, həm də etiqadi məsələləri əhatə edir. Baxmayaraq ki, onların çoxu "sünnə" adı ilə kitab yazdıqda, bu kitabda etiqadi məsələlərdən danışıldığını qəsd ediblər."[5]

Sünnə əqidənin mənbələrindən və doğru əqidəni isbat etmək üçün istifadə edilən yollardan olduğu üçün alimlər sünnə kəlməsinə "doğru əqidəyə tabe olmaq" mənasını vermişlər və saleh sələflərin etiqadını "sünnə" adlandırmışlar. Çünki onlar etiqad məsələlərində də Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* və səhabələrinin yoluna tabe olublar. Onlara "Sünnə əhli" adı da məhz bu səbəbdən verilmişdir.

---

[1] İbn Əsirin "Ən Nihəyətu fi Ğaribil Hədis" (2\409)
[2] Əl İsra, 77
[3] Bax: "Təfsiru ibn Kəsir" (3\54)
[4] Bax: Şeyx Şinqitinin "Müzəkkirətu fi Usulul Fiqh" (səh. 95)
[5] İbn Teymiyyənin "əl Əmru bil Mərufi vən Nəhyu anil Munkər" (səh. 77)

İbn Rəcəb əl Hənbəli *(Allah rəhmət eləsin)* belə deyib: "Sünnə, Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* yoludur və həm Allah elçisi, həm də onun səhabələri şübhələrdən və şəhvətlərdən (nəfsi istəklərdən) salamat olan bu yol üzərində olublar. Sonradan hədis əhlinin və başqa alimlərin çoxu "sünnə" kəlməsini, şübhələrdən salamat olan etiqad məsələlərində, xüsusən də Allaha, mələklərinə, kitablarına, elçilərinə, Axirət gününə və qədərə iman, həmçinin səhabələrin fəzilətlərinə aid məsələlərdə istifadə etmişlər. Onlar əqidə elminə aid kitablar yazmış və onları "Sünnə kitabları" adlandırmışlar."[1]

Əqidə elminə aid olan kitablara "Sünnə" adını vermək əqidənin əhəmiyyətli olduğunu bildirir. Belə ki, əqidə dinin əsası sayılır və ona müxalif olan kəs böyük təhlükə üzərindədir".[2]

## Əqidə elmində "Sünnə" adı altında yazılan kitablar:

Sünnə termini hicri təqvimi ilə üçüncü əsrdə, Əhli sünnə imamı olan Əhməd ibn Hənbəlin zamanında, müxtəlif batil firqələrin və bidət etiqadların üzə çıxdığı bir dönəmdə daha çox yayılmışdır. Alimlər dinin əsasları və əqidə məsələləri barədə yazdıqları kitabları batil firqələrin sözlərindən fərqləndirmək üçün öz kitablarına "sünnə" adını verməyə başlamışlar.

## İndi isə sünnə adı altında yazılmış bəzi kitabları qeyd edirəm:

1. İbn Əbi Şeybənin *(vəfatı 235 h.)* "Sünnə" kitabı.
2. Əhməd ibn Hənbəlin *(vəfatı 241 h.)* "Sünnə" kitabı.
3. Əbu Bəkr Əhməd ibn Muhəmməd ibn Həni Əl Bağdadinin *(vəfatı 273 h.)* "Sünnə" kitabı.
4. Əbu Ali Hənbəl ibn İshaq ibn Hənbəl ibn Hiləlin *(vəfatı 273 h.)* "Sünnə" kitabı.
5. Əbu Davud Süleyman ibn Əşəs Əs Sicistaninin *(vəfatı 275 h.)* "Sünnə" kitabı.

[1] Bax: "Kəşful Kurbəh fi vəsfi Həli Əhlil Ğurbə" (səh. 11-12). Əbu Asim "ƏsSünnə" (2\645-647)
[2] Bax: İbn Rəcəb "Cəmiul Ulumi vəl Hikəm" (səh. 249). İbn Teymiyyə "Vəsiyyətul Kubra" (səh. 60)

## 4. Əqidənin "Əl Fiqhul əkbər" adlandırılması haqqında.

Əqidə elminə verilən adlardan biri də "Əl Fiqhul əkbər" adıdır.

### "Fiqh" sözünün lüğəvi və şəri (istilahi) mənası:

Lüğəvi cəhətdən fiqh – "fəhm etmək, başa düşmək, anlamaq" mənasını verir. İbn Fəris deyib: "Fiqh sözünün kökü bir şeyi dərk etmək, bilmək mənasını verir. Məsələn: Deyirsən ki, hədisi fiqh etdim, yəni onu başa düşdüm və anladım. İstənilən bir şey barədə elm olduqda ona fiqh deyilir. Sonradan fiqh sözü Şəriət elminə xas oldu və Şəriətdə halal və haramları yaxşı bilən insanlara fəqih deyildi..."[1]

İslamın ilk əsrlərində "fiqh" termini şəriətin bütün əhkamları barədə olan elmə nisbət olunurdu. Allah eliçisinin *(Allahın ona salavatı və salamı olsun)* bu kəlamı da həmin qəbildəndir: ***"Allah kimin üçün xeyir istəyərsə, onu dinində fəqih edər (tərc: yəni o kəs dini gözəl başa düşər)".***[2] Həmçinin Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* öz əmisi oğlu ibn Abbas *(Allah ondan və atasından razı olsun)* üçün etdiyi bu dua da təkcə halal və haramları deyil, bütün dini məsələləri əhatə edir: ***"Allahım, onu dində fəqih et və Quranın təfsirini ona öyrət".***[3]

Lakin sonrakı alimlər "fiqh" adını xüsusi olaraq halal və haramlardan və başqa əhkamlardan bəhs edən elmə veriblər.

### Əqidəni "Əl Fiqhul əkbər" (böyük fiqh) adlandırmağın səbəbi:

Alimlər fiqh elmindən fərqləndirmək üçün əqidəni "Böyük fiqh" adlandırıblar. "Böyük fiqh" dedikdə başa düşülür ki, ondan savayı böyük olmayan, alimlərin "furu" adlandırdığı başqa fiqh də var.

### Əqidə elmində "əl Fiqhul Əkbər" (böyük fiqh) adı altında yazılan kitablar:

"Böyük fiqh" adı ilə yazılmış ilk əqidə kitabı, İmam Əbu Hənifəyə *(Nomən ibn Səbit, Vəfatı 150 h.)* mənsub olan və bu adla ondan nəql edilən kitab olmuşdur. Bu

---

[1] İbn Fəris "Mucəmu Məqayisil Lüğəh" (4\242). Həmçinin bax: İbn Munzir "Lİsənul Arab" (13\522)

[2] Səhih Buxari, Elm kitabı, "Allah kimin üçün xeyir istəyərsə, onu dində fəqih edər" bölümü.

[3] İmam Əhməd "Musnəd" əsəri (№ 2493). Həmçinin İbn Həcər "Əl İsabəh" əsərində zikr edib (2\331). Şeyx Albani hədisin səhih olduğunu deyib.

kitabda o, bəzi əqidə məsələləri haqqında danışır. Hənəfi məzhəbində bu məşhur kitabdır və özləri onu şərh etmişlər.[1]

Həmçinin imam Şafiyə – Muhəmməd ibn İdris *(vəfatı 204 h.)* əqidə məsələlərini təfsilatı ilə qeyd etdiyi "əl Fiqhul Əkbər" adlı kitab nisbət olunur.[2]

**Qeyd:**

Bəzi insanlar əqidənin "Böyük fiqh" adlandığını görüb elə zənn edirlər ki, fiqhin digər bölümlərinə – əhkam məsələlərinə, halal və harama qarşı səhlənkarlıq etmək olar, çünki bunlar onun yanında kiçik sayılır. Bu, doğru anlayış deyil. Çünki əqidəni "Böyük fiqh" adlandırılması, ona əhəmiyyət verilməsi, əməlləri yerinə yetirməzdən əvvəl əqidənin düzəlməsinə fikir verilməsi üçündür. Bu o demək deyil ki, əməlləri yerinə yetirməyə və dəlillərini təfsilatı ilə öyrənməyə laqeyd yanaşmaq olar. Əksinə islam dini bütöv və kamildir, onun bir hissəsini götürüb digər hissəsini tərk etmək icazəli deyildir.

---

[1] Bax: Şeyxulİslam İbn Teymiyyənin "Məcmuul Fətəvə" (5\46)

[2] Bax: Həci Əlifənin "Kəşfuz Zunun" (2\1287)

## Üçüncü məsələ: İslam əqidəsinə sahib olanlara verilən bəzi adların izahı.

Biz İslam əqidəsi elminə verilən bəzi adları bildik. İndi isə gəlin İslam əqidəsinə mənsub olan şəxslərə verilən bəzi adlarla tanış olaq.

## 1. Əhlüs Sünnə vəl Camaat.

İslam əqidəsini daşıyan kəslərə verilən adlardan biri də "Əhlüs sünnə vəl camaat" – dır.

### Əhlüs Sünnə vəl Camaatın tərifi:

Bu ad sahiblərində olan iki vəsfi özündə cəm edir. Bunlar "sünnə" və "camaat" – dır.

Sünnə sözünün lüğəvi mənasını daha öncə izah etdik. Həmçinin qeyd etdik ki, bu sözün şəri (istilahi) mənası Allah elçisindən *(Allahın ona salavatı və salamı olsun)* varid olan sözlər, feillər, vəsflər və görüb dillənmədiyi, yəni iqrar etdiyi şeylərdir. Həmçinin sünnə sözü bəzən bidətin müqabilində də işlədilir. Məsələn: Alimlərin: "bu sünnəyə uyğun boşamadır", "bu bidət boşamadır" –demələri kimi. Həmçinin bir şəxs sözlərində və əməllərində Qurana və səhih əsərlərə müvafiq olduqda deyilir ki, filankəs sünnə üzərindədir. Buna müxalif əməl etdikdə isə deyilir ki, filankəs bidət üzərindədir.[1]

"Sünnə" və "bidət" kəlmələri daim bir-birinin əksi olan iki kəlmə kimi istifadə edilir. Çünki sünnə Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* və səhabələrinin *(Allah onlardan razı olsun)* yoludur. Bidət isə onların yolunu tərk etmək və bu yoldan azmaqdır.

Bəzən səhih əsərlərdə də sünnə sözü bidətin müqabilində işlənmişdir. Onlardan biri də Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* bu sözüdür: ***"Bir qövmün dinə gətirdiyi elə bir bidət (yenilik) yoxdur ki, onun mislində sünnədən nəsə aradan qalxmasın ".***[2] Həmçinin İbn Abbasın *(Allah ondan və atasından razı olsun)* bu sözünü də misal göstəmək olar: "İnsanlara gələn elə bir il

---

[1] Bax: Dr. Nasir əl Aql "Məfhumu Əhlis Sünnəti vəl Cəmaah ində əhlis sünnəti vəl cəmaah" (səh. 29)

[2] İmam Əhməd "Müsnəd" əsəri (4/105). İbn Həcər "Fəthul Bəri" də həsən olduğunu demişdir (13\253).

yoxdur ki, o ildə onlar dinə bir bidət gətirib, bir sünnəti yox etməsinlər. Nəticədə bidətlər yaşayacaq, sünnətlər isə aradan qalxacaq."[1]

Bu məna ilə Sünnə, Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)*, raşidi xəlifələrin və bütün səhabələrin üzərində olduqları sözlər, əməllər və etiqadlardır.

**"Camaat" sözü lüğətdə** cəm olmaq, bir yerə toplanmaq mənasını verir.[2] Həmçinin camaat, çox sayda insanlara və ya bir məqsəd üzərində cəm olmuş topluma deyilir.[3]

**Şəriətdə isə camaat** – Allah rəsulu *(Allahın ona salavatı və salamı olsun)*, onun səhabələri *(Allah onlardan razı olsun)*, tabeinlər və onların yolu ilə gözəl şəkildə gedən kəslərdir.[4]

**Əhl** sözünə gəldikdə isə bir işin əhli dedikdə bu işə xas olanlar nəzərdə tutulur. Dilçi alimlər deyirlər ki, "ev əhli" dedikdə o evin sakinləri qəsd olunur, "İslam əhli " dedikdə, islamda olanlar nəzərdə tutulur, "məzhəb əhli " dedikdə, həmin məzhəbdə olanlar nəzərdə tutulur.[5]

"Əhl", "sünnə" və "camaat" ləfzlərinin ayrılıqda mənalarını bildikdən sonra biz "Əhlus sünnə vəl camaat" termininə tərif verə bilərik ki, onlar dinin usul (təməl) və furularında (şaxələrində) Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* və səhabələrinin yoluna tabe olanlardır.[6]

Həmçinin deyilib ki, "Əhlus sünnə vəl camaat" – etiqad, söz və əməl baxımından Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* və səhabələrin tutduğu yol üzərində olan kəslərdir. Çünki Allahın elçisindən *(Allahın ona salavatı və salamı olsun)* "qurtulan firqə" haqqında soruşduqda, o, bir hədisdə: ***"Onlar mənim və səhabələrimin yolu üzərində olan kəslərdir"***, başqa hədisdə isə: ***"Onlar camaatdır"*** – deyə cavab vermişdir.[7]

---

[1] İbn Vaddah əl Qurtubi "Əl Bidəu vən Nəhyu Anhə" (səh. 45)
[2] İbn Fəris "Mucəmu Məqayisil Luğəh" (1\479)
[3] İbn Munzir "Lisənul Arab" (8\53-60)
[4] Bax: Nasir əl Aql "Məfhumu Əhlis Sünnəti vəl Cəməah" (səh. 54).
[5] Bax: İbn Fəris "Mucəmu Məqayisil Luğəh" (1\150)
[6] Bax: Şatibi "əl İtisam" (1\28). Hərras "Şərhu Aqidətul Vasitiyyə" (səh. 16-17).
[7] Bax: Sünən Əbu Davud, Sünnə kitabı, "Sünnənin şərhi" bölümü. Sünən İbn Macə, Fitnələr kitabı, "Ümmətin parçalanması" bölümü. İbn əbi Asim ""əs Sünnə" (1\32-33. № 63, 64, 65). Şeyx Albani bu hədisə rəy bildirərək demişdir: "Hədis heç bir şübhəsiz səhihdir. Çünki bu hədis Ənəsdən altı müxtəlif yollarla gəlib və başqa bir çox səhabədən rəvayət olunub" (1\42)

Həmçinin deyilib ki, "Əhlus sünnə vəl camaat" – Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* yolundan möhkəm tutan və söz, əməl və etiqadlarında zahirən və daxilən ona əməl etmək üzərində cəm olan kəslərdir.[1]

**Qeyd:**

Burada "camaat" dedikdə, bütün insanların və ya əksəriyyətinin haqq üzərində olmadan bir yerə cəm olmaları nəzərdə tutulmur. Çünki həqiqi camaat tək olsa belə, Quran və Sünnədən möhkəm yapışan kəsdir. Necə ki, İbn Məsud *(Allah ondan razı olsun)* belə buyurur: "Camaat, hətta tək olsa belə, Allaha itaətdə müvafiq olandır."[2]

Əbu Şəəməh künyəsi ilə tanınmış AbdurRəhman ibn İsmail *(vəfatı 665 h.)* belə deyib: "Harada camaata tabe olmaq əmri gəlibsə, haqq ilə gedənlərin sayı az, ona müxalif olanların sayı çox olsa belə, burada məqsəd haqqa tabe olmaqdır. Çünki haqq birinci camaatın, yəni Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* və onun səhabələrinin yoludur. Onlardan sonra batil əhlinin çox olmasına baxma."[3]

## 2. "Sələf"

Doğru əqidəni daşıyanlara verilən adlardan biri də "sələf" dir.

**Sələf sözünün tərifi:**

**Lüğəvi cəhətdən "sələf"** "keçmişdə olan, bizdən əvvəl yaşayan camaat" mənasındadır.[4]

İbn Fəris deyib: "Sələf – ötüb keçən, keçmişdə yaşayan topluma deyilir."[5]

Deməli, "sələf" ötüb keçən mənasını verir.[6]

---

[1] Bax: Şeyx İbn Useyminin "Rəsail fil Aqidə" (səh. 53) və "Məcmuus Səmin" (3\3).
[2] Bax: Ləlakəinin "Şərhu Usuli İtiqadi Əhlis Sünnəti vəl Cəməah" (1\109).
[3] Bax: Əbi Şəmənin "Əl Bəis alə İnkəril Bidəi vəl Həvədis" (səh. 34)
[4] Bax: İbn Munzirin "Lisənul Arab" (9\158).
[5] Bax: İbn Fərisin "Mucəmu Məqayisil Luğəh" (3\95).

[6] Bax: əl Əsfəhəninin "Mufradat" (səh. 239)

Həmçinin insanın atası, babaları və qohumlarından onu ötüb keçən və yaşca ondan böyük olan hər bir kəs onun sələfi sayılır.[1]

Buna görə də ilkin dönəmlərdə yaşayan tabeinləri də "saleh sələflər" – deyə adlandırıblar.[2] Bunlar "sələf" sözünün lüğəvi cəhətdən mənaları idi.

**Sələf termininin şəri (istilahi) mənasına gəldikdə isə** alimlər "sələf" dedikdə, onların hansı zamana nisbət olunmalarında fərqli fikirlər irəli sürmüşlər. Bu fərqli görüşlər aşağıdakılardır:

**Birinci rəy:** Onlar (sələflər) ancaq səhabələrdir *(Allah onlardan razı olsun).* Bu rəy İbn Əbi Zeyd Əl Qayravaninin kitabını şərh edən bir çox alimin görüşüdür.[3]

**İkinci rəy:** Onlar səhabələr və tabeinlərdir. Bu rəydə olanlardan biri də Əbu Həmid əl Ğazəli olub. O, belə deyib: "Bil ki, elm və bəsirət əhli arasında açıq-aydın olan və heç bir şübhə doğurmayan haqq yol sələfin, yəni səhabələrin və tabeinlərin yoludur."[4]

**Üçüncü rəy:** Onlar səhabələr, tabeinlər və ətbəutabeinlər, yəni tabeinlərin davamçılarıdır. Onlar Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)*, ***"Ən xeyirli üç əsr"*** – deyərək xeyirli olduqlarını təsdiqlədiyi kəslərdir. Peyğəmbər *(Allahın ona salavatı və salamı olsun)* belə buyurub: ***"Ən xeyirli insanlar mənim əsrimdə olanlar, sonra onların ardınca gələnlər, sonra onların ardınca gələnlərdir."***[5] İmam əş Şəvkəni, imam əs Səfərini və başqa bir çox alimlər bu rəydə olublar.

**Qeyd:**

Yuxarıdakı rəylərdən elə başa düşülə bilər ki, o əsrlərdə yaşayanların hamısı sələf sözünə daxildir. Lakin bu belə deyil, hər o zamanda yaşayan sələfi adlandırılmır. Çünki məlumdur ki, batil firqələr də elə həmin əsrlərdə ortaya çıxmağa başlamışdır. Deməli, sadəcə keçmiş zamanda yaşamaq sələfi adlandırılmaq üçün kifayət deyil. İlk əsrlərdə yaşaması ilə yanaşı, rəyləri Quran və Sünnəyə uyğun olmalıdır ki, o kəs sələfi sayılsın. Kimin görüşləri Quran və

---

[1] Bax: Bəğavi "Məalimut Tənzil" (4\142).
[2] Bax: İbn Əsir "Ən Nihəyətu fi Ğaribil Hədis" (2\390).
[3] Bax: Dr. Muəmməd Bəkərim "Vasatiyyətu əhlis Sunnəti beynəl Firaq" (səh. 97-98).
[4] Bax: Ğazəli "İlcəmul Avami an ilmil Kələm" (səh. 53).
[5] Bax: Səhih Buxari, "Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* səhabələrinin fəziləti" kitabı və eyni adlı bölümü.

Sünnəyə müxalifdirsə, hətta səhabə və tabeinlərin arasında yaşamış olsa belə, o kəs sələfi adlandırılmır.[1]

Sonradan gələnlər arasında kim Quran və Sünnəyə müvafiq olsa, həmin fəzilətli insanların yolu ilə getsə və onların bizə çatdırdığı haqq yola tabe olsa, onları da sələfi adlandırmaq doğrudur. Şəkk yoxdur ki, onlar da sələf sözünə daxildir.

İmam əs Səfərini *(Allah ona rəhmət etsin)* sələfin yoluna tərif verdiyi zaman haqqa müvəffəq olaraq belə demişdir: "Sələfin yolu, Allah elçisinin səhabələrinin *(Allah onlardan razı olsun),* gözəl şəkildə onların yoluna tabe olan tabeinlərin, onların davamçıları olan ətbəuttabeinlərin və dində nümunəvi imamların yoludur. Onlar imamlığına şahidlik edilən, dində şəni böyük olan, əsrlər boyu insanlar tərəfindən sözləri qəbul olunan, bidətdə ittiham olunmayan və xəvaric, rafizi, qədəri, murciyə, cəhmiyyə, mötəzilə, kərramiyyə kimi xoşagəlməz ləqəblərlə tanınmayan kəslərdir ".[2]

Deməli, sələf deyərkən yalnız xeyirli əsrlərdə yaşayanlar deyil, əksinə Quran və Sünnəyə müvafiq olan və səhabələrin *(Allah onlardan razı olsun)* yolunu tutub gedən hər bir kəs nəzərdə tutulur.

**Sələf alimlərinə görə "xələf" sözünün məfhumu:**

Xələf sözü lüğətdə, istər zaman, istərsə də dərəcə baxımdan öndə olan kəsin arxasınca gələnlərə deyilir.[3]

Əgər xələf sözü sələf termininin müqabilində işlənərsə, o zaman "xələf" deyərkən, bidətlə ittiham olunan və ya xoşagəlməz bir ləqəblə məşhur olan kəs nəzərdə tutulur."[4] İmam Əs Səfərininin yuxarıda keçən sözü də bu mənaya gəlir. Deməli, kim Quran və Sünnətdən uzaqlaşar, səhabələrin *(Allah onlardan razı olsun)* yolundan üz döndərib başqa bir yola meyl edər və onların yolunu özünə yol tutmazsa, o kəs səhabələrin arasında yaşamış olsa belə, sələfi deyil, xələfi sayılır.

---

[1] İstifadə edilən kitab: Dr. Əl Culeynid " İməm ibnTeymiyyə və Qadiyyətut Təvil" (səh. 52)

[2] Bax: Əs Səfəreyni "Ləvəmiul Ənvar" (1\20)

[3] Bax: Feyruz əl Abadi "əl Qamusul Muhit" (səh. 1042-1043).

[4] Bax: Feyruz əl Abadi "əl Qamusul Muhit" səh. (1042-1043).

## 3. “Hədis əhli.”

İslam əqidəsini daşıyan kəslərə verilən adlardan biri də “hədis əhli”dir.

**“Hədis əhli” termininin tərifi:**

**Lüğəvi cəhətdən** hədis sözünün mənası yeni deməkdir, yəni köhnənin əksi. Həmçinin çox və ya az olmasından asılı olmayaraq danışılan sözə də hədis deyilir.[1]

**Şəri cəhətdən** isə Allah elçisindən *(Allahın ona salavatı və salamı olsun)* rəvayət olunan hər bir söz, feil, iqrar və vəsf hədis adlanır.[2]

**Hədis əhli,** hədislərə tabe olduqları üçün hədisə nisbət olunan kəslərdir. Onlar Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* hədislərini özlərinə dəlil mənbəyi edib doğru İslam əqidəsini bu hədislərdən götürən, istər hədis, istər fiqh, istər üsul alimi olmasından asılı olmayaraq, öz etiqadlarını səhih hədislər üzərində quran kəslərdir.

İmam Əs Sabuni *(vəfatı:449 h.)* belə deyib:“Həqiqətən, Quran və Sünnətə möhkəm sarılan hədis əhli, Allah onlardan həyatda olanları qorusun, vəfat edənlərə isə rəhm etsin...”[3]

Şeyxulislam İbn Teymiyyə *(vəfatı 728 h.)* deyib: “Biz hədis əhli deyərkən, bununla ancaq hədisləri eşidib yazmaq və onları rəvayət etməklə kifayətlənən kəsləri nəzərdə tutmuruq. Hədis əhli deyərkən hədisləri gözəl şəkildə əzbərləyən, onları bilən, mənasını başa düşən, zahirən və daxilən ona tabe olan kəsləri nəzərdə tuturuq. Həmçinin Quran əhli də belədir ”.[4]

Beləliklə, hədis əhli səhabələrin *(Allah onlardan razı olsun),* tabeinlərin və gözəl şəkildə onlara tabe olanların yolu ilə gedən və Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* hədislərini toplamağa, əzbərləməyə, rəvayət etməyə, başa düşməyə, daxildə və zahirdə onlara əməl etməyə xüsusi diqqət ayıran kəslərdir.

---

[1] Bax: Feruz əl Abadi “Əl Qamusul muhit” (səh. 1042-1043).
[2] Bax: Dr. Muhəmməd Sabbəğ “Əl Hədisun Nəbi” (səh. 140).
[3] Bax: Əs Sabuni “Aqidətus Sələf Əshəbil Hədis” (səh. 3-4).
[4] Bax: Şeyxulislam ibn Teymiyyə “Məcmu Fətəvə” (4\95).

## İkinci mövzu: İslam əqidəsinin əhəmiyyəti və onun mənbələri.

İslam əqidəsinin yalnız iki mənbəyi var. Bunlar Allahın Kitabı (Quran) və Allah elçisindən *(Allahın ona salavatı və salamı olsun)* rəvayət olunan səhih hədislərdir. İslam əqidəsinin üçüncü bir mənbəyi yoxdur, çünki saleh sələflərin icması ancaq Quran və Sünnə üzərində olur.[1]

İmam Əl Beyhəqi *(vəfatı 458 h.)* deyib: "Əhli sünnəyə gəldikdə isə, etiqad etdikləri şeylərdə əsaslandıqları mənbə Quran və Sünnədir."[2]

Böyük alim Siddiq Həsən Xan *(Allah ona rəhm etsin)* deyib: "İslamın yalnız iki mənbəyi var: Quran və səhih sünnə. "[3] Bunun ardınca sözünə davam edərək belə demişdir: "Biz "dinin mənbəyi Allahın Kitabı (Quran) və Allah elçisinin *(Allahın salavatı və salamı olsun)* sünnəsidir" – deyə bu ikisi ilə məhdudlaşdırdıq, çünki ümmətə məhz bu ikisinə tabe olmaq əmr olunub".[4]

İslam ümmətinə vacib olan, yalnız öz Rəbbinin Kitabına və Peyğəmbərinin *(Allahın ona salavatı və salamı olsun)* sünnəsinə sıx sarılmaqdır. Çünki Quran və Sünnəyə sarılmaq, bu ümmətin xətaya düşməkdən və haqq yoldan azmaqdan, həmçinin əqidə məsələlərində ziddiyyətlərə düşməkdən qorunmasına səbəbdir. Çünki Quran və Sünnə ümməti parçalamır, əksinə haqq üzərində cəm edir. Uca Allah buyurub: **"Məndən sizə doğru yol göstəricisi gəldiyi zaman hər kəs Mənim doğru yol göstərən bələdçimin ardınca getsə, nə yolunu azar, nə də bədbəxt olar."**[5]

Heç şübhə yoxdur ki, Allahın bu ümmətə verdiyi ən böyük nemətlərdən biri də, onların Quran və Sünnəyə bağlı olmalarıdır. Şeyxulislam İbn Teymiyyə *(Allah ona rəhmət etsin)* saleh sələflərdən danışarkən belə buyurur: "Allahın onlara verdiyi ən böyük nemətlərdən biri də, onların Quran və Sünnəyə sarılmaları idi."[6]

---

[1] Bax: Şatibi "Əl İtisam" (2\252).
[2] Bax: Beyhəqi "Mənaqibul İməm əş Şəfi" (səh. 462)
[3] Bax: Siddiq Həsən Xan "əd Dinul Xalis" (3\36).
[4] Bax: Siddiq Həsən Xan "əd Dinul Xalis" (3\36).
[5] Tahə, 123
[6] Bax: Şeyxulislam "Məcmuul Fətəvə" (13\28).

## **İslamda ağılın yeri və əhatə dairəsi:**

Uca və Qüdrətli Allah insanı digər canlılardan fərqləndirərək ona ağıl nemətini vermişdir. Məhz
ağıl neməti insanı ucaldaraq mükəlləflik dərəcəsinə çatdırmış, bununla insan Allahdan gələn ilahi şəriətə əməl etmək və onu başa düşmək səviyyəsinə ucalmışdır.[1]

İslam əqidəsi kimi insan ağlına ehtiram edib onu dəyərləndirən, şəri dəllilləri fəhm etməkdə ağıla etimad edən başqa bir əqidə yoxdur. Uca Allahın bir çox ayələrdə ağlı tərifləyib onun şənini ucaltması, onu düşünməyə, dərk etməyə, tədəbbür və təfəkkür etməyə yönəltməsi bunun bariz nümunəsidir.[2]

Lakin ağılın dərk etməkdə müəyyən bir həddi var və o, bu həddi aşa bilmir. Bu səbəbdən də Uca Allah ağıl üçün tələb olunan əqidə məsələlərinin çoxunu tam dərk edib qavramasına bir yol qoymamışdır.[3] Əgər əqidə və ona dəlalət edən əqli dəlillər vəhylə gəlmiş olmasaydı, ağılın müstəqil olaraq əqidə məsələlərini bilməsi mümkün olmazdı. Ağılın üzərinə düşən ancaq vəhylə gələn dəlilləri düşünüb başa düşməkdir.

Həmçinin ağılla bir çox əqidə məsələlərinin dəlillərini bilmək və onlar haqqında düşünmək mümkün olsa da, onun tam olaraq həqiqətini və keyfiyyətini dərk etmək mümkün deyil. Məsələn: Bədənimizdə olan ruh kimi. İnsanlar üçün ruhun həqiqətini ifadə etmək çətindir, çünki ona bənzər bir şey müşahidə etməyiblər.[4]

Həmçinin Uca Rəbbimizin sifətləri də bu cürdür. Ağlımızla sifətlərin mənalarını başa düşsək belə, onun həqiqətini və keyfiyyətini bizim ağlımız dərk etmir. Çünki hər hansı bir sifəti tam dərk etmək üçün sifətin sahibini dərk etmək vacibdir. Sifətin sahibi də heç bir bənzəri və misli olmayan Uca və Qüdrətli Allahdır. Uca Allah heç bir bənzəri olmayan ən kamil sifətlərə sahibdir.[5]

---

[1] Bax: Əmədin  "İhkəmu fi Usulil Əhkəm" (1/150).
[2] Bax: İbn Teymiyyə "ən Nubuvvət" (səh. 189).
[3] Bax: Əş Şatibi "Əl İtisam" (2\318).
[4] Bax: İbn Teymiyyə "Təfsiru surətil İxləs" (səh. 202)
[5] Bax: İbn Teymiyyə "Ər Risələtut Tədmuriyyə" (səh. 44-45)

Həmçinin Allahın Axirət haqqında verdiyi xəbərlər; Cənnət və nemətləri, Cəhənnəm və onun əzabı və digər qeybə aid olan məsələləri ağıl qəbul və təsdiq etsə də, onun həqiqətini və keyfiyyətini dərk etmir.[1]

Belə olduğu halda ağıl dərk etməsə və onda olan hikməti başa düşməsə belə, bizə onları qəbul etmək və onlara iman gətirmək əmr olunmuşdur. Əgər biz dini məsələlərdən bir şey eşitdikdə onu dərk etsək və başa düşsək, bu, Allahın müvəffəqiyyətidir və buna görə Allaha həmd və şükür etməliyik. Amma nəyisə dərk etmədikdə və başa düşmədikdə, yenə də onu təsdiq etməli və ona iman gətirməliyik.[2]

### Sağlam ağılın açıq-aydın dəlillərə zidd olmaması.

**Ortaya belə bir sual çıxır:** Şübhə və bidətlərdən salamat və sağlam olan ağıl açıq-aydın və səhih dəlillərə zidd ola bilərmi?

Cavab: Quran və Sünnədən olan açıq-aydın dəlillərlə salamat və sağlam ağılın ziddiyyət təşkil etməsi təsəvvür olunmayan, hətta mümkün olmayan bir məsələdir. Əgər ağıl şəri dəlili başa düşməyib və ya o ağılda nöqsan var deyə şəri dəlilə zidd olması kimi zənn yaranarsa, bu təqdirdə də vəhy ağıldan öndə tutulur və ona hakim olur.

Şeyxulislam İbn Teymiyyə *(Allah ona rəhm etsin)* belə buyurub: "Müsəlmanlar öz dinlərində olan hər şeyi – etiqadlarını, ibadətlərini və digər məsələləri Allahın kitabından, Elçisinin sünnəsindən və bu ümmətin sələflərinin və imamlarının ittifaqından (icmasından) götürürlər. Bu da salamat ağıla zidd deyil. Salamat ağıla zidd olan hər bir şey batildir. Quranda, Sünnədə və İcmada isə batil heç nə yoxdur. Lakin bəzən orada elə ləfzlər olur ki, bəzi insanlar onları başa düşmür və ya səhv başa düşür. Bu zaman nöqsan onların ağıllarındadır, Quran və Sünnədə deyil."[3]

---

[1] Bax: İbn Teymiyyə "Ər Risələtut Tədmuriyyə" (səh. 46)
[2] Bax: Əs Suyuti "Savnul Mətiqi vəl Kələm" (səh. 182)
[3] Bax: Şeyxulislam "Məcmuul Fətəvə" (11\490).

# Üçüncü mövzu: İslam əqidəsinin bəzi xassələri

**“Xassələr” sözünün tərifi:**

Ərəb dilində xasais, xassələr mənasındadır. Bir şeyin xassələri dedikdə, yalnız ona xas olan və onu digərlərindən fərqləndirən vəsflər qəsd olunur.[1]

Biz “İslam əqidəsinin xassələri” dedikdə isə, onu digər əqidələrdən açıq-aşkar fərqləndirən və ayıran vəsfləri nəzərdə tuturuq.

İslam əqidəsini digərlərindən fərqləndirən bariz əlamətlər vardır və onlardan bəzilərini müxtəsər olaraq qeyd edəcəyəm.

Bu xassələri bəyan etmək üçün mövzunu dörd məsələyə ayırmışam:

**Birinci məsələ: İslam əqidəsi tovqifidir.**
**İkinci məsələ: İslam əqidəsi qeybidir.**
**Üçüncü məsələ: İslam əqidəsi kamil və əhatəlidir.**
**Dördüncü məsələ: İslam əqidəsi orta yoldur.**

## Birinci məsələ: İslam əqidəsinin xüsusiyyətlərindən biri onun tovqifi olmasıdır.

**“Tovqif” lüğəvi cəhətdən** “vəqf” – dayanmaq sözündən götürülüb.

**Şəri cəhətdən** isə “İslam əqidəsi tovqifidir” dedikdə, nəzərdə tutulan məna odur ki, Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* öz ümmətinə əqidə ilə bağlı hər bir mövzunu açıqlamış və bəyan etmədiyi heç bir şey qalmamışdır. Ümmətin üzərinə vacib olan isə budur ki, Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* əqidəni necə bəyan edibsə, onun üzərində dayansınlar və onun qoyduğu həddi aşmasınlar.

[1] Bax: Cəvhəri “Əs Sihəh” (3\1037) və Feyruz əl Abadi “Əl Qamusul Muhit” (səh. 796).

### Əqidənin tovqifi olması nələri gərəkdirir?

Allahın elçisi *(Allahın ona salavatı və salamı olsun)* İslam əqidəsini Quran və Sünnə vasitəsilə tam açıqlamışdır və bəyan etmədiyi heç bir şey qalmamışdır. Bundan irəli gəlir və tələb olunur:

1. İslam əqidəsinin mənbəyi yalnız Quran və Sünnədir və bu ikisi ilə məhdudlaşır.

2. Yalnız Quran və Sünnədə gələnlərə riayət etməliyik. Dinə hər hansı bir yenilik gətirmək və insanlara bu yeniliyə tabe olmağın və ya etiqad etməyin vacib olduğunu iddia etmək heç kimə icazəli deyil. Çünki Uca Allah dini tamamlamış, vəhy kəsilmiş və peyğəmbərliyə xitam verilmişdir. Uca Allah buyurub: "**Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və bir din olaraq sizin üçün İslamı bəyənib seçdim".**[1] Həmçinin Allahın elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurub: ***"Kim bizim dinimizə ondan olmayan bir yenilik gətirərsə, bu, ondan qəbul olunmaz."*** [2] Bu hədis dində qayda kimi götürülür və əqidənin əsaslarından sayılır.[3]

3. Əqidə məsələlərində Quran və Sünnədə varid olan ləfzlərdən istifadə etməli və bidət əhlinin sonradan ortaya çıxardıqları yeni sözlərdən çəkinməliyik. Çünki əqidə məsələləri tovqifidir və onları yalnız Allah bilir.[4]

## İkinci məsələ: İslam əqidəsinin xüsusiyyətlərindən biri də onun qeybi olmasıdır.

**"Qeyb" sözü lüğəvi cəhətdən** müşahidə edilən və aşkarda olan bir şeyin əksidir. "Günəş qeyb oldu" dedikdə, yəni günəşin batması və gözdən itməsi nəzərdə tutulur. Qeyb aşkarın əksidir və səndən gizli qalan nə varsa, hamısı qeyb sayılır.[5]

**Şəri cəhətdən isə** "İslam əqidəsi qeybidir" dedikdə, bunlar nəzərdə tutulur:

---

[1] Əl Maidə, 3

[2] Sahih Buxari, namaz kitabı.

[3] Bax: Əl Aql "Məbəhisu fi Aqidəti Əhlis Sünnəti vəl Cəməah" (səh. 39).

[4] Bax: Əl Aql "Məbəhisu fi Aqidəti Əhlis Sünnəti vəl Cəməah" (səh. 39).

[5] Bax: Feyruz Əl Abadi "Əl Qamusul Muhit" (səh. 155)

1. İslam əqidəsi ağlın müstəqil şəkildə dərk etməsi mümkün olmayan qeybi məsələlərdən bəhs edir və o, Uca Allahdan və Onun elçisindən *(Allahın ona salavatı və salamı olsun)* gələn xəbərləri həm zahirdə, həm də batində təsdiqləməyin üzərində qurulur. (Bəzi əqidə məsələləri qeybidir)

2. İslam əqidəsinə mənsub olanlar qeybi məsələlərdə Allahdan və Onun elçisindən *(Allahın ona salavatı və salamı olsun)* nə gəlibsə, onun üzərində dayanırlar və qeybə iman gətirirlər. Uca və Qüdrətli Allah Öz kəlamında onları bu cür vəsf etmişdir: "**Əlif Ləm Mim. Bu, qətiyyən şübhə doğurmayan, müttəqilərə doğru yol göstərən bir Kitabdır. O kəslər ki, qeybə iman gətirirlər...)**[1]

## İslam əqidəsinin qeybi olması nəyi gərəkdirir?

İslamda əksər əqidə məsələləri bizə nisbətdə qeybidir. Belə olması bizdən, yəni qeybə iman gətirən kəslərdən aşağıdakıları tələb edir:

1. Uca Allaha və Onun elçisinə *(Allahın ona salavatı və salamı olsun)* təslim olmalıyıq. Allaha və Onun elçisinə təslim olmaq, Quran və Sünnədə gələnlərə təslim olmaqla özünü göstərir.

2. Qeybi məsələ olduğu üçün əqidə və onun dəlilləri barədə dərinə getmirik və mübahisə etmirik. Yalnız haqqı bəyan etməyə və hüccət qaldırmağa kifayət edəcək dərəcədə bu məsələlərə daxil oluruq və bununla yanaşı sələfin mənhəcindən ayrılmırıq.[2]

3. Allah elçisindən (*Allahın ona salavatı və salamı olsun)* sabit olmuş şəri dəlil gəlmədikcə əqidəyə aid olan dəlillərə başqa mənalar vermirik və onları öz zahiri mənasından çıxarıb başqa mənalara yozmuruq.

---

[1] Əl Bəqərə, 1-3.
[2] Bax: İbn Batta Əl Ukbərinin "Əş Şərhu vəl İbənə" (səh.123-127).

## Üçüncü məsələ: İslam əqidəsinin xüsusiyyətlərindən biri onun əhatəli olmasıdır.

**"İslam əqidəsi əhatəlidir" dedikdə, y**əni bu əqidə heç bir məsələni izahsız qoymamış, kiçikliyinə və böyüklüyünə baxmayaraq, hər bir şeyi nizama salmış, gözəl və kamil şəkildə bəyan etmişdir. İslam əqidəsi bütün əməlləri, sözləri, davranış qaydalarını və həyatın hər bir sahəsini əhatə etmiş və onlara hakim olmuşdur. Qulun həyatındakı bütün işləri bu dinə tabe olmadıqca onun imanı kamil olmaz.

**İslam əqidəsinin əhatəli olmasının əlamətləri**[1]

İslam əqidəsi dini və dünyəvi məsələlərin heç birinə laqeyd yanaşmamış və onların hər birini tam şəkildə izah edib açıqlamışdır. Uca və Qüdrətli Allah Öz kitabında heç bir şeyi nəzərdən qaçırmamış, həmçinin Onun elçisi *(Allahın ona salavatı və salamı olsun)* ümmətinə lazım olan hər bir işi bəyan etmişdir.

**İslam əqidəsinin əhatəli olmasına misallar:**

1. İslam əqidəsi insana yaşadığı kainat haqqında kamil təsəvvür vermişdir.
2. İslam əqidəsi insan həyatını ayaqda tutan bütün məsələləri əhatə etmişdir.
3. İslam əqidəsi insan həyatının doğulduğu andan öldüyün ana qədər olan bütün mərhələlərini əhatə etmişdir. Hətta insanın doğulmazdan öncəki, atası və anası evlənməzdən əvvəlki vaxtı və ya öldükdən sonrakı həyatını, sonda Cənnətdə və ya Cəhənnəmdə məskunlaşmasını belə əhatə etmişdir. (Allah bizi Cəhənnəm əzabından qorusun.)

[1] Təfsilat üçün Dr. İbrahim Əl Bureykənin "Əl Mədxal li dirasətil aqidətil isləmiyyə" kitabına bax. (s. 69-72)

## Dördüncü məsələ: İslam əqidəsinin xüsusiyyətlərindən biri onun orta yol olmasıdır.

**Lüğəvi cəhətdən (vasat) "orta" sözünün bir neçə mənası var:**

1. İki tərəf arasında olana deyilir. Məsələn: Evin ortasında oturdum. Günün ortasında gəldim. Nizəni ortadan qırdım... "Otlağın ortası qıraqlarından xeyirlidir."[1]

2. Vəsf kimi işlənir və xeyirli mənasını verir. Bu mənada bir şeyin ortası, onun ən yaxşısı və ən üstünü sayılır. Uca Allah buyurub: **"Beləliklə, Biz sizi orta bir ümmət etdik".**[2] Firdovs, Cənnətin ən üstünüdür. O, Cənnətin ən ucası və ən ortasıdır. Boyunbağının ortası onun tam ortasında yerləşən ən dəyərli daş-qaşdır. Həmçinin ərəblərdə belə bir məsəl var: "Otlağın ortası qıraqlarından yaxşıdır."[3]

3. Orta – adillik mənasında da işlənir. Uca Allahın, **"Beləliklə, Biz sizi orta bir ümmət etdik"**[4] sözü də bu mənadadır.

"Orta" sözünün lüğəvi mənalarına baxdıqda, onun adillik, xeyir və yaxşılıq mənalarından kənara çıxmadığını görürük.

**İslam əqidəsin orta yoldur dedikdə məqsəd:**

1. İslam əqidəsi, əqidələr içində ən xeyirli və ən fəzilətli əqidədir.
2. İslam əqidəsi ən adil əqidədir.
3. İslam əqidəsində ifrat (həddi aşmaq) və təfrit (səhlənkarlıq) yoxdur.

**İslam əqidəsinin orta yol olmasının təzahürləri**

İslam əqidəsinin orta yol olmasının təzahürləri haqqında danışmaq üçün nəinki müəyyən səhifələr, heç cildlərlə kitablar da kifayət etməz. İslam ümməti insanlar üçün üzə çıxarılmış ən xeyirli ümmətdir. İslam peyğəmbəri *(Allahın ona salavatı və salamı olsun)* göndərilmiş elçilərin ən fəzilətlisidir. İslamın kitabı olan Qurani Kərim göndərilmiş kitabların sonuncusu və ən üstünüdür. O özündən əvvəlki kitablar üzərində hakim və xeyirlilər içində ən xeyirlisidir.

İslam əqidəsinin orta yol olmasının təzahürlərindən danışarkən iki məqamda dayanmaq istəyirəm.

---

[1] Bax: Feyruz əl Abadi "Bəsairu zəviy ət Təmyiz" (5\210). Və İbn Mənzur "Lisənul Arab" (7\426-428).
[2] Əl Bəqərə, 143
[3] Bax: Cəvhəri "Əs Sihəh" (3\1167).
[4] Əl Bəqərə, 143

## Birinci məqam: İslam ümmətinin başqa ümmətlər arasında orta yolda olması.

İslam ümmətinin digər ümmətlər arasında orta yolda olması bu məsələlərdə üzə çıxır:

### 1. Allahı təkləşdirməkdə və Allahın sifətləri barədə İslam əqidəsi yəhudi və nəsranilər (xristianlar) arasında orta yoldadır.

Yəhudilər Allahı məxluqlara aid olan naqis sifətlərlə vəsf edir və Onu məxluqlara bənzədirlər. Onlar Allahın xəsis və kasıb olduğunu deyir, Allahın yorulduğunu və dincəldiyini, həmçinin insan qiyafəsinə girdiyini və s. iddia edirlər.[1]

Nəsranilər isə məxluqları Allaha xas olan sifətlərlə vəsf edir və onları Allaha bənzədirlər. Onlar deyirlər ki, Allah Məryəm oğlu Məsihin özüdür, Məsih (İsa peyğəmbər) Allahın oğludur. Məsih yaradır, ruzi verir, bağışlayır, rəhm edir, mükafat və cəza verir və s.[2]

Bu ikisinin arasında müsalmanların orta yolda olmaları üzə çıxır. Onlar Allahı təkləşdirir və Onu ən kamil sifətlərlə vəsf edirlər. Allahı bütün naqis sifətlərdən uzaq tutur və Onu hər hansı bir sifətində məxluqa bənzətmirlər. Deyirlər ki, Allahın nə zatında, nə sifətlərində, nə də feillərində heç bir tayı-bərabəri və bənzəri yoxdur.[3]

### 2. Allahın peyğəmbərlərinə və elçilərinə münasibətdə də İslam ümməti yəhudi və nəsranilər arasında orta yoldadır.

Yəhudilər peyğəmbərləri öldürdülər. Onlara hər cür böhtan atdılar, sərt davranıb hörmətsizlik etdilər və onlara tabe olmaqdan təkəbbürlük göstərdilər.

Nəsranilər isə bəzi peyğəmbərlər barədə həddi aşdılar, Allahı qoyub onları özlərinə rəbb götürdülər və İsa peyğəmbəri *(Allahın ona salavatı olsun)* ilah olaraq qəbul etdilər.[4]

---

[1] Bu mövzu təfsilatı ilə Dr. Bəkərimin "Vasatiyyətu əhlis Sunnəti vəl Cəməah" kitabındadır. (səh.238, 244-249.)
[2] Bax: D.r Bəkərim "Vasatiyyətu əhlis Sunnəh" (səh.238, 244-249).
[3] Bax: İbn Teymiyyə "Minhəcus Sunnətin Nəbəviyyəh" (5\168-169)
[4] Bu mövzuya təfsilatı ilə Dr. Bəkərimin "Vasatiyyətu əhlis Sunnəh" kitabında baxmaq olar. (səh. 238, 244-249).

O ikisinin arasında isə müsəlmanların orta yolda olmaları üzə çıxır. Onlar peyğəmbərləri layiq olduqları dərəcədə tutur, onlara dəyər verib hörmət edir, onları təsdiq edir və dəstəkləyir, onları sevir və onlara itaət edirlər. Müsəlmanlar bütün peyğəmbərlərə iman gətirirlər. Etiqad edirlər ki, onlar Uca və Qüdrətli Allahın qulları, müjdələyən və qorxudan elçiləridir. Nə onları olduqları dərəcədən aşağı salmır, nə də onları şişirdib ilahlıq dərəcəsinə qaldırmırlar. Müsəlmanlar peyğəmbərlərə ibadət etmir və onları özlərinə Allahdan başqa rəbb götürmürlər. Peyğəmbərlər nə faydaya, nə də zərərə malik deyillər, üstəlik onlar qeybi də bilməzlər.[1]

### 3. İslam əqidəsi şəriət əhkamlarında da yəhudi və nəsranilər arasında orta yoldadır.

Yəhudilər Uca Allahın, Musa peyğəmbərin *(Allahın ona salavatı olsun)* şəriətindən başqa şəriətlə elçi göndərməsini inkar etdilər və dedilər ki, Allahın bir şəriəti aradan qaldırıb onun yerinə başqasını göndərməsi, bəzi qanunları silib bəzisini saxlaması mümkün deyil.

Nəsranilər isə öz keşiş və rahiblərinin Allahın dinini dəyişmələrini, Allahın haram etdiklərini halal, halal etdiklərini isə haram etmələrini icazəli gördülər.

Müsəlmanlara gəlincə isə, onlar belə dedilər: "Yaratmaq da, əmr etmək də Allaha məxsusdur. O, istədiyi qanunu saxlayır və istədiyi qanunu aradan qaldırır. Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* sağlığında ikən hər hansı bir hökmün dəyişməsi mümkün idi. Amma onun vəfatından sonra isə hansı dərəcəyə çatmasından və nə qədər hörmətli olmasından asılı olmayaraq, heç bir məxluqa Allahın buyurduğu  hökmü dəyişmək icazəli deyil.

### 4. Halal və haramlarda da İslam əqidəsi yəhudi və nəsranilər arasında orta yoldadır.

Yəhudilərə bir çox pak şeylər haram edilmişdi. Onlardan:

**A.** İsrailin, yəni Yaqub peyğəmbərin *(Allahın ona salavatı olsun)* özünə haram etdiyi şeylər. Uca Allah bu haqda belə buyurub: **"Tövrat nazil olmamışdan**

---

[1] Bax: Dr. Bəkərim "Vasatiyyətu əhlis Sunnəti vəl Cəməah" (səh.238, 277-284)

**əvvəl İsrailin ancaq özü özünə haram etdiyi şeylərdən başqa, bütün yeməklər İsrail oğullarına halal idi.”**[1]

**B.** Yəhudilərin etdikləri zülmə və azğınlığa görə, Allahın onlara cəza olaraq haram etdiyi şeylər. Uca Allah belə buyurub: **“Yəhudilərin etdikləri zülmə, həm də bir çoxlarını (eləcə də özlərini) Allah yolundan döndərdiklərinə görə, onlara daha öncə halal edilmiş gözəl nemətləri haram etdik.”**[2]

Nəsranilər isə haramları halal saymaqla həddi aşdılar. Onlar Tövratda haram edilən və İsa peyğəmbərin də *(Allahın ona salavatı olsun)* halal demədiyi – leş əti, qan, donuz əti kimi bütün murdar şeyləri özlərinə halal etdilər.[3]

Amma müsəlmanlar Allahın Öz kitabında və ya elçisinin *(Allahın ona salavatı və salamı olsun)* dili ilə halal etdiyi pak şeyləri halal, haram etdiyi murdar şeyləri isə haram saydılar. Uca Allah onlar barədə belə buyurub: “**O kəslər ki, yanlarındakı Tövrat və İncildə haqqında yazılmış olduğunu gördükləri elçinin, yazıb-oxumaq bilməyən peyğəmbərin ardınca gedərlər. O peyğəmbər onlara yaxşı işlər görməyi buyurar, pis əməlləri isə qadağan edər, onlara pak şeyləri halal, murdar şeyləri isə haram edər. Onların ağır yüklərini yüngülləşdirər və onları buxovlardan xilas edər. Ona iman gətirən, onu dəstəkləyən, ona kömək edən və onunla göndərilmiş nurun (Quranın) ardınca gedənlər isə nicat tapanlardır".**[4]

### 5. İslam ümməti ibadətlərdə də yəhudi və nəsranilər arasında orta yoldadır.

Yəhudilər haqqı bildilər, lakin ona əməl etmədilər. Bu səbəbdən onlar qəzəbə uğramışlardır. Onlar ibadətlərdən üz çevirdilər, Allaha itaət etməyə təkəbbürlük göstərdilər, nəfsi istəklərinə uydular və özlərini maddiyyətə qul etdilər. Beləliklə, dünyadan ötrü öz dinlərini və axirətlərini zay etdilər.[5]

Nəsranilər isə haqqı öyrənmədilər və Allaha cahilcəsinə ibadət etdilər. Bu səbəbdən onlar azmış sayılırlar. Onlar rahiblikdə ifrata vardılar, Allaha, haqqında dəlil nazil etmədiyi və özlərinin uydurduqları bidətlərlə ibadət etdilər. Beləliklə, məbədlərə və kilsələrə çəkilərək özlərini ibadətə həsr edib, insanları

---

[1] Əli İmran, 93.
[2] Ən Nisa, 160
[3] Bax: İbn Teymiyyənin “Kitəbus Safədiyyəh” (səh. 239).
[4] Əl Araf, 157.
[5] Bax: Dr. Bəkərim “Vasatiyyətu əhlis Sunnəti vəl Cəməah” (səh. 240).

tərk etdilər. Allahın onlara vacib etmədiyi şeyləri özlərinə vacib etdilər və özlərini insan bədəninə və nəfsinə ağır gələn, insan fitrətinə zidd olan əməllərə məcbur etdilər. Sonda isə etdikləri bu əhdə belə vəfalı ola bilmədilər. Bu haqda Uca Allah belə buyurub: **"Rahibliyi isə onlar özlərindən icad etdilər. Biz bunu onlara vacib buyurmamışdıq. Onlar bunu Allahın razılığını qazanmaq üçün etdilər, lakin ona lazımınca riayət etmədilər."**[1]

Amma orta ümmət olan müsəlmanlar isə haqqı öyrəndilər və ona əməl etdilər. Məhz onlar Allahın nemət bəxş etdiyi kəslərdir. Onlar öz nəfsi istəkləri və bidətlərlə deyil, yalnız Allahın göndərdiyi şəriətlə və tək Allaha ibadət etdilər.[2] Bununla yanaşı onlar dünyadan da öz nəsiblərini və paylarını unutmadılar. Bu işdə müsəlmanlar üçün ən gözəl nümunə isə Allahın elçisi Muhəmməddir *(Allahın ona salavatı və salamı olsun).*

## İkinci məqam: Əhli Sünnə vəl Camaatın azmış firqələr arasında orta yolda olması

Artıq ümmətlər arasında İslam ümmətinin orta yolda olmasından danışdıq. İslam ümmətində bu xeyirlə ən çox xoşbəxt olanlar isə söz, əməl və etiqad baxımından Quran və Sünnəyə daha çox tabe olan və bu ikisinin yolu ilə getməyə daha çox həris olan kimsələrdir. Onlar üç fəzilətli əsrdə yaşayanlar: səhabələr, onların ardıcılları olan tabeinlər və onların yoluna gözəl şəkildə tabe olan kəslərdir. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* bu üç əsrdə yaşayanların ən xeyirli olmalarına şahidlik edərək buyurmuşdur: ***"Ən xeyirli insanlar mənim dövrümdə olanlar, sonra onların ardınca gələnlər, sonra onların ardınca gələnlərdir."***[3] Onlar bu ümmətin ən xeyirliləridir. Bu üç əsrdən sonra gələnlərdən hansı zamanda və məkanda yaşamasına baxmayaraq, kim onların olduğu yol üzərində olar və Quran və Sünnəyə bərk sarılarsa, o da onlardan sayılar. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun):* ***"Onlar qurtulmuş firqədir",*** başqa bir hədisdə isə: ***"Onlar camaatdır"*** – deyə onların doğru yolda

---

[1] Əl Hədid, 27
[2] Bax: Dr. Zeyd Əz Zeyd "Əl Vasatiyyətu fil İsləm Tərifun və Tətbiqun" (səh. 46-51).
[3] Bax: Sahih Buxari, "Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* səhabələrinin fəziləti" kitabı və eyni adlı bölüm.

olmaları barədə xəbər vermişdir. Bu ümmət digər ümmətlər arasında orta yolda olduqları kimi, Quran və Sünnəyə sarılıb səhabələrin və saleh sələflərin yolu ilə gedənlər də azmış firqələr arasında orta yoldadırlar. Kim əqidə və dinin əsasları barədə firqələrin sözlərini öyrənib araşdırarsa, Əhli sünnə vəl camaatın bu firqələr arasında orta yolda olduğunu görər.

**Əhli sünnə vəl camaatın firqələr arasında orta yolda olmasının təzahürlərindən:**

**1. Onlar Allahın ad və sifətlərində, Allahın sifətlərini inkar edənlərlə, Allahın sifətlərini məxluqların sifətlərinə bənzədənlər arasında orta yoldadırlar.**

Əhli sünnə vəl camaat, Allahın Özünü vəsf etdiyi, həmçinin Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* Uca Allah barədə xəbər verdiyi bütün gözəl adlarına və uca sifətlərinə, onların mənasını təhrif etmədən, inkar etmədən, keyfiyyət vermədən və onları məxluqların sifətlərilə bərabər tutmadan və onlara bənzətmədən hamısına iman edirlər. Onlar Allahın bütün ad və sifətlərini təsdiq edir, bu sifətlərin həqiqi, Allaha yaraşar şəkildə olduğunu etiqad edirlər. Bununla yanaşı Allahı məxluqlara bənzətmirlər və beləliklə, Allahın Özü barədə xəbər verdiyi: **“Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir.”**[1] – ayəsini təsdiq etmiş olurlar. Əhli sünnə vəl camaat Allahın ad və sifətlərini təhrif və inkar edənlərlə, Allahı məxluqlarla eyni tutanlar və məxluqlara bənzədənlər arasında orta yoldadır.

Uca Allahın ad və sifətlərinin hamısını və ya bəzisini inkar edənlər (muattilə) iki növdür: Cəhmiyyə və Mötəzilə kimi Allahın ad və sifətlərini bütünlüklə inkar edən külli inkarçılar.

Əşari və Mətrudilər kimi onların bir qismini inkar edən cüzi inkarçılar.[2]

Allahı məxluqlara bənzədən (muşəbbihə) isə Allahın sifətlərinin məxluqların sifətləri kimi olduğunu deyənlərdir. Kərramiyyə və Hişəmiyyə (Hişəm ibn Əl

---

[1] Əş Şura, 11

[2] Bax: Şeyx İbn Useymin “Fəthu Rəbbil Bəriyyəh bi Təlxisil Həməviyyəh” (səh. 18-19). Həmçinin Dr. Saleh Əl Fovzan “Əl İrşəd ilə Sahihil İtiqad” (səh. 157)

Həkəm Ər Rafidi, Hişəm ibn Səlim əl Cəvəliqinin ardıcılları), Dəvud əl Cəvəribi və onun mislində olanlar kimi.[1]

**2. Əhli Sünnə vəl Camaat qədər mövzusunda da Qədərilər və Cəbrilər arasında orta yoldadır.**

Əhli sünnə vəl camaat iman edir ki, Allah olacaq bütün işləri əzəldən təqdir edib, onun nə zaman və hansı şəkildə baş verəcəyini öncədən bilir və hər bir iş Allahın təqdir etdiyi şəkildə baş verir.[2] Buna iman gətirməklə onlar imanın ruknlarından birinə iman etmiş olurlar. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* hədisdə, ***"Qədərin xeyrinə və şərinə iman gətirməyindir"*** sözü ilə qədərin imanın rüknlarından olmasına işarə etmişdir.[3]

İnsan qədərin dörd mərtəbəsinə iman etmədikcə qədərə iman gətirmiş sayılmır. Qədərə imanın mərtəbələri bunlardır:

1. Allahın baş verməmişdən öncə hər şeyi bilməsi.
2. Baş verəcək hər şeyi əvvəlcədən yazması.
3. Allahın kainatda baş verən hər şeyin əvvəlcədən baş verməsini istəməsi.
4. Allahın bütün şeyləri yaratması.

Sadalanan bu dörd mərtəbənin hər birinə Quran və Sünnədən dəlillər var.[4]

Bu mövzuda Quran və Sünnədən uzaq düşənlərin bəziləri ifrata, bəziləri də təfritə (səhlənkarlığa) yol vermişlər. Məsələn, Qədərilər, həmçinin onları təmsil edən Mötəzilələr qədəri isbat etməkdə səhlənkarlığa yol verdilər. Qulların feillərində Allahın qüdrətini və Allahın onların feillərini yaratmasını inkar etdilər. Onlar dedilər ki, Allah qulların etdikləri feilləri yaratmağa qadir deyil. Bu batil etiqada əsasən, onlara görə qulların feillərini Allah yaratmayıb, əksinə qulun etdiyi feili məhz qul özü yaradır.[5] Bununla da onlar qədərə imanın dörd mərtəbəsindən birini – qulların feillərini Allahın yaratmasını inkar etdilər.

---

[1] Bax: Dr. Saleh Əl Fovzan "Əl İrşəd ilə Sahihil İtiqad" (səh. 156-157).

[2] Bax: "Şərhun Nəvəvi alə Sahihi Muslim" (1\154).

[3] Bax: Səhih Muslim, İman Kitabı, "İslamın, imanın və ehsanın bəyanı" bölümü.

[4] Bu məsələyə təfsilatı ilə izah verən kitablardan, Şeyx Hafiz Əl Həkəminin "Ə`ləmus Sunnətil Mənşura" (səh. 124-141).

[5] Bax: Abdul Cabbar Əl Həmzəni "Şərhu Usulul Xamsə" (səh. 323). Həmçinin "Əl Muğni fi Əbvəbil Adli vət Tovhidi" (8\3).

Cəbriyyələr, həmçinin onlardan olan Cəhmiyyələr isə əksinə, qədəri təsdiq etməkdə ifrata vardılar və dedilər ki, qul öz feillərinə görə məsuliyyət daşımır. Çünki o, bir şeyi etməyi və ya etməməyi istəmir, nə də buna qadir deyil. Onlar deyirlər ki, həqiqətdə qullar heç bir əməl etmirlər, bütün feilləri yerinə yetirən ancaq Allahdır. Qullara isə feillər ancaq məcazi mənada nisbət olunur. "Ağac tərpənir, planetlər dövr edir, günəş batır" – deyildiyi kimi. Həqiqətdə bütün bunları icra edən Allahdır."[1] Eyni ilə Allah insanın da etdiyi feilləri, cansız əşyalarda hərəkətləri yaratdığı kimi yaradır.[2] Beləcə onlar qulun etdiyi əməli özünün etməsini inkar edərək, onu Allaha nisbət etdilər.

Qədərilər qədəri inkar etdilər, hətta dedilər ki, qul öz feillərini özü yaradır. Cəbriyyələr isə qədəri təsdiq etməkdə həddi aşdılar, hətta dedilər ki, qulun feillərini özü deyil, Allah edir.

Bu mövzuda da Əhli sünnə vəl camaat azmış firqələr arasında orta yoldadır. Çünki Əhli sünnə qulun etdiyi feillərə görə məsuliyyət daşıdığını, hər hansı əməli edərkən qulun öz istəyi, ixtiyarı və seçimi ilə etdiyini, bir əməli başqasından üstün tutduğunu və etdiyi feilləri yerinə yetirməkdə qüdrətinin olduğunu təsdiq edirlər. Uca Allah buyurub: "**Qulaq, göz və ürək – bunların hamısı sahibinin əməlləri barəsində sorğu-sual olunacaqdır."**[3] Qulun etdiyi feillərin onunla əlaqəli olan hissəsi budur ki, qul bir şey edirsə, bu onun öz feili və öz qazancıdır. Hərəkət edən və ya sakit dayanan, namaz qılan və qalxıb-oturan həqiqətdə qul özüdür. Qulun feillərindən Allaha aid olan hissəsi isə budur ki, Allah onların baş verəcəyini əzəldən bilir, onların baş verməsində Allahın qüdrəti var, onlar Allahın istəyi ilə olur və onları Allah yaradır. Uca Allah Özü barədə xəbər verərək belə buyurmuşdur: **"Axı sizi də, sizin əməllərinizi də Allah yaratmışdır."**[4] Allah, qulların özünü yaratdığı kimi, onların feillərini də yaradır. Amma qul isə öz feillərini həqiqi olaraq özü edir və bu feilləri yerinə yetirməyə Allahın onu qadir etməsi ilə qadir olur. Bütün məxluqatı Allah yaradıb. Qullar Allahın məxluqlarıdır və məxluqların feilləri də məxluqdur. Hər şeyin Xaliqi Allahdır. Allahın mülkündə də yalnız Allahın

---

[1] Əbul Həsən Əl Əşari "Məqalətul İsləmiyyin və İxtiləfil Musallin" (1\338).
[2] Bax: İbn Əl Qeyyim "Şifəul əlil" (səh. 51).
[3] Əl İsra, 36
[4] Əs Saffat, 96

təqdir etdiyi və istədiyi olur.[1] Əhli Sünnə bu firqələr arasında orta yolda olmaqla bu barədə varid olan dəlilləri cəm edən və onları bir-birinə uyğunlaşdıran kəslərdir.[2]

### 3. Əhli sünnə vəl camaat, vəd və vəid (hədə) bildirən dəlillərdə də Murciyə və Vəidiyyələr (Xavaric, Mötəzilə) arasında orta yoldadır.

Uca və Qüdrətli Allah Öz kitabında, həmçinin Elçisinin *(Allahın ona salavatı və salamı olsun)* sünnəsində bir çox yerdə itaətkar və mömin qullarına böyük mükafatlar verəcəyini, onların şirkdən aşağı olan günahlarını bağışlayacağını, onların pis əməllərini yaxşı əməllərlə əvəz edəcəyini, onlara növbənöv mükafatlar verəcəyini vəd verib və onlar üçün ağacları altından çaylar axan cənnətlər hazırladığını bildirib. Uca Allahın bu ayəsi həmin dəlillərdəndir: **“Qullarıma mənim bu sözümü de: "Ey Mənim özlərinə qarşı həddi aşmış qullarım! Allahın rəhmətindən ümidinizi üzməyin. Şübhəsiz ki, Allah bütün günahları bağışlayır. O, həqiqətən, Bağışlayandır, Rəhmlidir!”**[3] Həmçinin Allahın elçisi *(Allahın ona salavatı və salamı olsun)* Əbu Zərr Əl Ğifariyə *(Allah ondan razı olsun)* belə demişdir: ***“Lə iləhə illəllah” deyən, sonra bunun üzərində ölən elə bir qul yoxdur ki, Cənnətə daxil olmasın.”***[4] Bu mənada olan dəlillərə “vəd dəlilləri” deyilir.

Həmçinin Quran və Sünnədə böyük günah sahibləri və fasiqlər üçün “ağrılı-acılı əzaba düçar olmaq”, “Cəhənnəmdə əbədi qalmaq” kimi şiddətli təhdid bildirən, həmçinin onları “küfür”, “fasiqlik” və “zəlalət” kimi vəsflərlə vəsf edən bir çox ayə və hədislər varid olmuşdur.[5] Uca Allahın bu sözü həmin təhdid bildirən dəlillərdəndir: **“Kim qəsdən bir mömini öldürərsə, onun cəzası içərisində əbədi qalacağı Cəhənnəmdir. Allah ona qəzəblənər, onu lənətləyər və onun üçün böyük bir əzab hazırlayar.”**[6] Həmçinin Allah elçisi *(Allahın ona*

---

[1] Bax: Əs Sabuni “Aqidətus Sələf Əshabul Hədis” (səh.75). Həmçinin Ləlakəi “Şərhu Usuli İtiqadi əhlis Sünnəti vəl Cəməah” (3\534). Həmçinin İbn Teymiyyə “Mihəcus Sunnətin Nəbəviyyəh” (1\459-560. 2\298). Və İbn Əl Qeyyim “Şifəul Əlil” (səh. 493).
[2] Bax: Dr. Bəkərimin “Vasatiyyətu əhlis Sunnəti vəl Cəməah” (səh. 381-383)
[3] Əz Zumər, 53
[4] Bax: Səhih Muslim, İman kitabı, “Allaha heç nəyi şərik qoşmadan ölən kəs Cənnətə daxil olacaq” bölümü.
[5] Bax: Dr. Bəkərimin “Vasatiyyətu əhlis Sunnəti vəl Cəməah” (səh. 354).
[6] Ən Nisə, 93

*salavatı və salamı olsun)* belə buyurub: ***"Mömini söymək fasiqlik, onu öldürmək isə küfürdür."***[1] Bu mənada olan dəlillər, vəid (hədə) dəlilləri adlanır.

İnsanlar bu dəlillər barədə üç qismə ayrılıblar:

Murciələr vəd dəlillərini götürdülər, vaid (hədə) dəlillərini isə tərk etdilər və dedilər ki, şirkdən başqa hər bir günah bağışlanır. Küfrlə yanaşı itaət fayda vermədiyi kimi, imanla yanaşı günah da zərər vermir.[2] Onların bu məsələdə azmasının səbəbi, qorxunu tərk edib, Allaha yalnız ümidlə ibadət etmələri olmuşdur.

Amma Xavariclər və Mötəzilələr isə həm vaid (hədə), həm də vəd dəlillərini götürdülər, lakin hədə bildirən dəlillərdə həddi aşaraq dedilər ki, Allah həm verdiyi vədi, həm də hədəsini mütləq yerinə yetirməlidir və onlardan heç birinə xilaf çıxa bilməz.[3] Onların azma səbəbi isə ümidi tərk edərək Allaha yalnız qorxu ilə ibadət etmələri olmuşdur.

Əhli sünnə vəl camaat isə bu mövzuda Vaidiyyələr (Xəvaric, Mötəzilə) ilə Murciələr arasında orta yoldadır. Əhli sünnə həm vəd, həm də hədə dəlillərini götürürlər və qorxu ilə ümidi bir yerdə cəm edirlər. Nə xalis Murciələr kimi hədə dəlillərinə qarşı səhlənkar yanaşaraq "imanla yanaşı günah zərər vermir" demirlər, nə də Xavaric və Mötəzilələr kimi hədə dəlillərində həddi aşmırlar. Əhli sünnə təhdid mənasında olan dəlillər barədə deyir ki, Allahın istədiyi günahkarı bağışlaması və böyük günah sahibini Cəhənnəmdən çıxarması mümkündür. Uca Allah tövhid əhlindən olan heç bir kəsi Cəhənnəmdə əbədi saxlamayacaq.[4] Vəd dəlilləri haqqında isə deyirlər ki, Allah Öz vədinə xilaf çıxmır. Əgər Allah qullarına bir şeyi vəd veribsə, Özü bizə xəbər verdiyi kimi vədini mütləq yerinə yetirəcəkdir. Uca Allahın verdiyi xəbərlər doğrudur və O Öz vədinə xilaf çıxmır.[5]

---

[1] Bax: Sahih Buxari, İman kitabı, "Mömininin əməllərinin puç olmasından qorxması" bölümü.

[2] Bax: Dr. Bəkərim "Vasatiyyətu əhlis Sunnəti vəl Cəməah" (səh. 355).

[3] Bax: AbdulCabbar əl Mötəzili "Şərhu Uslulil Xamsə" səh. (135-136).

[4] Bax: İbn Teymiyyə "Mihəcus Sunnətin Nəbəviyyəh" (1\466-467).

[5] Bax: İbn Teymiyyə "Mihəcus Sunnətin Nəbəviyyəh" (1\448).

**Əhli sünnə vəl camaata görə ümid və qorxu:**

Əhli sünnə vəl camaata görə ümid və qorxu ibadətin ruknlarındandır[1] və onların biri digərindən ayrılmazdır. Şeyx Muhəmməd Əl Əmin Əş Şinqiti qorxu və ümid haqqında belə demişdir: "Bu ikisi bir-birinə bağlıdır. Kim Allah yanında olan xeyirə ümid edirsə, Onun dərgahında olan şərdən qorxmalıdır, qorxan da ümidini itirməməlidir."[2] Bu ikisinin bir-birinə bağlı olmasına dair şəri dəlillər vardır.

Bir qulda ümid və qorxu quşun iki qanadı kimi olmalıdır. Quş uçarkən öz müvazinətini itirməmək şərtilə hərdən məsləhətə görə bir qanadı tərəfə meyl edir. Əhli sünnə vəl camaat alimləri də belə deyiblər: "Qul sağlam olduğu günlərdə daim ümiddən çox qorxuya meyl etməli və qorxusu ümidindən daha çox olmalıdır. Amma ölüm yatağında isə əksinə ümidini artırmalı və ümidi qorxusundan daha çox olmalıdır. Mömin Uca və Qüdrətli Allah barədə yalnız gözəl zənn ilə dünyadan köçməlidir."[3]

Lakin o demək deyil ki, qul qorxu və ya ümidin yalnız biri ilə kifayətlənib, digərini tamamilə tərk edə bilər. Belə etməsi onun həyatında natarazlığa səbəb ola bilər.

**4. Əhli sünnə vəl camaat adlarda və əhkamlarda da Murciə ilə Vəidiyyələr (Xavaric, Mötəzilə) arasında orta yoldadır.**

Adlar dedikdə, "mömin", "müsəlman", "fasiq", "kafir" kimi dində olan adlar nəzərdə tutulur. Bu adlar üzərində Uca Allahın vədi və hədəsi tərtib olunub. Əhkamlar dedikdə isə, bu ad sahiblərinin dünyada və axirətdəki əhkamları nəzərdə tutulur.[4]

İnsanlar günahkar müsəlmanlara verilən ad və hökmlər baxımından üç qismdir. İki bir-birinə əks tərəfdə olan Murciə və Vəidiyyələr (Xavaric, Mötəzilə) və onların arasında orta yol tutan Əhli sünnə vəl camaat.

---

[1] Bu haqda qarşıda danışılacaq.
[2] Bax: Şeyx Əş Şinqiti "Ədvaul Bəyən" (4\200).
[3] Bax: İbn Əl Qeyyim "Mədaricus Səlikin" (2\51).
[4] Bax: Şeyxulislam İbn Teymiyyə "Məcmuu Fətəvə" (13\38).

## Birinci: Böyük günah sahiblərinə verilən adlarda onların üç qismə bölünməsi.

Vəidiyyələr (xavaric və mötəzilələr) günahkar müsəlmandan "iman" adını götürdülər. Xavariclər böyük günah sahiblərini "kafir"adlandırdılar. Mötəzilələr isə dedilər ki, böyük günah sahibi nə mömindir, nə də kafir. Bu ikisinin arasında bir yerdədir.[1]

Murciələr və cəhmiyyələr isə böyük günah sahibinin imanı kamil mömin olduğunu iddia etdilər. Çünki onlara görə iman, yalnız qəlbdə olandır və ya sadəcə qəlblə tanımaqdır. Onlar "Küfrlə yanaşı itaət fayda vermədiyi kimi, imanla yanaşı günahlar da zərər vermir"[2] deyən kəslərdir.

Əhli sünnə vəl camaat isə, böyük günah sahibini "asi mömin", "fasiq mömin" və ya "imanına görə mömin, böyük günahına görə isə fasiq" kimi adlarla adlandırırlar. Nə imanının bir hissəsinin getməsinə görə ondan iman adını tamamilə götürmürlər, nə də onun kamil mömin olduğunu demirlər.[3] Uca Allah bir-biri ilə savaşan iki (müsəlman) dəstəni mömin adlandırmışdır. Uca Allah buyurur: **"Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları barışdırın..."** ardınca buyurur: **"Möminlər, həqiqətən də, qardaşdırlar. Elə isə qardaşlarınızı barışdırın və Allahdan qorxun ki, sizə rəhm edilsin."**[4]

## İkinci: Böyük günah sahiblərinin axirət əhkamlarında olan ayrılıq.

Vəidiyyələr axirətdə böyük günah sahiblərinin Cəhənnəmdə əbədi qalacaqlarına hökm verdilər. Xəvariclər deyirlər ki, böyük günah sahibləri Cəhənnəmdə əbədi qalacaq və oradan heç vaxt çıxmayacaqlar. [5] Həmçinin mötəzilələr də deyirlər ki, böyük günah sahibləri Cəhənnəmə girəcək və əbədi olaraq orada qalacaq.[6] Bu iki firqənin sözlərinə baxanda aydın olur ki, böyük günah sahiblərinin axirətdəki hökmü barədə hər iki firqənin görüşü eynidir.

Əhli sünnə vəl camaat isə böyük günah sahiblərinin axirətdəki hökmü barədə belə deyir: Axirətdə onların cəzalandırılacağından qorxulur və onlara rəhm

---

[1] Bax: Abdulcabbar əl Mötəzili "Şərhu Uslulil Xamsə" (səh. 697).
[2] Bax: Dr. Bəkərim "Vasatiyyətu əhlis Sunnəti vəl Cəməah" (səh. 335-336).
[3] Bax: Dr. Bəkərim "Vasatiyyətu əhlis Sunnəti vəl Cəməah" (səh. 346).

[4] Hucurat, 9-10
[5] Bax: Əbul Həsən əl Əşari "Məqalətul İsləmiyyin" (1\168).
[6] Bax: AbdulCabbar əl Mötəzili "Şərhu Uslulil Xamsə" (səh. 666). Həmçinin İbn Həcər "Fəthul Bəri" (1\73).

ediləcəyinə ümid edilir. Kim cəzanı vacib edən günahlar üzərində tövbə etmədən ölərsə, onun işi Allahın istəyi altındadır. İstəsə ona əzab verər, istəsə onu bağışlayar..."[1] Əgər Allah onu bağışlayıb əzabsız və cəzasız Cənnətə daxil edərsə, bu, Allahın lütfüdür. Amma əgər onu Cəhənnəmə daxil edər və günahının miqdarında ona əzab verərsə, bu da Allahın Ədaləti ilədir. Böyük günah sahibi əgər Cəhənnəmə düşərsə, orada kafirlər kimi əbədi qalmayacaq. Onlar barədə dəlil Uca Allahın bu kəlamıdır: **"Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını bağışlamaz, bundan başqa daha kiçik günahları isə istədiyi kimsəyə bağışlayar"[2]**

### 5. Əhli sünnə vəl camaat Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* səhabələri barədə də ifrata varanlarla, onlara qarşı haqsızlıq edənlər arasında orta yoldadır.

**Səhabə,** Allahın elçisinə *(Allahın ona salavatı və salamı olsun)* iman gətirdiyi halda onunla görüşən və müsəlman olduğu halda vəfat edən kəsdir.[3]

Əhli sünnə vəl camaat Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* səhabələri haqqında da təriflməkdə həddi aşanlarla, onlara qarşı haqsızlıq edənlər arasında orta yoldadır. Həddi aşanlar, möminlərin əmiri və Həsənlə Hüseynin atası Əli ibn Əbu Talibə *(Allah ondan razı olsun)* ilahlıq xüsusiyyətlərini verən və ya onun məsum olduğunu iddia edən, ya da ki, onu Əbu Bəkr, Ömər və Osmandan *(Allah onların hamısından razı olsun)* üstün tutan kəslərdir.[4]

Digər firqələr isə əksinə səhabələrə qarşı həddi aşdılar, onlara lənət oxudular, onları kafir saydılar və ağır şeylərdə ittiham etdilər. Necə ki, xavariclər möminlərin əmiri Əli ibn Əbu Talibə *(Allah ondan razı olsun)* və bəzi səhabələrə qarşı da belə etdilər.[5] Mötəzilələr isə bir qism səhabəni fasiqlikdə ittiham etdilər və onların şahidliyini qəbul etmədilər.[6] Rafizilər isə başda Əbu Bəkr və Ömər

---

[1] Bax: Əl Ləlakəi "Şərhu Usuli İtiqadi Əhlis Sünnəti vəl Cəməah" (1\162). Və İbn Bəttah əl Ukbəri "Şərhul İbənəh" (səh. 265).
[2] Ən Nisa, 48.

[3] Bax: İbn Həcər "Əl İsabətu fi Təmyizi əs Səhabəh" (1\7).
[4] Bax: İbn Teymiyyə "Əl Furqanu bəynəl Həqqi və Bətil" (səh. 21-22).
[5] Bax: İbn Teymiyyə "Əl Furqanu bəynəl Həqqi və Bətil" (səh. 19).
[6] Bax: Xatib Əl Bağdadi "Tərixu Bəğdəd" 12\178. Və Əz Zəhəbi "Mizənul İtidəl" (4\329).

olmaqla səhabələri *(Allah onların hamısından razı olsun)* söydülər və onları kafir hesab etdilər.[1]

Əhli sünnə vəl camaat isə, bu azmış firqələr arasında orta yoldadır. Onlar səhabələri sevir, Allahdan onlar üçün razılıq diləyir, onları ədalətli hesab edir və etiqad edirlər ki, səhabələr Allahın elçisindən *(Allahın ona salavatı və salamı olsun)* sonra bu ümmətin ən fəzilətliləridir. Həmçinin etiqad edirlər ki, Uca Allah onların vasitəsilə Öz dinini qorumuş və iman əqidəsini saf və təmiz saxlamışdır.[2]

Quran və Sünnədə səhahələrin fəzilətinə dair dəlillər həddindən artıq çoxdur. Həmin dəlillərdən biri də, Uca Allahın bu kəlamıdır: "**Muhəmməd Allahın Elçisidir. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətlidirlər. Sən onları rüku edən, səcdəyə qapanan, Allahdan lütf və razılıq diləyən görərsən. Əlamətləri isə üzlərində olan səcdə izidir. Bu onların Tövratdakı vəsfidir. İncildə isə onlar elə bir əkin kimi vəsf olunurlar ki, bu əkin cücərtisini üzə çıxarıb onu qüvvətləndirmiş, o da getdikcə qalınlaşıb gövdəsi üstündə şax duraraq əkinçiləri heyran etmişdir. Allah möminlərin sayını artırır, özlərini də qüvvətləndirir ki, kafirləri qəzəbləndirsin. Allah onlardan iman gətirib yaxşı işlər görənlərə bağışlanma və böyük bir mükafat vəd etmişdir.**"[3] Həmçinin Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* bu hədisi də səhabələrin fəzilətinə dəlalət edən xüsusi dəlillərdəndir: ***"Mənim səhabələrimi söyməyin! Əgər sizdən biriniz Uhud dağı boyda qızıl sədəqə versə, onların bir ovuc və ya yarım ovuc sədəqəsinə çata bilməz."***[4]

[1] Bax: İbn Teymiyyə "Əl Furqanu bəynəl Həqqi və Bətil" (səh. 23) və Dr. Bəkərim "Vasatiyyətu əhlis Sunnəti vəl Cəməah" (səh. 406-411).
[2] Bax: Əs Sabuninin "Aqidətus Sələf Əshabul Hədis" (səh. 86, 90, 93). Və Hafiz əl Həkəmi "Ələmus Sunnətil Mənşura" (səh. 177-178).
[3] Əl Fəth, 29.
[4] Bax: Sahih Buxari, Səhabələrin fəziləti kitabı, "Allah elçisindən *(Allahın ona salavatı və salamı olsun)* sonra Abu Bəkrin fəziləti" bölümü. Sahih Muslim, Səhabələrin fəzilətləri kitabı, "Səhabələri söyməyin haram olması" bölümü.

# Birinci bölüm: Tövhid.

**Bu bölümdə giriş və ik fəsil vardır:**

**Birinci fəsil: Tövhidin növlərinin və qisimlərinin müxtəsər izahı.**

**İkinci fəsil: İbadət (uluhiyyət və ya ilahiyyət) tövhidi haqqında bəzi məsələlərin təfsilatlı araşdırması.**

# Giriş

**Özündə iki məsələni əhatə edir.**

**Birinci məsələ: Tövhidin tərifi.**

**İkinci məsələ: Tövhid həm tarix, həm də fitrət baxımından bəşəriyyətdə əsldir (başlanğıc və təməldir). Şirk isə sonradan baş vermişdir.**

## Birinci məsələ: Tövhidin tərifi

Tövhid kəlməsinin lüğəvi mənası daha öncə keçmişdir.[1]

**Tövhid kəlməsinin şəri (istilahi) tərifi:** Allahı yalnız Ona aid olan şeylərdə və bizə Özünü təkləşdirməyi əmr etdiyi hər bir işdə Onu təkləşdirməkdir. Biz Allahı mülk sahibi olmaqda, etdiyi feillərdə təkləşdiririk. Allahdan başqa Rəbb yoxdur və Onun şəriki yoxdur. Biz Allahı ilahlıqda da təkləşdiririk. Ondan başqa heç kəsin ibadət olunmağa haqqı yoxdur. Həmçinin Allahı ad və sifətlərində də təkləşdiririk. Kamilliyində Allaha tay olan və Ona  bənzər olan heç bir şey yoxdur.

[1] Bax: Bu kitabda (səh. 7).

## İkinci məsələ: Tövhid həm tarix, həm də fitrət baxımından bəşəriyyətdə əsldir. Şirk isə sonradan baş vermişdir.

**Bu məsələ üç hissədən ibarətdir:**
**Birinci: Tarix baxımından bəşəriyyətdə əsl (başlanğıc) tövhiddir.**
**İkinci: Fitrət baxımından bəşəriyyətdə əsl (təməl) tövhiddir.**
**Üçüncü: Şirk sonradan baş vermişdir.**

**Birinci hissə: Tövhid tarix baxımından bəşəriyyətdə əsldir (təməldir).**

Belə bir şübhə yayılıb ki, guya insanlar əvvəl müşrik olub, tövhid isə sonradan baş verib.

Bu fikir sahibləri iddia edirlər ki, guya insan ilk olaraq şirki və çoxallahlılığı tanımış, yalnız inkişaf etdikdən və bir çox mərhələlər keçdikdən sonra tövhid əqidəsini bilmişdir.

**Onlara cavab olaraq deyilir ki, tarix baxımından bəşəriyyətdə əsl (başlanğıc) tövhiddir. Buna dəlil aşağıdakılardır:**

1. Adəm peyğəmbərin *(Allahın ona salamı olsun)* və zürriyyətinin yaradılmasında məqsəd tək Allaha ibadət etmələri idi. Uca Allah buyurub: “**Mən cinləri və insanları ancaq Mənə ibadət etmək üçün yaratdım.**”[1]

2. İnsanların atası Adəm *(Allahın ona salamı olsun)*, anası isə Həvvadır və onların hər biri tövhid üzərində olublar. Qadağan olunmuş ağacın meyvəsindən yedikləri zaman onlar bilirdi ki, onların tövbəsini qəbul edən, günahlarını bağışlayan Rəbbi var və dərhal Ona yalvararaq belə dua etdilər: "**Ey Rəbbimiz! Biz özümüzə zülm etdik. Əgər bizi bağışlamasan və bizə rəhm etməsən, əlbəttə, ziyana uğrayanlardan olarıq**"[2]

3. Uca Allah məhz tövhidə görə Adəmi seçmiş və onu şərəfləndirmişdir. Uca Allah buyurub: “**Allah Adəmi, Nuhu, İbrahimin nəslini və İmranın nəslini seçib aləmlərdən üstün etdi.**”[3] Uca Allah mələklərə buyurmuşdur ki, Adəmə

---

[1] Əz Zariyat, 56
[2] Əl Araf, 23
[3] Əli İmran, 33

səcdə etsinlər. “**Bir zaman Biz mələklərə: "Adəmə səcdə edin!"– dedikdə, İblisdən başqa hamısı səcdə etdi. O imtina edib təkəbbür göstərdi və kafirlərdən oldu.”**[1]

4. Uca Allah, Adəm övladları hələ ataları Adəmin belində olarkən onların Rəbbi olmasına dair onlardan əhd almış və onları özlərinə şahid tutmuşdur. Bu barədə Uca Allah belə buyurub: **“Bir zaman Rəbbin Adəm oğullarının bellərindən onların törəmələrini çıxarmış və: "Mən sizin Rəbbiniz deyiləmmi?"– deyə onları özlərinin əleyhinə şahid tutmuşdu. Onlar: "Bəli, biz şahid olduq!"– demişdilər. Bu ona görədir ki, siz Qiyamət günü: "Biz bundan xəbərsiz idik!"– deməyəsiniz. Yaxud: "Atalarımız bizdən əvvəl Allaha şərik qoşmuş, biz də onlardan sonra gələn bir nəsil olmuşuq. Məgər Sən bizi batilə uyanların etdikləri əməllərə görə məhv edəcəksən?"– deməyəsiniz.”**[2]

5. Adəmin *(Allahın ona salamı olsun)* nəsli Nuh peyğəmbərin *(Allahın ona salamı olsun)* qövmündə ilk dəfə şirk baş verənə qədər on əsr boyunca xalis tövhid üzərində Allaha ibadət etmişdir. Bu haqda qabaqda danışılacaq.[3] Bu səbəbdən Uca Allah Nuhu *(Allahın ona salamı olsun)* onlara peyğəmbər göndərmiş, o da öz qövmünü yalnız Allaha ibadət etməyə dəvət etmişdir. Bu haqda Uca Allah belə buyurur: “**Biz Nuhu öz xalqına elçi göndərdik. O dedi: "Ey qövmüm! Allaha ibadət edin. Sizin Ondan başqa məbudunuz yoxdur. Mən sizə üz verəcək Böyük günün əzabından qorxuram".**[4]

6. Hər dəfə insanlar tövhiddən uzaqlaşdıqda, Uca Allah onlara, yalnız Allaha ibadət etməyi əmr edən və Ondan qeyri ibadət olunan məbudları tərk etməyə çağıran elçilər göndərirdi. Uca Allah Öz elçisinə *(Allahın ona salavatı və salamı olsun)* xitab edərək belə buyurur: “**Səndən əvvəl elə bir elçi göndərməmişik ki, ona: "Məndən başqa heç bir məbud yoxdur, yalnız Mənə ibadət edin!"– deyə vəhy etməyək.”**[5]

---

[1] Əl Bəqərə, 34

[2] Əl Əraf, 172-173

[3] Bu kitabda, “Şirk sonradan baş vermişdir” mövzusuna bax.

[4] Əl Əraf, 59

[5] Əl Ənbiyə, 25

**İkinci hissə: Tövhid fitrət baxımından insanda əsldir.**

"Fitrət" dedikdə əsl xilqət nəzərdə tutulur. Yəni Uca Allah insanı ilk dəfə yaratdıqda, onu Allaha iman gətirən və Allahı təkləşdirən olaraq – fitrət üzərində yaradır.

**Tövhid tarix baxımından bəşəriyyətdə əsl (başlanğıc və təməl) olduğu kimi, fitrət baxımından da əsldir. Buna dəlil aşağıdakılardır:**

1. Uca və Qüdrətli Allah insanları xəlq edərkən onları yaradan və yeganə haqq məbud olan Allaha iman və tövhid üzərində yaratmış və hələ atalarının belində ikən onlardan əhd almışdır. Uca Allah belə buyurub: "**Bir zaman Rəbbin Adəm oğullarının bellərindən onların törəmələrini çıxarmış və: "Mən sizin Rəbbiniz deyiləmmi?"– deyə onları özlərinin əleyhinə şahid tutmuşdu. Onlar: "Bəli, biz şahid olduq!"– demişdilər. Bu ona görədir ki, siz Qiyamət günü: "Biz bundan xəbərsiz idik!"– deməyəsiniz. Yaxud: "Atalarımız bizdən əvvəl Allaha şərik qoşmuş, biz də onlardan sonra gələn bir nəsil olmuşuq. Məgər Sən bizi batilə uyanların etdikləri əməllərə görə məhv edəcəksən?"– deməyəsiniz."**[1]

2. Uca Allah Öz elçisinə *(Allahın ona salavatı və salamı olsun)* və onun ümmətinə Allahın dinində ixlaslı olmağı və yalnız Allaha yönəlməyi əmr etmişdir. Çünki Uca Allah insanı əvvəldən bu fitrət üzərində yaratmışdır və bu, fitrətin tələb etdiyi şeydir. Uca Allah buyurub: "**Sən bir hənif kimi üzünü dinə tərəf çevir! Allahın insanlara – xəlq etdiyi şüurlu məxluq kimi verdiyi fitrət budur. Allahın yaratdığını heç cür dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların çoxu bunu bilmir."**[2]

3. Uca və Qüdrətli Allah xəbər verir ki, o qullarının hamısını həniflər kimi, Allahı təkləşdirən, Ona təslim olan, doğru yola yönələn və haqqı qəbul edən olaraq yaratmışdır. Bu, fitrətin də tələb etdiyi şeydir. Allah onları bu fitrət üzərində yaratmışdır və hələ Adəmin belində olduqları zaman onlardan əhd almışdır. Uca Allah qüdsi hədisdə belə buyurub: ***"Mən qullarımın hamısını hənifləar olaraq yaratmışam. Sonradan şeytan onları dinlərindən uzaqlaşdırır, onlar üçün halal etdiyim şeyləri onlara haram edir və haqqında heç bir dəlil***

---

[1] Əl Əraf, 172-173.
[2] Ər Rum, 30.

***nazil etmədiyim şeyləri Mənə şərik qoşmağı əmr edir."*** [1] İnsanların hamısı fitrətən müsəlman kimi və doğru iman üzərində yaradılıblar. Lakin fitrətlərinin pozulmasında və korlanmasında şeytanların rolu vardır. Sağlam fitrəti doğru yoldan uzaqlaşdıran yeniliklər ortaya çıxdıqda, onu doğru yola qayataran və azmasına səbəb olan şeyləri dəf edən kəslərə ehtiyac yaranır. Elçilərin *(Allahın onlara salavatı və salamı olsun)* vəzifəsi də məhz budur.

4. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* xəbər vermişdir ki, doğulan hər bir uşaq İslama uyğun şəkildə doğulur."[2] O, *(Allahın ona salavatı və salamı olsun)* belə buyurub: ***"Doğulan elə bir uşaq yoxdur ki, fitrət üzərində doğulmasın. Sonradan valideynləri onu ya yəhudi edir, ya xristian edir, ya da atəşpərəst edir. Necə ki, heyvan bala verdikdə, əzaları tam olan bala verir. Siz heç mal-qaranın əzaları kəsilmiş bala doğduğunu görmüsünüz?"*** Sonra bu hədisi rəvayət edən Əbu Hureyra *(Allah ondan razı olsun)* deyir ki, əgər istəsəniz bu ayəni oxuyun: **"Sən bir hənif kimi üzünü dinə tərəf çevir! Allahın insanlara – xəlq etdiyi şüurlu məxluq kimi verdiyi fitrət budur. Allahın yaratdığını heç cür dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların çoxu bunu bilmir."** [3] [4] İnsanlar fitrət üzərində doğulur. Fitrət isə imam Əl Məzəriyyinin dediyi kimi, insanlar atalarının belində olduqları zaman onlardan alınan əhddir. Dünyaya gəldikdə insan bu fitrət ilə doğulur və valideynləri onu dəyişmədikcə bu fitrət üzərində yaşayır".[5] Əgər insan əsl xilqəti üzərində, Allahın onu yaratdığı fitrət üzərində tərk olunsa və kənar müdaxilələrin ona təsiri olmasa, o mütləq iman gətirər və təslim olar ".[6] İnsan fitrətinin dəyişdirilməsi, əsasən şeytanın əməlindən, vəsvəsəsindən və aldatmasından irəli gəlir.

5. Dünyaya gələn hər kəs qəbul edir ki, onun Yaradanı və Rəbbi Allahdır, hətta Allahdan başqasına ibadət etsə belə. Uca Allah belə buyurub: "**Əgər sən onlardan: "Göyləri və yeri yaradan, günəşi və ayı ram edən kimdir?"– deyə soruşsan, onlar mütləq: "Allahdır!"– deyəcəklər. Onlar necə də haqdan**

---

[1] Sahih Muslim, Cənnət və onun əhlinin və nemətlərinin vəsfi kitabı, "Dünyada Cənnət və Cəhənnəm əhlini bildirən sifətlər" bölümü.
[2] İmam ən Nəvəvi, Sahih Muslimə olan şərhində demişdir. (16\208).
[3] Ər Rum, 30
[4] Sahih Muslim, Kitabul Qadər, "Hər uşaq fitrət üzərində doğulur" bölümü.
[5] İmam ən Nəvəvi Sahih Muslimə olan şərhində ondan nəql etmişdir. (16\208).
[6] Bax: "Təfsirul Bağavi" (6\208).

**döndərilirlər!"**[1] **"Əgər onlardan özlərini kimin yaratdığını soruşsan, əlbəttə: "Allah!"– deyərlər. Gör necə də haqdan döndərilirlər!"**[2] **"Əgər sən onlardan: "Göydən yağış nazil edib onunla yeri quruduqdan sonra canlandıran kimdir?"– deyə soruşsan, onlar mütləq: "Allahdır!"– deyəcəklər. De: "Həmd olsun Allaha!" Lakin onların çoxu bunu başa düşmür"**[3] Fitrət, rububiyyət tövhidinə dəlalət edir.

6. Fitrət, uluhiyyət tövhidinə də dəlalət edir. Çünki rububiyyət tövhidi, uluhiyyət tövhidini gərəkdirir. Kim yəqinliklə inansa ki, onun Rəbbi, onu yaradan, ruziləndirən və bütün işlərini idarə edən Allahdır, o kəs ibadəti də mütləq tək Allaha yönəltməlidir. Uca Allah buyurub: "**Ey insanlar! Sizi və sizdən öncəkiləri yaratmış Rəbbinizə ibadət edin ki, bəlkə Allahdan qorxasınız. O, sizin üçün yer üzünü döşəmə, göyü isə tavan etdi Göydən su endirib onunla sizin üçün növbənöv məhsullardan ruzi yetişdirdi Siz də bunu bildiyiniz halda heç kəsi Allaha şərik qoşmayın".**[4] Əgər insan iman etsə ki, yaradan, ruzi verən, öldürən, diriIdən, bəxş edən, məhrum edən, xeyir verən, zərər verən və bütün işləri idarə edən yalnız Allahdır, hər bir iş Onun əlindədir və Ona qayıdır, nəticədə bu iman onu, məhz Allahın haqq məbud olduğunu və Onun şəriksiz olduğunu etiqad etməyə və qəlbində sevgi, tövbə, zəlillik, qorxu və təvəkkül ilə yalnız Allaha boyun əyməyə aparıb çıxaracaq. Belə ki, insan özü kimi məxluqa necə ibadət edə bilər?! Necə ola bilər ki, insan heç özü üçün nə xeyirə, nə də zərərə malik olmayan məxluqa ibadət etsin, ondan qorxsun, onu ibadət sevgisi ilə sevsin və ya ona təvəkkül etsin?!

### Üçüncü hissə: Bəşəriyyətdə şirk sonradan baş vermişdir.

Əvvəlki mövzulardan başa düşdük ki, şirk bəzilərinin iddia etdiyi kimi insanda əsl (başlanğıc və təməl) deyil, əksinə haqdan və fitrətdən uzaqlaşmaqdır və insanlar arasında sonradan çıxan bir şeydir. Buna aid dəlillərdən;

1. İlk insanlar, yəni Adəm peyğəmbərin *(Allahın ona salavatı və salamı olsun)* nəsli fitrət üzərində doğulmuşdu. Fitrət Uca və Qüdrətli Allahın qulları üçün

---

[1] Əl Ənkəbut, 61
[2] Əz Zuxruf, 87
[3] Əl Ənkəbut, 63
[4] Əl Bəqərə, 21-22

seçdiyi və razı qaldığı İslam dinidir.[1] Onlar on əsr boyunca tövhid və İslam üzərində yaşamışdılar.[2]

2. İbn Abbas *(Allah ondan və atasından razı olsun)* Uca Allahın **"İnsanlar tək bir ümmət idi..."**[3] ayəsinin təfsirində deyir ki, Adəm peyğəmbərlə Nuh peyğəmbər *(Allahın onlara salavatı və salamı olsun)* arasında on əsr var idi. Bu müddət ərzində yaşayanların hamısı İslam üzərində idilər.[4] Əvvəldən insanlar tövhid üzərində yaşayıblar. Uca Allah Adəmi *(Allahın ona salamı olsun)* yaratdığı vaxtdan, Nuh peyğəmbərin *(Allahın ona salamı olsun)* qövmündə ilk dəfə şirk ortaya çıxan vaxta qədər min il ərzində insanlar tövhid üzərində olublar.

3. İnsanlar arasında ilk dəfə şirk Nuh peyğəmbərin (*Allahın ona salamı olsun*) qövmündə baş vermişdir. Onların öz dinlərini tərk etmələrinin və küfrə düşmələrinin səbəbi isə saleh insanlar barədə həddi aşmaları, öz məbudlarına təəssübkeşlik etmələri və onların yanında yığışıb Allaha ibadət etmələri olmuşdur. Onlar öz məbudları barədə belə deyirdilər: "**Siz öz məbudlarınızı tərk etməyin; Vəddi, Suvanı, Yəğusu, Yəuqu və Nəsri tərk etməyin!**"[5] İbn Abbas *(Allah ondan və atasından razı olsun)* belə demişdir: "Bu adlar Nuh qövmündə yaşamış saleh insanların adları idi. Onlar vəfat etdikdən sonra şeytan Nuh qövmünə vəsvəsə verdi ki, öz məclislərində həmin saleh insanların heykəllərini qoysunlar və bu heykəlləri onların adları ilə adlandırsınlar. Onlar belə də etdilər, amma o zaman hələ onlara ibadət edilmirdi. Nəhayət, həmin nəsil ölüb getdi və elm aradan qalxdı, onlardan sonra gələn insanlar bu heykəllərə ibadət etməyə başladılar ".[6] İbn Abbasın dediyi kimi, bəşəriyyətdə şirk sonradan ortaya çıxmışdır. İlk dəfə şirk Adəm peyğəmbərdən *(Allahın ona salamı olsun)* min il sonra, Nuh peyğəmbərin *(Allahın ona salamı olsun)* qövmündə baş vermişdir.

4. Sonra Uca Allah ard-arda elçilər göndərmişdir. Hər dəfə insanlar haqq yoldan azdıqda və tövhiddən uzaqlaşdıqda onları doğru yola qaytarmaq və zəlalətdə olduqlarını onlara başa salmaq üçün Allah onlara elçilər göndərirdi ki,

---

[1] Bax: Dr. Kəməl Muhamməd İsa "Kəlimətu fil Əxlaqil İsləmiyyəh" (səh. 83).
[2] Bax: Hafiz əl Həkəminin "Məaricul Qəbul" (2\678). Və Şeyx əş Şinqitinin "Ədvəul Bəyən" (1\286).
[3] Əl Bəqərə, 213
[4] Bax: Ət Tabarinin təfsiri (2\334). Həmçinin Həkim "Mustədrək" (2\442) əsərində rəvayət edib və deyib ki, bu hədis səhihdir və Buxarinin şərtlərinə uyğundur.
[5] Nuh, 23
[6] Sahihul Buxari, təfsir kitabı, "Vəddi, Suvaı, Yəğusu, Yəuqu" bölümü.

haqqa qayıtsınlar. Uca Allah buyurur: “**Biz hər ümmətə: "Allaha ibadət edin, tağutdan uzaq olun"– deyə, elçi göndərdik”.**[1]

**Xülasə:** Tövhid bəşəriyyətdə əsldir (başlanğıc və təməldir), şirk isə sonradan baş vermişdir.

[1] Ən Nəhl, 36.

# Birinci fəsil: Tövhidin növləri

**Bu fəsil giriş və üç mövzudan ibarətdir.**

**Birinci mövzu: Rububiyyət tövhidi.**

**İkinci mövzu: Ad və sifətlər tövhidi.**

**Üçüncü mövzu: Uluhiyyət tövhidi.**

# Giriş

**Bil ki, tövhidin üç qismi var.**[1]

Bu qisimlər şəri dəlilləri hərtərəfli araşdırmaqla məlum olub və bəzi dəlillər də buna dəlalət edir.

Şeyx Muhəmməd Əl Əmin Əş Şinqiti *(Allah ona rəhmət etsin)* belə deyir: "Quranı hərtərəfli öyrənib araşdırdıqda məlum olur ki, tövhid üç qismə ayrılır."

**Birinci:** Allahı Rububiyyətində təkləşdirmək. İnsanlar fitrətən tövhidin bu qismi üzərində yaradılıb.

**İkinci:** Allahı ibadətlərdə təkləşdirmək. Tövhidin bu qismi isə, "Lə iləhə illəllah" kəlməsinin mənasını həyata keçirməkdir və o, inkar və təsdiqdən ibarətdir.

**Üçüncü:** Allahı ad və sifətlərində təkləşdirmək".[2]

**Deməli tövhidin üç qismi var.**

Tövhidin bu üç qismi Uca və Qüdrətli Allahın kitabında bir ayədə cəm olub. Uca Allah buyurur: "**O, göylərin, yerin və onların arasında olanların Rəbbidir! Elə isə yalnız Ona ibadət et və Ona ibadətdə səbirli ol! Heç Ona oxşarını tanıyırsanmı?!**"[3]

Şeyx Muhəmməd İbn Saleh Əl Useymin *(Allah ona rəhmət etsin)* bu ayəni izah edərək belə buyurur: "**O, göylərin, yerin və onların arasında olanların Rəbbidir!**" Bu, rububiyyət tövhididir. **"Elə isə yalnız Ona ibadət et və Ona ibadətdə səbirli ol!"** Bu, uluhiyyət tövhididir. "**Heç Ona oxşarını tanıyırsanmı?!"** Bu isə ad və sifətlər tövhididir. Yəni Uca və Qüdrətli Allahın tayı-bərabəri və bənzəri yoxdur".[4]

Tövhidin qisimlərini öyrəndikdən sonra bu qisimlərin hər birini müxtəsər izah edəcəyik.

---

[1] Bax: Siddiq Həsən Xan "Əd Dinul Xalis" (1\56).

[2] Bax: Şeyx Əş Şinqiti "Ədvəul Bəyən" (3\410-411).

[3] Məryəm, 65

[4] Bax: İbn Useymin "əl Cəvəbul Mufid fi Bəyəni Əqsamit Tövhid" (səh. 9)

## Birinci mövzu: Rububiyyət tövhidi

Bu mövzunu izah etmək üçün bir neçə məqama toxunacağıq.

### Birinci məqam: "Rəbb"sözünün lüğəvi mənası.

Lüğəvi cəhətdən Rəbb sözünün bir çox mənaları var. Bu mənalardan biri də, tərbiyə edən, sahib olan deməkdir. Bir şeyin rəbbi, onun sahibi, ona haqqı çatan və ona sahib olan kəsdir.[1]

### İkinci məqam: Rububiyyət tövhidinin şəri (istilahi) mənası:

Şəri cəhətdən etiqad etmək, qəti şəkildə inanmaq və etiraf etməkdir ki, hər şeyin Rəbbi, sahibi, hər şeyi yaradan, ruziləndirən, öldürən, dirildən, fayda və zərər verən, dua edənin duasına cavab verən tək Allahdır, bütün işlər Allaha məxsusdur və bütün xeyirlər Onun əlindədir, bütün işlər sonda Ona qayıdacaq və bütün bunlarda Onun şəriki və ortağı yoxdur.[2]

### Üçüncü məqam: Rububiyyət tövhidinə iman gətirmək nəyi tələb edir?

**Rububiyyət tövhidini həyata keçirmək üçün aşağıdakılar tələb olunur:**

1. İlk öncə Allahın varlığına iman gətirmək.
2. Rububiyyətdə Allahı təkləşdirmək.
3. Allahın yaratmaq, ruziləndirmək, fayda vermək, zərər vermək, əta etmək, məhrum etmək, öldürmək və diriltmək kimi ümumi feillərinə iman gətirmək.
4. Allahın qəza və qədərinə iman etmək. Çünki Allah kainatda nə idarə edib və nə təqdir edibsə, hamısı Allahın feillərindəndir.
5. Allahın uluhiyyətinə iman gətirmək. Haqq məbud yalnız Allahdır və Onun şəriki yoxdur. (Çünki rububiyyət tövhidi uluhiyyət tövhidini gərəkdirir).

### Dördüncü məqam: Rububiyyət tövhidinə aid bəzi şəri dəlillərin xatırlanması.

Qurani Kərim rububiyyət tövhidinə aid dəlillərlə zəngindir. Uca Allahın bu ayəsi həmin dəlillərdəndir: **"Həmd olsun aləmlərin Rəbbi Allaha"**[3] Həmçinin

---

[1] Əl Covhəri "Əs Sihəh" (1\130). Həmçinin Feyruz Əl Əbədi "əl Qamusul Muhit" (səh. 111)
[2] Bax: Şeyx Suleyman ibn Abdullah İbn Muhamməd ibn Abdulvahhab "Təysirul Azizil Həmid" (səh. 33)
[3] Əl Fatihə, 2

bu ayəsi: "**Həqiqətən də, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birilə əvəz olunmasında, insanlara fayda verən şeylərlə yüklənmiş halda dənizdə üzən gəmilərdə, Allahın göydən endirdiyi, onunla da ölmüş torpağı diriltdiyi suda, Onun bütün heyvanatı yer üzünə yaymasında, küləklərin istiqamətinin dəyişdirilməsində və göylə yer arasında ram edilmiş buludlarda, başa düşən insanlar üçün dəlillər vardır."**[1] Həmçinin bu ayəsi: "**Bir şeyi yaratmaq istədikdə ona təkcə: "Ol!" deyər, o da olar."**[2] Həmçinin bu ayəsi: "**Həqiqətən, Allah ruzi verəndir, qüvvət sahibidir, Mətindir."**[3]

Həmçinin Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* sünnəsində də rububiyyət tövhidinə dəlalət edən dəlillər çoxdur. Bu hədislərdən Peyğəmbərin *(Allahın ona salavatı və salamı olsun)* öz əmisi oğlu İbn Abbasa *(Allah ondan və atasından razı olsun)* dediyi sözdür: ***"Bil ki, əgər bütün camaat sənə bir mənfəət vermək üçün bir yerə toplansa, Allahın sənin üçün yazdığı mənfəətdən başqa bir mənfəət verə bilməz. Əgər onlar sənə bir zərər vermək üçün bir yerə toplansalar, Allahın sənin üçün yazdığı zərərdən başqa bir zərər verə bilməzlər. Qələmlər qaldırılıb, səhifələr də quruyub.***[4] Həmçinin möminlərin anası Cuveyriyyə *(Allah ondan razı olsun)* rəvayət edir ki, bir gün Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* sübh namazı vaxtı onun evindən çıxdı, o isə namaz qıldığı yerdə oturmuşdu. Sonra o duha vaxtı geri qayıtdı, amma qadın hələ də öz yerində idi. O belə dedi: ***"Sən hələ də mən səni qoyub getdiyim vəziyyətdə qalmısan? Dedi ki, bəli. Peyğəmbər (Allahın ona salavatı və salamı olsun) belə dedi: "Mən səndən sonra üç dəfə elə dörd kəlmə söylədim ki, əgər onlar sənin bu gün ərzində dediklərinlə tərəzidə ölçülsəydi, bu kəlmələr sənin dediklərindən ağır gələrdi. Bunlar: "Subhənallahi və bihəmdihi, adədə xalqihi və rida nəfsihi və zinətə arşihi və midədə kəlimətihi" sözləridir.***[5] ( Mənası: Yaratdıqlarının sayı, Özünün razı qaldığı, Ərşinin ağırlığı və kəlmələrinin çoxluğu qədər həmd edərək Allaha təriflər deyirik.) Həmçinin Huzeyfə İbn Əl Yəmən *(Allah ondan razı olsun)* belə deyir: "Allahın elçisi *(Allahın ona salavatı və salamı olsun)* yatağına girdikdə belə

---

[1] Əl Bəqərə, 164
[2] Yə Sin, 82
[3] Əz Zariyat, 58
[4] Əhməd "Musnəd" (2669). Tirmizi "Əl Cəmius sahih"(2706). Şeyx Albani "Səhih Sunən ət Tirmizi" əsərində səhih olduğunu deyib.
[5] Səhih Muslim (7088)

deyərdi: ***“Allahım, Sənin adınla ölür və dirilirəm”.*** Yuxudan qalxdıqda isə belə deyərdi: ***“Öldürdükdən sonra bizi diriltdən Allaha həmd olsun, dönüş Onadır.”***[1]

## Beşinci məqam: Fitrətin rububiyyət tövhidinə dəlalət etməsi.

Ağıl sahiblərinin fitrəti rububiyyət tövhidini qəbul edir. Belə ki, Uca və Qüdrətli Allah insanları rububiyyət tövhidi üzərində yaratmışdır və onlar, Allahın yaradan, ruziləndirən, diriltdən və öldürən olmasını qəbul edirlər. Uca Allah Öz kitabında müşriklərin rububiyyət tövhidini qəbul etdiklərini bildirmişdir: “**Əgər sən onlardan: "Göyləri və yeri yaradan, günəşi və ayı ram edən kimdir?"– deyə soruşsan, onlar mütləq: "Allahdır!"– deyəcəklər. Onlar necə də haqdan döndərilirlər!”**[2] **“Əgər onlardan özlərini kimin yaratdığını soruşsan, əlbəttə, "Allah!"– deyərlər. Gör necə də haqdan döndərilirlər!”**[3] **“Əgər sən onlardan: "Göydən yağış nazil edib onunla yeri quruduqdan sonra canlandıran kimdir?"– deyə soruşsan, onlar mütləq: "Allahdır!"– deyəcəklər. De: "Həmd olsun Allaha!" Lakin onların çoxu bunu başa düşmür.”**[4] Beləliklə, onlar yaratmaq, həyat vermək, öldürmək, ruziləndirmək, idarə etmək, yağış yağdırmaq kimi işləri Allaha nisbət edirlər.

## Altıncı məqam: Müşriklərin rububiyyət tövhidində mövqeyi.

Bundan öncəki bölümdə müşriklərin rububiyyət tövhidini qəbul etdiklərini qeyd etmişdik. Buna baxmayaraq Uca Allah onların kafir və müşrik olduqlarına dair hökm vermişdir. Uca Allah buyurur: “**Onların çoxu ancaq şərik qoşaraq Allaha iman gətirir.”**[5] Fikir versəniz, Uca Allah bu ayədə onların müşrik olmalarına dair hökm verməklə yanaşı, onlara iman da nisbət etmişdir. Uca Allahın onlara iman nisbət etməsi, onların “Bizi Allah yaradıb, ruziləndirir və öldürür…” demələrinə görə idi. Onlar buna iman gətirirdilər, lakin bununla yanaşı ibadətdə başqasını Allaha şərik qoşurdular. Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* zamanında olan müşriklər tövhidin bu növünü qəbul edirdilər, eləcə də digər ümmətlər qəbul ediblər. Ya bunu həm zahirən, həm də

---

[1] Səhih Buxari “Dualar kitabı” (6312) “Tövhid kitabı” (7394).
[2] Əl Ənkəbut, 61
[3] Əz Zuxruf, 87
[4] Əl Ənkəbut, 63
[5] Yusuf, 106

daxilən qəbul edirdilər. Ya da zahirdə inkar etmələrinə baxmayaraq, daxildə qəbul edirdilər. Uca Allah, Firon və onun qövmü barədə xəbər verir ki, onlar zahirdə inkar etsələr də, qəlblərində bunu təsdiq edirdilər: "**Buna qəti inandıqları halda, haqsızcasına və təşəxxüslə onları inkar etdilər."**[1] [2]

## Yeddinci məqam: İnsanın islama daxil olması üçün təkcə rububiyyət tövhidini qəbul etməsi kifayətdirmi?

**Xeyr!** İnsanın yalnız rububiyyət tövhidini qəbul etməsi onu İslam dininə daxil etmir. Buna görə də Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* rububiyyət tövhidini qəbul edən, ibadəti isə Allahdan başqasına edən müşriklərlə mübarizə aparırdı.

[1] Ən Nəml, 14

[2] Bax: İbn Əbil İzz Əl Hənəfi "Şərhu Əl Əqidətu Ət Tahaviyyəh" (1\25-27). Və Muhəmməd ibn İbrahim əl Həməd "Tovhid Ər Rububiyyəh" (səh. 14-15).

## İkinci mövzu: Ad və sifətlər tövhidi

Ad və sifətlər tövhidi tövhidin üç növündən biridir. İki məqama toxunaraq bu haqda müxtəsər danışmaq olar.

### Birinci məqam: Ad və sifətlər tövhidinin tərifi.

Ad və sifətlər tövhidi Uca Allahın Qurani Kərimdə və Elçisinin *(Allahın ona salavatı və salamı olsun)* dili ilə Özünü adlandırdığı adlarda və vəsf etdiyi sifətlərdə təkləşdirməkdir. Uca Allahın Özü üçün təsdiq etdiyi ad və sifətləri təhrif etmədən, inkar etmədən, keyfiyyət vermədən və bənzətmədən təsdiq edirik, inkar etdiyini də inkar edirik.1

### İkinci məqam: Ad və sifətlər tövhidində Əhli sünnə və camaatda olan bəzi üsullar haqqında.

Əhli sünnə və camaata görə ad və sifətlər tövhidi aşağıdakı üsullar üzərində qurulur:

1. Uca Allahı məxluqlara bənzəməkdən münəzzəh tutmaq. Allahın nə zatında, nə sifətlərində, nə də fellərində heç bir bənzəri yoxdur. [2] Uca Allah Özü haqqında xəbər verərək belə buyurub: "**Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir.**"[3]

2. Uca Allahın Özünü vəsf etdiyi, həmçinin Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* Allahı vəsf etdiyi bütün vəsflərin Allahın kamilliyinə və əzəmətinə layiq şəkildə, məcazi deyil, həqiqi mənada olmasına iman etmək. Allahın sifətlərini məxluqların sifətlərinə bənzətmək icazəli deyil, eyni zamanda Allahın Özünü vəsf etdiyi sifətləri inkar etmək də icazəli deyil. Az öncə qeyd etdiyimiz ayəyə diqqət yetirsəniz, onun iki hissədən ibarət olduğunu görərsiniz. Ayənin birinci hissəsi Allahın sifətlərini məxluqların sifətlərinə bənzədənlərə cavabdır: **"Onun heç bir bənzəri yoxdur"**. Ayənin ikinci hissəsi isə Allahın sifətlərini inkar edənlərə cavabdır: **"O, Eşidəndir, Görəndir".**

---

[1] Bax: İbn Teymiyyə "Məcmuul Fətəvə" (3\3) və "Risələtut Tədmuriyyəh" (səh. 7). Əs Səfəreyni "Ləvəmiul Ənvəril Bəhiyyəh" (1\129). Şeyx Muhamməd Saleh Əl Useymin "Məcmuus Səmin" (2\12). Və şeyx Saleh əl Ətram "Əl Əsilətu vəl Əcvibətu fil Aqidəh" (səh.22).
[2] Bax: İbn Teymiyyə "Dərut Təarudil Aqli vən Nəql"(1\117). Və "Risələtu əl Mədəniyyəh" (səh.31).
[3] Əş Şura, 11.

3. Allahın sifətlərinin keyfiyyətini dərk etmək istəyini tərk etmək. Çünki Uca Allah Özü haqqında nə xəbər veribsə, qullar onun keyfiyyətini dərk edə bilmirlər. Çünki onların ağılları, Uca və Qüdrətli Allahın sifətlərinin keyfiyyətini dərk etməkdən acizdir, dilləri də Onun sifətlərinin keyfiyyətini izah edə bilməz.[1]

[1] Bax: İbn teymiyyə "Məcmuul Fətəvə" (12\575).

## Üçüncü mövzu: Uluhiyyət tövhidi.

### Giriş

Rububiyyət tövhidi, ad və sifətlər tövhidi ilə eyni cinsdəndir. Tövhidin bu iki növü ancaq etiqadla bağlıdır və uluhiyyət tövhidində olduğu kimi əməllərlə bağlı deyil. Buna görə də bəzi alimlər tövhidin bu iki növünə bir ad verərək "bilmək və təsdiq ettmək tövhidi" və ya "elm və xəbər tövhidi" adlandırıblar. Çünki mömindən tələb olunan Uca və Qüdrətli Allahın fellərini, adlarını və sifətlərini bilmək və təsdiq etməkdir.

Uluhiyyət və ya ibadət tövhidi isə əməllərdə Allahı təkləşdirməkdir. Tövhidin bu növündə müəyyən əməlləri yerinə yetirmək əmr olunub və bu əməllər yalnız Allah üçün edilməlidir. Həmçinin müəyyən əməllər qadağan olunub və bu əməllər yalnız Allah üçün tərk olunmalıdır. Bu da məqsəddə və qayədə təkləşdirməkdir. Tövhidin bu növündə yalnız Allaha ibadət etməyə və başqa məbudları tərk etməyə çağırış vardır.[1]

Uluhiyyət tövhidi haqqında danışmağa daha çox ehtiyac vardır. Çünki elçilərlə qövmləri arasında olan savaş məhz tövhidin bu növünü həyata keçirməkdən ötrü olmuşdur. Bu mövzu haqqında qarşıda ətraflı danışsaq da, bu fəsildə onunla əlaqəli bəzi məqamlara toxunacağıq:

### Birinci məqam: "İlah" sözünün lüğəvi mənası.

İlah sözünün mənası, ibadət olunan deməkdir. Bir şeyə ibadət etmək, onu ilahlaşdırmaq mənasına gəlir. İbadət olunan hər bir şey ona ibadət edənlər üçün ilahdır.[2]

### İkinci məqam: Uluhiyyət tövhidinin tərifi.

Alimlər "uluhiyyət" tövhidini belə izah etmişlər: "Allahı zahiri və batini söz və əməllərdən ibarət olan bütün ibadətlərdə təkləşdirmək və kimliyindən asılı olmayaraq, Allahdan başqasına ibadət etməyi inkar etməkdir."[3]

---

[1] Bax: İbn Əbil İzz Əl Hənəfi "Şərhul Əqidəti Ət Tahaviyyəh." (1\42-43)
[2] Bax: Əl Covhəri "Əs Sihəh" (6\2223). Feyruz Əl Əbədi "əl Qamusul Muhit" (1603)
[3] Bax: Şeyx Hafiz Əl Həkəmi "Ələmus Sunnətil Mənşura" (səh. 51) və şeyx İbn Useymin "Məcmuus Səmin"(2\11).

## Üçüncü məqam: Uluhiyyət tövhidinin tövhidin digər növləri arasında yeri.

Elçilərin *(Allahın salavatı onların üzərinə olsun)* ən birinci dəvəti uluhiyyət tövhidinə olmuşdur[1] və onlar elə məhz bu tövhidə dəvət etmək üçün göndərilmişlər. Uca Allah buyurur: “**Biz hər ümmətə: ”Allaha ibadət edin və tağutdan uzaq olun” – deyə elçi göndərdik.”**[2]

Uca Allah tövhidin bu növünə görə kitablar nazil edib. Uca Allah buyurub: **“Səndən əvvəl elə bir elçi göndərməmişik ki, ona: “Məndən başqa heç bir məbud yoxdur, Mənə ibadət edin!”– deyə vəhy etməyək.”**[3]

Allahı təkləşdirənlərlə müşrikləri bir-birindən fərqləndirən məhz uluhiyyət tövhididir. Dünyada və Axirətdə mükafat və cəza da tövhidin bu növünə görə verilir. Şeyxulislam İbn Teymiyyə *(Allah ona rəhmət etsin)* belə deyib: “Tövhid şirkin əksidir. Əgər qul, Allahın haqqı olan tövhidi gerçəkləşdirər və Allaha heç nəyi şərik qoşmadan ibadət edərsə, o, müvahhid (Allahı təkləşdirənlərdən) olar.”[4]

Məhz bu tövhidə görə Allah elçisinə *(Allahın ona salavatı və salamı olsun)* kafirlərlə döyüşmək əmr olunmuşdur. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurub: ***“Mənə insanlar “Lə iləhə illəllah” şəhadətini deyənə, mənə və mənim gətirdiklərimə iman edənə qədər onlarla vuruşmaq əmr olunmuşdur. Əgər bunu etsələr, canlarını və mallarını məndən qorumuş olarlar. İslamın haqqı müstəsnadır. Onların haqq-hesabı isə Allaha aiddir.”***[5]

“Lə iləhə İlləllah” şəhadəti elə uluhiyyət tövhididir. Bu barədə qarşıda danışacağıq.

## Dördüncü məqam: Uluhiyyət tövhidinə dair şəri dəlillər.

İbn Teymiyyə *(Allah ona rəhm etsin)* belə deyib: “İbadətdə və yardım diləməkdə Allahı təkləşdirmək, Allah üçün ixlaslı olmaq barədə Quranda dəlillər çoxdur.”[6]

---

[1] Bax: ibn əl Qeyyim “Mədəricus Səlikin” (3\443). Və İbn Əbil İzz Əl Hənəfi “Şərhul Əqidətu Ət Tahaviyyəh.”( 1\21).
[2] Ən Nəhl, 36
[3] Əl Ənbiyə, 25
[4] Bax: Şeyxulislam ibn Teymiyyə “Məcmuul Fətəvə” (1\52-53).
[5] Bax: Sahih Muslim, İman Kitabı, “İnsanlarla “Lə iləhə illəllah Muhamməədən rasulullah” deyənə qədər vuruşmaq” bölümü.
[6] Bax: İbn Teymiyyə  “Məcmuul Fətəvə” (1\70).

Uca Allah belə buyurub: **“Allaha ibadət edin və heç bir şeyi Ona şərik qoşmayın!”**[1] Həmçinin belə buyurub: **“Rəbbin yalnız Ona ibadət etməyi əmr etmişdir”**[2] Eyni zamanda belə buyurub: **“Halbuki onlara dini məhz Allaha məxsus edərək, həniflər kimi ibadət etmək, namaz qılmaq və zəkat vermək əmr olunmuşdu.”**[3] Başqa ayədə belə buyurub: **“De: "Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah üçündür! Onun heç bir şəriki yoxdur. Mənə belə buyurulmuşdur və mən müsəlmanların birincisiyəm”**[4]

Həmçinin buna Sünnədən də dəlillər çoxdur və mən yalnız bir hədislə kifayətlənəcəyəm. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* Muaz ibn Cəbələ *(Allah ondan razı olsun)* belə demişdir: ***“Ey Muaz! Allahın qulları üzərində, qulların da Allah üzərində olan haqqı nədir bilirsənmi?”*** Muaz dedi ki, Allah və Onun elçisi daha yaxşı bilir. O, belə dedi: ***“Allahın qulları üzərində haqqı odur ki, Ona ibadət etsinlər və heç nəyi Ona şərik qoşmasınlar. Qulların da Allah üzərində haqqı odur ki, Ona heç nəyi şərik qoşmadan ibadət edənlərə əzab verməsin.”***[5]

### Beşinci məqam: Tövhidin digər iki növünü qəbul edən, lakin uluhiyyət tövhidinə əməl etməyən kəsin hökmü.

Tövhidin digər iki növünü qəbul etsə belə, uluhiyyət tövhidinə əməl etməyən kəs İslama daxil olmur. “Əgər bir şəxs iman etsə ki, yaradan, mülk sahibi olan, bütün işləri idarə edən yalnız Uca və Qüdrətli Allahdır, həmçinin Allahın ad və sifətlərinə iman gətirsə, lakin ibadətdə Allaha şərik qoşsa, rububiyyət tövhidini və ad və sifətlər tövhidini qəbul etməsi ona fayda verməz.”[6] Həmçinin ibadətin bir qismini Uca və Qüdrərtli Allahdan başqası üçün sərf etmək də bura daxildir. Çünki Uca Allah belə buyurub: **“Həqiqətən də, Allaha şərik qoşan kimsəyə**

---

[1] Ən Nisa, 36
[2] Əl İsra, 23
[3] Əl Beyyinə, 5
[4] Əl Ənam, 162-163.
[5] Bax: Sahih Əl Buxari, “Tövhid kitabı”, “Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* öz ümmətini tövhidə dəvət etməsi barədə gələn rəvayətlər” bölümü. Sahih Muslim, “İman kitabı”, “Tövhid üzərində ölən hər kəs Cənnətə daxil olacaq” bölümü. Buradakı ləfz Muslimin rəvayətindəndir.
[6] Bax: Şeyx İbn Useymin “Məcmuus Səmin” (2\12).

**Allah Cənnəti haram etmişdir və onun sığınacağı yer Oddur. Zalımlara kömək edən olmayacaqdır”.**[1]

## Altıncı məqam: Rububiyyət tövhidi ilə uluhiyyət tövhidi arasında olan bağlılıq.

Əhli sünnə alimləri *(Allah onlardan vəfat edənlərə rəhmət etsin və sağ olanları qorusun)* bu iki növ tövhidin birinin digərini gərəkdirməsi və ya əhatə etməsi baxımından arasında olan bağlılıq barədə çox danışıblar.

İbn Əl Qeyyim *(Allah ona rəhmət etsin)* belə deyib: “Bütün elçilər öz qövmlərini uluhiyyət tövhidinə dəvət ediblər. Bu da ibadətdə və ilahlıqda Allahı təkləşdirməkdir. Müşriklər rububiyyət tövhidini qəbul edirdilər və Uca Allah qəbul etdikləri bu tövhidi onlara qarşı dəlil gətirirdi. Çünki rububiyyət tövhidini qəbul etmələri, onlardan uluhiyyət tövhidini də qəbul etməyi tələb edir.”[2]

Muhəmməd Əmin Əş Şinqiti *(Allah ona rəhmət etsin)* belə deyir: “Qurani Kərimdə kafirlərin rububiyyət tövhidini etiraf etmələri bir çox yerdə onlara qarşı dəlil gətirilir ki, ibadətdə də Allahı təkləşdirmək onlara vacibdir. Çünki rububiyyət tövhidini qəbul etmək uluhiyyət tövhidini də qəbul etməyi gərəkdirir. Bu səbəbdən Uca Allah onların dilindən iqrar almaq və etiraflarını üzə çıxarmaq üçün onlardan rububiyyət tövhidi barədə soruşur. Rububiyyət tövhidini təsdiq etdikləri zaman bunu onlara qarşı dəlil gətirir ki, ibadət olunmağa da yalnız Allah layiqdir. Allahın Rəbb olduğunu etiraf etmələrinə baxmayaraq, Allahdan başqasına ibadət etmələrinə və Allaha şərik qoşmalarına görə onları məzəmmət edir və qınayır. Çünki tək Allahın Rəbb olduğunu qəbul edən kəs, ibadətə də yalnız Allahın layiq olduğunu qəbul etməlidir.”[3]

### 1. Rububiyyət tövhidi uluhiyyət tövhidini gərəkdirir.

Rububiyyət tövhidi uluhiyyət tövhidini gərəkdirir. Kim birincini qəbul etsə, o kəs mütləq ikincini də qəbul etməlidir. Yəni kim bilsə ki, onun Rəbbi, onu yaradan, ona ruzi verən, işlərini idarə edən tək Allahdır və Xaliqi onu Özünə ibadət etməyə çağırıb, ona vacibdir ki, yalnız Allaha ibadət etsin və Ona şərik

---

[1] Əl Maidə, 72.
[2] Bax: İbnul Qeyyim “İğasətul Ləhfən min Məsayidiş Şeytan” (2\135).
[3] Bax: Əş Şinqiti “Ədvaul Bəyən” (3\41)

qoşmasın. Əgər yaradan, ruzi verən, fayda və zərər verən tək Odursa, deməli ibadətdə də Onu təkləşdirmək vacibdir.[1] Uca Allah bunu bir çox yerdə, rububiyyət tövhidini qəbul edən, lakin uluhiyyət tövhidində Allaha şərik qoşan müşriklərə qarşı dəlil gətirir. Uca Allah buyurub: "**Ey insanlar! Sizi və sizdən öncəkiləri yaratmış Rəbbinizə ibadət edin ki, bəlkə Allahdan qorxasınız. O, sizin üçün yer üzünü döşəmə, göyü isə tavan etdi. Göydən su endirib onunla sizin üçün növbənöv məhsullardan ruzi yetişdirdi. Siz də bunu bildiyiniz halda heç kəsi Allaha tay tutmayın.**"[2]

### 2. Uluhiyyət tövhidi özündə rububiyyət tövhidini əhatə edir.

Rububiyyət tövhidi uluhiyyət tövhidini gərəkdirir, eləcə də uluhiyyət tövhidi özündə rububiyyət tövhidini əhatə edir. Şeyx Muhammməd İbn Saleh əl Useymin *(Allah ona rəhmət etsin)* belə deyir: "Uluhiyyət tövhidi özündə rububiyyət tövhidini də əhatə edir. Çünki tək Allaha ibadət edən hər bir kəs, əgər Allahın rububiyyətini qəbul etməsəydi, Ona ibadət etməzdi."[3]

Uluhiyyət tövhidi özündə rububiyyət tövhidini əhatə edir. Yəni kim tək Allaha ibadət edirsə, deməli o etiqad edir ki, onun rəbbi, onu yaradan və ruziləndirən Allahdır. Çünki yaratmaq və idarə etmək, fayda və zərər vermək kimin əlindədirsə, insan yalnız ona ibadət edir.[4]

## Yeddinci məqam: Rububiyyət tövhidi ilə uluhiyyət tövhidi arasındakı fərqlər.

Ən böyük xəta, rububiyyət tövhidi və uluhiyyət tövhidinin dəlalət etdiyi mənaları səhv başa düşməkdən irəli gəlmişdir. Çünki bunların ikisi də eyni mənanı daşımır və aralarında bir çox fərqlər var. Mən bunların bəzisini qeyd etməklə kifayətlənəcəyəm:[5]

---

[1] Bax: Şeyx Saleh Əl Fovzan "Əl İrşədu İlə Sahihil İtiqad" (səh.34-35). Və Əl Həməd "Tovhidul Uluhiyyəh" (səh. 60).
[2] Əl Bəqərə, 21-22
[3] Bax: İbn Useymin "əl Məcmuus Səmin" (səh. 22).
[4] Bax: Şeyx Saleh Əl Fovzan "Əl İrşədu İlə Sahihil İtiqad" (səh. 34-35). Və əl Həmədin "Tovhidul Uluhiyyəh" (səh. 61).
[5] Bu fərqlərə daha ətraflı bu kitablarda baxa bilərsən: Şeyx Ətrum "Əl Əsilətu vəl Əcvibətu Fil Aqidəh" (səh. 15-19).
Şeyx Saleh Əl Fovzan "Əl İrşədu İlə Sahihil İtiqad" (səh. 34-35). Və Əl Həməd "Tovhidul Uluhiyyəh" (Səh. 60-63).

**1. Etimologiya (sözün mənşəyi) cəhətdən aralarındakı fərq.** Rububiyyət, "Rəbb" kəlməsindən, uluhiyyət isə, "İlah" kəlməsindən götürülüb.

**2. Hər ikisinin tərifində olan fərq.** Rububiyyət tövhidi, Allahı feillərində təkləşdirməkdir. Yəni yaratmaq, ruziləndirmək, diriltmək, öldürmək, əta etmək, məhrum etmək, fayda vermək, zərər vermək və digər Allaha aid olan feillərdə Allahı təkləşdirməkdir. Uluhiyyət tövhidi isə, qullara aid olan feillərdə Allahı təkləşdirməkdir. Yəni namaz qılmaq, oruc tutmaq, zəkat vermək, həmçinin qorxu, ümid, sevgi, təvəkkül və qullara aid olan digər feillərdə Allahı təkləşdirməkdir.

**3. Kifayət etmək baxımından fərq.** Təkcə rububiyyət tövhidi islama daxil olmaq üçün kifayət etmir. Amma uluhiyyət tövhidi isə İslama girmək üçün kifayət edir. Çünki kim uluhiyyət tövhidini qəbul edərsə, onun daxilində rububiyyət tövhidini də qəbul etmiş olur. Ona görə də kim mənasını bilərək və tələb etdiyi şeylərə əməl edərək "Lə iləhə illəllah" şəhadətini deyərsə, tövhidin bütün növlərini qəbul etmiş sayılır.

**4. Təsdiq etmək baxımından fərq.** Müşriklər rububiyyət tövhidini təsdiq edirdilər, uluhiyyət tövhidini isə qəbul etmirdilər və ona iman gətirmirdilər. Əksinə başqa məbudlara ibadət edirdilər və belə deyirdilər: "**Biz, onlara ancaq bizi Allaha daha çox yaxınlaşdırsınlar deyə ibadət edirik.**[1] Uca Allah onlar barədə xəbər verir ki, onlardan tək Allaha ibadət etmək tələb olunduğu zaman, onlar belə dedilər: "**O, bütün məbudları bir məbudmu etdi? Həqiqətən, bu, əcaib bir şeydir."**[2]

**5. Birinin digərini əhatə etməsi və ya gərəkdirməsi baxımından aralarındakı fərq.** Kim rububiyyət tövhidini qəbul edərsə, o gərək uluhiyyət tövhidini də qəbul etsin. Çünki rububiyyət tövhidi uluhiyyət tövhidini gərəkdirir. Amma kim uluhiyyət tövhidini qəbul edərsə, artıq onun daxilində rububiyyət tövhidini də qəbul etmiş sayılır. Çünki uluhiyyət tövhidi özündə rububiyyət tövhidini əhatə edir.

Bunlar tövhidin iki növü arasındakı bəzi fərqlər idi və həm onları, həm də zikr etmədiyim başqa fərqləri "Elçilərin dəvət etdiyi tövhid məhz rububiyyət

---

[1] Əz Zumər, 3
[2] Sad, 5

tövhididir” deyənlərə və tövhidin bu iki növü arasında fərq qoymayanlara qarşı cavab kimi gətirmək olar.

Növbəti fəsildə uluhiyyət tövhidi ilə bağlı digər məqamlara da toxunulacaq, bu tövhidin mənası olan “Lə iləhə illəllah” şəhadətindən bəhs ediləcək və ibadət, onun növləri və ruknları barədə danışılacaq.

# İkinci fəsil: Uluhiyyət tövhidi haqqında bəzi təfsilatların öyrənilməsi

**Özündə iki mövzunu əhatə edir:**

**Birinci mövzu: "Lə iləhə illəllah" şəhadəti, onun mənası, ruknları, şərtləri və onu pozan şeylər.**

**İkinci mövzu: İbadət, mənası, növləri və ruknları.**

# Birinci mövzu: "Lə iləhə illəllah" şəhadəti

**Özündə dörd məsələni əhatə edir:**
**Birinci məsələ: "Lə iləhə illəllah" şəhadətinin mənası.**
**İkinci məsələ: "Lə iləhə illəllah" şəhadətinin rüknları.**
**Üçüncü məsələ: "Lə iləhə illəllah" şəhadətinin şərtləri.**
**Dördüncü məsələ: "Lə iləhə illəllah" şəhadətini pozan amillər.**

## Giriş

Uluhiyyət tövhidi, məhz haqq şəhadətin – "Əşhədu ən lə iləhə illəllah" kəlməsinin mənasının özüdür. Bu səbəbdən də müsəlmana vacibdir ki, bu şəhadətin mənasını dərk etməyə, onda olan məqsədi başa düşməyə və onun tələblərinə əməl etməyə həris olsun.

Qarşıda gələn məsələlərdə bu şəhadətlə bağlı məqamlara toxunduqca daha da ayın olacaq.

## Birinci məsələ: "Lə iləhə illəllah" şəhadətinin mənası

Uluhiyyət tövhidi "lə iləhə illəllah" şəhadətinin mənasıdır.[1] "Lə iləhə illəllah" "Allahdan başqa heç kəsə ibadət etməyin!" – anlamına gəlir.[2]

Ərəb dilində bu cümləni qrammatik təhlil etdikdə onun mənası daha çox aydın olur:

**"Lə"** (yoxdur) – özündən sonra gələn ismin növünü inkar edən ədatdır, bu cümlədə bütün ilahları inkar edir.

**"İləhə"** (ilah) – "Lə" ədatının ismidir.

**"Həqqun"** (haqq) – "Lə" ədatının təqdirdə olan xəbəridir.

**"İllə"** (savayı) – istisna ədatıdır.

---

[1] Bax: Şeyx əş Şinqiti "Məaricus Saudi ilə Təfsiri surətil Hud" (səh. 40).
[2] Bax: Şeyx əş Şinqiti "Məaricus Saudi ilə Təfsiri surətil Hud" (səh. 41).

**“Allahu”** (Allahdan) – xəbərin bədəlidir.
Təqdirdə olan xəbər ilə birlikdə bu cümlə belə səslənir: “Lə iləhə həqqun illəllah” (Allahdan savayı haqq ilah (məbud) yoxdur).

Öncəki fəsildə qeyd etdik ki, “ilah”sözünün mənası məbud, yəni ibadət olunan deməkdir. Beləliklə, “Lə iləhə illəllah” şəhadətinin mənası “Allahdan başqa haqq ilah yoxdur” – deməkdir.”[1]

Həmçinin Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* savaşdığı, qanlarını və mallarını halal saydığı, qadınlarını əsir götürdüyü və mallarını əllərindən aldığı kafirlərin halına baxdıqda da bu məna başa düşülür. Çünki müşriklər rububiyyət tövhidini qəbul edirdilər. Onlar bilirdilər ki, Allahdan başqa yaradan, ruzi verən, işləri idarə edən, öldürən və diriləndən yoxdur. Lakin bu etiqad onları İslam dininə daxil etmədi. Çünki onlar “Lə iləhə illəllah” şəhadətini gətirmirdilər və Uca Allahla yanaşı, başqa məbudlara ibadət edirdilər.

## İkinci məsələ: “Lə iləhə illəllah”şəhadətinin rüknları.

“Lə iləhə illəllah”şəhadətinin rüknları iki növdür: Ləfzi cəhətdən *(lə iləhə illəllah)* və məna cəhətdən *(lə iləhə həqqun illəllah).*

Ləfzi cəhətdən **“Lə iləhə illəllah”** şəhadəti iki rükndan ibarətdir: İnkar və təsdiq. **“Lə iləhə”** *(ilah yoxdur)* – inkar bildirir. **“İlləllah”** *(Allahdan savayı)* – təsdiq bildirir.

Həmçinin məna cəhətdən **“Lə iləhə həqqun illəllah”** şəhadəti iki rükndan ibarətdir: İnkar və təsdiq. **“Lə iləhə həqqun“** *(Haqq ilah yoxdur)* – inkar bildirir. **“İlləllah”** *(Allahdan savayı)* – təsdiq bildirir.

Şeyx Abdullah ibn Abdur-Rahman ibn Cibrin belə deyib: “Lə iləhə illəllah” şəhadəti özündə təsdiq və inkarı cəm edir. Allahdan savayı hər şeydən ilahlığı inkar edir və yalnız Allahın haqq ilah olduğunu təsdiq edir. Yəni qul, Allahdan başqasını özünə ilah qəbul etmir və ibadətlərdən hər hansı birini Allahdan başqasına yönəltmir. İlahlaşdırmaq, qəlbi bağlamaqla olur. Çünki qəlbi Allahdan başqasına bağlamaq onu ilahlaşdırmağa və dua, qurban, nəzir kimi ibadət növlərini ona yönəltməyə aparıb çıxarır. Bunu deyən kəs, yalnız Allahın haqq

[1] Bax: Şeyx Suleyman İbn Abdullah “Təysirul Azizil Həmid” (səh: 73). Və şeyx əş Şinqiti “Ədvəul Bəyən” (4\508).

ilah olduğunu təsdiq edir. Yəni etiqad edir ki, Allahdan savayı heç kəs: nə mələklər, nə peyğəmbərlər, nə də onlardan aşağı olanlar ilah deyil və ibadət olunmağa da onların haqqı çatmır."[1]

Deməli, inkar dedikdə Allahdan başqa hər şeydən ilahlığı və ibadətə layiq olmağı inkar etmək, təsdiq dedikdə isə ilahlığa və ibadət edilməyə yalnız şəriki olmayan Allahın layiq olduğunu təsdiq etmək nəzərdə tutulur.[2]

Uca Allahın bu sözünün mənası da budur:

**"De: "Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah üçündür! Onun heç bir şəriki yoxdur. Mənə belə buyurulmuşdur və mən müsəlmanların birincisiyəm"."[3]**

## Üçüncü məsələ: "Lə iləhə illəllah" şəhadətinin şərtləri.

**"Şərt" sözünün lüğəvi mənası.** Şərt, tələb olunan və riayət edilən bir şeydir. Şərt qoydu, yəni tələb etdi. Şərtə əməl etdi, yəni qoyulan şərtə riayət etdi.[4]

**"Lə iləhə illəllah" şəhadətinin şərtləri** dedikdə, bu şəhadətin doğru olması üçün insana riayət etməsi vacib olan məsələlər nəzərdə tutlur. Bu şərtlərin hamısı tamamlanmadıqca və gerçəkləşmədikcə insanın şəhadəti doğru sayılmaz.

**Bu şərtlərin "Lə iləhə illəllah"şəhadətində yeri.**

Bu şərtlər açarın dişləri kimidir, belə ki, açarın dişləri olmasa, qıfıl açılmaz. Ümmətin bir çox alimləri buna işarə etmişlər. Bu alimlərdən biri də Həsən Əl Bəsridir *(Allah ona rəhmət etsin)*. Şair Fərəzdəq vəfat etmiş qadınını dəfn edərkən, Həsən Əl Bəsri ona deyir:

– Bu gün üçün nə hazırlamısan?

Əl Fərəzdək deyir ki, yetmiş il "Lə iləhə illəllah" şəhadətini hazırladım.

---

[1] Bax: Şeyx İbn Cibrin "Şəhədətəni, mə`nəhumə və mə təstəlzimuhu kullun minhumə" (səh. 22) və Siddiq Həsən Xan "əd Dinul Xalis" (1\189).
[2] Bax: Şeyx Haiz əl Həkəmi "Ələmus Sunnətil Mənşura" (səh. 39).
[3] Əl Ənam, 162-163.
[4] Bax: Feyruz Əl Əbədi "əl Qamusul Muhit"(səh. 869).

Həsən Əl Basri belə deyir: “Necə də gözəl tədarükdür. Həqiqətən, “Lə iləhə illəllah”şəhadətinin şərtləri vardır. Elə isə iffətli qadınlara böhtan atmaqdan da həzər et”.[1]

Vəhb ibn Munəbbihdən *(Allah ona rəhmət etsin)* “Lə iləhə illəllah Cənnətin açarı deyilmi?” – deyə soruşduqda, o, belə cavab verdi: “Əlbəttə! Amma elə bir açar yoxdur ki, onun dişləri olmasın. Əgər dişləri olan açarla gəlsən, (Cənnətin qapıları) sənin üçün açılar, əks halda açılmaz”.[2]

## “Lə iləhə illəllah” şəhadətinin şərtləri.

Alimlər qeyd ediblər ki, ixlas kəliməsi olan “Lə iləhə illəllah” şəhadətinin yeddi şərti var. Bəzi alimlər bu şərtləri belə ifadə ediblər:[3] Elm, yəqinlik, ixlas, sadiqlik, məhəbbət, təslimiyyət və qəbul. Bəziləri isə səkkizinci şərti də əlavə edərək Allahdan başqa ibadət olunanları inkar etməyin də şərt olduğunu deyiblər. Qarşıda bu şərtləri ətraflı izah edəcəyik.

## Birinci şərt: Elm (cahilliyin əksidir).

### Bu şərtlə nə nəzərdə tutulur?

Biz tövhid kəlməsi olan “Lə iləhə illəllah” şəhadətinin mənasını və onun nəyə dəlalət etdiyini bilməliyik və bu elm bizdə olan cahilliyi aradan qaldırır. Bilməliyik ki, bu şəhadət özündə inkar və təsdiqi cəm edir. Allahdan savayı hər bir şeydən ilahlığı inkar etməli və yalnız Uca və Qüdrətli Allahın haqq ilah olduğunu təsdiq etməliyik.

### Bu şərtə aid bəzi dəlillər:

1. Uca Allah buyurub: “**Bil ki, Allahdan başqa ibadətə layiq olan heç bir məbud yoxdur”.**[4] Bu elm mütləq qəlbdə öz təsdiqini tapmalıdır və insan bu şəhadətlə ondan nə tələb olunduğunu bilməlidir.

---

[1] Bax: İbn Rəcəb Əl Hənbəli “Kitəbut Tovhid”(səh. 39). Həmçinin Siddiq Həsən Xan “Əd Dinul Xalis” (1\157).
[2] Bax: Abu Nueym “Hilyətul Əvliyə” (1\66).
[3] Bax: Şeyx İbn Cibrin “Şəhədətəni, mə`nəhumə və mə təstəlzimuhu kullun minhumə” (səh. 77).
[4] Muhəmməd, 19

2. Uca Allah buyurub: **“Mənasını bilərək haqqa şəhadət verənlər isə istisnadır”.**[1] Yəni onlar “Lə iləhə illəllah” şəhadətini qəlblərində mənasını bilərək söyləyirlər.[2]

3. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurub: ***“Kim Allahdan başqa ibadətə layiq haqq məbudun olmadığını bilərək ölərsə, Cənnətə daxil olar”.***[3]

## İkinci şərt: Yəqin olmaq. (Yəqinlik şəkkin əksidir).

### Bu şərtlə nə nəzərdə tutulur?

Elmin kamil olması üçün onda heç bir şəkk-şübhə olmamalıdır. “Lə iləhə illəllah” şəhadətinin mənası, “Allahdan başqa haqq məbud yoxdur” deməkdir. Bunu bilən kəsə vacibdir ki, bu məlumatda heç bir şəkkə və şübhəyə düşməsin və bu şəhadətin dəlalət etdiyi mənalara iman etməkdə tərəddüd etməsin. Həmçinin ona vacibdir ki, bu şəhadəti dediyi zaman onun doğruluğuna etiqad etsin, yalnız Uca Allahın haqq ilah olduğuna, Ondan başqasının isə ilahlığının batil olduğuna inansın.

### Bu şərtə dair bəzi dəlillər:

1. Uca Allah buyurub: **“Möminlər ancaq Allaha və Onun Elçisinə iman gətirən, sonra heç bir şəkk-şübhəyə düşməyən, Allah yolunda malları və canları ilə cihad edənlərdir! İmanlarında sadiq olanlar da məhz onlardır”.**[4] Uca Allah bu ayədə onların Allaha və Rəsuluna imanlarının doğru olması üçün şəkk-şübhəyə düşməmələrini şərt qoydu. Buradan bəlli olur ki, “Lə iləhə illəllah” şəhadətinin mənasında şəkk etmək olmaz.

2. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurub: ***“Allahdan başqa haqq məbudun olmadığına və mənim də Allahın elçisi olduğuma şahidlik***

---

[1] Zuxruf, 86
[2] Bax: Hafiz Əl Həkəmi “Əlamus Sunnətil Mənşura” (səh.40).
[3] Bax: Səhih Muslim, İman kitabı, “Şəkk etmədən Ona iman gətirdiyi halda Allahla qarşılaşan kəs Cənnətə daxil olacaq” bölümü.
[4] Əl Hucurat, 15

***edən və heç bir şəkk etmədən bu iki şəhadətlə Allahla qarşılaşan elə bir qul yoxdur ki, Cənnətə girməsin".***[1]

3. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* Əbu Hureyraya *(Allah ondan razı olsun)* belə demişdir: ***"Mənim bu səndəllərimi götür və get. Bu divarın arxasında "Lə iləhə illəllah" şəhadətini qəlbində yəqin olaraq deyən hər kəsi Cənnətlə müjdələ".***[2]

### Üçüncü şərt: Qəbul etmək. (rədd etməyin əksidir).

### Bu şərtlə nə nəzərdə tutulur?

İnsan "Lə iləhə illəllah" şəhadətinin tələb etdiyi şeyləri qəlbdə və dildə qəbul etməli və onu rədd etməkdən çəkinməlidir. Çünki insanlardan eləsi var ki, "Lə iləhə illəllah" şəhadətinin mənasını bilir və nəyə dəlalət etdiyini yəqinliklə başa düşür, lakin təkəbbürlük və ya həsəd səbəbindən bunu rədd edir. Müşriklər də "Lə iləhə illəllah" şəhadətinin mənasını bilirdilər, lakin onu qəbul etməyə təkəbbürlük göstərirdilər. Uca Allah onlar barədə belə buyurur: **"Onlara "Allahdan başqa ibadətə layiq olan məbud yoxdur!"– deyildikdə təkəbbür göstərirdilər".**[3] Həmçinin başqa ayədə belə buyurur: **"Əslində onlar səni yalançı hesab etmirlər. Lakin zalımlar Allahın ayələrini inadla inkar edirlər[4]".**[5]

### Bu şərtə dair bəzi dəlillər:

1. Uca Allah buyurub: **"Aralarında hökm vermək üçün Allahın və Onun elçisinin yanına çağırıldıqda, möminlərin sözü ancaq: "Eşitdik və itaət etdik!"– demələridir. Nicat tapanlar da məhz onlardır".**[6]

2. Uca Allah buyurub: **"Allah və Onun elçisi bir işə hökm verdiyi zaman heç bir mömin kişi və mömin qadın öz işlərində istədikləri qərarı verə bilməzlər.**

---

[1] Bax: Sahih Muslim, İman kitabı, "İmanında heç bir şəkk etmədən Allahla qarşılaşan kəs Cənnətə daxil olacaq" bölümü.
[2] Bax: Sahih Muslim, iman kitabı, "İmanında heç bir şəkk etmədən Allahla qarşılaşan kəs Cənnətə daxil olacaq" bölümü.
[3] Əs Saffat, 35
[4] Əl Ənam, 33
[5] Bax: Şeyx İbn Cibrin "Şəhadətəni, mə`nəhumə və mə təstəlzimuhu kullun minhumə" (səh. 80-81).
[6] Ən Nur, 51

**Allaha və Onun elçisinə asi olan kəs, əlbəttə ki, açıq-aydın azğınlığa düşmüşdür.”** [1]

3. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurub: ***“Uca və Qüdrətli Allahın mənim vasitəmlə göndərdiyi doğru yol və elm torpağa düşən bol yağmura bənzəyir. Bu torpağın bir qismi münbit olduğundan, suyu canına çəkib növbənöv bitkilər və çoxlu otlar yetişdirir. Bir qismi də quru olduğundan, suyu üzərində saxlayır və Allah da onunla insanları faydalandırır. Onlar bu sudan içir, öz əkin sahələrini və heyvanlarını da onunla suvarırlar. Yağışın düşdüyü elə yer də var ki, hamar olduğundan nə suyu üstündə saxlayır, nə də bir bitki yetişdirir. Bu, Allahın dinini başa düşən, Allahın mənim vasitəmlə göndərdiyindən faydalanan, elm öyrənən və bunu başqalarına öyrədən kimsə ilə buna tərəf başını qaldırmayan və Allahın mənim vasitəmlə göndərdiyi doğru yolunu qəbul etməyən kimsənin məsəlidir”.*** [2]

## Dördüncü şərt: İtaətlə boyun əymək (tərk etməyin və məhəl qoymamağın əksidir).

### Bu şərtlə nə nəzərdə tutulur?

Qəbul etmək boyun əyməyi gərəkdirir. Lakin qəbul etməklə boyun əymək arasındakı fərq odur ki, itaətlə boyun əymək dedikdə, feillərdəki tabeçilik nəzərdə tutulur. Qəbul etmək dedikdə isə bunun doğruluğunu dildə izhar etmək nəzərdə tutulur. Bunların hər ikisi tabeçiliyi gərəkdirir. Lakin (inqiyəd) itaətlə boyun əymək şərti, Allahın hökmlərinə qarşı çıxmadan hamısına təslim olmaq və boyun əyməkdir.[3]

### Bu şərtə dair bəzi dəlillər:

1. Uca Allah buyurub: **“Yaxşı əməl sahibi olub özünü Allaha təslim edən şəxs ən möhkəm dəstəkdən yapışmış olar. Bütün işlərin sonu Allaha qayıdır”.**[4]

---

[1] Əl Əhzab, 36

[2] Bax: Sahih əl Buxari, Elm kitabı, “Elm alanın fəziləti” bölümü.

[3] Bax: Şeyx İbn Cibrin “Şəhadətəni, mə`nahumə və mə təstəlzimuhu kullun minhumə” (səh. 81).

[4] Loğman, 22

2. Uca Allah buyurur: **“Yaxşı işlər görərək Allaha təslim olan və hənif olaraq İbrahim dininin ardınca gedən şəxsdən din baxımından daha gözəl kim ola bilər?”**[1]

3. Uca Allah buyurur: **“Rəbbinizə üz tutun və Ona itaət edin”.**[2]

4. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurur: ***“Sizlərdən birinizin nəfsi istəkləri mənim gətirdiyimə tabe olmadıqca imanı kamil olmaz”.***[3]

## Beşinci şərt: Doğruluq (yalanın və ikiüzlülüyün əksidir).

### Bu şərtlə nə nəzərdə tutulur?

İnsanın “Lə iləhə illəllah” şəhadətini sadiq şəkildə deməsi və bu şəhadətin dəlalət etdiyi mənalara etiqad etməsi nəzərdə tutulur. Doğruluq – zahirdə yalanın, qəlbdə isə nifaqın əksidir. Bunu deyən kəsin zahiri qəlbinə müxalif olmamalı, əksinə bir-birinə uyğun olmalıdır. Qəlbində olanı dili təsdiq etməli və əzaları ilə etdiyi əməllərdə də bu özünü göstərməlidir. Həmçinin o kəsin əzalarında “Lə iləhə illəllah” şəhadətini pozan və ya ona zidd olan əməllər ortaya çıxmamalıdır. Bu doğruluq qəlbdə nifaqın, zahirdə isə yalanın əksidir.

### Bu şərtə dəlalət edən bəzi dəlillər:

1. Uca Allah belə buyurur: **“Əlif. Ləm. Mim. İnsanlar elə güman edirlər ki, təkcə: "İman gətirdik!"– dedikləri ilə onlardan əl çəkiləcək və onlar imtahan edilməyəcəklər? Biz onlardan öncəkiləri də sınaqdan keçirmişdik. Sözsüz ki, Allah doğru danışanları da, yalançıları da aşkara çıxardacaqdır”.**[4]

2. Uca Allah belə buyurub: **“Münafiqlər sənin yanına gəldikləri zaman: "Biz şəhadət veririk ki, sən Allahın elçisisən!"– deyirlər. Allah da bilir ki, sən Onun elçisisən. Allah şahiddir ki, münafiqlər əsl yalançıdırlar.”**[5] Münafiqlər “Lə iləhə illəllah” şəhadətini dilləri ilə deyirdilər, amma qəlbləri ilə onun dəlalət etdiyi mənaları inkar edirdilər. Buna görə, Uca Allah onların yalançı olduqlarına

---

[1] Ən Nisə, 125
[2] Əz Zumər, 54
[3] Bu hədisin səhih yoxsa zəif hədis olmasında alimlər ixtilaf ediblər. Alimlərin bu hədis haqqında sözlərinə, İbn Rəcəbin “Cəmiul Ulumi vəl Hikəm” (2\393-395). Şeyx Albaninin “Mişkətul Məsabih” (1\59). Və “Ziləlul Cənnəti bi Təxricis Sunnəh” (səh. 12) kitablarında baxmaq olar.
[4] Əl Ənkəbut, 1-3
[5] Əl Munafiqun, 1

dair hökm vermişdir. Onların sadəcə dilləri ilə şəhadət gətirmələri onları qurtarmadı. Əksinə onlar Cəhənnəmin ən aşağı təbəqəsində olacaqlar.

3. Allah elçisi *(Allahın ona slavatı və salamı olsun)* belə buyurub: ***"Lə iləhə illəllah, Muhəmmədən rasulullah" şəhadətini sadiq qəlblə deyən elə bir qul yoxdur ki, Uca Allah ona Cəhənnəm odunu haram etməsin."***[1]

4. Allahın elçisi *(Allahın ona salavatı və salamı olsun)* bir bədəviyə islam şəriətini öyrətdiyi zaman bədəvi ona belə dedi: ***"Allaha and olsun ki, bunlara heç nə əlavə etməyəcəm, nə də bunlardan heç nə əksiltməyəcəm."*** Allah elçisi (*Allahın ona salavatı və salamı olsun*) belə dedi: ***"Əgər doğru danışırsa, qurtulmuşdur."***[2]

## Altıncı şərt: İxlas (şirkin əksidir).

### Bu şərtlə nə nəzərdə tutulur?

Qəlbi "Lə iləhə illəllah" şəhadətinin mənasına zidd olan şeylərdən, ibadətləri də şirk və riyadan təmizləmək qəsd olunur. İxlas ibadətin yalnız Allah üçün edilməsidir. Allahdan başqa heç kimə: nə Allaha yaxın olan bir mələyə, nə Allahın göndərdiyi bir peyğəmbərə ibadət etmək, ibadətlərdən hər hansı bir növünü Ondan başqasına yönəltmək olmaz. [3]

### Bu şərtə dair bəzi dəlillər:

1. Uca Allah buyurub: **"Doğrusu, əsl din ancaq Allaha məxsusdur".**[4] Yəni Allah yalnız Özü üçün ixlasla edilən əməlləri qəbul edir.

2. Uca Allah buyurub: **"Halbuki onlara, dini məhz Allaha məxsus edərək, həniflər kimi ibadət etmək əmr edilmişdir."**[5]

3. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurub: ***"Həqiqətən də, Allah, Onun rizası üçün "Lə iləhə illəllah" deyən hər bir kəsə Cəhənnəmi haram etmişdir."***[6]

---

[1] Bax: Sahihul Buxari, Elm kitabı.
[2] Bax: Sahihul Buxari, İman kitabı, "Zəkatın islamdan olması" bölümü.
[3] Bax: Şeyx İbn Cibrin "Şəhadətəni, mə`nəhumə və mə təstəlzimuhu kullun minhumə" (səh. 83-84).
[4] Əz Zumər, 3
[5] Əl Bəyyinə, 5
[6] Bax: Sahihul Buxari, Namaz kitabı, "Evlərdə namazgah" bölümü.

4. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurub: ***"Qiyamət günü mənim şəfaətim sayəsində ən çox səadətə çatanlar ixlasla (səmimi-qəlblə) "Lə iləhə illəllah" deyən kimsələr olacaq".***[1]

## Yeddinci şərt: Məhəbbət (nifrət etməyin əksidir).

Məhəbbət – qəlbin Allahın razı qaldığı şeylərə müvafiq olmasıdır. Yəni qul Allahın sevdiyi şeyləri sevməli, nifrət etdiyi şeylərə nifrət etməlidir.

### Bu şərtlə nə nəzərdə tutulur?

"Lə iləhə illəllah" şəhadətini deyən kəs bu kəlməni, onun tələb etdiyi şeylərə əməl etməyi və onun əhlini, ona əməl edən şəxsləri sevməlidir. Bu səbəbdən də bəzi sələflər belə deyib: *"Allahı sevdiyini iddia edən, lakin Allahın əmrlərinə əməl etməyən hər bir kəsin iddiası batildir"*.[2] Həmçinin belə deyiblər: *"Allahı sevdiyini iddia edib, Onun hədlərini qorumayan kəs iddiasında sadiq deyildir"*.[3]

"Lə iləhə illəllah" şəhadətini deyən kəs Allahı və Onun elçisini, həmçinin Allahın sevdiyi sözləri və əməlləri, Allahın dostlarını və Ona itaət edən kəsləri sevməlidir.[4]

Kimin qəlbində "Lə iləhə illəllah" şəhadəti bərqərar olarsa, o kəs heç nəyi ondan üstün tutmaz. Çünki qəlb bu şəhadətə sevgi ilə dolar və ondan başqası üçün orada yer qalmaz. Məhz bu zaman qul imanın şirinliyini hiss edər.

### Bu şərtə dair bəzi dəlillər:

1. Uca Allah buyurub: **"İnsanlardan elələri də vardır ki, Allahdan qeyrilərini Ona tay tutur, onları da Allahı sevdikləri kimi sevirlər. İman gətirənlərin isə Allaha olan sevgisi daha güclüdür".**[5] Təfsir alimləri"**Allaha olan sevgisi daha güclüdür"** sözünü iki cür izah etmişlər.

Birinci: Möminlərin Allahı sevmələri, müşriklərin Allaha olan sevgisindən daha güclüdür. Çünki möminlərin sevgisi xalisdir, müşriklərin sevgisi isə şəriklidir.

---

[1] Bax: Sahihul Buxari, Kitəbur riqaq, "Cənnətin və Cəhənnəmin vəsfi" bölümü.
[2] Bax: İbn Rəcəb Əl Hənbəli "Kitəbut Tovhid" (Səh. 61).
[3] Bax: Sahihul Buxari, Kitəbur riqaq, Cənnətin və Cəhənnəmin vəsfi bölümü.
[4] Bax: Şeyx İbn Cibrin "Şəhədətən: Manəhumə və mə nəstəlziməhu kullu minhumə" (səh. 84).
[5] Əl Bəqərə, 165

İkinci: Möminlərin Allaha olan sevgisi, müşriklərin öz məbudlarına olan sevgisindən güclüdür.

2. Uca Allah buyurur: **"Ey iman gətirənlər! Sizlərdən hər kim dinindən dönsə, Allah onun əvəzinə elə bir camaat gətirər ki, Allah onları sevər, onlar da Allahı sevərlər".**[1] Allahın dinindən və şəriətindən tutunduqları üçün Allah onları sevər. Həmçinin onlar da Allahı sevər, Onun əmrlərinə riayət edib, qadağalarından çəkinərlər.

3. Uca Allah buyurur: **"De: "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah Bağışlayandır, Rəhmlidir".**[2] Bu ayə haqqında Həsən Əl Bəsri *(Allah ona rəhmət etsin)* demişdir: Allah elçisinin *(Allahın ona salavatı və salamaı olsun)* səhabələri belə dedilər: "Ey Allahın elçisi, biz Rəbbimizi çox sevirik". Uca Allah da Onu sevməyə dəlalət edən bir əlamət təyin etmək istədi ki, Allahı sevənlər bu əlamətlə seçilsinlər. Bu səbəbdən də bu ayəni nazil etdi."[3]

4. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurub: ***"Bu üç şey kimdə olarsa, o kəs imanın şirinliyini hiss edər; Allah və Onun elçisi ona hər şeydən sevimli olsun, sevdiyi kəsi ancaq Allah üçün sevsin və Allah onu küfrdən çıxardıqdan sonra oda atılmağı sevmədiyi kimi, küfrə qayıtmağı da sevməsin".***[4]

Bu şərtlər cəm olarsa, qul imanın şirinliyini dadar, itaətlərdən ləzzət alar və Allahın rizası üçün məşəqqətlərə səbr etməsinə səbəb olar.

## Səkkizinci şərt: Allahdan başqa ibadət olunanları inkar etmək.

### Bu şərtlə nə nəzərdə tutulur?

Bu şəhadəti deyən kəs Allahdan başqasına ibadət etməyin batil olmasına inanmalı və etiqad etməlidir ki, Allahdan savayı bütün məbudlar batildir və müşriklərin cəhaləti və zəlaləti nəticəsində ortaya çıxmışdır. Kim müşriklərin şirki ilə razılaşarsa, və ya onların etiqadlarının batil olmasında şəkk edərsə, "Lə

---

[1] Əl Maidə, 54
[2] Əli İmran, 31
[3] Bax: Əs Suyuti "Əd Durrul Mənsur" (2\177-178).
[4] Bax: Sahihul Buxari, İman kitabı, "İmanın şirinliyi" bölümü və Sahih Muslim, İman kitabı, "Bu xislətlərə sahib olan kəsin imanın şirinliyini dadması" bölümü.

ilahə illəllah" desə belə, Allahdan başqasına ibadət etməsə də, o kəs tövhid əhli sayılmır.[1]

Şeyx Muhəmməd İbn Abdulvahhab *(Allah ona rəhmət etsin)* Allahdan başqa ibadət olunanları inkar etmək barədə belə deyib: "Bununla "Lə iləhə illəllah" şəhadətinin mənası daha çox aydın olur. Çünki təkcə "Lə iləhə illəllah" şəhadətini tələffüz etmək, bu şəhadətin mənasını bilmək, onu qəbul etmək və yalnız Allaha dua etmək malın və qanın qorunması üçün kifayət etmir. İnsan mütləq Allahdan başqa ibadət olunanları inkar etməlidir. Əgər onların batil olması barədə şəkk etsə və ya sussa, onun malı və qanı haram olmur..."[2]

**Bu şərtə dair bəzi dəlillər:**

1. Uca Allah buyurub: **"Dində məcburiyyət yoxdur. Artıq doğru yol azğınlıqdan aydın fərqlənir. Hər kəs tağutu inkar edib Allaha iman gətirərsə, heç vaxt qırılmayan ən möhkəm dəstəkdən yapışmış olar. Allah Eşidəndir, Biləndir".**[3]

2. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurub: ***"Kim "Lə iləhə illəllah" deyər və Allahdan başqa ibadət olunanları inkar edərsə, malı və qanı haram olar. Onun hesabı isə Allaha aiddir."***[4]

Bunlar "Lə iləhə illəllah" şəhadətinin şərtləridir. Qulun gözəl sonluqla dünyadan köçməsi üçün bu şərtləri cəm etməsi və ölənə qədər onun üzərində davam etməsi vacibdir. Çünki əməllər sonluğa görə ölçülür.

Müsəlman nə zaman bu şərtləri layiqincə yerinə yetirərsə, həm elm, həm də əməllə "Lə iləhə illəllah" şəhadətini doğrultmuş olar. Nəticədə Allahın sevgisinə, mükafatına və Nəim Cənnətinə layiq olar.[5]

---

[1] Bax: Şeyx İbn Cibrin "Şəhadətəni, mə`nəhumə və mə təstəlzimuhu kullun minhumə" (səh. 78).
[2] Bax: Şeyx Muhammməd İbn Abdulvahhab "Kitəbut Tovhid" (səh. 33).
[3] Əl Bəqərə, 256
[4] Bax: Sahih Muslim, İman kitabı, "İnsanlar "Lə iləhə illəllah, Muhammədun rasulullah" deyincəyə qədər onlarla vuruşmaq" bölümü.
[5]Bax: Ubeyd Əl Cəbirin "Təysirul İləh bişərhi ədilləti şuruti lə iləhə illəllah"

## Dördüncü məsələ: "Lə iləhə illəllah" şəhadətini pozan amillər.

"Lə iləhə illəllah" şəhadətini pozan amillər dedikdə, bu şəhadəti korlayan, onu puç edən amillər nəzərdə tutulur. Əgər bir şəxs həmin amillərdən birini edərsə, onun tövhidi korlanar və pozular.[1] Bir insanda "Lə iləhə illəllah" şəhadətini pozan amillər olduqda, o kəs müsəlmanlardan sayılmır və müsəlmanlara aid olan əhkamlara layiq olmur, əksinə ona şirk və küfr əhlinin əhkamları tətbiq olunur.

**"Lə iləhə illəllah" şəhadətini pozan amillər:**

"Lə iləhə illəllah" şəhadətini pozan amilləri zikr etməkdə və onları qisimlərə bölməkdə alimlər müxtəlif yollara ayrılıblar və ümumilikdə onların hər birinin gətirdiyi təqsim doğrudur. Lakin mən, ancaq Şeyx Muhamməd İbn Abdul Vahhabın "İslamı pozan amillər" adlı risaləsində gətirdiyi amilləri zikr etməklə kifayətlənəcəyəm. Bu amillərin sayı ondur və aşağıda onların hər biri haqqında ətraflı danışılacaq:

### 1. "Lə iləhə illəllah" şəhadətini pozan birinci amil: "Allaha şərik qoşmaq"[2]

İnsan namaz, zəkat, qurban, nəzir və digər ibadətlərdən hər hansı birini Allahdan başqası üçün sərf etdikdə, onun "Lə iləhə illəllah" şəhadəti pozulur və qüvvədən düşür.

Şeyx Abdulaziz ibn Bəz *(Allah ona rəhmət etsin)* belə deyir: "Şirk, ibadətlərdə Allahdan başqasını Allaha ortaq etməkdir. Məsələn, bütlərə və ya başqa məxluqlara dua etmək, onlardan yardım diləmək, onlar üçün nəzir demək, namaz qılmaq, onlar üçün oruc tutmaq və qurban kəsmək kimi..."[3]

Nəzir demək də ibadətdir. Kim Allahdan başqası üçün nəzir deyərsə, Allaha şərik qoşmuş olar. Suleyman İbn Abdullah *(Allah ona rəhmət etsin)* belə deyir: "Həqiqətən də, Uca Allah nəzirlərini yerinə yetirənləri tərifləyir. Allahın bir kəsi tərifləməsi sadəcə mübah əmələ görə deyil, vacib və ya müstəhəb əməli yerinə yetirdiyinə görə, ya da haram əməli tərk etdiyinə görə olur və həmin əməl ibadət

---

[1] Bax: Həsən ibn Ali Avacin "Şərhu Navaqidit Tovhid" (səh. 9).
[2] Kitabın ikinci bölümündə bu amil haqqında ətraflı danışacağıq inşəAllah.
[3]Şeyx İbn Bəz "Məcmuul Fətəvə və Məqalət Mutənəvviah" (4\32).

sayılır. Deməli, nəzir ibadətdir və kim nəziri Allahdan başqasına yönəltsə və ona yaxınlaşmaq üçün nəzir desə, artıq ibadətdə Allaha şərik qoşmuşdur."[1]

**Bu amilə dair bəzi dəlillər:**

1. Uca Allah buyurub: **"Həqiqətən də, Allaha şərik qoşan kimsəyə, Allah Cənnəti haram etmişdir və o kəsin sığınacağı yer Oddur. Zalımlara kömək edən olmayacaqdır."**[2] Uca və Qüdrətli Allah müşrikə Cənnəti haram etmişdir və onun əbədi qalacağı yer Cəhənnəmdir. Çünki o, Allaha qulluğu yerinə yetirməmişdir.[3]

2. Uca Allah buyurur: "**Şübhəsiz ki, Allah Ona şərik qoşmağı əsla bağışlamır. Bundan başqa daha kiçik günahları isə istədiyi kimsəyə bağışlayır. Allaha şərik qoşan şəxs, əlbəttə ki, dərin bir azğınlığa düşmüşdür.**[4] Həmçinin Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə deyib: ***"Kim Allahla Ona heç bir şeyi şərik qoşmadığı halda qarşılaşarsa, Cənnətə girər. Kim də Ona şərik qoşduğu halda qarşılaşarsa, Cəhənnəmə girər."***[5]

**2. "Lə iləhə illəllah" şəhadətini pozan ikinci amil: Kim özü ilə Allah arasında vasitəçi və şəfaətçi tutub Allahla yanaşı onlara dua etsə, və ya Allahı qoyub yalnız onlara dua etsə, onlardan şəfaət istəsə, və ya onlara təvəkkül etsə, kafir olur.**

Burada yalnız Allahın qadir olduğu işlərdə və ya şəriətdə gəlməyən, vasitə tutulması icazəli olmayan şeylərdə insanın özü ilə Uca və Qüdrətli Allah arasında vasitəçi tutması nəzərdə tutulur. Məsələn, Allahdan başqasından mərhəmət və bağışlanma diləmək, ruzi və şəfaət istəmək, Cənnətə girməyi istəmək kimi. Bunlar böyük şirkdir.[6]

Şeyxulislam ibn Teymiyyə *(Allah ona rəhmət etsin)* bu amil haqqında belə deyib: "Kim özü ilə Allah arasında mələkləri və peyğəmbərləri vasitəçi tutaraq onlara dua etsə, onlara təvəkkül etsə, onlardan zərəri dəf etmək, xeyir əldə etmək, günahları bağışlamaq, qəlbləri doğru yola yönəltmək, sıxıntıları və kasıblığı

[1] Bax: Şeyx Suleyman "Təysirul Azizil Həmid" (səh. 203).
[2] Əl Maidə, 72
[3] Bax: İbnul Qeyyim "Əl Cəvəbul Kəfi limən səələ anid Dəvəiş Şəfi" (səh. 191).
[4] Ən Nisa, 116
[5] Sahih Muslim, İman kitabı, "Kim Allaha şərik qoşmadan ölərsə, Cənnətə daxil olar. Kim də müşrik olaraq ölərsə Cəhənnəmə daxil olar" bölümü.
[6] Bax: Sad ibn Muhəmməd əl Qahtani "Təysiru zil Cələli vəl İkram bi şərhi Nəvəqidil İsləm" (səh. 44).

aradan qaldırmaq kimi yalnız Allahın qadir olduğu şeyləri istəsə, o kəs müsəlmanların icması ilə kafir olur."[1] Qulun özü ilə Rəbbi arasında vasitəçi tutmağı icazəli görənlər istəyirlər ki, nəticədə insanlar Allahdan başqasından kömək istəmək və Ondan başqasına sığınmaq kimi batil əməlləri təsdiq etsin və buna həvəslənsinlər. Halbuki ancaq Allahın qadir olduğu işlərdə başqasından yardım diləmək və Allahdan başqasına sığınmaq elə şirkin özüdür.[2]

**Bu amilə dair bəzi dəlillər:**

1. Uca Allah buyurub: **"Allahı qoyub Qiyamət gününədək özünə cavab verə bilməyən əşyalara yalvaran kimsədən daha çox azmış kim ola bilər? Halbuki o bütlər onların yalvarışından xəbərsizdirlər."**[3]

2. Uca Allah buyurub: **"Haqq çağırış yalnız Onadır. Müşriklərin Ondan başqa çağırdıqları isə onlara heç bir şeylə cavab vermirlər. Onlar ağzına su çatsın deyə uzaqdan iki ovcunu suya açan kimsəyə bənzəyirlər. Halbuki o kimsə suyu ovuclayıb içməyincə su onun ağzına çatan deyildir. Doğrusu, kafirlərin duası azğınlıqdan başqa bir şey deyildir."**[4]

3. Uca Allah buyurub: "**De: "Allahdan başqa yalvardığınız şəriklər haqda düşündünüzmü? Bir mənə göstərin görüm, onlar yer üzündə nəyi yaradıblar? Yoxsa onların göylərin yaradılmasında şərikliyi var?" Yaxud onlara bir kitab vermişik, onlar da ondakı dəlilə istinad edirlər? Xeyr! Zalımlar bir-birinə ancaq yalan vəd verirlər."**[5]

### 3. "Lə iləhə illəllah" şəhadətini pozan üçüncü amil: Müşrikləri təkfir etməmək (kafir hesab etməmək), onların küfründə şəkk etmək və ya onların tutduğu yolu haqq saymaq.[6]

Uca və Qüdrətli Allah bir çox ayələrdə Öz elçisinə *(Allahın ona salavatı və salamı olsun)* müşriklərdən və kafirlərdən uzaq olmağı, onlara müxalif olmağı əmr edir. Uca Allah buyurur: **"Əgər səni yalançı hesab etsələr, de: "Mənim əməlim mənə, sizin əməliniz isə sizə aiddir. Siz mənim etdiyim əməldən uzaqsınız,**

---

[1] Bax: Şeyxulislam ibn Teymiyyə "Məcmuul Fətəvə" (1\124).
[2] Bax: Həsən ibn Ali Avacinin "Şərhu Navaqidit Tovhid" (səh. 37).
[3] Əl Əhqaf, 5
[4] Ər Rad, 14
[5] Fatir, 40
[6] Kitabın üçüncü bölümündə bu amil haqqında ətraflı danışacağıq inşəAllah.

**mən də sizin etdiyiniz əməllərdən uzağam”.** [1] Həmçinin Uca Allah buyurur: **“De: “Ey kafirlər! Mən sizin ibadət etdiklərinizə ibadət etmərəm, siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz. Mən sizin ibadət etdiklərinizə ibadət edən deyiləm, siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz. Sizin dininiz sizə, mənim dinim də mənədir!”**[2] Kafiri təkfir etmək, böyük əsas üzərində qurulmuş bir hökmdür. Çünki Uca və Qüdrətli Allah bütün möminləri qardaşlıq, dostluq və sevgi bağları ilə bir-birinə bağlamış, Quran və Sünnə ilə kafir olması sübut olunan kafirləri isə dost tutmağı qadağan etmişdir.[3]

Küfrü və şirki açıq-aydın bəlli olan kafirləri təkfir etməyən kəsin özü kafir olur. Çünki Uca Allah Öz Kitabında, həmçinin Elçisinin *(Allahın ona salavatı və salamı olsun)* vasitəsilə onların kafir olduğunu bildirmişdir. Bu səbəbdən də, bir insan müşrikləri təkfir etmədikcə, onun müsəlman olmasına hökm verilmir.[4]

**Bu amilə dair bəzi dəlillər:**

1. Uca Allah buyurur: **“Ey iman gətirənlər! Əgər atalarınız və qardaşlarınız küfrü imandan üstün sayırlarsa, onları dost tutmayın. Sizlərdən onları dost tutanlar zalımlardır”.**[5]

2. Uca Allah buyurur: **“Ey iman gətirənlər! Mənim düşmənimi də, öz düşməninizi də özünüzə dost tutmayın! Onlar sizə gələn həqiqəti inkar etdikləri halda, siz onlara mehribanlıq göstərib sirrinizi açıb deyirsiniz”.** [6]

3. Uca Allah buyurur: **“Allaha və Axirət gününə iman gətirən elə bir camaat tapa bilməzsən ki, onlar Allaha və Onun Elçisinə düşmən olanlarla – öz ataları, oğulları, qardaşları, qohum-əqrəbaları olsalar belə, – dostluq etsinlər.”**[7]

---

[1] Yunus, 41
[2] Əl Kafirun surəsi, 1-6
[3] Bax: Həsən ibn Ali Avaci “Şərhu Navaqidit Tovhid” (səh. 51).
[4] Bax: Sad ibn Muhəmməd əl Qahtani “Təysiru zil Cələli vəl İkram bi şərhi Nəvəqidil İsləm” (səh. 53).
[5] Ət Tövbə, 23
[6] Əl Mumtəhənə, 1
[7] Əl Mucadələ, 22

**4. “Lə iləhə illəllah” şəhadətini pozan dördüncü amil: Kim Peyğəmbərin *(Allahın ona salavatı və salamı olsun)* yolundan başqa yolun onun yolundan daha mükəmməl olduğunu və ya başqasının hökmünün onun hökmündən daha yaxşı olduğunu etiqad etsə kafir olur.**

Kim etiqad etsə ki, Peyğəmbərin *(Allahın ona salavatı və salamı olsun)* gətirdiyi dindən daha yaxşı başqa bir din, onun yolundan daha mükəmməl bir yol, və ya onun Rəbbi tərəfindən gətirdiyi hökmlərdən daha yaxşı hökm var, o kəs kafir olur. Çünki belə etməklə o, Allahın Kitabında və Elçisinin sünnəsində gələnləri inkar etmiş olur. Uca Allah buyurub: **“Həqiqətən, bu Quran insanları ən doğru yola yönəldir və yaxşı işlər görən möminlərə, özləri üçün böyük mükafat olacağı ilə müjdə verir”.**[1] Həmçinin Uca Allah buyurub: **“Qəti inanan bir camaat üçün Allahdan daha yaxşı hökm verən kim ola bilər?”**[2] Həmçinin Allahın elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə deyib: ***“Ən xeyirli yol, Muhammədin yoludur.”***[3]

Şeyx Muhəmməd İbn İbrahim *(Allah ona rəhmət etsin)* belə demişdir: “Kim etiqad etsə ki, başqasının hökmü tamamilə Peyğəmbərin hökmündən yaxşıdır və ixtilaf zamanı insanlar arasında hökm vermək üçün daha kamil və əhatəlidir, və ya etiqad etsə ki, zaman keçdikcə, vəziyyət dəyişdikcə və yeniliklər ortaya çıxdıqca başqasının hökmü indiki zəmanə üçün daha uyğun və mükəmməldir, şəkk yoxdur ki, bu küfrdür. Çünki bu şəxs insanların naqis ağılları ilə ortaya qoyduqları şəxsi fikirləri Hikmətli və Tərifəlayiq Allahın hökmlərindən üstün tutmuşdur.”[4]

**Bu amilə dair bəzi dəlillər:**

1. Uca Allah buyurur: **“Ey iman gətirənlər! Allaha və Elçisinə itaət edin, həm də özünüzdən olan rəhbərlərə şəriətə uyğun şəkildə itaət edin. Əgər bir şey haqqında mübahisə etsəniz, Allaha və Axirət gününə inanırsınızsa, Allaha və Onun Elçisinə müraciət edin. Bu, sizin üçün daha xeyirli və nəticə etibarilə daha yaxşıdır”.**[5] Bu ayədə Uca Allah qullarından tələb edir ki, aralarında ixtilaf

---

[1] Əl İsra, 9
[2] Əl Maidə, 50
[3] İmam Muslim öz “Səhih” əsərində zikr etmişdir, Cümə kitabı, “Xütbəni və namazı yüngülləşdirmək” fəsli.
[4] Bax: Şeyx Muhəmməd ibn İbrahim “Təhkimul Qavanin” (səh. 14).
[5] Ən Nisa, 59

baş verdiyi zaman hökm vermək üçün Allahın Kitabına və Peyğəmbərinin *(Allahın ona salavatı və salamı olsun)* sünnəsinə müraciət etsinlər.

2. Uca Allah buyurur: **“Sənə nazil edilənə və səndən əvvəl nazil edilənlərə iman gətirdiklərini iddia edənləri görmədinmi? Onlar mühakimə olunmaları üçün tağuta müraciət etmək istəyirlər. Halbuki onlara tağuta inanmamaq əmr olunmuşdur. Şeytan isə onları dərin bir azğınlığa salmaq istəyir”.**[1] Uca Allah xəbər verir ki, hökm vermək üçün Quran və Sünnədən başqa bir şeyə müraciət etmək, şeytanın azdırması və münafiqlərin əməlidir. Uca Allah buyurur: **“Onlara: "Allahın nazil etdiyinə və Elçisinə tərəf gəlin!"– deyildikdə, münafiqlərin səndən nifrətlə üz çevirdiklərini görürsən”.**[2]

3. Uca Allah buyurur: **“Xeyr! Sənin Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən çəkişmələrdə səni hakim hesab etməyincə, sonra da verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan tam təslim olmayınca iman gətirmiş olmazlar”.**[3] Bu ayədə Uca Allah Onun hökmündən razı qalmayan kəslərin imanlarının olmadığını bildirir.

### 5. “Lə iləhə illəllah” şəhadətini pozan beşinci amil: Kim Peyğəmbərin *(Allahın ona salavatı və salamı olsun)* gətirdiyi hansısa bir şeyə büğz etsə (kin və ədavət bəsləsə və ya nifrət etsə, ona əməl etsə belə) kafir olur.

Haqqa nifrət etmək və onu sevməmək kafirlərin sifətlərindəndir. Uca Allah buyurub: **“Xeyr, o elçi onlara haqqı gətirmişdir. Lakin onların çoxu haqqı xoşlamır”.**[4] Bu həmçinin münafiqlərin sifətlərindəndir. Necə ki, Uca Allah buyurub: **“Onlar mallarını könülsüz xərcləyirlər”.**[5]

Kim Allahın qoyduğu şəriəti, qayda-qanunları və ya namaz, oruc, zəkat, həcc kimi Allahın buyurduğu mükəlləfiyyətləri sevməsə, bunlara nifrət etsə, və ya “Kaş ki Allah bunları vacib etməsəydi” – deyə arzu etsə, onun kafir olmasında heç bir şəkk yoxdur. Çünki həmin kəs bu əməli ilə “Lə iləhə illəllah” şəhadətinin qəbul etmək, təslim olmaq və boyun əymək kimi bəzi şərtlərini tərk etmiş olur.[6]

---

[1] Ən Nisa, 60
[2] Ən Nisa, 61
[3] Ən Nisa, 65
[4] Əl Muminun, 70
[5] Ət Tövbə, 54
[6] Bax: Sad ibn Muhəmməd əl Qahtani “Təysiru Zil Cələli vəl İkram bi şərhi Nəvəqidil İsləm” (səh. 69).

Bu səbəbdən də alimlər bu vəsfdə olan kəsi təkfir ediblər (yəni onu kafir elan ediblər) və deyiblər ki, belə şəxsin təkfir olunması İslam dinində bilinməsi zəruri olan şeylərdəndir və Quranda bununla bağlı ayələr çoxdur."[1]

**Bu amilə dair bəzi dəlillər:**

1. Uca Allah buyurur: **"Bu ona görədir ki, onlar Allahın nazil etdiyinə nifrət etdilər, O da onların əməllərini puça çıxartdı".**[2] Onlar Allahın nazil etdiyi Qurana nifrət etdilər, Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* gətirdiklərini qəbul etmədilər. Əksinə, nifrətlə ondan üz çevirdilər. Ona görə də Uca Allah onların əməllərini puça çıxartdı. Bütün əməllər isə yalnız imanın əksi olan küfrə görə puça çıxır.

2. Uca Allah buyurub: **"Qoy onun əmrinə qarşı çıxanlar başlarına bir bəla gəlməsindən, yaxud özlərinə ağrılı-acılı bir əzab üz verməsindən qorxsunlar".**[3] Şəkk yoxdur ki, Peyğəmbərin *(Allahın ona salavatı və salamı olsun)* gətirdiklərinə nifrət edən kəs onun əmrinə də müxalif olmuş sayılır.

3. Abdullah ibn Ömər *(Allah onların hər ikisindən razı olsun)* belə demişdir: ***"Kim sünnəni tərk edərsə, kafir olar."***[4] Abdullah ibn Ömərin *(Allah onların hər ikisindən razı olsun)* bu sözü, ya nifrət və inadla tərk etmək ya da Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* bütün ümmətə vacib etdiyi yolunu tamamilə tərk etmək kimi təfsir olunur.[5]

### 6. "Lə iləhə illəllah" şəhadətini pozan altıncı amil: Kim Peyğəmbərin *(Allahın ona salavatı və salamı olsun)* dinindən olan hansısa bir şeylə, yaxud onun mükafatı və ya cəzasıyla istehza etsə kafir olur.

Kim Allahın dinindən hər hansı bir şeyi alçaltsa, şənini aşağı salsa, dinlə istehza etsə, və ya Peyğəmbəri *(Allahın ona salavatı və salamı olsun)* alçaltsa, yaxud onu məsxərəyə qoysa, o şəxs müsəlmanların icması ilə kafir olur.[6]

Şeyx Süleyman İbn Abdullah *(Allah ona rəhmət etsin)* belə deyib: "İslam alimləri icma ediblər ki, kim Allahı, Onun kitabını, Onun elçisini və ya Onun dinini

---

[1] Bax: İbn Teymiyyə "Əssarimul Məsluli alə Şətimir Rasul" (səh. 522).
[2] Muhamməd, 9
[3] Ən Nur, 63
[4] İbn Batta Əl Ukbəri "Əş Şərhu vəl İbənə" (səh. 123) də qeyd etmişdir.
[5] Bax: Həsən ibn Ali Avaci "Şərhu Navaqidit Tovhid" (səh. 68-69).
[6] Bax: İbn Teymiyyə "Əssarimul Məsluli alə Şətimir Rasul" (səh. 513).

məsxərəyə qoyarsa, o kəs kafir olur. Hətta bunu həqiqi istehza məqsədi ilə deyil, zarafatla etsə belə, icma ilə kafir olur.[1]

Şeyx Həməd İbn Atiq *(Allah ona rəhmət etsin)* belə deyib: "Alimlər icma ediblər ki, kim Allaha, və ya Onun elçisinə, və ya Onun kitabına istehza etsə, kafir olur. Həmçinin açıq-aydın istehza bildirən söz və ya hərəkətin də hökmü eynidir."[2]

Şeyx Abdurrahman İbn Nasir Əs Sədi *(Allah ona rəhmət etsin)* belə deyib: "Həqiqətən, Allaha və Elçisinə istehza etmək insanı dindən çıxaran küfrdür. Çünki dinin əsası Allahı, Onun dinini və elçilərini təzim etməyin üzərində qurulub. Bunlardan hər hansı birinə istehza etmək isə dinin əslinə ziddir və İslamdan çıxaran ən şiddətli amillərdən sayılır."[3]

**Bu amilə dair bəzi dəlillər:**

1. Uca Allah buyurur: **"Onlardan nə üçün istehza etdiklərini soruşsan, deyərlər: "Biz sadəcə boş-boş danışıb zarafatlaşırdıq!" De: "Allaha, Onun ayələrinə və Onun Elçisinə istehzamı edirsiniz? Üzrxahlıq etməyin! İman gətirdikdən sonra artıq kafir oldunuz".**[4] Bu iki ayə Allaha, Onun dininə, kitablarına, elçilərinə istehza etməyin küfr olmasına dəlildir və bu ayələrin enmə səbəbi vardır. İbn Cərir Ət Tabəri öz təfsir kitabında İbn Ömərdən *(Allah onların hər ikisindən razı olsun)* rəvayət edir ki, bir kişi Təbuk döyüşü ərəfəsində bir məclisdə belə dedi: "Biz bu qarilərimiz kimi[5] qarınqulu, yalan danışan və düşmənlə qarşılaşdıqları zaman qorxaq birisini görməmişik." Məclisdə olanlardan biri belə dedi: "Yalan danışdın! Sən münafiqsən! Mən mütləq Allah elçisinə *(Allahın ona salavatı və salamı olsun)* xəbər verəcəyəm". Bu xəbər gəlib Allah elçisinə *(Allahın ona salavatı və salamı olsun)* çatdı və bu barədə Quran ayəsi nazil oldu. Abdullah ibn Ömər *(Allah onların hər ikisindən razı olsun)* belə deyir: "Mən istehza edən o kişini gördüm ki, Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* dəvəsinin belindən bağlanan kəmərdən yapışaraq belə deyirdi: "Ey Allahın elçisi, biz sadəcə zarafat edib əylənirdik." Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* isə bu ayəni oxuyurdu: "**De: "Allaha, Onun ayələrinə və Onun Elçisinə istehzamı edirsiniz? Üzrxahlıq etməyin! Siz iman gətirdikdən sonra**

---

[1] Bax: Şeyx Suleyman "Təysirul Azizil Həmid" (səh. 617). İmam Ən Nəvəvi "Ravdatut Talibin" (10\64-65).
[2] Bax: "əd Durarus Səniyyə fil Əcvibətin Nəcdiyyəh" (10\428).
[3] Bax: İbn Sədinin "Təysirul Kərimir Rahmən fi təfsiri Kələmil Mənnən" (3\259).
[4] Ət Tövbə, 65-66
[5] Qarilərimiz dedikdə, onlar Allah elçisini *(Allahın ona salavatı və salamı olsun)* və səhabələrini nəzərdə tuturdular və onları məsxərəyə qoyurdular.

**artıq kafir oldunuz".**[1] Bu ayələr Uca və Qüdrətli Allaha, Onun ayətlərinə və elçilərinə istehza edən kəsin küfrünə dəlalət edir.

**Fayda:** Şeyx Muhamməd İbn Saleh Əl Useymindən *(Allah ona rəhmət etsin)* soruşdular ki, bu ayələr saqqal saxlayanları və Allahın dininə riayət edənləri ələ salan və onlara istehza edən kəslərə də aiddirmi? Şeyx cavabında belə dedi: "Allahın dininə riayət edənlərə və Onun əmrlərini yerinə yetirənlərə istehza edən kəs əgər bunu Allahın şəriətinə əməl etdiklərinə görə edirsə, bu şəriətə istehza etməkdir. Şəriətə istehza etmək də küfrdür. Yox əgər Şəriətə və Sünnəyə əməl edib saqqal saxladıqlarına və şəri paltar geyindiklərinə görə deyil, məhz öz şəxsiyyətlərini ələ salmaq üçün istehza edərsə, o zaman kafir olmur. Çünki, bəzən insan bir şəxsin əməlinə baxmadan onun özünə istehza edir. Buna baxmayaraq hər bir insana vacibdir ki, elm əhlinə və Allahın dininə riayət edən, Allahın Kitabına və Elçisinin *(Allahın ona salavatı və salamı olsun)* sünnəsinə sarılan kəsləri məsxərəyə qoymaqdan həzər etsin."[2]

### 7. "Lə iləhə illəllah" şəhadətini pozan yeddinci amil: "Sehrlə məşğul olmaq. Ərlə-arvadı qovuşdurmaq və ya ayırmaq üçün edilən ovsun da sehrdən hesab olunur."[3]

Sehr "Lə iləhə illəllah" şəhadətini pozan amillərdəndir. Sehr olan tilsimlər, ovsunlar, düyünlər, bitki mənşəli dərmanlar vardır ki, bunlar sehrlənmiş insanın bədəninə təsir edir. Sehrlənmiş bir insanı görürsən ki, öz həyat yoldaşından qaçır, ona nifrət edir və onunla birlikdə yaşamaq istəmir. Bu sehrin adı Sarfdır. Sehrin növlərindən biri də Atfdır. Bu növ sehr kişini öz arvadına qovuşdurmaq və ya başqa bir qadına meyl etdirmək üçün edilir. Nəticədə o kəs, sanki şüursuz bir heyvan kimi qadının dalınca düşür və qadın onu istədiyi kimi idarə edir.[4]

Uca Allah Qurani Kərimdə sehr barədə belə buyurub: **"Onlar Süleymanın səltənətində şeytanların oxuduqlarının ardınca getdilər. Süleyman kafir olmadı. Lakin şeytanlar sehri və Babildə Harut və Marut adlı iki mələyə nazil**

---

[1] Ət Tövbə, 65-66

[2] Bax: İbn Useymin "Fətəvə əl Aqidəh" (səh. 196-197).

[3] Kitabın üçüncü bölümündə bu haqda ətraflı danışacağıq.

[4] Bax: Həsən ibn Ali Avaci "Şərhu Navaqidit Tovhid" (səh.78-87). Sad ibn Muhəmməd əl Qahtani "Təysiru zil Cələli vəl İkram bi şərhi Nəvəqidil İsləm" (səh. 79-84).

**olanı insanlara öyrədərək kafir oldular. Mələklər: "Biz ancaq bir sınağıq, sən gəl kafir olma!"– deməmiş onu heç kəsə öyrətmirdilər. Yəhudilər ərlə arvadı bir-birindən ayıracaq işləri onlardan öyrənirdilər. Lakin onlar Allahın izni olmadan heç kəsə zərər verə bilməzlər. Onlar özlərinə zərər verən, faydası olmayan şeyləri öyrənirdilər. Onlar bilirdilər ki, onu əldə edən kimsə üçün axirətdə heç bir pay yoxdur. Nəfslərinin əvəzində satın aldıqları şey necə də pisdir! Kaş bunu biləydilər!”**[1]

## 8. “Lə iləhə illəllah” şəhadətini pozan səkkizinci amil: Müşriklərə arxa-dayaq olmaq və müsəlmanların əleyhinə onlara yardım etmək.

Bəzi insanlar kafirləri və müşrikləri özlərinə dost tutur, onlara arxa-dayaq olur, kafirlərə tərəf keçərək müsəlmanlara qarşı onlara yardım edir, onları mal, silah və sözlə müdafiə edirlər. Bu da İslamı pozan küfrdür.

Uca və Qüdrətli Allah bir çox ayələrdə bizə müşrikləri və kafirləri dost tutmağı qadağan etmişdir. Həmçinin kafirlərə qarşı məhəbbət bəsləmək, dinlərinə görə onları sevmək, onlara yardım etmək və müsəlmanlara qarşı onlara arxa-dayaq olmaq da bu mənaya daxildir.[2]

### Bu amilə dair bəzi dəlillər:

1. Uca Allah buyurub: **“Möminlər möminləri qoyub kafirləri dost tutmasınlar! Bunu edən kimsə bilsin ki, Allah ilə onun heç bir əlaqəsi yoxdur. Ancaq onlardan gələn təhlükədən çəkinməklə ehtiyat etməyiniz istisnadır. Allah sizi Özündən çəkindirir. Dönüş də ancaq Allahadır”.**[3] Yəni, ey möminlər, kafirləri dinlərinə görə sevib özünüzə arxa-dayaq və dost tutmayın. Möminləri qoyub kafirləri özünüzə dost tutmayın, müsəlmanlara qarşı onlara yardım etməyin və müsəlmanların eyiblərini onlara bildirməyin. Həqiqətən də, kim bunu edərsə, Allah ondan, o da Allahdan uzaqdır. O insan Allahın dinindən çıxıb mürtəd olar və küfrə girər. Yalnız kafirlərin güclü və hakim olduqları yerdə onlardan təhlükə gələcəyindən ehtiyat etsəniz, küfrlərində onlara tabe olmadan və müsəlmanlara qarşı əməldə onlara yardım etmədən sadəcə dildə onlara dostluğu izhar etməyiniz, qəlbdə isə düşmənçiliyi gizlətməyiniz istisnadır.[4]

---

[1] Əl Bəqərə, 102
[2] Bax: Şeyxulisalm İbn Teymiyyə “Məcmuul Fətəvə” (11\160-161).
[3] Ali İmran, 28
[4] Bax: İbn Cərir Ət Tabari “Cəmiul Bəyəni fi Təvilil Quran” (3\227).

2. Uca Allah buyurub: **“Ey iman gətirənlər! Yəhudi və xaçpərəstləri dost tutmayın! Onlar bir-birinin dostudurlar. Sizlərdən kim onları özünə dost tutarsa, o da onlardandır. Allah zalım adamları doğru yola yönəltməz”.**[1] Yəni, ey möminlər, yəhudi və xristianları özünüzə dost tutmayın. Sizlərdən kim onları özünə dost tutarsa, o da onlardan olar. Çünki kafirlərlə tam dostluq etmək, onların dininə keçməyi vacib edir. Edilən dostluq az olsa belə, bu, tədricən tam dostluğa çevrilir və nəticədə onlardan olmağa aparıb çıxarır.[2]

3. Uca Allah buyurur: **“Allaha və Axirət gününə iman gətirən elə bir camaat tapa bilməzsən ki, onlar Allaha və Onun Elçisinə düşmən olanlarla – öz ataları, oğulları, qardaşları, qohum-əqrəbaları olsalar belə, – dostluq etsinlər. Allah onların qəlbinə iman salmış və onları Öz tərəfindən bir ruhla dəstəkləmişdir. Allah onları ağacları altından çaylar axan Cənnət bağlarına daxil edəcəkdir. Onlar orada əbədi qalacaqlar. Allah onlardan razıdır, onlar da Allahdan razıdırlar. Onlar Allahın firqəsidirlər. Həqiqətən, məhz Allahın firqəsi nicat tapanlardır”.**[3] Uca Allah bu ayədə xəbər verir ki, mömin üçün Allah və Onun elçisi hər şeydən sevimli olmalıdır. Onun Allaha və Elçisinə qarşı düşmənçilik edən kəslə heç vaxt dostluq etdiyini görməzsən. Çünki həm Allahı sevmək, həm də Allaha qarşı düşmənçilik edən kəsi sevmək bir yerdə cəm ola bilməz. Bu iki şey bir-birinə tamamilə ziddir və onları cəm etmək mümkün deyil.[4]

4. Uca Allah buyurur: **“Allah sizə ancaq sizinlə din uğrunda vuruşan, sizi diyarınızdan qovub çıxardan və çıxarılmanıza kömək edən kimsələrlə dostluq etmənizi qadağan edir. Onlarla dostluq edənlər zalımlardır”.**[5] Uca Allah bu ayədə xəbər verir ki, kim kafirləri dost tutarsa, o, zalımdır. Onun zülmü də, bu dostluğun miqdarına görə dəyişir. Əgər dostluq tam olarsa, o zaman bu, İslam dairəsindən çıxaran böyük küfr olur.[6]

---

[1] Əl Maidə, 51
[2] Bax: İbn Sədi “Təysirul Kərimir Rahmən” (2\304).
[3] Mucadələ, 22
[4] Bax: İbn Teymiyyə “Qaidətu fil Məhəbbəh” (səh. 89-90).
[5] Əl Mumtəhənə, 9
[6] Bax: İbn Sədi “Təysirul Kərimir Rahmən” (7\357).

**9. “Lə iləhə illəllah” şəhadətini pozan doqquzuncu amil: Kim etiqad etsə ki, Xızır Musanın şəriətindən kənar çıxdığı kimi, bəzi insanlar da Muhəmmədin *(Allahın ona salavatı və salamı olsun)* şəriətindən kənar çıxa bilər, kafir olur.**

Bəzi insanlar etiqad edirlər ki, bütün hallarda yaxud bəzən peyğəmbərimiz Muhəmmədin *(Allahın ona salavatı və salamı olsun)* şəriətindən kənara çıxmaq, ona müxalif olmaq və onun şəriətinə tabe olmamaq mümkündür və iddia edirlər ki, Xızırın *(Allahın ona salavatı olsun)* qissəsində buna dəlil vardır.[1]

Şübhə yoxdur ki, bu etiqad İslamdan çıxaran küfrdür. Şeyx Musa ibn Əhməd Əl Məqdisi belə demişdir: “Kim etiqad etsə ki, Muhəmmədə *(Allahın ona salavatı və salamı olsun)* tabeçilikdən başqa Allaha tərəf gedən yol var və ya Muhəmmədə *(Allahın ona salavatı və salamı olsun)* tabeçilik vacib deyil, və ya onun şəriətindən kanara çıxmaq və onun gətirdiyi şəriəti götürməmək icazəlidir, o kəs kafirdir. Kim desə ki, mənim Muhəmmədə *(Allahın ona salavatı və salamı olsun)* zahiri elmdə ehtiyacım var, lakin batini elmdə ona ehtiyacım yoxdur, və ya desə ki, mənim ona şəriət elmində ehtiyacım var, amma həqiqət elmində ona ehtiyacım yoxdur, və ya desə ki, Xızır Musanın şəriətindən kənar çıxdığı kimi, övliyalara da Muhəmmədin *(Allahın ona salavatı və salamı olsun)* şəriətindən kənara çıxmaq icazəlidir və ya etiqad etsə ki, başqasının yolu Muhəmmədin *(Allahın ona salavatı və salamı olsun)* yolundan daha kamildir, o kəs kafirdir.[2]

Şeyxulislam ibn Teymiyyə belə deyib: “Kim etiqad etsə ki, Xızır Musanın şəriətindən kənar çıxdığı kimi, övliyalardan hər hansı biri Muhəmmədin *(Allahın ona salavatı və salamı olsun)* şəriətindən kənar çıxa bilər, o kəs ilk öncə tövbəyə çağırılır. Əgər tövbə edərsə, heç, yox əgər tövbə etməzsə, o zaman boynu vurulur.”[3]

Uca Allah Xızırla Musanın qissəsini bizə xəbər vermişdir.[4] Orada Xızırın gəmini deşməsi, oğlanı öldürməsi, divarı təmir edib ucaltması kimi hadisələr zikr olunur. Bəzi insanlar həmin qissəni dəlil gətirərək deyirlər ki, Xızır Musaya *(Allahın ona salavatı olsun)* müxalif oldu, onun şəriətindən kənar çıxdı və Musanın şəriətindəki əmr və qadağalara əməl etmədi. Onlar iddia edirlər ki, Xızır

---

[1] Bax: İbn Teymiyyə “Məcmuul Fətəvə” (11-422).
[2] Bax: Musa Əl Məqdisi “Əl İqnəu li Talibil İntifə” (4\287-288).
[3]Bax: Şeyxulislam İbn Teymiyyə “Məcmuul Fətəvə” (3\422).

[4] Kəhf surəsi, 60-82 ci ayələr.

Musanın şəriətindən kənar çıxdığı kimi, bəzi insanlar da Muhammədin *(Allahın ona salavatı və salamı olsun)* şəriətindən kənar çıxmaq imkanına malikdir.[1]

**Onların bu iddialarına bir neçə aspektdən cavab vermək olar:**[2]

1. Musa *(Allahın ona salavatı olsun)* Xızıra elçi olaraq göndərilməmişdi və Musanın şəriətinə tabe olmaq Xızıra vacib deyildi. Musa *(Allahın ona salavatı olsun)* xüsusi olaraq öz qövmünə – İsrail oğullarına göndərilmişdir. Xızır *(Allahın ona salavatı olsun)* isə İsrail oğullarından deyildi. Musa *(Allahın ona salavatı olsun)* Xızırın yanına sadəcə elm öyrənmək üçün getmişdir. Musa Xızırla qarşılaşdığı zaman ona salam verdi. Xızır ondan soruşdu ki, sənin yaşadığın yerdə salamı haradan bilirlər? O cavab verdi ki, mən Musayam. O dedi: İsrail oğullarına göndərilən Musamı? Musa "Bəli" – deyə cavab verdi və sonra belə dedi: "Mən sənin ardınca gələcəm ki, sənə öyrədilən doğru yolu göstərən elmdən mənə də öyrədəsən."[3] Bunu bizim Peyğəmbərimizlə *(Allahın ona salavatı və salamı olsun)* müqayisə etmək doğru deyil. Çünki Uca Allah Onu *(Allahın ona salavatı və salamı olsun)* bütün insanlara və cinlərə elçi göndərmişdir. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurub: ***"Peyğəmbərlər xüsusi olaraq öz qövmlərinə göndərilirdi, mən isə bütün insanlara elçi olaraq göndərilmişəm."***[4] Buna görə də Xızırın *(Allahın ona salavatı olsun)* etdiyi, Musanın *(Allahın ona salavatı olsun)* şəriətinə qarşı çıxmaq sayılmır. Amma Muhəmmədin *(Allahın ona salavatı və salamı olsun)* ümmətindən olan bir kəs ona müxalif olsa, əmr və qadağalarında tamamilə ona itaət etməsə, o kəs, əlbəttə ki, Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* şəriətindən çıxmış hesab olunar.

2. Xızırın *(Allahın ona salavatı olsun)* qissəsində Musanın şəriətinə müxalif heç nə yox idi. Əksinə, o, şəriətlə icazəli olan bir iş görmüşdü və bunu hansı səbəblərə görə etdiyini də bilirdi. Elə buna görə də, bu səbəbləri Musaya *(Allahın ona salavatı olsun)* açıqladığı zaman Musa *(Allahın ona salavatı olsun)* onunla

---

[1] Bax Şeyxulislam İbn Teymiyyə "Məcmuul Fətəvə" (11\420).
[2] Bax: İbn Teymiyyə "Məcmuul Fətəvə" (11\263).
[3] Bax: Sahihul Buxari, Peyğəmbərlərin hədisləri kitabı, "Musanın *(Allahın ona salavatı olsun)* Xızırla söhbəti" bölümü.
[4] Bax: Sahihul Buxari, Təyəmmüm kitabı, bölüm 1, hədis № 336.

razılaşır. Əgər Xızırın *(Allahın ona salavatı olsun)* etdikləri Musanın şəriətinə müxalif olsaydı, o heç bir halda bununla razılaşmazdı.[1]

Amma Muhəmmədin *(Allahın ona salavatı və salamı olsun)* şəriətindən kənar çıxmaq istəyən kəs isə onun şəriətinə müxalif olmuş sayılır. Növbəti bənddə bunu izah edəcəyik.

3. Xızırın *(Allahın ona salavatı olsun)* etdikləri xəyal və ya ilhamla deyil, məhz Uca Allahdan gələn vəhy üzərində idi. Allah elçisindən *(Allahın ona salavatı və salamı olsun)* sonra isə kiməsə vəhyin gəlməsi mümkün deyil. Çünki Muhəmməd *(Allahın ona salavatı və salamı olsun)* peyğəmbərlərin və elçilərin sonuncusu idi. Onun vəfatı ilə vəhy kəsilmişdir. Ondan sonra kim özünə vəhyin gəldiyini iddia edərsə, kafir olar.[2]

Deməli, Peyğəmbərlərin sonuncusu olan Muhəmmədin *(Allahın ona salavatı və salamı olsun)* şəriətindən kənar çıxmaq heç bir halda icazəli deyildir. Bunu edən kəs ən böyük küfr etmiş sayılır və İslam dinindən çıxıb kafir olur.[3]

### 10. "Lə iləhə illəllah" şəhadətini pozan onuncu amil: Allahın dinindən üz çevirib onu öyrənməmək və ona əməl etməmək.

Burada nəzərdə tutulan, Uca və Qüdrətli Allahın dinindən tamamilə üz döndərmək, Allahın elçisinə *(Allahın ona salavatı və salamı olsun)* itaətdən boyun qaçırmaq, ona tabe olmaqdan imtina etmək və şəri hökmləri qəbul etməkdən üz çevirməkdir. Bu kimsənin dini öyrənməyə istəyi olmur, bu barədə maraqlanmır, itaət etmək və ya Peyğəmbərə tabe olmaq istəmir, zahirdə olan saleh əməlləri yerinə yetirməkdən bütünlüklə üz döndərir (zahiri əməldən heç nə etmir).[4]

Bütünlüklə üz döndərmək yalnız haqqı öyrənməyə və ona əməl etməyə imkanı olduğu halda, bundan üz döndərən, səhlankarlıq edən və heç bir üzrü olmadan Allahın vaciblərini tərk edən kəsdə olur. Belə insanın naqisliyə yol verməsinin səbəbi doğru yola tabe olmaqdan üz çevirməsidir. Əgər o azarsa, öz səhlənkarlığının və üz döndərməsinin ucbatından azmış olar.

---

[1] Bax: Şeyxulislam İbn Teymiyyə "Məcmuul Fətəvə" (11\263). Həsən ibn Ali  Avaci "Şərhu Navaqidit Tovhid" (səh. 100-101). Sad ibn Muhəmməd əl Qahtani "Təysiru zil Cələli vəl İkram bi şərhi Nəvəqidil İsləm" (səh. 100).

[2] Bax: Abdurrahman Abdulxaliq "Əl Fikrus Sufi fi Davil Kitəbi vəs Sunnəh" (səh. 132)

[3] Bax: İbn Əl Qeyyim əl Cəvziyyə "İğasətul Ləhffən min Məsayidiş Şeytan" (1\123).

[4] Bax: İbnul Qeyyim Əl Cəvziyyə "Tariqul Hicrateyn və Bəbus Səadətəyn" (səh. 412-413). Sad ibn Muhəmməd əl Qahtani "Təysiru zil Cələli vəl İkram bi şərhi Nəvəqidil İsləm" (səh. 102).

**Mühüm qeyd:**

Bilmək lazımdır ki, hər üz döndərən insan dindən çıxmış hesab olunmur. İnsan mücməl imanı öyrənməkdən üz döndərdikdə, həmçinin əməl etməkdən bütünlüklə üz döndərdiyi zaman İslam dinindən çıxır.[1] Belə insan kafir olur, çünki o, nə Allahın dinini öyrənmiş, nə də ona əməl etmişdir.

İbn Əl Qayyim insanı İslam dairəsinə daxil edən mücməl imanı öyrənməkdən üz döndərən kəs haqqında belə demişdir: "İslam Allahı ibadətdə təkləşdirmək, Allaha və Onun elçisinə iman etmək və onun gətirdiyinə tabe olmaqdır. İnsan bunları etmədikcə müsəlman olmur. O, inadkar kafir olmasa da, cahil kafir hesab olunur".[2]

Şeyxulislam ibn Teymiyyə əməl etməkdən üz döndərən kəs haqqında belə deyir: "Artıq məlum oldu ki, dində söz və əməl mütləqdir. Bir insanın Allaha və elçisinə qəlbi ilə və ya qəlbi və dili ilə iman etməsi, lakin namazı, orucu, zəkatı və digər zahirdə edilən vacib əməlləri yerinə yetirməməsi mümkün deyil".[3]

**Bu amilə dair bəzi dəlillər:**

1. Uca Allah buyurub: **"Münafiqlər: "Allaha və Peyğəmbərə iman gətirdik, itaət etdik!"– deyirlər. Bundan sonra isə onlardan bir dəstə üz çevirir. Onlar mömin deyillər. Aralarında hökm vermək üçün Allahın və Onun Elçisinin yanına çağırıldıqları zaman onlardan bir dəstə üz çevirir".**[4] Uca Allah bu ayədə dilləri ilə iman gətirdik demələrinə baxmayaraq, əməl etməkdən üz döndərən kəslərin imanlarının olmadığını bildirmişdir.[5]

2. Uca Allah buyurub: **"De: "Allaha və göndərdiyi Elçiyə itaət edin!" Əgər üz döndərərlərsə, şübhəsiz ki, Allah kafirləri sevməz".**[6] Bu ayə Allaha və Onun elçisinə *(Allahın ona salavatı və salamı olsun)* itaət etməkdən üz döndərənlərin kafir olmasına dəlildir.[7]

---

[1] Bax: Həsən ibn Ali  Avaci "Şərhu Navaqidit Tovhid" (səh. 105). Və  Sad ibn Muhəmməd əl Qahtani "Təysiru zil Cələli vəl İkram bi şərhi Nəvəqidil İsləm" (səh. 102-103).
[2] Bax: İbnul Qeyyim Əl Cəvziyyə "Tariqul Hicrateyn və Bəbus Səadətəyn" (səh. 411).
[3] Bax: Şeyxulislam İbn Teymiyyə "Məcmuul Fətəvə" (7\621).
[4] Ən Nur, 47-48
[5] Bax: Şeyxulislam İbn Teymiyyə "Məcmuul Fətəvə" (7\142).
[6] Əli İmran, 32
[7] Bax: "Təfsiru İbn Kəsir" (1\338).

3. Uca Allah buyurur: **“Onlara: "Allahın nazil etdiyinə və Elçisinə tərəf gəlin!"– deyildikdə, münafiqlərin səndən nifrətlə üz çevirdiklərini görürsən”.**[1] Uca Allah bu ayədə xəbər verir ki, Allahın elçisinə *(Allahın ona salavatı və salamı olsun)* itaət etməkdən boyun qaçıran və onun hökmündən üz döndərən kəs mömin deyil, əksinə, münafiqlərdəndir.[2]

4. Uca Allah buyurub: **“Kim Mənim Zikrimdən üz döndərsə, onun güzəranı sıxıntılı olacaq və Biz Qiyamət günü onu kor kimi hüzurumuza gətirdəcəyik". O deyəcək: "Ey Rəbbim! Mən dünyada görürdümsə, indi nə üçün məni kor olaraq gətirdin?" Allah deyəcək: "Elədir! Çünki sənə ayələrimiz gəldi, sən isə onları unutdun. Bu gün də sən beləcə unudulacaqsan!”** [3] Uca Allah bu ayədə bildirib ki, üz döndərənlərin güzəranı sıxıntılı və çətin olacaq, Qiyamət günü isə onlar kor olaraq gətiriləcəklər.

### “Lə iləhə illəllah” şəhadətini pozan amillər haqqında son söz:

Şeyxulislam Muhamməd ibn Abdulvahhab İslamı pozan amilləri zikr edərkən sonda belə deyir: “Bu amilləri hər hansı bir səbəbdən, ciddi, zarafatla və ya qorxudan edən arasında heç bir fərq yoxdur. Yalnız insanın zorla buna məcbur edilməsi istisnadır. Bu amillər təhlükəsi ən böyük olan və ən çox baş verən amillərdir. Bu səbəbdən də, müsəlman gərək onlardan həzər etsin və özünə görə qorxsun. Allahın qəzəbinə və ağrılı əzabına səbəb olan əməllərdən Allaha sığınırıq...”

Şeyxin “Bu amilləri zarafatla, ciddi və ya qorxudan edən arasında fərq yoxdur” – sözü doğru deyilmişdir. Uca Allah buyurub: **“Üzrxahlıq etməyin! İman gətirdikdən sonra artıq kafir oldunuz”.** Bu ayənin enmə səbəbinə baxsan görərsən ki, onlar zarafatla və əylənmək üçün dedikləri bir kəlmə səbəbindən kafir oldular. Allahdan bizi qorumasını diləyirik. Həqiqətən, O, Eşidən və dualara Cavab verəndir.

---

[1] Ən Nisa, 61

[2] Bax: İbn Teymiyyə “əs Sarimul Məsluli alə Şətimir Rasul” (səh. 33).

[3] Taha, 124-126

# İkinci mövzu: İbadət, onun növləri və rüknləri

**Bu mövzu özündə dörd məsələni ehtiva edir:**

**Birinci məsələ:** İbadətin lüğəvi və şəri (istilahi) mənası.

**İkinci məsələ:** Şəri dəlillər işığında qulluğun geniş məfhumu.

**Üçüncü məsələ:** İbadətin növləri.

**Dördüncü məsələ:** İbadətin rüknləri.

## Birinci məsələ: Lüğəvi və şəri cəhətdən ibadətin mənası

### İbadətin lüğəvi mənası:

İbadət sözünün lüğəvi mənası zəlil olmaq və boyun əyməkdir. Allaha ibadət etmək, yəni Ona boyun əymək, təslim olmaq və Onun üçün zəlil olmaq deməkdir.[1]

### İbadətin istilahi (şəri) mənası:

İbadət Allahın sevdiyi və razı qaldığı bütün zahiri və batini sözlərə və əməllərə deyilir.[2]

Qulluq, Allaha qarşı kamil sevgi və Onun qarşısında tam zəlilliklə olur. Kim bir kəsin qarşısında alçalsa, lakin qəlbində ona nifrət etsə, ona qulluq etmiş sayılmır. Həmçinin, kim bir şəxsi sevsə, lakin onun qarşısında zəlil olmasa, ona ibadət etmiş sayılmır, insanın öz dostunu və övladını sevməsi kimi.[3]

Deməli, ibadət özündə kamil sevgini və tam zəlilliyi cəm edir. İbn Əl Qeyyim bunu belə izah etmişdir:

**"Ər Rahmənə ibadət, Onu kamil şəkildə sevməklə bərabər, Onun üçün tam şəkildə zəlil olmaqdır."[4]**

Ümumi mənada ibadət sevərək və təzim edərək Allahın qarşısında boyun əyib, göndərdiyi şəriətlərə uyğun şəkildə Onun əmrlərini yerinə yetirmək və qadağalarından çəkinməkdir.[5]

Uca və Qüdrətli Allah mömin qulları üçün hər şeydən sevimli və əzəmətlidir.

---

[1] Bax: Zəməxşəri "Əsasul Bələğəti" (səh. 406) və "Mucəmul Vasit" (səh. 579).
[2] Bax: Şeyxul İsləm ibn Teymiyyə "əl Ubudiyyəh" (səh. 23).
[3] Bax: Şeyxul İsləm ibn Teymiyyə "əl Ubudiyyəh" (səh. 33-34).
[4] Bax: İbn əl Qeyyim "ən Nuniyyəh" Hərrasın şərhi ilə (1\95).
[5] Bax: İbn Useymin "əl Məcmuus Səmin" (2\25).

## İkinci məsələ: Şəri dəlillər işığında qulluğun geniş məfhumu.

Daha öncə Şeyxülislamın ibadətə verdiyi tərifi qeyd etdik ki, ibadət Allahın sevdiyi və razı qaldığı bütün zahiri və batini sözlərə və əməllərə deyilir.

Bu tərifə əsasən ibadət təkcə İslamın rüknləri olan namaz, oruc, zəkat, həcc ilə məhdudlaşmır. Əksinə, əgər insan öz əməllərində əməlin qəbul olması üçün iki şərti həyata keçirərsə, İslam dini onun etdiyi bütün əməllərə ibadət vəsfini vermişdir. Əməlin qəbul olması üçün iki şərt bunlardır:[1]

**Birinci şərt:** İxlas. Yəni əməlin Allahın rizası üçün olmasıdır. Uca Allah belə buyurub: **"Halbuki onlara dini məhz Allaha məxsus edərək, həniflər kimi ibadət etmək, namaz qılmaq və zəkat vermək əmr olunmuşdu."**[2] İxlas, qulun əməlinin, sözünün, sevməsinin, nifrət etməsinin, sədəqə verməsinin və ya verməməsinin yalnız Allah üçün olduğunu niyyət etməsidir. Çünki əməllər yalnız niyyətlərə görədir. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə deyib: ***"Əməllər yalnız niyyətlərə görədir".***[3] Niyyət əmələ hakim olur və onu ibadətə çevirir.

**İkinci şərt:** Peyğəmbərə tabeçilik. Yəni əməlin Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* getdiyi doğru yola uyğun olmalısır. Uca Allah buyurub: **"Peyğəmbər sizə nə verirsə, onu götürün, nəyi də qadağan edirsə, ondan çəkinin."**[4] Əgər əməllər şəriətin buyurduğu şəkildə olmazsa, onların heç bir dəyəri olmur. Möminlərin anası Aişə *(Allah ondan razı olsun)* rəvayət edir ki, Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə dedi: ***"Kim bizim dinimizə ondan olmayan bir yenilik gətirərsə, o qəbul olunmaz."***[5]

Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* yoluna uyğun olmayan hər bir əməl, sahibini Allahdan daha da uzaqlaşdırır. Uca və Qüdrətli Allaha insanların nəfsi istəkləri və şəxsi fikirləri ilə deyil, yalnız Onun əmr etdiyi qaydada ibadət edilməlidir.

---

[1] Bax: əl Məqrizi "Təcridut Tovhidil Mufid" (səh. 88-89).

[2] Əl Bəyyinə, 5

[3] Bax: Sahihul Buxari, Vəhyin başlanması kitabı, "Allah elçisinə *(Allahın ona salavatı və salamı olsun)* gələn vəhyin başlanması" bölümü.

[4] Əl Həşr, 7

[5] Bax: Sahihul Buxari, Kitəbus Sulh, "İzə istaləhu alə cəvr, fəssulhu mərdud" fəsli

Təkcə əməlin ixlasla edilməsi kifayət etmir. Nə də təkcə Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* yoluna tabeçiliklə iş bitmir. Doğru məslək bunların hər ikisini cəm etməkdir. Uca Allah saleh əməl haqqında belə buyurmuşdur: **"Kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə, yaxşı işlər görsün və icra etdiyi ibadətlərində Rəbbinə heç kəsi şərik qoşmasın!"**[1] Saleh əməl ixlasla edilən və Peyğəmbərin yoluna uyğun olan əməldir. Əgər əməldə bu iki şərt cəm olarsa, o zaman ibadət sayılır. İbadətlər çox sayda və müxtəlif şəkillərdə olur və müsəlmanın bütün həyatını əhatə edir.

Aşağıdakı məsəllər bunun izahını verir:

1. Uca və Qüdrətli Allah saleh əməlləri xüsusi ibadətlərlə məhdudlaşdırmayıb. Əksinə, salehliyi digər əməllərə də şamil edib. Uca Allah buyurub: **"Mədinə əhalisinə və onların ətrafındakı bədəvilərə döyüşdə Allahın Elçisindən geri qalmaq, onun canından öncə öz canlarının hayına qalmaq yaraşmaz. Çünki Allah yolunda onlara üz verən elə bir susuzluq, yorğunluq və aclıq, kafirləri qəzəbləndirən elə bir atılmış addım, düşmən üzərində qazanılan elə bir uğur yoxdur ki, bunların müqabilində onlara yaxşı bir əməl yazılmasın. Həqiqətən, Allah yaxşı iş görənlərin mükafatını puç etməz. Allah onları etdikləri əməllərin ən gözəli ilə mükafatlandırsın deyə xərclədikləri elə bir kiçik və ya böyük məsrəf, keçdikləri elə bir vadi yoxdur ki, buna görə onlara savab yazılmasın."**[2]

2. Əbu Zərr Əl Ğifəri *(Allah ondan razı olsun)* rəvayət edir ki, insanlar belə dedilər: ***"Ey Allahın elçisi! Zənginlər bütün əcrləri apardılar. Onlar bizim qıldığımız kimi namaz qılır, oruc tutduğumuz kimi oruc tuturlar. Üstəlik mallarından artıq qalanını sədəqə verirlər". Allahın elçisi (Allahın ona salavatı və salamı olsun) belə cavab verdi: "Məgər Allah sizə sədəqə üçün heç nə verməyib!? Hər bir "subhanallah" sədəqədir. Hər bir "Allahu əkbər" sədəqədir. Hər bir "əlhəmdulilləh" sədəqədir. Hər bir "lə iləhə illəllah" sədəqədir. Yaxşı işi əmr etmək sədəqədir. Pis işdən çəkindirmək sədəqədir. Hətta sizdən birinizin öz zövcəsi ilə yaxınlığında sədəqə vardır." Onlar dedilər: "Ey Allahın elçisi! Bizdən birimiz öz şəhvətini ödəyəcək və buna görə o əcr qazanacaq?" Allahın elçisi (Allahın ona salavatı və salamı olsun) belə dedi: "Deyin görüm, əgər onu***

[1] Əl Kəhf, 110
[2] Ət Tövbə, 120-121

***(şəhvətini) harama yönəltsə, onun üçün günah yazılarmı? Eləcə də onu halala yönəltsə, ona əcr yazılar".***[1] Bu hədisdə Peyğəmbər *(Allahın ona salavatı və salamı olsun)* xəbər verir ki, ibadət dairəsi daha genişdir və "subhənallah", "əlhəmdulilləh", "lə iləhə illəllah", "Allahu əkbər" demək, həmçinin yaxşılığı əmr etmək və pis işdən çəkindirmək də bura daxildir. O, hətta kişinin öz qadını ilə yaxınlıq etməsində belə sədəqə olduğunu bildirmişdir. Çünki Uca Allahın razılığını qazanmaq üçün günahdan uzaq durmaq ibadətdir və bunda əcr vardır. Kişinin öz qadını ilə yaxınlıq etməsi isə həm onun özünü, həm də zövcəsini harama düşməkdən qoruyur. Əgər bununla yanaşı, yaxşı nəsilə sahib olmaq, onlara gözəl tərbiyə vermək və onların qayğısına qalmaq kimi niyyətləri də əlavə etsə, saleh niyyətin artmasına görə ibadəti də artmış olar.

3. İbn Abbas *(Allah ondan və atasından razı olsun)* Peyğəmbərdən *(Allahın ona salavatı və salamı olsun),* o da Rəbbindən rəvayət etmişdir ki, Uca Allah belə buyurub: ***"Həqiqətən də, Allah yaxşı və pis əməlləri yazmış, sonra onları bəyan etmişdir. Kim bir yaxşı iş görmək istəsə, lakin bunu edə bilməsə, Allah Öz qatında ona tam bir savab yazar. Əgər yaxşı iş görmək istəsə və onu yerinə yetirsə, Allah Öz dərgahında on savabdan yeddi yüzə qədər və bundan da qat-qat çox savab yazar. Əgər bir günah etmək istəsə, amma onu etməsə, Allah buna görə ona tam bir savab yazar. Əgər (günah etmək) istəsə və onu etsə, Allah ona bir günah yazar."***[2] Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* bu hədisdə xəbər verir ki, insan əməl edə bilməsə belə, saleh niyyətinə görə savab qazanır və niyyətə görə daim əcr vardır.

Əməl ilə yanaşı saleh niyyətlər artdıqca, ibadət dairəsi də bir o qədər genişlənir, hətta insanın bütün həyatını əhatə edir. İnsan oyaq olduqda, yatarkən, susduqda, danışarkən, hətta dünya və axirəti üçün azuqə topladıqda onun əməli Allahın şəriətinə uyğun olsa və bununla Allahın rizasını qazanmağı niyyət etsə, Allaha ibadət etmiş olur.

---

[1] Bax: Sahih Muslim, "Zəkat kitabı", "Hər bir yaxşı işin sədəqə adlandırılması" bölümü.
[2] Bax: Sahih Əl Buxari, "Kitəbur riqaq", "Kim yaxşı əməli və ya pis əməli etməyə əzm edərsə" bölümü. Sahih Muslim, "İman kitabı", "Yaxşı əməl etməyə əzm edən qula, yaxşılıq yazılar" bölümü.

## Üçüncü məsələ: İbadətin növləri.

Bundan öncəki məsələdə qeyd etdik ki, insanın niyyəti artdıqca, ibadət dairəsi də bir o qədər genişlənir, hətta insanın bütün həyatını əhatə edir. Hər hansı bir əməl Allahın şəriətinə uyğun olsa və insan bununla Allahın rizasını qazanmağı niyyət etsə, həmin əməl ibadət sayılır. İnsanın qəbul olma şərtlərini özündə cəm edən bütün əməlləri ibadətdir. İbadətləri bir neçə növə ayırmaq olar:

### Birinci: Etiqadla bağlı olan ibadətlər:

Uca Allahın Özü barədə, həmçinin Peyğəmbərinin *(Allahın ona salavatı və salamı olsun)* öz Rəbbi barədə verdiyi bütün xəbərlərə inanmaq, Allahın adlarına, sifətlərinə və feillərinə, həmçinin Allahın mələklərinə, kitablarına, elçilərinə, Qiyamət günü Allahla görüşməyə və buna bənzər Allahın və Rəsulunun xəbər verdiyi digər məsələlərə etiqad etməkdir.[1]

**Bu növə dair bəzi dəlillər:**

Uca Allah buyurub: **"Yaxşı əməl üzünüzü məşriqə və məğribə tərəf çevirməyiniz deyildir. Lakin yaxşı əməl sahibləri Allaha, Axirət gününə, mələklərə, kitablara, peyğəmbərlərə iman gətirənlərdir"**.[2]

### İkinci: Qəlbi ibadətlər:

Qəlbi ibadətlər qəlbdə olan əməllərdir. Allahı sevmək, Ona təvəkkül etmək, Ona yönəlmək, Ondan qorxmaq, Ona ümid etmək, ixlaslı olmaq, Onun əmrlərinə, qadağalarına və qədərinə səbr etmək, Ondan razı olmaq, Onun üçün dostluq etmək, Onun üçün düşmənçilik etmək, Ona boyun əymək, Onunla qəlb rahatlığı tapmaq kimi Allahdan başqasına yönəldilməsi icazəli olmayan qəlb əməllərini misal çəkmək olar.[3]

**Bu növə dair bəzi dəlillər:**

1. Uca Allah buyurub: **"Əgər möminsinizsə, Allaha təvəkkül edin!"**[4] Həmçinin buyurub: **"Əzab sizə gəlməmişdən öncə Rəbbinizə üz tutun və Ona**

---

[1] Bax: Əl Məqrizi "Təcridut Tovhidil Mufid" (səh. 117).
[2] Əl Bəqərə, 177
[3] Bax: Əl Məqrizi "Təcridut Tovhidil Mufid" (səh. 117).
[4] Əl Maidə, 23

**itaət edin."**[1] Həmçinin belə buyurub: **"Ey iman gətirənlər! Səbir edin, dözümlü olun, sərhəd boyu növbə ilə keşik çəkin və Allahdan qorxun ki, bəlkə nicat tapasınız!"**

## Üçüncü: Dil ilə edilən ibadətlər

Dil ilə edilən ibadətlərin ən əzəmətlisi "lə iləhə illəllah" şəhadətini tələffüz etməkdir. Həmçinin Allaha dua etmək, Allahı zikr etmək, Allahı müdafiə etmək, Onun dinini təbliğ etmək və Quran oxumaq kimi əməllər də dil ilə edilən ibadətlərdəndir.[2]

**Bu növə dair bəzi dəlillər:**

1. Uca Allah buyurub: **"İnsanları Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə mübahisə et".**[3] Həmçinin buyurub: **"Quran oxuduqda qovulmuş şeytandan Allaha sığın!"**[4] Həmçinin belə buyurub: **"Rəbbiniz dedi: "Mənə dua edin, Mən də sizə cavab verim".**[5]

## Dördüncü: Bədən üzvləri ilə edilən ibadətlər

Namaz, cihad, həcc, cümə və camaat namazına getmək, ehtiyacı olanlara yardım göstərmək, insanlara yaxşılıq etmək kimi bədən üzvlərilə edilən əməlləri buna misal çəkmək olar.[6]

**Bu növə dair bəzi dəlillər:**

1. Uca və Qüdrətli Allah buyurub: **"Ey iman gətirənlər! Rüku edin, səcdəyə qapanın, Rəbbinizə ibadət edərək yaxşı işlər görün ki, bəlkə nicat tapasınız".** [7] Həmçinin buyurub: **"Sonra həcc ayinlərini tamamlasınlar, nəzirlərini yerinə çatdırsınlar və qədim evi (Kəbəni) təvaf etsinlər".**[8] Həmçinin belə buyurub: **"Ey iman gətirənlər! Cümə günü namaza çağırılanda Allahı yad etməyə tələsin və ticarəti dayandırın. Bilsəniz, bu sizin üçün nə qədər xeyirlidir!"**[9]

---

[1] Əz Zumər, 54
[2] Bax: Əl Məqrizi "Təcridut Tovhidil Mufid" (səh. 117).
[3] Ən Nəhl, 125
[4] Ən Nəhl, 98
[5] Ğafir, 60
[6] Bax: Əl Məqrizi "Təcridut Tovhidil Mufid" (səh. 118).
[7] Əl Həcc, 77
[8] Əl Həcc, 29
[9] Əl Cümə, 9

**Beşinci: Mal ilə edilən ibadətlər**

Maldan zəkat çıxarmaq, nəzir vermək, Allah yolunda mal ilə döyüşmək kimi əməllər buna daxildir.

**Bu növə dair bəzi dəlillər:**

1. Uca və Qüdrətli Allah buyurub: **“Namaz qılın, zəkat verin! Qabaqcadan özünüz üçün nə xeyir hazırlasanız onun əvəzini Allahın yanında tapacaqsanız. Şübhəsiz ki, Allah nə etdiklərinizi görür”.**[1] Uca Allah buyurub: **“Sizə yüngül gəlsə də, ağır gəlsə də, döyüşə çıxın, malınız və canınızla Allah yolunda cihad edin! Biləsiniz ki, bu sizin üçün daha xeyirlidir”.**[2] Uca Allah buyurub: **“Onlar vəd etdikləri naziri verər və dəhşəti hər yeri sarsıdacaq Gündən qorxarlar.”** [3]

Deməli, ibadət insan həyatındakı hər bir sahəni əhatə edir. İnsanın həyatı da, ölümü də aləmlərin Rəbbi Allah üçündür. Uca Allah buyurub: **“De: "Şübhəsiz ki, mənim namazım da, qurbanım da, həyatım da, ölümüm də aləmlərin Rəbbi Allah üçündür! Onun heç bir şəriki yoxdur. Mənə belə buyurulmuşdur və mən müsəlmanların birincisiyəm”.**[4]

---

[1] Əl Bəqərə, 110
[2] Ət Tövbə, 41
[3] Əl İnsan, 7
[4] Əl Ənam, 162-163

## Dördüncü məsələ: İbadətin rüknları və əsasları

İbadət müəyyən rüknlar üzərində qurulub və onların cəm olması ilə Allaha qulluq kamilləşir.[1]

İbadətin rüknları bunlardır: **Məhəbbət, ümid və qorxu.** Onların cəm olunması vacibdir və hər hansı birinin olmaması icazəli deyil. Necə ki, alimlərimiz belə deyiblər: "Kim Allaha yalnız sevgi ilə ibadət edərsə, o zındıqdır. Kim Allaha ancaq ümid ilə ibadət edərsə, o murciədir. Kim Allaha ancaq qorxu ilə ibadət edərsə, o həruridir (xəvaricdir). Kim sevgi, ümid və qorxu ilə ibadət edərsə, o, Allahı təkləşdirən mömindir."[2]

Aşağıda bu rüknları bir-bir izah edəcəyik:

### Birinci rükn: Uca və Qüdrətli Allahı sevmək.

Məhəbbət İslam dininin əsasıdır. O elə bir nemətdir ki, onun qədrini ancaq onun kölgəsində kölgələnən dərk edə bilər. O elə bir ləzzətdir ki, onun şirinliyini ancaq onu dadan kəs bilər.

1. Burada Uca və Qüdrətli Allahı sevmək nəzərdə tutulur. Bu sevgi özündə Allahın istəklərini hər şeydən üstün tutmağı əhatə edir.

2. Məhəbbətin üç məqamı var: Onun kamilləşməsi, ondan şaxələnən şeylər və ona zidd olan şeylərin dəf edilməsi. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* bu kəlamında onları cəm etmişdir: ***"Bu üç şey kimdə olarsa, o kəs imanın şirinliyini tapar; Allah və Onun elçisi ona hər şeydən sevimli olsun, sevdiyi kəsi ancaq Allah üçün sevsin və Allah onu küfrdən çıxardıqdan sonra oda atılmağı sevmədiyi kimi, küfrə qayıtmağı da sevməsin".***[3]

Mömінin imanın şirinliyini dadması, Allaha olan sevgisinin kamilləşməsi ilə olur. Bu da üç şeylə tamamlanır; Allaha olan sevginin kamilliyi, ondan şaxələnən şeylər və ona zidd olan şeylərin dəf edilməsi.

**Allaha olan sevginin kamilliyi** dedikdə, yəni Allah və Elçisi o kəs üçün hər şeydən sevimli olmalıdır. Çünki Allahı və Onun elçisini sadəcə sevmək kifayət

---

[1] Bax: Əş Şinqiti "Məaricus Saudi ilə təfsiri surətil Hud" (səh. 136).

[2] Bax: Şeyxulislam İbn Teymiyyə "Əl Ubudiyyəh" (səh.161-162). Və Muhəmməd əl Həməd "Tovhidul Uluhiyyəh" (səh. 37).

[3] Bax: Sahihul Buxari, İman kitabı, "İmanın şirinliyi" bölümü və Sahih Muslim, İman kitabı, "Bu xislətlərə sahib olanın imanın şirinliyini dadması" bölümü.

deyil. Qula vacibdir ki, onun üçün Allah və Elçisi hər şeydən daha sevimli olsun.[1] Buna dəlil, Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun*) bu sözüdür: ***"Sizlərdən hər hansı biriniz məni övladından, valideynindən və bütün insanlardan çox sevməyincə (kamil) iman gətirmiş olmaz."***[2]

**Bu sevgidən irəli gələn şeylər** dedikdə, yəni insan bir kəsi sevdikdə, onu ancaq Allah üçün sevməlidir.

**Ona zidd olan şeylərin dəf edilməsi** dedikdə, yəni insan özünün oda atılmasına necə nifrət edirsə, imana zidd olan şeylərə daha çox nifrət etməlidir. Çünki Allahın nifrət etdiyi şeyə nifrət etmək, Allaha olan sevgidəndir. Allahın nifrət etdiyi ən böyük şey isə küfrdür.[3]

**3. Allahı sevməyin əlamətləri.** Allahı sevməyin iki əlaməti vardır: Peyğəmbərin *(Allahın ona salavatı və salamı olsun)* yoluna tabe olmaq və Allah yolunda döyüşmək.

**Peyğəmbərin *(Allahın ona salavatı və salamı olsun)* yoluna tabe olmaq:** "Allahı sevən hər bir kəsə vacibdir ki, Onun elçisinə *(Allahın ona salavatı və salamı olsun)* tabe olsun, verdiyi xəbərləri təsdiqləsin, əmrlərinə itaət etsin və etdiyi hər bir əməldə onu özünə örnək götürsün."[4] Uca Allah Öz elçisinə əmr etmişdir ki, ümmətinə belə desin: **"De: "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin"**.[5] Allahı sevmək sadəcə dil ilə iddia etməklə olmur. Bununla yanaşı qul mütləq Peyğəmbərə *(Allahın ona salavatı və salamı olsun)* tabe olmalı və onun doğru yolu ilə getməlidir.

**Allah yolunda cihad etmək:** Kim Allahı sevirsə, mütləq Onun yolunda mübarizə aparmalıdır. Çünki cihadın həqiqəti iman və saleh əməllər kimi Allahın sevdiyi şeylərin hasil olması üçün çalışmaq və küfr, fasiqlik və günahlar kimi Allahın sevmədiyi şeyləri dəf etməyə çalışmaqdır.[6] Uca Allah buyurub: **"De: "Əgər atalarınız, oğullarınız, qardaşlarınız, zövcələriniz, yaxın qohumlarınız, qazandığınız mallar, iflasa uğramasından qorxduğunuz alış-**

---

[1] Bax: Şeyxulislam İbn Teymiyyə "Əl Ubudiyyəh" (səh.159-160). Və Siddiq Həsən Xan "Əd Dinul Xalis" (2\369).
[2] Bax: Sahihul Buxari, İman kitabı, "Allah elçisini *(Allahın ona salavatı və salamı olsun)* sevməyin imandan olması" bölümü. Və Sahih Muslim, İman kitabı, "Allah elçisini *(Allahın ona salavatı və salamı olsun)* sevməyin vacib olması" bölümü.
[3] Bax: Şeyxulislam İbn Teymiyyə "Əl Ubudiyyəh" (səh. 160). Və Siddiq Həsən Xan "Əd Dinul Xalis" (2\369).
[4] Bax: Şeyxulislam İbn Teymiyyə "Əl Ubudiyyəh" (səh. 160). Və Siddiq Həsən Xan "Əd Dinul Xalis" (2\369).
[5] Əli İmran, 31
[6] Bax: Şeyxulislam İbn Teymiyyə "Əl Ubudiyyəh" (səh. 127). Və Siddiq Həsən Xan "Əd Dinul Xalis" (2\361).

**verişiniz və bəyəndiyiniz məskənlər sizə Allahdan, Onun Elçisindən və Onun yolunda cihaddan daha əzizdirsə, Allahın əmri gəlincəyə qədər gözləyin. Allah günahkarları doğru yola yönəltməz".**[1] Bu ayədə Uca Allah ailələrini və mallarını Allahdan, Onun elçisindən və Allah yolunda cihad etməkdən daha çox sevənləri hədələyir.[2]

Sevgi və nifrət Allah üçün olmadıqca və qulun sevgisi və nifrəti Allahın sevdiyi və nifrət etdiyi şeylərə uyğun olmadıqca, onun Allaha olan sevgisi tamamlanmır. Yəni qul Allahın sevdiyi şeyləri sevməli, nifrət etdiyi şeylərə isə nifrət etməlidir.

## İkinci rükn: Allaha ümid.

**1. Məhəbbət və ümid arasındakı bağlılıq.** Ümid məhəbbətin miqdarına və gücünə görə olur. Çünki sevən hər bir kəs istər-istəməz ümid bəsləyir və qulun Allaha olan sevgisi, onu Allaha ümid etməyə sövq edir.[3]

**2. Ümid dedikdə nə nəzərdə tutulur?** Ümid, qulun öz Rəbbi yanında əcr və mükafat alacağına, rəhm ediləcəyinə və bağışlanacağına ümid etməsidir. Əgər Allaha ibadət və itaət edibsə, Rəbbindən əcr və mükafat alacağına və əməllərinin qəbul olunacağına ümid edir. Əgər Allaha tövbə edibsə, tövbəsinin qəbul olunacağına və günahlarının bağışlanacağına ümid edir. Eyni zamanda qul heç vaxt Allahdan ümidini kəsməməli və Allahın rəhmətindən əlini üzməməlidir. Çünki Uca və Qüdrətli Allah hər ikisini də qınayaraq belə buyurub: **“Allahın mərhəmətindən ancaq kafir adamlar ümidlərini kəsər”.**[4] Həmçinin Uca Allah buyurub: **“İbrahim dedi: “Doğru yoldan azanlardan başqa, Rəbbinin mərhəmətindən kim ümidini üzər?”**[5]

**3. Ümid etmək məsələsində quldan tələb olunan nədir?** Quldan tələb olunur ki, ümidi kamil olsun və son həddə çatsın. Lakin o buna tədricən yüksəlir. İlk növbədə ümid, ibadəti yerinə yetirməyə sövq edir və qul etdiyi bu ibadətə görə mükafat alacağına ümid bəsləyir. Sonra onu dində olan hökmləri, nəfsin ləzzət aldığı və meyl etdiyi şeylərdən üstün tutmağa sövq edir. Sonda isə qul, Yaradan

---

[1] Ət Tövbə, 24
[2] Bax: Şeyxulislam İbn Teymiyyə “Əl Ubudiyyəh” (səh. 127).
[3] Bax: İbn əl Qeyyim “Mədəricus Səlikin” (2\44).
[4] Yusuf, 87
[5] Hicr, 56

Rəbbi ilə görüşəcəyinə ümid edir.[1] Uca Allah belə buyurub: "**Kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə, saleh əməllər etsin və Rəbbinə ibadətdə heç kəsi şərik qoşmasın!"**[2] Həmçinin Uca Allah buyurub: "**Kim Allahla qarşılaşacağına ümid bəsləyirsə, qoy bilsin ki, Allahın müəyyənləşdirdiyi zaman hökmən gələcəkdir. O, Eşidəndir, Biləndir."**[3]

**4. Ümidin hasil olması üçün bəzi səbəblər.**

a) Allahın səxavətini, qullarına bəxş etdiyi nemətləri və etdiyi yaxşılıqları müşahidə etmək.

b) Allah yanında olan nemətlərə və mükafatlara çatmaq üçün səmimi rəğbət.

c) Saleh əməllərlə azuqə toplamaq və xeyir işlərdə yarışmaq.

**5. Ümidə aid bəzi dəlillər:**

Ümidə dair yuxarida iki dəlil qeyd etmişdik. Uca Allah buyurub: **"Kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə, yaxşı işlər görsün və icra etdiyi ibadətlərində Rəbbinə heç kəsi şərik qoşmasın!"**[4] Həmçinin belə buyurub: **"Kim Allahla qarşılaşacağına ümid bəsləyirsə, qoy bilsin ki, Allahın müəyyənləşdirdiyi zaman hökmən gələcəkdir. O, Eşidəndir, Biləndir".**[5]

Həmçinin ümidlə bağlı başqa dəlilləri də qeyd etmək olar:

a) Uca Allah buyurub: **"Həqiqətən də, iman gətirənlər, hicrət edənlər və Allah yolunda cihad edənlər, Allahın mərhəmətinə ümid edirlər. Allah Bağışlayandır, Rəhmlidir".**[6]

b) Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* demişdir ki, Uca Allah belə buyurub: ***"Mən qulumun Mənim barəmdə olan zənninə görəyəm"***[7]

c)Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurub: ***"Sizlərdən biriniz Rəbbi barədə yalnız gözəl zəndə olduğu halda ölsün."***[8]

Qul öz Rəbbi barədə nə zənn edərsə, əməli də ona görə olacaq. Bu səbəbdən də qul Allah barədə gözəl zəndə olmalıdır ki, Onun rəhmətindən ümidini üzməsin

---

[1] Bax: İbn əl Qeyyim "Mədaricus Səlikin" (2\54-56).
[2] Əl Kəhf, 110
[3] Əl Ənkəbut, 5
[4] Əl Kəhf, 110
[5] Əl Ənkəbut, 5
[6] Əl Bəqərə, 218
[7] Sahih Əl Buxari, Tövhid kitabı, Uca Allahın **"Mələklər də buna şahiddirlər. Şahid olaraq Allah kifayətdir"** kəlamı" bölümü. Sahih Muslim, Tövbə, istiğfar, zikr və dua kitabı, "Allahı zikr etməyə təşviq etmək" bölümü
[8] Sahih Muslim, Cənnət kitabı, Cənnətin vəsfi, nemətləri və əhli, "Ölüm anında Allah haqqında gözəl zəndə olmaq" bölümü.

və daim Allah yanında olan böyük mükafata ümid etsin və Allahın mömin qulları üçün hazırladığı nemətlərə nail olmağa can atsın.

### Üçüncü rükn: Allahdan qorxmaq.

1. **Qorxunun ümid ilə bağlılığı.** Qorxu ümidi, ümid də qorxunu gərəkdirir. Hər ümid edən qorxur, hər qorxan da ümid edir. Ümid edən hər kəs ümid etdiyini itirməkdən qorxur. Qorxan hər bir kəs də Allahın onu əfv etməsinə və bağışlamasına ümid edir. Ümid etmədən qorxmaq, Allahın rəhmətindən ümidi üzmək deməkdir.[1]

2. **Qorxu dedikdə nə nəzərdə tutulur?** Qorxu qulun Rəbbinin onu dünyada və ya axirətdə cəzalandıracağından qorxmasıdır. Bu dünyada ona müsibət, xəstəlik, ölüm və ya başqa bəlalar göndərməsindən qorxur. Belə bir qorxunu Allahdan qeyrisinə yönəltmək olmaz. Çünki bunlar ilahlığın tələb etdiyi şeylərdir. Kim başqasını Allaha tay tutsa və bu qorxu ilə Allahdan başqasından qorxsa, artıq Allaha şərik qoşmuşdur.[2] Çünki qorxu qəlbin ibadətidir və onu Allahdan başqasına sərf etmək doğru deyildir. Həmçinin Allahın günahkarları təhdid etdiyi şeylərdən, axirətdə verəcəyi cəza və əzabdan qorxmaq da bura daxildir. Uca Allah buyurub: **"Bu, hüzurumda durmaqdan qorxanlara və təhdidimdən çəkinənlərə aiddir".**[3]

Bu qorxu, imanın ən uca mərtəbələrindəndir. Qul Uca və Qüdrətli Allahın rəhmətindən ümidini kəsməzsə, bu cür qorxu tərifə layiqdir.[4]

Bu qorxu ilə tələb olunan odur ki, bu qorxu qulun Allaha asi olmasına mane olmalı və onu Allahın əmrlərinə müxalif olmaqdan uzaqlaşdırmalıdır. Böyük İslam alimi İbn Əl Qeyyim *(Allah ona rəhmət etsin)* belə deyib: "Bir gün İbn Teymiyyənin *(Allah ona rəhmət etsin)* belə dediyini eşitdim: "Təriflənən qorxu, səni Allahın haramlarından uzaqlaşdıran qorxudur.""[5]

3. **Qulun qəlbində Allah qorxusunun azalmasının səbəbi.** Əgər qulun qəlbində Allah qorxusu naqisdirsə, bu onun öz Rəbbi barədə elminin azlığındandır. Çünki insanlar arasında Allahdan ən çox qorxan, Onu ən çox

---

[1] Bax: İbn əl Qeyyim "Mədəricus Səlikin" (2\53).
[2] Bax: Süleyman ibn Abdullah "Təysirul Azizil Həmid" (səh. 484).
[3] İbrahim, 14
[4] Bax: Süleyman ibn Abdullah "Təysirul Azizil Həmid" (səh. 486).
[5] Bax: İbn əl Qeyyim "Mədəricus Səlikin" (1\551).

tanıyandır. Qul Allahı nə qədər çox tanıyarsa, bir o qədər onda Allah qorxusu da artar. Uca Allah buyurub: **"Allahdan Öz qulları arasında ancaq alimlər qorxarlar".**[1] Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurub: ***"Vallahi! Ümid edirəm ki, sizin aranızda Allahdan ən çox qorxan və nədən çəkinməli olduğumu ən yaxşı bilən mənəm."***[2] Həmçinin belə buyurub: ***"Sizin aranızda Allahdan ən çox qorxan və Allahı ən yaxşı tanıyan mənəm."***[3] Başqa rəvayətdə belə buyurub: ***"Allaha and olsun ki, mən onların içində Allahı ən yaxşı tanıyan və Allahdan ən çox qorxanam."***[4] Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* bizim aramızda Allahı ən yaxşı tanıyan və Ondan ən çox qorxan idi. Qul Allahı nə qədər çox tanıyarsa, Allahdan qorxusu da bir o qədər artar. Həmçinin əksinə, insan Allahı nə qədər az tanıyarsa, qəlbində Allah qorxusu da bir o qədər az olar.

4. **Allahdan qorxmağın hökmü.** Allah qorxusu ən uca məqamlardan və qəlb üçün ən faydalı əməllərdəndir. Allahdan qorxmaq, hər kəsin üzərində fərzdir.[5]

5. **Bu rükna dair bəzi dəlillər:**

a) Bəzi ayələrdə Uca Allah qullarına Özündən qorxmağı əmr edib. Uca Allah buyurub: **"O şeytan sadəcə sizi öz dostları ilə qorxudur. Möminsinizsə, onlardan qorxmayın, Məndən qorxun!"**[6] Həmçinin belə buyurub: **"İnsanlardan qorxmayın, Məndən qorxun**!"[7] Bu ayələrdə Uca Allah yalnız Ondan qorxmağı əmr etmiş və bunu imanın gerçəkləşməsi üçün şərt etmişdir.

b) Bəzi ayələrdə Uca Allah Ondan qorxan mömin qullarını tərifləyib: **"Həqiqətən, Rəbbinin qorxusundan əsim-əsim əsənlər, Rəbbinin ayələrinə iman gətirənlər, Rəbbinə şərik qoşmayanlar, Rəbbinə qayıdacaqlar deyə yerinə yetirməli olduqlarını qəlbi qorxa-qorxa yerinə yetirənlər. Məhz onlar yaxşı işlər görməyə tələsər və bu işlərdə öndə gedərlər".**[8] Həmçinin Öz peyğəmbərlərini *(Allahın onlara salavatı olsun)* bu ibadətə görə tərifləyib: **"Həqiqətən, onlar yaxşı işlər görməyə tələsər, ümid və qorxu ilə Bizə**

---

[1] Fatir, 28
[2] Sahih Muslim, Oruc kitabı, "Cünub olduğu halda üzərinə fəcr doğan kəsin orucunun doğru olması" bölümü.
[3] Sahih Buxari, İman Kitabı, "Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* ***"Mən sizin içinizdə Allahı ən yaxşı bilənəm"*** sözü" bölümü.
[4] Sahih Buxari, İtisam kitabı, "Dində ifrata varmaq, parçalanmaq və dərinliyə getməyin bəyənilməməsi" bölümü.
[5] Bax: İbn əl Qeyyim "Mədəricus Səlikin" (1\548).
[6] Əli İmran, 175
[7] Əl Maidə, 44
[8] Əl Muminun, 57-61

**yalvarardılar. Onlar Bizə müti qullar idilər".**[1] Başqa ayədə Allahdan qorxduqları üçün mələkləri tərifləyib: **"Onlar özlərinin fövqündə olan Rəbbindən qorxur və onlara əmr olunanları yerinə yetirirlər".**[2]

c) Bəzi ayələrdə isə Allahdan qorxanlara mükafat verəcəyi barədə xəbər verib. Uca Allah buyurub: **"Rəbbinin hüzurunda durmaqdan qorxanları iki Cənnət bağı gözləyir".**[3] Həmçinin belə buyurub: **"Onlardan sonra sizi o yerdə sakin edəcəyik. Bu, hüzurumda durmaqdan qorxanlar və təhdidimdən çəkinənlərə aiddir".**[4]

**Allaha bu rüknların hər üçü ilə birlikdə ibadət etmək.**

Daha öncə qeyd etmişdik ki, Əhlüs sünnə və cəmaat Allaha ibadətin bu üç rüknunu cəm edərək ibadət edirlər və onlardan heç birini tərk etmirlər.[5] Onlar bu rüknlar arasında tarazlığa fikir verir və birinin digərini üstələməsinə yol vermirlər.[6] Müsəlman Allaha sevgi ilə, Onun cənnətini diləyərək və mükafat verəcəyini umaraq ibadət etdiyi kimi, eyni zamanda Allaha qorxu ilə, Onun cəhənnəmindən çəkinərək və cəzasından qorxaraq ibadət edir.

İbn Qeyyimin *(Allah ona rəhmət etsin)* qəlbə aid olan bu rüknların bir yerdə cəm olması və onların hər birinin məqamı barədə dediyi sözlər necə də gözəldir. O belə buyurub: "Qəlb Uca və Qüdrətli Allaha tərəf gedən yolda uçan bir quş kimidir. Məhəbbət sanki o quşun başı, qorxu və ümid isə onun qanadlarıdır. Quşun başı və qanadları salamat olduqda yaxşı uçur. Əgər onun başı kəsilərsə, quş ölər. Əgər qanadlarından hər hansı birini itirərsə, ovçular və yırtıcı heyvanlar üçün şikar olar..." Daha sonra belə deyir: "Bunlardan ən mükəmməl olanı qorxu və ümidin bərabər olması, sevginin isə bunları üstələməsidir. Çünki sevgi miniyə, ümid sükana, qorxu isə sürücüyə bənzəyir. Bu yolun sonuna çatmağa müvəffəq edən isə yalnız Uca Allahdır".[7]

---

[1] Əl Ənbiyə, 90
[2] Ən Nəhl, 50
[3] Ər Rahmən, 46
[4] İbrahim, 14
[5] Bax: Bu kitabda səh.148.
[6] Bax: İbn Murtəda "İysərul Haqqi aləl Xalqi" (391-392).
[7] Bax: İbn əl Qeyyim "Mədəricus Səlikin" (1\554).

# İkinci bölüm: Tövhidə və onun kamilliyinə zidd olan amillər

**Bu bölüm giriş və üç fəsildən ibarətdir.**

**Birinci fəsil: Şirk və onun növləri.**

**İkinci fəsil: Küfr və onun növləri.**

**Üçüncü fəsil: Nifaq və onun növləri.**

## Giriş

Birinci bölümdə biz tövhiddən danışmışdıq. Bu bölümdə isə tövhidin əksi olan şirkdən danışacağıq. Çünki bir şey öz əksi ilə daha yaxşı bəlli olur.

Şirk, küfr və nifaq – bunların hamısı şərdir və onları öyrənmək, şərdən qorunmaq üçün bir səbəbdir. Şair belə demişdir:

"Şəri özünə görə deyil, ondan qorunmaq üçün öyrəndim. Çünki şəri xeyirdən ayırmayan insan ona düşə bilər".

Ondan da əvvəl böyük səhabələrdən olan Huzeyfə ibn Əl Yəmən *(Allah ondan razı olsun)* belə demişdir: ***"İnsanlar, Allah elçisindən (Allahın ona salavatı və salamı olsun) ancaq xeyir haqqında soruşurdular. Mən isə ancaq şər haqqında soruşurdum, qorxurdum ki, ona düşərəm."***[1]

Bu səbəbdən də, biz bu bölümdə tövhidə zidd olan şirkdən, İslama zidd olan küfrdən və imana zidd olan nifaqdan danışacağıq ki, insanlar onlardan qorunsunlar və çəkinsinlər.

İlk öncə Allahın müvəffəqiyyəti ilə demək istəyirəm ki, insan tövhid və İslam fitrəti üzərində yaradılmışdır.[2] Əgər fitrətinə kənardan təsirlər olmasa, insan bu fitrət üzərində qalmağa davam edəcəkdir. Əgər bu fitrətə kənardan müdaxilə

---

[1] Sahih Buari, Kitəbul Mənəqib, "İslamda peyğəmbərliyin əlamətləri" bölümü. Sahih Muslim, Əmirlik kitabı, "Müsəlmanların camaatına tabe olmağın vacibliyi" bölümü.

[2] Bax: Bu kitabda (səh. 66-69).

edilərsə və bundan əlavə azmağına səbəb olan bir sıra başqa səbəblər də olarsa, insan doğru istiqamətdən və Allahın düz yolundan azar.

**Əgər insan artıq azıbsa, onun azması bu üç formadan birinə qayıdır:**

1. Şirk.
2. Küfr.
3. Nifaq.

Növbəti fəsillərdə onların hər biri haqqında ətraflı danışacağıq.

# Birinci fəsil: Şirk və onun növləri

**Bu fəsil özündə üç mövzunu əhatə edir:**

**Birinci mövzu: Şirkin mənası.**

**İkinci mövzu: Şirkin növləri.**

**Üçüncü mövzu: Tövhidə və ya onun kamilliyinə zidd olan şirkə aparan vəsilələr.**

## Birinci mövzu: Şirkin mənası.

**Şirk sözünün lüğəvi mənası.** Şirk lüğəvi cəhətdən bir neçə nəfər arasında olan şərikliyə deyilir. Məsələn, iki kişi şərik oldu, yəni ortaq oldu anlamına gəlir. Bir işə şərik olmaq, yəni bir kəslə ortaq olub o işə girmək deməkdir. Allaha şərik qoşmaq başqasını Ona ortaq etməkdir.[1]

**Şirk sözünün şəri mənası.** Şəriətdə şirk Allahın haqlarından hər hansı birini Allahdan qeyrisinə yönəltmək[2] və ya Allahın haqqı olan hər hansı bir şeydə başqasını Allahla bərabər tutmaqdır."[3]

**Allahın haqqı** dedikdə, yalnız Allahın qadir olduğu şeylər nəzərdə tutulur və onları Allahdan başqasından istəmək olmaz. Onları Allahdan başqasından istəyən kəs Allaha xas olan bir şeyi başqasına yönəltmiş olur.[4] Kim Uca Allahın ad və sifətlərindən hər hansı birini Allahdan qeyrisinə nisbət etsə, və ya ibadətlərdən hər hansı birini Allahdan başqasına yönəltsə, yaxud Allahdan başqa kainatı idarə edən rəbbin olmasını etiqad etsə və rububiyyətə aid olan xüsusiyyətlərdən hər hansı birini Allahdan başqasına nisbət etsə, həmin kimsə Uca və Qüdrətli Allaha şərik qoşmuş olur.[5]

---

[1] Bax: Zəməxşəri "Əsəsul Bəlağəh" (səh. 328). Əzhəri "Təhzibul Luğəh" (10\16). Feyruz Əl Əbədi "Qamusul muhit" (səh. 1220). İbn Munziri "Lisənul Arab" (10\447).

[2] Bax: Şinqiti "Ədvəul Bəyən" (3\614).

[3] Bax: Həsən ibn Ali İvaci "Şərhu Nəvəqidit Tovhid" (səh. 13)

[4] Bax: Şinqiti "Ədvəul Bəyən" (3\614).

[5] Bax: Şeyx Saleh Əl Ətrum "Əl Əsilətu vəl Əcvibətu fil Aqidəh" (səh. 28).

## İkinci mövzu: Şirkin növləri.

Şirk bəzən böyük, bəzən də kiçik olur. Tövhidin üç qismi olduğu kimi, buna uyğun olaraq şirk də üç qismə ayrılır. Ümumilikdə bu qisimlərin hər birini böyük və kiçik şirkə ayırmaq olar. Bəzən də iki böyük şirkdən biri digərindən daha böyük olduğu üçün onlardan birinə daha böyük və ya daha kiçik şirk deyilir və o zaman özündən böyüyə nisbətən kiçik və ya özündən kiçiyə nisbətən böyük sayılır. [1]

Şeyx Əhməd ibn Həcər Əli Butami belə deyir: "Şirkin iki növü var, böyük və kiçik. Kim onların ikisindən də xilas olsa, Allah ona Cənnəti vacib etmişdir. Kim də böyük şirk üzərində ölsə, Allah ona Cəhənnəmi vacib etmişdir. Böyük şirkə Allahdan başqasına səcdə etmək və Ondan başqası üçün nəzir demək kimi əməlləri misal çəkmək olar. Kiçik şirkə isə riyakarlığı, həmçinin təzim etmədən Allahdan başqasına and içməyi misal göstərmək olar."[2]

Deməli, şirk iki növdür: böyük və kiçik.

Müsəlman, böyük və kiçik şirk arasındakı fərqi bilməlidir ki, şirkin hər iki növündən qoruna bilsin və şirk etməyən bir insana "şirk edib" – deyə səhv hökm verməsin.

### Böyük və kiçik şirk arasındakı fərqlərdən bəziləri:[3]

1. Böyük şirk, küfrdür. Kiçik şirk isə böyük şirkdən sonra gələn ən böyük günahlardandır.
2. Böyük şirk sahibini dindən çıxarır. Kiçik şirk isə sahibini dindən çıxarmır və tövhidin kamilliyinə ziddir.
3. Böyük şirk bütün əməlləri puç edir. Kiçik şirk isə hansı əməlin əslinə qarışarsa və ya hansı əməli üstələyərsə, yalnız o əməli puç edir.
4. Böyük şirk Cəhənnəmdə əbədi qalmağı gərəkdirir. Əgər insan tövbə etmədən böyük şirk üzərində ölsə, Cəhənnəmdə əbədi qalacaq. Kiçik şirk isə

---

[1] Bax: Süleyman ibn Abdullah "Təysirul Azizil Həmid" (səh. 43).
[2] Bax: Əhməd Əli Butami "Tathirul Cənəni vəl Ərkəni an Dərniş Şirki vəl Kufran" (səh. 38-39).
[3] Bu fərqlərə zikr edilən kitablarda bax: Həsən ibn Ali İvaci "Şərhu Nəvəqidit Tovhid" (səh. 26). Şeyx Saleh Əl Ətrum "əl Əsilətu vəl Əcvibətu fil Aqidəh" (səh. 30). Şeyx İbn Useymin "Məcmuus Səmin" (2\32-33). Siddiq Həsən Xan "Əd Dinul Xalis" (1\338).

Cəhənnəmdə əbədi qalmağı gərəkdirmir. Onu edən insan əgər Cəhənnəmə girsə, digər böyük günah sahibləri kimi o da bir gün Cəhənnəmdən çıxarılacaqdır.

5. Böyük şirk insanın malını və canını halal edir. Kiçik şirk sahibinin isə canı və malı halal olmur.

6. Böyük şirk sahibi bu əməl üzərində ölərsə, heç vaxt bağışlanmayacaq. Kiçik şirk sahibi isə bir rəyə görə günahları və savabları hesablanacaq, əgər savabları üstün gələrsə, Cənnətə daxil olacaq. Yox əgər əksi olarsa, Cəhənnəmə daxil olacaq və cəzasını çəkdikdən sonra oradan çıxarılacaqdır. Alimlərin ikinci və daha doğru rəyi isə budur ki, kiçik şirk sahibi mütləq Cəhənnəmdə cəzasını çəkməlidir, hətta ondan sonra Cənnətə girsə belə.

**Növbəti iki məqamda şirkin bu iki növü haqqında daha ətraflı danışacağıq.**

# Birinci məqam: Böyük şirk

## Birinci: Böyük şirkin tərifi.

Alimlər böyük şirkə belə tərif vermişlər: Böyük şirk Allaha xas olan şeylərdə Allahdan başqasını Ona şərik qoşmaqdır. İnsanın Allahın Rububiyyətində, Uluhiyyətində və Ad və Sifətlərində başqasını Allaha tay tutması böyük şirkdir.[1]

## İkinci: Dəlillərə əsasən böyük şirkin hökmü.

1. Böyük şirk insanı dindən çıxarır və o insanın malı və qanı halal olur. Uca Allah müşriklər haqqında belə deyib: **"Haram aylar bitdikdə müşriklərə harada rast gəlsəniz, onları öldürün, əsir tutun, mühasirəyə alın və onlara hər yerdə pusqu qurun. Əgər tövbə etsələr, namaz qılıb zəkat versələr, onları sərbəst buraxın. Çünki Allah Bağışlayandır, Rəhmlidir".**[2] Həmçinin onlar haqqında belə buyurub: **"Əgər tövbə etsələr, namaz qılıb zəkat versələr, onlar sizin din qardaşlarınızdır. Biz ayələri bilən adamlara beləcə izah edirik".**[3] Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurub: ***"Mənə insanlar "Lə iləhə illəllah və Muhəmmədun rasulullah" şəhadətini deyənə, namaz qılana və zəkat verənə qədər onlarla vuruşmaq əmr olunub. Bunu etdikləri zaman öz canlarını və mallarını məndən qorumuş olarlar. Yalnız İslam hüquqları istisnadır. Onların haqq-hesabı isə Uca Allaha aiddir."***[4]

2. Böyük şirk bütün əməlləri puç edir. Uca Allah buyurub: **"Bu, Allahın hidayətidir. Bununla O, qullarından istədiyi şəxsi doğru yola yönəldir. Əgər Ona şərik qoşsaydılar, əlbəttə, etdikləri əməllər puç olardı".**[5] Həmçinin belə buyurub: **"Sənə və səndən əvvəlkilərə belə vəhy olunmuşdur: "Əgər şərik qoşsan, əməlin puç olacaq və mütləq ziyana uğrayanlardan olacaqsan".**[6]

3. Böyük şirk sahibi tövbə etmədən ölərsə, bağışlanmayacaq. Uca Allah buyurub: **"Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını bağışlamaz, bundan**

---

[1] Bax: Şeyx Həfiz Əl Həkəmi "Məaricul Qabul" (2\483) və "Fətəvə əl Ləcnə əd Dəimə" (1\516-517).
[2] Ət Tövbə, 5
[3] Ət Tövbə, 11
[4] Sahih Buxari, İman Kitabı, "Əgər tövbə etsələr və namaz qılsalar" bölümü. Sahih Muslim, İman Kitabı, "İnsanlar "Lə İləhə İlləllah" deyənə kimi onlarla vuruşmaq əmri" bölümü. (Ləfz Buxarinindir)
[5] Əl Ənam, 88
[6] Əz Zumər, 65

**başqa, daha kiçik günahları isə istədiyi kimsəyə bağışlayar".**[1] Amma ölmədən öncə tövbə edərsə, Allah onu bağışlayar. Uca Allah buyurur: **"Kafir olanlara de ki, əgər küfrə son qoysalar, olub-keçənlər onlara bağışlanar. Yox, əgər küfrə qayıtsalar, əvvəlkilərin başına gələn aqibəti gözləsinlər".**[2]

4. Böyük şirk sahibi axirətdə əbədi olaraq Cəhənnəmdə qalacaq. Uca Allah buyurur: **"Həqiqətən də, Allaha şərik qoşan kimsəyə, Allah Cənnəti haram etmiş və onun sığınacağı yer Oddur. Zalımlara kömək edən olmayacaqdır".**[3]

### Üçüncü: Böyük şirkin qisimləri.

Tövhidin qisimlərinə nisbətdə böyük şirk də üç qismə ayrılır:

1. Rububiyyətdə şirk.
2. Ad və sifətlərdə şirk.
3. Uluhiyyətdə şirk.

Qarşıda gələn məsələlərdə bu qisimləri ətraflı izah edəcəyik.

## Birinci məsələ: Böyük şirkin qisimlərindən biri rububiyyətdə şirkdir.

Rububiyyətdə şirk böyük şirkin qisimlərindən biridir. O, Uca Allahın zatı ilə əlaqəli şirkdir.

### Birinci: Rububiyyətdə şirkin tərifi.

Rububiyyətə xas olan bütün xüsusiyyətləri və ya onlardan bəzisini Allahdan başqasına nisbət etmək, və ya bu xüsusiyyətləri tamamilə Uca və Qüdrətli Allahdan inkar etməkdir.

**Rububiyyətə aid olan xüsusiyyətlər:** yaratmaq, ruzi vermək, diriltmək, öldürmək, bəxş etmək, məhrum etmək, fayda vermək, zərər vermək kimi Allaha xas olan feillərdir.

[1] Ən Nisə, 48-116
[2] Əl Ənfal, 38
[3] Əl Maidə, 72

### İkinci: Rububiyyətdə şirkin növləri.

Rububiyyətdə şirk iki növdür: **(Tatil)** İnkar etmək şirki və **(Təmsil)** bənzətmək şirki.

### 1. (Tatil) İnkar etmək şirki:

**Tərifi:** Allahın bu məxluqatı yaratmasını, Allahın feillərini, rububiyyət xüsusiyyətlərini və aləmlərin Rəbbi olmasını inkar etməkdir.[1]

**Buna aid misallardan**[2] Fironun etdiyi şirkdir. Çünki o, zahirən Allahın Rəbliyini inkar edirdi. Uca Allah buyurub: **"Firon dedi: "Aləmlərin Rəbbi nədir?"**[3] Həmçinin Firon Hamana belə demişdir: **"Ey Haman! Mənim üçün bir uca qala tik ki, bəlkə yollara çatım, göylərin yollarına çatım və Musanın məbudunu görüm. Həqiqətən, mən onu yalançı sayıram!"**[4]

**Həmçinin şirkin bu növünə** İbn Arabi və İbn Səbiin kimi "vahdətül vücud" etiqadında olanların şirki də daxildir. Onlar deyirlər ki, Xaliq elə məxluqun özüdür. Beləliklə, Allahın aləmlərin Rəbbi olduğunu inkar edirlər və Rəbb ilə qul arasında heç bir fərq qoymurlar.

### 2. (Təmsil) Bənzətmək şirki:

**Tərifi:** Rububiyyətə xas olan hər hansı bir şeydə Allahla məxluqu bərabər tutmaq və ya bu xüsusiyyətləri Allahdan başqasına nisbət etməkdir.[5]

**Buna dair misallar:**[6]

1) Nəsranilərin etdiyi şirk. Onlar Allahla yanaşı öz keşişlərini və rahiblərini özlərinə rəbb götürdülər. Həmçinin Allahı üçlüyün üçüncüsü adlandırdılar.

2) Məcusilərin etdiyi şirk. Onlar deyirlər ki, aləmlərin iki rəbbi var. Onlardan biri xeyiri, digəri isə şəri yaradır.

3) Sabiilərin etdiyi şirk. Onlar iddia edirlər ki, aləmlərin bütün işlərini ulduzlar idarə edir.

---

[1] Bax: İbn əl Qeyyim "əl Cəvəbul Kəfi limən Sələ anid Dəvəiş Şəfi" (səh. 231).
[2] Bax: Məqrizi "Təcridut Tovhidil Mufid" (səh.69).
[3] Əş Şüəra, 23
[4] Ğafir, 36-37
[5] Bax: Dr. İbrahim əl Bureykən "əl Mədxəlu li Dirəsətil Aqidətil İsləmiyyəh" (səh. 147).
[6] Bax: Məqrizi "Təcridut Tovhidil Mufid" (səh. 55-57,70). İbn Əl Qeyyimin "Əl Cəvəbul Kəfi" (səh. 231-232). İbn əbil İzz "Şərhul Aqidətit Tahaviyyəh" (1\38). Muhəmməd ibn İbrahim əl Həməd "Tovhidu ər Rububiyyəh" (səh. 21-25).

4) (Bu ümmətin məcusiləri olan) Qədərilərin etdiyi şirk. Onlar iddia edilər ki, hər bir insanın özü öz feilini yaradır.

5) Qəbirpərəstlərin etdiyi şirk. Onlar iddia edirlər ki, övliyalar öldükdən sonra onların ruhları kainatı idarə edir, insanların ehtiyaclarını ödəyir, çətinliklərini aradan qaldırır, onları çağıranlara yardım edir və onlara sığınanları qoruyurlar. Həmçinin, həddi aşan sufilərin etdiyi şirk də bura daxildir. Onlar da iddia edirlər ki, övliyalar fayda və zərər verə bilir və kainatı idarə edirlər və s.

## İkinci məsələ: Böyük şirkin qisimlərindən ikincisi, ad və sifətlərdə şirk

### Birinci: Ad və sifətlərdə şirkin tərifi

Ad və sifətlərdə şirk, (Allahın) adlarından və ya sifətlərindən hər hansı birində Allah ilə məxluqu bərabər tutmaqdır. Bu da Allahdan qeyrisini Allaha tay tutaraq, onu Allahın adları ilə adlandırmaq və ya Allahın sifətləri ilə vəsf etməklə olur.[1]

### İkinci: Növləri.

Ad və sifətlərdə şirkin iki növü var:

1. Təşbih (bənzətmə) şirki.

2. İştiqaq şirki (Allahın adlarından, onlara həm ləfz, həm də məna baxımından yaxın olan adlar çıxarıb məxluqları bu adlarla adlandırmaq).

### 1. Bənzətmə şirki:

**Tərifi:** Məxluqa xas olan adlardan və sifətlərdən hər hansı birini Allaha nisbət etməkdir.[2]

**Buna dair misallar:** “Allahın əli məxluqların əlinə bənzəyir” və ya “Allahın ərşin üzərinə yüksəlməsi məxluqun qalxması kimidir” deyənlərin sözünü misal göstərmək olar.[3]

### 2. İştiqaq şirki:

[1] Bax: “Fətəvə əl Ləcnətid Dəimə” (1\516). Dr. İbrahim əl Bureykən “əl Mədxəlu li Dirəsətil Aqidətil İsləmiyyəh” (səh. 148).

[2] Bax: Şeyx İbn Useymin “Fəthu Rabbil Bəriyyəh bitəlxisil Həməviyyəh” (səh.20-21).

[3] Bax: Şeyx İbn Useymin “Fəthu Rabbil Bəriyyəh bitəlxisil Həməviyyəh” (səh.20-21).

**Tərifi:** Allaha xas olan adlardan (onlara həm ləfz, həm də məna baxımından yaxın olan) adlar çıxarıb Allahdan başqasını bu adlarla adlandırmaqdır. Bu da Uca Allahın adlarında haqdan azmaqdır.[1]

**Buna dair misallar:** Müşriklərin Uca Allahın adlarından (onlara həm ləfz, həm də məna baxımından yaxın olan) adlar çıxarıb öz batil ilahlarını bu adlarla adlandırmasını misal göstərmək olar. Uca Allah buyurub: **"Ən gözəl adlar Allahındır. Ona bu adlar vasitəsi ilə dua edin və Onun adları barəsində haqdan sapanları tərk edin. Onlar etdikləri əməllərin cəzasını alacaqlar".**[2] "Haqdan sapanları", yəni şərik qoşanları...[3] İbn Abbas *(Allah ondan və atasından razı olsun)* belə demişdir: "Müşriklər "Əl Uzza" adını "Əl Aziz" adından, "Əl Lat" adını isı "Allah" adından götürüblər."[4]

## Üçüncü məsələ: Böyük şirkin qisimlərindən üçüncüsü, uluhiyyətdə və ibadətdə şirkdir.

### Birinci: Tərifi.

Bu, ibadətdə və ya qanun qoymaqda başqasını Allaha tay (ortaq) tutmaqdır. Yəni qulun ibadətlərdən hər hansı birini Allahdan başqasına yönəltməsi yaxud qanun qoymaqda Allahdan başqasını Allaha şərik qoşmasıdır.[5]

### İkinci: Növləri.

**Uluhiyyətdə və ibadətdə şirk bir neçə növdür. Onlardan:**

1. Duada şirk.
2. Şəfaətdə şirk.
3. Niyyətdə, iradədə və məqsəddə şirk.
4. İtaətdə şirk.
5. Məhəbbətdə şirk.
6. Qorxuda şirk.

---

[1] Bax: "Fətəvə əl Ləcnə əd Dəimə lilbuhusil İlmiyyəti vəl iftə" (1\516)
[2] Əl Əraf, 180
[3] Bax: Suyuti "əd Durrul Mənsuri fit Təfsiril Məsur" (3\272).
[4] Bax: Suyuti "əd Durrul Mənsuri fit Təfsiril Məsur" (3\271).
[5] Bax: "Fətəvə əl Ləcnə əd Dəiməti lilbuhusil İlmiyyəti vəl iftə" (1\516)

## 1. Uluhiyyətdə və ibadətdə şirkin növlərindən birincisi: Duada şirk.

### Birinci: Tərifi.

Duada şirk, Allahdan başqasına dua etməkdir. Peyğəmbərləri, övliyaları və s. çağırıb, yalnız Allahın qadir olduğu şeyləri onlardan istəməkdir. Hər kim ruzi vermək, xəstəyə şəfa vermək, ölüləri diriltmək kimi yalnız Allahın qadir olduğu işlərdə Allahdan başqasına dua etsə, sıxıntının aradan qaldırılmasını istəsə, yardım diləsə və Ondan başqasına sığınsa, dua etdiyi kəs istər peyğəmbər, istər övliya, istər cin, istərsə də başqa bir məxluq olsun, artıq Allaha şərik qoşmuşdur.[1]

Məşhur İslam alimi İbn Əl Qeyyim böyük şirkin növlərini sayarkən belə demişdir: "Ölülərə üz tutmaq, onlara dua edib ehtiyacları istəmək, sıxıntı anında yardım diləmək də böyük şirkin növlərindəndir. Bu, aləmdə baş verən şirkin əsasıdır. Ölmüş bir insanın əməlləri artıq başa çatmışdır. O, heç özü üçün nə faydaya, nə də zərərə malik deyil, başqasına yardım etməyə və ya ehtiyaclarını qarşılamağa necə malik olsun?"[2]

### İkinci: Allahdan başqasına dua etməyin şirk olmasına dair bəzi dəlillər.

1. Uca Allah buyurub: **"Kim Allahla yanaşı haqqında özünün heç bir dəlili olmadığı başqa bir məbuda dua edərsə, onun cəzasını Rəbbi Özü verəcəkdir. Şübhəsiz ki, kafirlər nicat tapmazlar!"**[3] O kəs Allahın qarşısına gələcək və Rəbbi ona əməllərinin qarşılığını verəcəkdir. Onun qurtuluşuna heç bir ümid yoxdur, çünki o, kafirdir.[4]

2. Uca Allah buyurub: **"İnsana bir zərər toxunduqda Rəbbinə üz tutub təkcə Ona yalvarır. Sonra Allah Özündən insana bir nemət verəndə o, əvvəlcə kimə yalvardığını unudur və insanları Allahın yolundan çıxartmaq məqsədilə Ona şəriklər qoşur. De: "Küfrünlə bu dünyada bir az dolan. Şübhəsiz ki, sən**

---

[1] Bax: Əl Qahtani "Təysiru Zil Cələli vəl İkram" (səh. 26).
[2] Bax: İbn əl Qeyyim "Mədəricus Səlikin" (1\375).
[3] Əl Muminun, 117
[4] Bax:İbn Sədi "Təysirul Kərimir Rahmən" (5\386).

**Cəhənnəm sakinlərindənsən!”**[1] Əgər dönüş yerin Cəhənnəm olarsa, dünyada aldığın ləzzətlərin sənə heç bir faydası olmayacaq.[2]

## Üçüncü: Duada şirkin iki növü

Duada şirkin növlərini qeyd etməzdən öncə yaxşı olar ki, duanın iki növünü qeyd edək. Çünki şirk, duanın bu iki növündə baş verir. Dua iki növdür:

1. İstək duası (dil ilə istəmək)
2. İbadət və tərif duası (əməllərlə istəmək).[3]

Duanın hər iki növündə Allaha yaxınlaşmaq vardır. İnsanın mənfəət əldə etmək və ya zərəri dəf etmək məqsədilə Allahdan istəməsi və Ona sığınması istək duasıdır. Allaha ibadət və itaət etməsi, Onun əmrlərini yerinə yetirib, qadağalarından çəkinməsi isə ibadət və tərif duasıdır. Qul, duanın hər iki növü ilə Allaha yaxınlaşır.[4]

Şeyxulislam İbn Teymiyyə *(Allah ona rəhmət etsin)* duanın bu iki növü barədə belə deyib: “Məbud mütləq fayda və zərərə malik olmalıdır. Məhz buna görə fayda və zərərdən ötrü Ona müraciət olunur. Buna istək duası deyilir. Həmçinin qorxu və ümidlə Ona ibadət edilir. Buna isə ibadət duası deyilir. Beləliklə, aydın olur ki, duanın bu iki növü bir-birinə bağlıdır.”[5] Hər kim namaz qılır, oruc tutur və ya hər hansı bir ibadətlə Allaha yönəlirsə, öz halı ilə Allahdan onu bağışlamasını, əzabından qurtarmasını və ona mükafat verməsini istəmiş olur. Kim də Allaha yalvarıb dua edirsə, deməli, Allaha ümid edir və Ondan qorxur.”[6] Uca və Qüdrətli Allah buyurub: **“Rəbbiniz dedi: "Mənə dua edin, Mən də sizə cavab verim. Həqiqətən, Mənə ibadət etməyə təkəbbür göstərənlər Cəhənnəmə zəlil olaraq girəcəklər”.**[7] Uca Allah bu ayədə duanın ibadət olduğunu bildirmişdir.

Duanın iki növünü öyrəndikdən sonra deyirik ki, duada şirk də elə bu iki növdən birində olur; istək duasında və ibadət duasında.

---

[1] Əz Zumər, 8
[2] Bax: İbn Sədi “Təysirul Kərimir Rahmən” (5\386).
[3] Bax: ibn Teymiyyə “İqtidaus Siratil Mustəqim Limuxalifəti Əshəbil Cəhim” (2\778).
[4] Bax: İbn Teymiyyə “İqtidaus Siratəil Mustəqim Limuxalifəti Əshəbil Cəhim” (2\778).
[5] Bax: İbn Teymiyyə “Məcmuul Fətəvə” (15\10-11).
[6] Bax: İbn Useymin “Fətəvə əl Aqidəh” (səh. 398).
[7] Ğafir, 60

## Dördüncü: Duanın iki növündə şirk necə baş verir?

**İbadət duasına gəlincə,** əgər insan ibadətlərdən hər hansı birini Allahdan başqasına yönəldərsə, ibadət duasında şirkə düşmüş olar. Şeyx Muhəmməd ibn Saleh əl Useymin *(Allah ona rəhmət etsin)* belə demişdir: "Kim ibadətin növlərindən hər hansı birini Allahdan başqasına yönəldərsə, dindən çıxaran bir küfr etmiş sayılır. Əgər insan Allahı təzim etdiyi kimi Allahdan başqasını təzim edib onun üçün rüku və səcdə edərsə, müşrik olar və islam dinindən çıxmış sayılar."[1] İmam Əhməd ibn Əli Əl Məqrizi belə deyib: "Allahdan başqasına səcdə etmək, Kəbədən başqa bir yeri təvaf etmək və Allahdan başqasına itaət və ibadət məqsədilə başı keçəl qırxmaq, feillərdə Allaha şərik qoşmaqdır."[2] Çünki bunlar, ilaha məxsus olan şeylərdir. Kim Allahdan başqası üçün səcdə etsə və ya ibadətlərdən hər hansı birini Allahdan başqasına yönəltsə, artıq başqasını Allaha tay tutmuşdur"[3] Həmçinin əgər Allahdan başqasına yaxınlaşmaq və onu təzim etmək üçün qurban kəsərsə, artıq böyük şirklə Allaha şərik qoşmuşdur. Çünki qurban kəsmək ibadətdir və Uca Allah qurban kəsməyi əmr edərək belə buyurmuşdur: **"Sən də Rəbbin üçün namaz qıl və qurban kəs!"**[4][5]

**İstək duasına gəlincə isə,** əgər dua edilən kəs ölü olarsa və ya insan yalnız Allahın qadir olduğu bir şeyi başqasından istəyərsə, o zaman şirkə düşmüş olur. Amma çağırdığı kimsə sağ və istədiyini verməyə qadir olarsa, o zaman şirk sayılmır. Məsələn, insanın su verməyə qadir olan bir kəsi çağırıb, "mənə su ver" – deməsi kimi.[6] "Yox əgər çağırılan kəs ölü olarsa, ondan istəmək dindən çıxaran şirk sayılır."[7]

Yuxarıda qeyd olunanlara əsasən deyirik ki, istək duasının hamısı şirk deyil. Əksinə, insanın Allahdan başqasından istəməsi üç qismə ayrılır:

**Birinci:** İnsanın, sağ, eşidən və hamıya məlum maddi və ya fiziki vasitələrlə cavab verə bilən məxluqu çağırıb nəsə istəməsi. Bu, icazəlidir. Kasıbın kimdənsə öz ehtiyacını istəməsi kimi.

---

[1] Bax: İbn Useymin "Fətəvə əl Aqidəh" (səh. 398).
[2] Bax: Məqrizi "Təcridut Tovhidil Mufid" (səh. 58-59).
[3] Bax: Məqrizi "Təcridut Tovhidil Mufid" (səh. 58-59).
[4] Əl Kövsər, 2
[5] Bax: İbn Useymin "əl Məcmuus Səmin" (2\148-149).
[6] Bax: İbn Useymin "Fətəvə əl Aqidəh" (səh. 398).
[7] Bax: İbn Useymin "Fətəvə əl Aqidəh" (səh. 399).

**İkinci:** İstər sağ olsun, istər ölü, yalnız Allahın qadir olduğu bir işi Allahdan qeyrisindən istəmək. Bir insanın məxluqa, "Ey filankəs, zövcəmin bətnindəki uşağı oğlan et!" – deməsi kimi. Bu, böyük şirkdir. Çünki bunu etməyə yalnız Allah qadirdir və məxluqlar buna qadir deyil.

**Üçüncü:** İnsanın, həyatda olmayan, eşitməyən və hamıya məlum maddi və ya fiziki vasitələrlə cavab verə bilməyən məxluqu çağırıb nəsə istəməsi. Məsələn, ölülərə dua etməsi və ya məlum maddi və ya fiziki vasitələr olmadan uzaqda olan birini çağırıb nəsə istəməsi kimi. Bu, böyük şirkdir. Çünki dua edilən kəs ona cavab verməyə qadir deyil və insan əgər belə dua edirsə, deməli çağırdığı məxluqun kainatı idarə etdiyinə və ya bu kainatda hansısa gizli idarəçiliyi olduğuna etiqad edir.

## 2. Uluhiyyətdə və ibadətdə olan şirkin növlərindən ikincisi: Şəfaətdə şirk

### Giriş

Şəfaətdə şirk, ibadət şirkinin nəticəsində baş verir. Belə ki, kim ibadətlərdən hər hansı birini Allahdan başqasına sərf edirsə, Allah qatında onun günahlarından keçilməsi, arzularının gerçəkləşməsi və istəklərinə çatması üçün şəfaətçilik etsin deyə bunu edir. O, elə güman edir ki, bütlər, övliyalar və ya başqaları şəfaət etməyə qadirdir.

### Birinci: Şəfaətin tərifi.

Şəfaət sözü lüğətdə, dəstək üçün bir şeyi başqasına əlavə etməkdir.[1] Bu söz cütləşdirmək sözündən götürülüb. Məsələn, bir şeyə öz bənzərini əlavə edib cütləşdirməyə şəfəə deyilir.[2]

[1] Bax: Siqqiq Həsən Xan "əd Dinul Xalis" (2\171).
[2] Bax: "Mucəmul Vəsit" (487).

**İkinci: Şəfaət dedikdə burada nə qəsd olunur?**

Burada axirətlə bağlı olan şəfaət nəzərdə tutulur. Məsələn, şəfaətçidən istəmək ki, Allah yanında onun bağışlanması, günahlarından keçməsi yaxud buna bənzər şeylər üçün vasitəçilik etsin.

**Üçüncü: Şəfaətdə şirk necə baş verir?**

Allahdan başqalarını Allaha tay tutub onlara ibadət etmək, o məbudların Allaha yaxınlaşdırdığını və Allah yanında şəfaətçi olduğunu iddia edərək ibadətlətin bəzisini və ya hamısını onlar üçün sərf etmək, onlara üz tutmaq və onlara ibadət etməklə Allaha yaxınlaşmaq şəfaətdə şirk sayılır.

**Dördüncü: Bu növ şirkə dair bəzi dəlillər:**

1. Uca Allah buyurur: **“Onlar Allahı qoyub özlərinə nə bir zərər, nə də bir fayda verə bilənlərə ibadət edir və: "Onlar Allah yanında bizim şəfaətçilərimizdir!"– deyirlər. De: "Yoxsa Allaha göylərdə və yerdə bilmədiyi bir şeyimi xəbər verirsiniz?" Allah onların qoşduqları şəriklərdən uzaqdır və ucadır”.**[1] Uca Allah bu ayədə şəfaət etmələri məqsədi ilə şəfaətçilərə ibadət edən və onlara dua edənlərin əməlinə şirk hökmü vermişdir.[2]

2. Uca Allah buyurur: **“Yoxsa onlar Allahdan qeyrilərinimi özlərinə şəfaətçi etdilər? De: "Əgər onlar heç bir şeyə malik deyillərsə və heç bir şey anlamırlarsa, bəs necə olsun?” De: "Şəfaət bütünlüklə Allaha məxsusdur. Göylərin və yerin hökmranlığı da Ona məxsusdur. Sonra siz Ona qaytarılacaqsınız”.**[3] Uca Allah bu ayədə onların şərik qoşduqları məbudların Allah yanında şəfaət edəcəyini inkar edir və xəbər verir ki, şəfaət yalnız Allaha məxsusdur və Onun izni olmadan heç kim Onun yanında havadarlıq edə bilməz.

3. Uca Allah buyurub: **“Doğrusu, əsl din ancaq Allaha məxsusdur. Allahı qoyub başqalarını özlərinə dost tutanlar: "Biz, onlara ancaq bizi Allaha daha çox yaxınlaşdırsınlar deyə ibadət edirik"– deyirlər. Əlbəttə ki, Allah ziddiyyətə düşdükləri şeylər barəsində onların arasında Öz hökmünü**

---

[1] Yunus, 18

[2] Bax: Şeyx Süleyman ibn Abdullah “Təysirul Azizil Həmid” (səh. 276).

[3] Əz Zumər, 43-44

**verəcəkdir. Şübhəsiz ki, Allah yalançı və kafirləri doğru yola yönəltməz".**[1] Uca Allah bu əməllərinə görə onları yalanladı və kafir olduqlarını bildirdi.[2]

4. Uca Allah buyurub: **"De: "Allahdan başqa məbud saydıqlarınızı çağırın". Onlar nə göylərdə, nə də yerdə zərrə qədər olan bir şeyə də sahib deyillər. Onların göylərin və yerin yaradılışında heç bir şərikliyi yoxdur və onlardan Allaha yardımçı olanı da yoxdur. Onun hüzurunda, izin verdiyi kimsələr istisna olmaqla, heç kəsin şəfaəti fayda verməz".**[3] Uca Allah müşriklərin bağlandığı bütün səbəbləri inkar etdi. Çünki müşrik ibadət etdiyi məbuddan hansısa bir mənfəət əldə edəcəyinə etiqad edir. Mənfəəti isə dörd xislətdən birinə sahib olan verə bilər. Ya ibadət edilən kəs özünə ibadət edənlərin ondan istədiyi şeyə sahib olmalıdır. Əgər sahib deyilsə, o zaman sahibi ilə şərik olmalıdır. Əgər sahibinə şərik də deyilsə, o zaman ona yardımçı və köməkçi olmalıdır. Əgər köməkçi və yardımçı da deyilsə, ən azından onun yanında şəfaətçi olmalıdır. Uca Allah bu dörd xislətin hamısını inkar etdi və bildirdi ki, onların məbudlarının nə mülkə sahibliyi, nə də şərikliyi yoxdur. Həmçinin onlar nə köməkçi, nə də müşriklərin zənn etdiyi kimi şəfaətçi deyil. Eyni zamanda Uca Allah icazəli şəfaətin olduğunu təsdiq etdi, bu da Allahın izni ilə olan şəfaətdir. Lakin Allaha şərik qoşan kimsənin bu şəfaətdən heç bir payı yoxdur.[4]

## Beşinci: Allahın qəbul etdiyi şəfaət hansıdır?

Bundan öncə danışdığımız şəfaət, öz məbudlarını vasitəçi tutan müşriklərin qəlbindəki şirk olan şəfaətdir. Uca Allahın qadağan etdiyi şəfaət də məhz budur. Lakin Uca Allah şəfaəti tamamilə inkar etməyib. Əksinə, xəbər verib ki, Allah yanında qəbul olunan şəfaət də vardır, bu da Allahın izni ilə olan və tövhid əhli üçün edilən şəfaətdir. Bu səbəbdən də Allahın qəbul etdiyi şəfaət özündə iki şərti cəm edir. **Birinci şərt:** Allahın şəfaət üçün izn verməsi. Çünki şəfaət bütünlüklə Allaha məxsusdur. Uca Allah buyurub: **"De: "Şəfaət bütünlüklə Allaha məxsusdur".**[5] Həmçinin belə buyurub: **"Onun izni olmadan Onun yanında kim**

---

[1] Əz Zumər, 3
[2] Bax: İbn Əl Qeyyim "Mədəricus Səlikin" (1\369).
[3] Səba, 22-23.
[4] Bax: İbn Əl Qeyyim "Mədəricus Səlikin" (1\372). Həmçinin, Şeyx Süleyman ibn Abdullah "Təysirul Azizil Həmid" (285).
[5] Əz Zumər, 44

**şəfaətçilik edə bilər?"**[1] Nə Allaha yaxın bir mələk, nə də göndərilmiş hər hansı bir elçi Allahın izni olmadan şəfaətçilik edə bilməz. **İkinci şərt:** Uca Allahın şəfaət olunan kəsdən razı qalması. Bunun üçün şəfaət olunan insan gərək tövhid əhli olsun və Allahdan qeyrisini özünə himayədar götürməsin. Uca Allah buyurub: **"Onlar yalnız Allahın razı qaldığı şəxslər üçün şəfaət diləyirlər".**[2] Həmçinin Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurub: ***"Mənim şəfaətim səbəbilə ən xoşbəxt olanlar, qəlbində ixlasla "Lə iləhə illəllah" deyən kəslərdir."***[3] Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* şəfaət etməsi Uca Allahın şəfaətə icazə verməsindən sonra baş verəcək və bu şəfaətə ancaq xalis tövhid əhli nail olacaq. Müşriklərin etdiyi isə tam bunun əksidir. Onlar elə zənn edirlər ki, Allahdan başqa ibadət etdikləri və dost tutduqları övliyaları şəfaətçi tutmaqla şəfaətə nail olacaqlar.[4]

Deməli, Allah yanında qəbul olunan şəfaət özündə iki şərti cəm etməlidir: Şəfaət etmək üçün Uca Allahın şəfaət edənə izin verməsi və Allahın şəfaət olunan kəsdən razı olması. Uca Allah buyurub: **"Göylərdə neçə-neçə mələklər vardır ki, onların şəfaəti Allahın istədiyi və Özünün razı qaldığı kimsələrdən başqa heç kəsə heç bir fayda verməz".**[5]

## 3. Uluhiyyətdə və ibadətdə şirkin növlərindən üçüncüsü: Niyyətdə, istəkdə və məqsəddə şirk.

### Birinci: Burada nə nəzərdə tutulur?

Niyyətdə və məqsəddə şirk, qulun əməl edərkən niyyətinin və məqsədinin Allahdan başqası üçün olması, və ya saleh əməli ancaq dünya üçün etməsi, yaxud iman gətirmədən əməl etməsi, hədəfinin və məqsədinin ancaq dünya həyatı olmasıdır.[6] Kimin məqsədi ancaq dünya həyatı olsa, dünyadan başqa heç nə istəməsə, ancaq dünya üçün sevib, dünya üçün qəzəblənsə, dostluğunu və

---

[1] Əl Bəqərə, 255
[2] Əl Ənbiyə, 28
[3] Bax: Sahihul Buxari, Kitəbur riqaq, "Cənnətin və Cəhənnəmin vəsfi" bölümü.
[4] Bax: İbn əl Qeyyim "Mədaricus Səlikin" (1\369-370).
[5] Ən Nəcm, 26
[6] Bax: Məqrizi "Təcridut Tovhid" (səh. 67). Həmçinin, Şeyx Süleyman ibn Abdullah "Təysirul Azizil Həmid" (səh. 537).

düşmənçiliyini ancaq dünya mənfəəti üzərində qursa, bilsin ki, Uca Allah onun qədərinə nə yazıbsa, dünya həyatından onun bir o qədər payı olacaq. Axirətdə isə o, Cəhənnəm əhlindəndir.

### İkinci: Bu növə dair bəzi dəlillər.

Uca və Qüdrətli Allahın bu kəlamı şirkin bu növünə dəlalət edir: **"Kim dünya həyatını və onun bərbəzəyini istəyirsə, onlara əməllərinin əvəzini orada tam verərik və onlar orada zərər çəkməzlər. Onlar axirətdə özləri üçün oddan başqa heç bir şeyi olmayan kimsələrdir. Onların dünyada gördükləri işlər boşa çıxar və tutduqları əməllər puç olar".**[1] Onlar etdikləri əməlləri sadəcə dünya həyatı və onun bərbəzəyi üçün edirdilər. Bu səbəbdən də axirətdə əməllərinə görə onlar üçün heç bir mükafat yoxdur. Çünki onlar bu əməllərinin əvəzində axirəti yox, məhz dünya həyatını istəyirdilər.[2]

## 4. Uluhiyyətdə və ibadətdə şirkin növlərindən dördüncüsü: İtaətdə şirk

### Giriş

Əvvəldə qeyd etmişdik ki, uluhiyyət tovhidi, Allahı ibadətdə təkləşdirməkdir. Allahın hökmlərinə boyun əymək, zahirdə və batində Onun əmrlərini yerinə yetirmək də ibadətə daxildir.[3] Uca Allah bu haqda belə buyurub: **"Hökm yalnız Allahındır. O əmr etmişdir ki, yalnız Ona ibadət edəsiniz. Doğru din budur, lakin insanların çoxu bunu bilmir."**[4] Hökm vermək Allahın haqqıdır.

Uca və Qüdrətli Allahın qanunları ilə mühakimə olunmadıqca iman tamamlanmır. Uca Allah buyurur: **"Xeyr! Sənin Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən çəkişmələrdə səni hakim hesab etməyincə, sonra da**

---

[1] Hud, 15-16
[2] Bax: Şeyx Süleyman ibn Abdullah "Təysirul Azizil Həmid" (səh. 535). Həmçnin, Abdurrahman ibn Həsənin "Fəthul Məcidi Şərhu Kitəbit Tovhid" (səh. 540).

[3] Bax: Əş Şinqiti "Ədvəul Bəyən" (1\396-397).
[4] Yusuf, 40

**verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan tam təslim olmayınca iman gətirmiş olmazlar."**[1]

## Birinci: Tərifi.

İtaətdə şirk, şəriət və qanun qoymaqda və hökm verməkdə Allahdan başqası ilə Allahı bərabər tutmaqdır.[2] Həmçinin rəhbərlərə və alimlərə günah işləri halal sayaraq tabe olmaq.[3] Hər kim haramı halallaşdırmaqda və ya halalı haramlaşdırmaqda məxluqa tabe olarsa, itaətdə şirkə düşən müşrik olur. Şeyx Muhəmməd Əmin əş Şinqiti *(Allah ona rəhmət etsin)* belə deyir: "Uca Allah Öz elçiləri vasitəsilə qanunlar qoyub. Buna müxalif olan qanunlar isə şeytanın öz dostları vasitəsilə qoyduğu qanunlardır. Kim Allahın qanunlarına müxalif olan digər qanunlara tabe olarsa, onun küfrə və şirkə düşməsində yalnız bəsirəti olmayan və vəhy nurunu görməyən kəslər şəkk edər."[4]

## İkinci: Bu növə dair bəzi dəlillər:

Bu növə dair dəlillər çoxdur. Onlardan:

1. Uca Allah buyurub: **"Onlar Allahı qoyub baş keşişlərini və rahiblərini, bir də Məryəm oğlu İsanı tanrılar qəbul etdilər. Halbuki onlara ancaq tək olan İlaha ibadət etmək əmr olunmuşdu. Ondan başqa tanrı yoxdur. O bunların şərik qoşduqları şeylərdən uzaqdır."**[5] Onlar Allahı qoyub öz keşişlərini, şeyxlərini və qarilərini özlərinə başçı götürdülər və Allaha asilikdə onlara itaət etdilər. Həmin başçılar Allahın haram etdiyi şeyləri halallaşdırır, halal etdiyi şeyləri də haramlaşdırırdılar, bunlar isə bu işdə onlara itaət edirdilər.[6]

2. Adiyy ibn Hətim *(Allah ondan razı olsun)* Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)*, **"Onlar Allahı qoyub baş keşişlərini və rahiblərini özləri üçün rəbb götürdülər"**[7] ayəsini oxuduğunu eşitdikdə belə dedi: "Axı biz onlara ibadət etmirdik!" Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə dedi: ***"Məgər onlar Allahın halal etdiyi şeyləri haramlaşdırdığı zaman, siz də o şeyləri haram***

---

[1] Ən Nisa, 65
[2] Bax: Bureykən "Mədxəlu lidirasətil Aqidətil İsləmiyyəh" (səh. 155).
[3] Abdurrahman ibn Həsən "Fəthul Məcidi Şərhu Kitəbit Tovhid" (səh. 553).
[4] Bax: Əş Şinqiti "Ədvəul Bəyən" (4\83-84).
[5] Ət Tövbə, 31
[6] Bax: Tabari "Cəmiul Bəyən" (6\354).
[7] Ət Tövbə, 31

***saymırdınızmı? Həmçinin Allahın haram etdiyi şeyləri halallaşdırdıqları zaman siz də onları halal saymırdınızmı? Adiyy dedi ki, bəli. Allah elçisi (Allahın ona salavatı və salamı olsun) dedi: Bax bu, onlara ibadət etməkdir."***[1]

3. Uca Allah buyurur: **"Sənə nazil edilənə və səndən əvvəl nazil edilənlərə iman gətirdiklərini iddia edənləri görmədinmi? Onlar mühakimə olunmaları üçün tağuta müraciət etmək istəyirlər. Halbuki onlara tağutu inkar etmələri əmr olunmuşdur. Şeytan isə onları dərin bir azğınlığa salmaq istəyir."**[2] Uca Allah Öz şəriətindən başqa qanunlarla mühakimə olunmağı, "mühakimə üçün tağuta müraciət etmək" adlandırdı.[3]

4. Uca Allah buyurur: **"Xeyr! Sənin Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən çəkişmələrdə səni hakim hesab etməyincə, sonra da verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan tam təslim olmayınca iman gətirmiş olmazlar."**[4] Bu ayədə Uca Allah Öz qanunları ilə mühakimə olunmaqdan üz döndərən kəslərin imanlarının olmadığını bildirdi. Həmçinin and içdi ki, Peyğəmbərin *(Allahın ona salavatı və salamı olsun)* şəriəti ilə mühakimə olunmadıqca və bu mühakiməyə görə qəlbində olan sıxıntı aradan qalxmadıqca insan iman etmiş sayılmır.

### Üçüncü: Bu növə dair bəzi misallar:

1. İslam qanunlarının əvəzinə, sonradan insanlar tərəfindən qoyulan qanunlara mühakimə olunmaqda başqasına itaət etmək və o qanunlarla mühakimə olunmaq.

2. Faiz, zina, açıq-saçıqlıq, qumar və buna bənzər İslam dinində haramlığı zəruri bilinən əməllərin və əlaqələrin halal və icazəli edilməsində kiməsə itaət etmək.

3. Ət yemək, birdən çox qadınla evlənmək, fərdi olaraq mülkə sahib olmaq və Allahın halal və icazəli etdiyi başqa əməllərin haram və qadağan edilməsində kiməsə itaət etmək.

Bu misallara dair Şeyx Əş Şinqiti *(Allah ona rəhmət etsin)* belə deyir: "Halal, Allahın halal etdiyidir. Haram, Allahın haram etdiyidir. Din də Allahın qoyduğu

---

[1] Tirmizi rəvayət edib, Cəmius Sahih, Təfsir kitabı, "Tövbə surəsi" bölümü.
[2] Ən Nisa, 60
[3] Abdurrahman ibn Həsən "Fəthul Məcidi Şərhu Kitəbit Tovhid" (səh. 567).
[4] Ən Nisa, 65

qanunlardır. Bu qanunlardan başqa bütün qanunlar batildir. Kim Allahın qanunları əvəzinə bu batil qanunların Allahın qanunları ilə eyni olduğunu və ya Allahın qanunlarından daha yaxşı olduğunu etiqad edərək onlara əməl edərsə, açıq aydın küfr etmiş olar və bunda heç bir ixtilaf yoxdur."[1]

**Bu növə dair son söz:**

Bütün İslam alimləri ittifaq ediblər ki, hökm yalnız Allaha məxsusdur. Çünki O, bütün məxluqatın Rəbbidir. Öz məxluqatı arasında istədiyi kimi hökm vermək də yalnız Allahın haqqıdır. Əbu Hatim Əl Ğazəli *(Allah ona rəhmət etsin)* belə deyir: "Hökmü həyata keçməyə layiq olan Allahdır. Ancaq hər şeyi yaradan, əmr edən və idarə edən Allahın haqqıdır ki, Onun hökmləri keçərli olsun. Mülkdə ancaq mülk sahibinin hökmü keçər. Mülkün sahibi isə yalnız Yaradan Allahdır. Onun hökmündən başqa hökm, əmrindən başqa bir əmr yoxdur. Amma peyğəmbərə *(Allahın ona salavatı və salamı olsun)*, ölkə başçısına, ağaya, valideynə, ərə itaətə gəldikdə, onlar bir şeyi əmr etdikdə və ya vacib etdikdə, onların vacib etməsi ilə heç nə vacib olmur. Əksinə, Uca və Qüdrətli Allah onlara itaəti vacib edib deyə onlara itaət etmək vacibdir. Əgər bu cür olmasaydı, o zaman hər bir məxluq digərinə nəyisə vacib edərdi və o da cavabında qarşı tərəfə nəyisə vacib edərdi. Çünki onlardan heç biri digərindən üstün deyil. Deməli, vacib olan Allaha itaət etmək və Allahın itaət edilməsini vacib etdiyi şəxslərə itaət etməkdir."[2][3]

---

[1] Bax: Əş Şinqiti "Ədvəul Bəyən" (7\162).

[2] Bax: Əbu Həmid əl Ğazəli "Əl Mustəsfə" (1\83).

[3] **İtaət və ibadət arasındakı fərq:** Şeyx AbdulƏziz İbn Baz *(Allah ona rəhmət etsin)* demişdir: "İtaət və ibadət məsələsinə gəlincə onların arasında fərq var. Bu, bir çox ölkələrdə insanlar arasında gündəmə gəlmiş, bəzi insanların mübahisə etdiyi və səhvə yol verdiyi məsələdir. Hindistanda və Pakistanda da bəzi alimlər arasında bu məsələ barəsində müəyyən ixtilaf olmuş, onlardan bəziləri itaətin mahiyyətini və təfərrüatlarını bilməmişlər. Siz də şeyxlərin bu barədə dediklərini eşitmisiniz. Məsələ budur ki, itaət daha geniş məfhumdur. İtaət Allaha, Onun Rəsuluna, rəhbərlərə, valideynlərə, həyat yoldaşına, qohumlara, islah edən şəxslərə və s. ola bilər. İbadət isə yalnız Allaha məxsusdur. İbadət – ixlasla, Allaha məhəbbətlə, təzimlə, Onun mükafatına ümid edərək və əzabından qorxaraq Allahın əmrlərini yerinə yetirmək və qadağalarından çəkinməkdir. İbadət Uca Allaha olan kamil sevgidən, həmçinin ümid və qorxudan əmələ gəlir və insan Allahın mükafatına ümid edərək və Onun əzabından qorxaraq əmrlərinə itaət edir və qadağalarından çəkinir. Buna ibadət deyilir. İnsan Allaha ibadət edir və etiqad edir ki, ibadətə yalnız Allah layiqdir. Buna görə də namaz, oruc və digər əmrləri Onun savabını umaraq, əzabından qorxaraq, Onu bütün qəlbi ilə sevərək yerinə yetirir. Eyni zamanda Onu sevdiyi üçün, Onun savabına ümid etdiyi və əzabından həzər etdiyi üçün haram buyurduğu şeyləri tərk edir. Buna görə də Uca Allah buyurub: **"Mən cinləri və insanları yalnız Mənə ibadət etsinlər deyə yaratdım" (əz-Zəriyət, 56).** Yəni Onu təkləşdirsinlər və ibadəti yalnız Ona aid etsinlər, Onu sevərək, Onun mükafatına ümid bəsləyərək, əzabından qorxaraq Ona ibadət etsinlər.

İtaət isə müxtəlif qisimlərə ayrılır. Kim Allahdan savabını umaraq, Onun əzabından qorxaraq və Onun ibadətə layiq olduğuna inanaraq Allaha itaət edərsə, onun Allaha itaət etməsi ibadət sayılır. Məsələn: namaz qıldıqda, oruc tutduqda, yaxşılığı əmr edib pislikdən çəkindirdikdə, Allahı zikr etdikdə, valideynlərə itaət etdikdə, həmçinin rəhbərə itaət, Peyğəmbərə *(sallallahu aleyhi və səlləm)* itaət, valideynlərə itaət, nəsihət edənlərə itaət – insan bütün bunları Allahın əmridir deyə etsə, bununla Allahın lütfünü umsa və Allaha ibadət etsə, bu, Allaha ibadət və itaət sayılır. Uca Allah buyurub: **"Kim Peyğəmbərə itaət edərsə, o, Allaha itaət etmiş olur." (Ən-Nisə, 80).** Rəhbərlərə yaxşı işlərdə itaət etmək Allaha itaət və ibadətdir. Çünki insan bunu edərkən Allahın savabını umur, Onun əzabından qorxur və Allahın ibadətə layiq olduğuna inanır. Eyni ilə yaxşı işlərdə valideynlərə itaət, islah edənlərə itaət, nəsihət edənlərə itaət – bütün bunlar həqiqətdə Allaha ibadətdir. Çünki bunu Allah əmr etmişdir. Amma əgər insan bu əmr və itaətləri Allah üçün deyil, riyakarlıq və şöhrət üçün edirsə, artıq bu ibadət sayılmır. Məsələn: Əgər insan Allaha itaət etsə və Allahın əmrini yerinə yetirsə, lakin bunu ixlasla, Allaha yaxınlaşmaq üçün etməsə, əksinə bu itaəti riyakarlıqla etsə, namaz qılsa, amma bunu riyakarlıq üçün etsə, Allahı zikr etsə, amma riyakarlıqla etsə, yaxşılığı əmr edib, pislikdən çəkindirsə, amma riyakarlıq üçün etsə, hökmdarlara itaət etsə, amma bunu Allahın əmr olduğu üçün deyil, başqa məqsədlərlə – məsələn, mal əldə etmək, qorxudan və ya başqa dünya maraqları üçün etsə – bunların heç biri Allaha ibadət sayılmır. Valideynlərə itaət də belədir. Əgər insan valideynlərinə Allah üçün, Onun savabını umaraq itaət edərsə bu, Allaha ibadət sayılır. Amma əgər onlara itaəti bu niyyətlə etməzsə, sadəcə valideyn olduqları üçün onlara itaət edərsə, bu tələb olunan işdir, lakin ibadət sayılmır. Çünki əgər o öz valideyinlərinə təbiəti bunu tələb etdiyi üçün, yaxud onlara olan məhəbbətdən və yaxşılıq məqsədilə, yaxud Allahın əmridir deyə itaət edərsə bu özlüyündə itaət və gözəl bir işdir, amma Allaha ibadət sayılmır. Çünki bu itaətdə insan Allahın rizasını qəsd etməmişdir. İnsanın alış-verişdə, ev tikməkdə, kiməsə nəisə verməkdə Zeydə və ya Amra itaət etməsi də belədir. Əgər bunu Allah üçün deyil, sadəcə bunda bir fayda gördüyü üçün edirsə, bu insanlar arasında icazəli olan işlərdəndir. Eyni ilə rəhbərlərə itaət etmək də belədir. Rəhbərlər hətta kafir olsalar belə, müəyyən caiz işlərdə onlara itaət etsə, lakin Adiy ibn Hətimin hədisində qeyd edildiyi kimi halal-haram qoyduqları üçün deyil, sadəcə işin faydalı olmasına görə itaət edirsə bu da caizdir. Məsələn: əgər onlar insanların xeyri üçün müəyyən yol ilə getməyi əmr etsələr, desələr ki, maşınlar bu yol ilə getsin, o biri yol ilə qayıtsınlar, yolları nizamlasalar və insanlara bu nizama riayət etməyi əmr etsələr, insanlar öz xeyirlərinə olan bu göstərişlərə əməl etməlidirlər. Bu, nə rəhbərə, nə polisə, nə də bir başqasına ibadət sayılır. Xeyr. Bu, sadəcə insanlar üçün xeyir olan, camaata fayda verən mübah işlərdir. İnsanlar özləri üçün faydalıdır deyə bu qaydalara əməl etdikdə dövlətə, polis rəisinə, dövlət başçısına, yol polisinin əlindəki tənzimləmə çubuğuna ibadət etmiş sayılmır. Əksinə bu insanların xeyrinə olan mübah işlərdir. Eləcə də, əgər kafir rəhbərlər, yaxud kafir və ya müsəlman dövləti insanın evinə, dükanına və ya əkin sahəsinə vergi qoyarsa, o da bunu hər ay və ya hər il ödəyərsə və buna məcbur edilərsə bu da ibadət sayılmır. Lakin insanlar bunu bəzən onların zülmündən qorunmaq üçün, bəzən də bu işdə onlar üçün fayda var deyə edir və onların xeyirli layihələrinə kömək etmək niyyəti ilə ödəyirlər. Bu, ibadət sayılmır. Əgər insan bunu Allah üçün etsə və onlara xeyir işdə yardım etmək üçün versə, bu, Allaha ibadətə çevrilir. Əgər bunu Allah üçün, Allaha ibadət etmək üçün deyil, sadəcə ictimai fayda üçün və ya onların şərindən qorunmaq üçün ödəyirsə, bu ibadət sayılmır. Bunun ibadətlə əlaqəsi yoxdur və ibadət hesab olunmur, əksinə adi işlərdən biridir. Əgər insan hər hansısa bir şəxsə və ya əmirə itaət edərsə, amma bunu onun zərər və fayda verdiyini etiqad etdiyi üçün, yaxud verdiyi əmr və qadağalar Allahın şəriətinə zidd olsa belə, onların haqq və halal olduğunu etiqad etdiyi üçün edərsə, o zaman bu insan həmin şəxsə ibadət etmiş olur. Məsələn, əgər kimsə hansısa rəhbəri və ya alimi halal-haram qoymaqda səlahiyyətli hesab edərək, onun fayda və zərər verdiyinə etiqad edərək, ibadətə layiq olduğuna inanaraq, Allahın şəriətinə zidd olsa belə onun əmrlərini yerinə yetirib, qadağalarından çəkinməyin vacib olduğuna etiqad edərək ona itaət etsə, bu o deməkdir ki, o şəxs həmin məxluqa ibadət etmiş sayılır və onu Allahla yanaşı ilah qəbul etmişdir. Beləliklə, bu cür itaət həmin şəxsə ibadət sayılır.

Nəticə olaraq: itaət məsələsində təfsilat vardır. Əgər itaət yalnız mübah olduğu üçün, yaxud orada bir fayda olduğu üçün edilirsə, yəni insan bunu kiməsə ibadət etmək məqsədilə, yaxud müəyyən şəxsin halal etdiyini halal, haram etdiyini haram saydığı üçün deyil, sadəcə fayda gördüyü üçün edirsə, yaxud bunu Allaha ibadət üçün etmirsə bu, ibadət sayılmır. Bu itaət icazəlidir və bunda heç bir irad yoxdur. İstər əmri verən müsəlman olsun, istər kafir, istər bu əmri verən rəhbər olsun, istərsə onun nümayəndəsi, əgər məsələ ümumi faydaya və mübah işlərə aidirsə, burada heç bir problem yoxdur. Məsələn, polisə itaət etmək və yol hərəkəti qaydalarına riayət etmək, qoyulan vergiləri ödəməklə dövlətə itaət etmək, bunlarda fayda var deyə, yaxud insan onların şərindən qorunmaq üçün bunları edirsə onlara ibadət etmiş sayılmır, nə də itaət edilən şəxslərin ibadətə layiq

olduğunu etiqad etmir. Bu, ibadət deyil. Amma kim itaətlərdən hər hansı birini Allaha itaətdir deyə edər və bunu ixlasla, Allahın rizası üçün edərsə, məsələn: hökmdara, Peyğəmbərə *(sallallahu aleyhi və səlləm)* və ya valideynlərinə itaət edərkən bunu Allahın əmridir deyə yerinə yetirirsə və məqsədi Allahın savabını ummaq və Onun lütfünə nail olmaqdırsa, bu, Allaha ibadət sayılır. Çünki bu itaət Allaha yaxınlaşmaq və Onun rizasını qazanmaq üçün edilir. Bu, məxluqa deyil, Allaha ibadətdir. Lakin kim itaəti məxluqa ibadət niyyəti ilə edərsə, yəni o məxluqda gizli qüvvə olduğuna, kainatı idarə edə biləcəyinə, ibadət etdiyi üçün bu məxluqun ona fayda verəcəyinə, etməsə zərər verəcəyinə inansa, bu halda, həmin itaət Allaha deyil, məxluqa edilən ibadət sayılır. Məsələn, bəzi qəbirpərəstlərin etdiyi kimi. Onlar qəbirdəkilərə yaxınlaşmaqla uşağı olacağına, xəstəsinin şəfa tapacağına, ruzisinin artacağına inanır. Bunların hamısı Allaha deyil, başqasına edilən ibadətdir və bu açıq-aşkar şirkdir.

Ona görə də itaət və ibadət məsələsində təfsilata ehtiyac var. Hər itaət ibadət deyil, hər bir ibadət qəbul olunan sayılmır. Hər bir ibadət yalnız Allahın rizası üçün edilər və şəriətə uyğun olarsa o zaman qəbul olunan ibadət və Allaha itaət sayılır. Amma əgər ibadəti Allah üçün deyil, riyakarlıq və şöhrət üçün edərsə bu, Allaha ibadət olmur. Çünki riyakarlıq şirkdir. Bəzən bu, münafiqlərin əməlində olduğu kimi böyük şirk də ola bilər. Onlar Allahı və Rəsulunu təkzib edir, imanı yalnız nifaq və riya üçün göstərirdilər. Onlar Cəhənnəmin ən aşağı təbəqəsində olacaqlar. Allah bizi belə aqibətdən qorusun.

Bəzən də bu kiçik şirk ola bilər. Məsələn: insan yaxşılığı etdiyi zaman bunu riyayakarlıqla etsə, pislikdən çəkindirəndə riyakarlıqla etsə, yaxud buna bənzər işləri riyakarlıqla etsə, bu, Peyğəmbərin ﷺ haqqında xəbər verdiyi riyakarlıqdır. O buyurmuşdur: ***"Sizin üçün ən çox qorxduğum şey kiçik şirkdir." Soruşuldu: "O nədir, ey Allahın Rəsulu?" O dedi: "Riyakarlıq."***

Öncə qeyd etdiyimiz kimi bəzən itaət mübah və ya şəriətdə gələn hansısa bir işdə olur. İnsan bu işi faydalı və xeyirli olduğu üçün yaxud şəriətlə icazəli olduğu üçün edir və bununla hansısa məxluqa, rəhbərə, ölülərə, cinlərə və s. yaxınlaşmaq yaxud ibadət etmək məqsədi güdmürsə bu da ibadət sayılmır. Əksinə bu adi işlərdən hesab olunur. Məsələn: yol hərəkəti qaydalarına əməl etmək, dövlətin qoyduğu vergiləri ödəmək və s. İnsan ölkənin mənafeyi üçün, və ya vergi ödəməsə ona əziyyət verərlər deyə, və ya tələb edənlərin şərindən qorxduğu üçün dövlətin qoyduğu vergiləri ödəyirsə bunlar ibadət deyil, sadəcə insanların gündəlik həyatında olan adi işlərdir və ibadət adlanmır.

Həmçinin rəhbərlərə itaət də bölünür: Əgər insan yaxşı işlərdə Allah üçün onlara itaət edərsə, bu Allaha ibadət sayılır. Amma əgər Allaha ibadət üçün deyil, onların şərindən qorxduğu üçün itaət edərsə bu halda o, nə Allaha ibadət etmiş olur, nə də bu itaətinə görə savab qazanır. Lakin eyni zamanda o, rəhbərlərə da ibadət etmiş sayılmır, sadəcə onların zərərindən qorunmaq üçün onlara itaət etmiş olur. Amma əgər onların halal etdiklərini halal, haram etdiklərini haram sayaraq, onların halal və haram məsələlərində hökm vermə haqqına sahib olduqlarına inanaraq, onların halal etdikləri şeyin halal, haram etdikləri şeyin haram olduğuna etiqad edərək onlara itaət edərsə bu artıq böyük şirkdir. Yəhudilərin və nəsranilərin etdiyi də bu idi. Onlar Tövrata və İncilə zidd olsa və şəriətə qarşı olsa belə, öz alimlərinin və rahiblərinin halal etdiyi şeyi halal, haram etdiyini haram qəbul edirdilər, Buna görə də Uca Allah buyurmuşdur: **"Onlar alimlərini və rahiblərini Allahdan başqa tanrılar qəbul etdilər" (Tövbə, 31).** Çünki onlar Allahın şəriətinə zidd olmasına baxmayaraq, alimlərin və rahiblərin halal buyurduqlarını halal, haram buyurduqlarını haram qəbul etdilər, Allahın Kitabına arxa çevirdilər və bununla da kafir oldular. Çünki Allahın haram buyurduqlarını halal saydılar və öz alimlərinə təzim edərək, onların haqlı olduqlarına inanaraq Allahın şəriətinə müxalif olmaqda onlara itaət etdilər.

Əgər bir insan rəhbərə və ya hökmdara günah işdə itaət etsə, amma "onların halal etdikləri halal, haram etdikləri haramdır" deməsə, sadəcə nəfsinə uyaraq, yaxud dünya malı üçün onlara itaət edərsə, belə olduğu halda, bu, imanda naqislik və imanın zəifləməsidir. Lakin bu, şirk və ya küfr hesab olunmur. Məsələn, əgər rəhbərə hər hansısa günah işdə itaət etsə və bunu dünya malına olan sevgisindən dolayı, yaxud dünyəvi dərəcəsinin artması, yaxud onun yanında məqam qazanmaq üçün edərsə bu halda o, günah etmiş olur. O bilir ki, filan adam öldürülməyə, ya da döyülməyə layiq deyil, amma əmirinə kömək edərək günahda iştirak edir və günaha düşür.

Amma əgər rəhbər hər hansısa adamı öldürməyi və ya döyməyi əmr etdikdə ona itaət etsə və etiqad etsə ki, rəhbər yalnız halal olanı əmr edir, yalnız yaxşı olanı buyurur, yalnız qadağan olunmağa layiq olanı qadağan edir, o həmişə haqlıdır və haqq üzərindədir və onun dediyi hər bir şey mütləq doğrudur və Allahın şəriətinə zidd olsa belə onun əmrinə tabe olunmalı və qadağan etdiyi hər bir şey tərk olunmalıdır, o buna layiqdir, beləliklə, o şəxs Allahın şəriətinə məhəl qoymadan, Allahın kitabına və Peyğəmbərin (sallallahu aleyhi və səlləm) sünnəsinə

## 5. Uluhiyyətdə və ibadətdə olan şirkin növlərindən beşincisi: Sevgidə şirk

### Giriş

Daha öncə qeyd etdik ki, ibadət üç rükn üzərində qurulur və onlardan biri də sevgidir. Bu, qulluq sevgisidir və bu cür sevmək, Allahın qarşısında zəlil olmağı, Allaha boyun əyməyi, Allaha təzim etməyi, Allaha kamil itaət etməyi, Allahı hər şeydən üstün tutmağı gərəkdirir. Bu, vacib olan sevgidir. Belə ki, sevgi üç qismə ayrılır.

### Birinci: Sevginin növləri.

Sevginin üç növü var:

**1. Vacib olan sevgi**. Bu, yuxarıda qeyd etdiyimiz sevgidir. Allaha itaəti və Ona boyun əyməyi sevmək.[1] Bu, qulluq ilə bağlı olan sevgidir. Bu sevgi zəlilliyi, boyun əyməyi, kamil bir şəkildə itaət etməyi, sevdiyini hər şeydən üstün tutmağı

---

baxmadan mütləq olaraq bu rəhbərin, alimin, yaxud hər hansı bir insanın halal etdiyini halal, haram etdiyini haram sayırsa bu artıq böyük küfrdür və yəhudilərin və xristianların etdiklərinin eynisidir. Allah bizi ondan qorusun.

Əgər bir insan müəyyən bir mal əldə etmək, pul qazanmaq, dolanışıq tapmaq və s. üçün günah işdə rəhbərə itaət etsə, eyni zamanda onun məsum olmadığını, onun əmrlərində də, qadağalarında da səhv ola biləcəyini, xətaya yol verə biləcəyini bilsə, lakin buna baxmayaraq nəfsi istəkləri onu günah işdə rəhbərə itaət etməyə sövq edibsə bu günahdır və imanda zəiflikdir, lakin küfr hesab olunmur. Ancaq əgər bunu halal sayarsa və istər Allahın şəriətinə uyğun olsun, istər zidd olsun rəhbər nəyi əmr edirsə hökmən itaət olunmalı, nədən çəkindirirsə hökmən çəkinilməlidir – deyə etiqad edərsə, belə itaət küfrdür və həmin rəhbəri Allahla yanaşı ilah qəbul etmiş olur. Bu çox mühüm və böyük əhəmiyyət daşıyan məsələlərdir. Buna görə də onları geniş şəkildə izah etmək və açıqlamaq vacibdir ki, insanlar bu məsələlərdə səhvə yol verməsinlər, bir müsəlmanı haqsız yerə kafir saymasınlar. Güc və qüvvət isə yalnız Allahdandır.

Onun "kiçik şirk" adlanmasına gəldikdə isə bu məsələyə baxmaq lazımdır. İnsanın günah işdə başqasına itaət etməsini bəzi alimlər kiçik şirk adlandırıblar, çünki o, nəfsinə tabe olduğu üçün bunu edib. Lakin ola bilsin ki, bu, kiçik şirk olmasın, amma günah adlandırılsın. Çünki bəzi alimlərə görə kiçik şirk yalnız Quran və Sünnədə "şirk" adı ilə adlandırılan şeylərə deyilir. Məsələn, Allahdan başqasına and içmək, "Allah və filankəs belə istədi" demək, riyakarlıq etmək və s. Bunların "şirk" adlanması, yəni kiçik şirk olması dəlillərdə açıq şəkildə gəlmişdir. Amma qeybət, insanlar arasında söz gəzdirmək, zina, oğurluq kimi günahlara gəlincə, bu növ günahlar asilik və böyük günah adlansa da, bunlara şirk deyilmir. Bəzən bir qisim alimlər geniş mənada bunları da "kiçik şirk" adlandırır, çünki bu günahları edən kəs nəfsinə tabe olur. Lakin alimlər arasında məşhur və qəbul olunmuş rəyə görə bunlara asiliklər, böyük günahlar deyilir, amma şirk adlandırılmır. Çünki bu günahları edən kəs bunu başqasına ibadət etmək üçün. yaxud riyakarlıq üçün etmir, sadəcə nəfsinə və şeytanına itaət edərək zina edir, oğurluq edir, qeybət edir və s. Ona görə bunlar böyük günahlar, asiliklər adlanır. Allahdan hamımız üçün afiyət və salamatlıq diləyirik" *(Şeyxin rəsmi saytından).*

[1] Bax: Əl Vahidi "əl Vasit fi Təfsiril Quran" (1\136). Həmçinin bax: Şeyx Saleh əl Fovzan "Əl İrşədu ilə Sahihil İtiqad" (səh. 74).

gərəkdirir. Bu da yalnız Allaha xas olan sevgidir. Bu sevgidə başqasını Allaha ortaq etmək icazəli deyil.[1]

**2. Haram və ya şirk olan sevgi.** Bu, yalnız Allaha aid edilməsi vacib olan sevgi ilə Allahdan başqasını sevməkdir. Hər kim zəlilliyi və mütiliyi gərəkdirən sevgi ilə Allahdan başqasını sevsə, ona itaəti Allaha itaətdən önə çəksə və onun istəklərini Allahın istəklərindən üstün tutsa, artıq onu Allaha tay tutmuşdur. Bu barədə Şeyxulislam Muhəmməd ibn Abdulvahhab *(Allah ona rəhm etsin)* belə deyir: "Hər kim Allahdan başqasını məhəbbətdə Allaha bərabər tutub, Allahı sevdiyi kimi onu sevərsə, artıq böyük şirkə düşmüş olar."[2] Bu cür sevginin azı da, çoxu da Allaha və Elçisinə *(Allahın ona salavatı və salamı olsun)* olan məhəbbətlə bir yerdə cəm ola bilməz.[3]

**3. Təbii və ya fitri sevgi.** Bu növ sevgi icazəlidir və əgər sevdiyi kəsi Allahın layiq olduğu təzimlə təzim etməyə aparıb çıxarmırsa, bu sevgidə problem yoxdur. Sevginin bu növünə dair bəzi misallar: İnsanın öz vətənini sevməsi, valideynin öz övladını sevməsi, ərlə arvadın bir-birini sevməsi, mülk sahibinin öz mülkünü sevməsi və s. Uca Allah bu sevgi barədə belə buyurub: **"Qadınların, uşaqların, yığın-yığın qızıl-gümüşün, yaxşı cins atların, mal-qaranın və əkin yerlərinin verdiyi zövqü sevmək insanlara gözəl göstərilmişdir. Bunlar dünya həyatının keçici zövqüdür, gözəl qayıdış yeri isə Allah yanındadır."**[4]

### İkinci: Sevgidə şirk necə baş verir?

Daha öncə qeyd etdik ki, insanın yalnız Allaha aid edilməsi vacib olan sevgi ilə Allahdan başqasını sevməsi böyük şirkdir.

### Üçüncü: Bu növə dair bəzi dəlillər.

Uca Allah buyurub: **"İnsanlardan elələri də vardır ki, Allahdan qeyrilərini Ona tay tutur, onları da Allahı sevdikləri kimi sevirlər. İman gətirənlərin isə Allaha olan sevgisi daha güclüdür".**[5] Bu ayənin mənası daha öncə qeyd edilmişdir.

---

[1] Şeyx Saleh əl Fovzan "Əl İrşədu ilə Sahihil İtiqad" (səh. 74).
[2] Abdurrahman ibn Həsən "Fəthul Məcidi Şərhu Kitəbit Tovhid" (səh. 487).
[3] Abdurrahman ibn Həsən "Fəthul Məcidi Şərhu Kitəbit Tovhid" (səh. 478).
[4] Əli İmran, 14
[5] Əl Bəqərə, 165

### Bir şübhə və ona cavab:

Şirkin bu növünə düşmüş bəzi insanlar deyirlər ki, onlar Allahı çox sevirlər və hətta ola bilsin ki, onların Allaha olan sevgisi, bütlərinə olan sevgisindən daha güclüdür. Məgər burada şirk varmı? Onların bu şübhəsinə məşhur İslam alimi İbn Əl Qeyyim *(Allah ona rəhmət etsin)* belə cavab vermişdir: "Müşrikə baxdıqda görürsən ki, onun halı sözünü və əməlini təkzib edir. O deyir ki, biz onları Allahı sevdiyimiz kimi sevmirik və onları sevgidə Allahla eyni tutmuruq. Lakin Allahdan başqa məbudlarına qarşı bir hörmətsizlik gördükləri zaman elə qəzəblənirlər ki, heç Allah üçün bu qədər qəzəblənmirlər. Sevinc və qəzəbləri onlara görə qurulur. Onlar zikr olunduqda sevinirlər və üzləri gülür. Xüsusilə də Allahdan başqa məbudlarını onlarda olmayan xüsusiyyətlərlə vəsf etdikdə; "Onlar darda qalanı xilas edir, sıxıntını aradan qaldırır, insanların ehtiyacını ödəyir, onlar Allah ilə qulları arasında bir vasitəçidir" kimi sözlər dedikdə müşrikin sevindiyini, xöşbəxt olduğunu, üzünün güldüyünü, qəlbinin həsrət çəkdiyini, onun heyrət içində və həyəcanla öz məbudlarına təzim etdiyini və boyun əydiyini görürsən. Amma sən tək Allahı zikr etdiyin və Allahın təkliyindən danışdığın zaman onun üzüntü və sıxıntı içinə düşdüyünü, qəlbinin daraldığını və ilahını naqisləşdirdiyin üçün səni qınadığını, bəzən də buna görə səninlə ədavət apardığını görürsən."[1]

## 6. Uluhiyyətdə və ibadətdə olan şirkin növlərindən altıncısı: Qorxuda şirk

### Giriş

Daha öncə qeyd etdik ki, ibadətin üç rüknu var və onlardan biri də qorxudur. Qorxu qəlbin qulluğudur və onu Allahdan başqasına yönəltmək icazəli deyil. Qul, Rəbbinin ona dünyada cəza verməsindən, müsibətə və xəstəliyə düçar etməsindən qorxmalıdır. Həmçinin günahkarları hədələdiyi axirət əzabı və cəzası ilə onu cəzalandıracağından qorxmalıdır. Bu da yalnız Allaha aid edilməsi vacib olan qorxudur və kimliyindən asılı olmayaraq onu Allahdan başqasına yönəltmək icazəli deyil.

[1] Bax: İbn əl Qeyyim "Mədəricus Səlikin" (1\371).

## Qorxunun növləri:

Qorxunun sevgidə olduğu kimi üç növü var:

**1. Vacib olan qorxu.** Dediyimiz kimi bu, qulun qorxmasıdır ki, Rəbbi onu istədiyi kimi müsibətə düçar edər...

Bu qorxuda nə tələb olunur?

Bu qorxu, səni əmrləri yerinə yetirməyə və qadağalardan çəkinməyə sövq etməlidir. Həmçinin qorxu sevgi və ümidlə yanaşı olmalıdır ki, insanı Allahın rəhmətindən ümidini üzməyə aparıb çıxarmasın. Mömin qorxu və ümid arasında seyr edərək Allaha yönəlir. Nə Allaha təkcə qorxu ilə ibadət edib Onun rəhmətindən ümidini kəsmir, nə də təkcə ümidlə ibadət edib Allahın cəzasından arxayın olmur. Çünki, istər Allahın rəhmətindən ümidi üzmək, istərsə də Allahın cəzasından arxayın olmaq tövhidə zidd olan əməllərdəndir. Uca Allah buyurub: **"Yaxud onlar Allahın hiyləsindən ehtiyat etmirdilərmi? Allahın hiyləsindən yalnız ziyana uğrayanlar ehtiyat etməzlər"**.[1] Həmçinin belə buyurub: **"Ey oğullarım! Yusuf və qardaşından xəbər tutmaq üçün yola düşün, Allahın mərhəmətindən ümidinizi üzməyin. Çünki Allahın mərhəmətindən ancaq kafir adamlar ümidlərini kəsər".**[2] Həmçinin Uca Allah buyurub: **"İbrahim dedi: "Doğru yoldan azanlardan başqa, Rəbbinin mərhəmətindən kim ümidini üzər?"**[3]

**2. Təbii qorxu.**[4] Bu, insanın fitrətində olan və təbiətcə qorxulan bir şeydən qorxmasıdır. Şirdən və buna bənzər yırtıcı heyvanlardan qorxmaq, həmçinin qəfil hücum edən düşməndən qorxmaq kimi. Lakin bununla yanaşı, insan etiqad etməlidir ki, xeyir və zərər bütünlükdə Allahın əlindədir. Qorxunun bu növü icazəlidir və məzəmmət olunmur. Bu cür qorxu hətta peyğəmbərlərdə də olub. Uca Allah Musa peyğəmbərin *(Allahın ona salavatı olsun)* hekayəsini danışaraq belə buyurur: **"Musa qorxu içində ətrafa baxa-baxa oradan çıxıb: "Ey Rəbbim! Məni zalım adamların əlindən qurtar!"– dedi".**[5]

**3. Haram olan qorxu**. Bu qorxu iki növə ayrılır.

---

[1] Əl Əraf, 99
[2] Yusuf, 87
[3] Hicr, 56
[4] Şeyx Saleh əl Fovzan "Əl İrşədu ilə Sahihil İtiqad" (səh. 69-70).
[5] Əl Qasas, 21

**Birinci:** Gizli (etiqadi) qorxu. Bu qorxunun yeri qəlbdə olduğu üçün etiqadi adlanmışdır. Bu da qulun Allahdan başqasından qorxmasıdır ki, ona hər hansı bir gizli təsir edər, ona müsibətlər göndərər, xəstəliyə düçar etmək, ruzidən məhrum etmək, insanı kasıb etmək kimi yalnız Allahın qadir olduğu şeylə onu imtahan edər. Uca Allah xəbər verir ki, Hud peyğəmbərin *(Allahın ona salavatı olsun)* qövmü ona belə demişdir: **"Biz ancaq onu deyə bilərik ki, bəzi məbudlarımız səni bəlaya düçar edib". O dedi: "Həqiqətən, mən Allahı şahid çağırıram, siz də şahid olun ki, mən sizin şərik qoşduqlarınızdan uzağam".**[1] [2]

Bu, şirk olan qorxudur. Kim bu cür qorxuya düşərsə, böyük şirkə düşmüşdür.

**İkinci: Əməldə olan qorxu.**[3] Bu, insanlardan qorxmaqdır. Hansı ki, bu qorxu hər hansı bir vacibi tərk etməyə və ya haram əməli etməyə aparıb çıxarır. Bu cür qorxu haramdır və tövhidin kamilliyinə ziddir, həmçinin kiçik şirk sayılır. Buna dəlil Uca Allahın bu kəlamıdır: **"Bəzi adamlar onlara: "Camaat sizə qarşı ordu toplayıbdır, onlardan qorxun!"– dedilər. Bu, onların imanını daha da artırdı və onlar: "Allah bizə yetər. O nə gözəl Qoruyandır!"– dedilər".**[4] Onlardan qorxun, yəni cihadı tərk edin. Qorxunun bu qisminə, həmçinin Peyğəmbərin *(Allahın ona salavatı və salamı olsun)* bu sözü də dəlildir: "Uca Allah Qiyamət günü quluna belə deyəcək: ***"Bir münkəri[5] gördüyün zaman onu dəyişməyə sənə nə mane oldu? Qul deyəcək ki, ey Rəbbim, insanlardan qorxmağım. Uca Allah belə deyəcək: "Yalnız Məndən qorxmalı idin."*** [6]

## Son söz:

Uluhiyyətdə şirkin növləri çoxdur. Bunlar Allaha ibadətlə bağlı olan şirk növləridir. Kim Allahdan başqası üçün nəzir desə, qurban kəssə, səcdə etsə, həmçinin sevgi, zəlillik, təvəkkül, ümid, qorxu, dua və s. ibadətlərdən hər hansı birini Allahdan başqasına yönəltsə, artıq şirkin bu növünə düşmüş sayılır.

---

[1] Hud, 54

[2] Bax: Abdurrahman ibn Həsən "Fəthul Məcid" kitabı, (səh. 488). Şeyx Saleh əl Ətram "Əl Əsilətu vəl Əcvibətu fil Aqidəh" (səh. 39). Şeyx Saleh əl Fovzan "Əl İrşədu ilə Sahihil İtiqad" (səh. 67).

[3] Bax: Abdurrahman ibn Həsən "Fəthul Məcid" kitabı, (səh. 489). Şeyx Saleh əl Ətram "Əl Əsilətu vəl Əcvibətu fil Aqidəh" (səh. 39). Şeyx Saleh əl Fovzan "Əl İrşədu ilə Sahihil İtiqad" (səh. 66).

[4] Ali İmran, 173

[5] Tərc: Münkər-Şəriətin pislədiyi və haram etdiyi, həmçinin sağlam ağıl sahiblərinin çirkin saydığı şeylər.

[6] İmam Əhməd öz "Müsnəd" əsərində rəvayət edib (3\27, 29, 77). İbn Macə "Sunən" əsərində, Fitnələr kitabı, "Yaxşılığı əmr etmək, pislikdən çəkindirmək" bölümü. Şeyx Albani "Sahihul Cəmi" də səhih olduğunu deyib. (1824). Abdurrahman ibn Həsən "Fəthul Məcid" kitabı (səh. 489).

# İkinci məqam: Kiçik şirk

## Birinci: Kiçik şirkin tərifi

Kiçik şirk, sadəcə əməlin surətində və sözlərdə başqasını Allaha tay tutmağa və ya Şəriətin şirk vəsfi ilə vəsf etdiyi, lakin dindən çıxarmayan hər bir şeyə deyilir.[1]

Şeyx Abdurrahmən ibn Sədi *(Allah ona rəhmət etsin)* belə deyir: "Kiçik şirkə gəlincə, böyük şirkə aparan bütün sözlər və fellər kiçik şirk sayılır. Hər hansı bir məxluqu ona ibadət etmək dərəcəsinə çatmadan həddən artıq tərifləyib şişirtmək və onun barədə həddi aşmaq, Allahdan başqasına and içmək, kiçik riya və buna bənzər əməllər kimi."[2]

## İkinci: Dəlillərlə kiçik şirkin hökmü:

1. Kiçik şirk, böyük şirkdən sonra günahlar içində ən böyük günahlardandır. Çünki o, Allahdan başqasını Allaha bərabər tutmaqdır.
2. Kiçik şirk tövhidin özünü pozmur, onun kamilliyinə ziddir.
3. Kiçik şirk bütün əməlləri puç etmir. Əksinə, hansı əmələ qarışıbsa, yalnız o əməli puç edir.
4. Kiçik şirk sahibi əgər tövbə etmədən bu əməl üzərində ölərsə, müsəlman olaraq ölür, lakin onun şirki bağışlanmır və sonda Cənnətə daxil olsa belə, Axirətdə əzab çəkəcək. Bu, alimlərin görüşləri arasında ən doğru olanıdır.[3]
5. Kiçik şirk sahibi Axirətdə Cəhənnəmə daxil olsa da, orada əbədi qalmayacaq.

**Kiçik şirkə dəlil:** Uca Allah buyurur: **"Kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə, yaxşı işlər görsün və icra etdiyi ibadətlərində Rəbbinə heç kəsi şərik qoşmasın!"**[4] Həmçinin Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* deyir ki, Uca Allah belə deyib: ***"Mənim heç bir şərikə ehtiyacım yoxdur. Kim bir əməl***

---

[1] Bax: Şeyx ibn Useymin "Məcmuus Səmin" (2\27). Həmçinin bax: Abdulaziz Abdullatif "əl İxləsu vəş Şirkil Əsğar" (səh. 30).
[2] Bax: İbn Sədi "Qavlus Sədidi Şərhu Kitəbit Tovhidi" (səh. 24).
[3] Bax: İbn Teymiyyə "Raddun Aləl Bəkri" (səh. 146). Şeyx Suleyman ibn Abdullah "Təysirul Azizil Həmid" (səh. 98). Şeyx Abdurrazzaq əl Bədr "Şeyx Abdurrahmən əs Sədi və Cuhuduhu fi Təvdihil Aqidəh" (səh. 188-189).
[4] Əl Kəhf, 110

***edər və o əməldə başqasını Mənə şərik qoşarsa, Mən onu şirki ilə birlikdə tərk edərəm."***[1]

### Üçüncü: Kiçik şirkin bəzi növləri.

Kiçik şirkin bir çox növü var və burada onlardan bəzilərini zikr edəcəyəm.

## 1. Kiçik şirkin növlərindən birincisi: Az miqdarda olan riya

### Riyanın lüğəvi və şəri mənası:

Riya lüğətdə "ruyə" (görmək) sözündən götürülüb. Əməli riya üçün etdi, yəni insanlar görsünlər və bununla gözəl xatirəyə və şan-şöhrətə nail olsun deyə etdi.[2]

**Riyanın Şəri (istilahi) mənası:** İnsanların görməsi məqsədi ilə ibadəti izhar etmək və ya yalandan özünü insanlara göstərməkdir. Buna Allah üçün əməl edən və namaz qılan bir müsəlmanı misal çəkmək olar. O, Allah üçün əməl edir, lakin öz əməlini və namazını gözəlləşdirir ki, insanlar onu tərifləsinlər.[3]

Lüğəvi və şəri mənalar arasında olan ortaq nöqtə odur ki, riyakarlıq edən kəs əməlini insanlara göstərmək üçün edir.

### İkinci: Riyanın hökmü və buna dəlil.

Riya Quran və Sünnədə varid olan açıq-aydın dəlillərə əsasən haramdır.

Qurandan dəlil: Uca Allah buyurub: **"Kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə, yaxşı işlər görsün və icra etdiyi ibadətlərində Rəbbinə heç kəsi şərik qoşmasın!"[4].**

Sünnədən dəlil: Allahın elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə deyib: ***"Sizin üçün Məsih Dəccaldan daha çox qorxduğum bir şeyi sizə xəbər verimmi? Səhabələr, əlbəttə, ey Allahın elçisi – dedilər. O dedi: "Bu, gizli şirkdir. Bir kişi qalxıb namaz qılır, lakin kiminsə ona baxdığını gördükdə namazını***

---

[1] Bax: Sahih Muslim, Zühd kitabı, "Əməlində Allahdan başqasını ortaq qoşan kəs" bölümü.

[2] Bax: İbn Munzir "Lisənul Arab" (2\203-204). Siddiq Həsən Xan "Əd Dinul Xalis" (2\379).

[3] Bax: Siddiq Həsən Xan "Əd Dinul Xalis" (2\379).

[4] Əl Kəhf, 110

***gözəlləşdirir."*[1] Həmçinin Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə deyir: ***"Sizin üçün ən çox qorxduğum çey kiçik şirkdir. Dedilər ki, ey Allahın elçisi, kiçik şirk nədir? O, belə dedi: "Riyadır. Uca Allah qiyamət günü insanların əməllərinin qarşılığını verdikdə, riyakar insanlara belə deyəcək: "Dünyada əməllərinizi kimə göstərirdinizsə, onların yanına gedin və baxın görün onların yanında mükafat tapırsınızmı?"*** [2] Həmçinin Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurub: ***"Kim riyakarlıqla namaz qılarsa, şirk etmişdir. Kim riyakarlıqla sədəqə verərsə, şirk etmişdir. Kim riyakarlıqla oruc tutarsa, şirk etmişdir."*** [3]

**Qeyd:** Diqqət etsək görərik ki, birinci hədisdə Allahın elçisi *(Allahın ona salavatı və salamı olsun)* riyanı gizli şirk adlandırır. Riyanın bu cür adlanmasında səbəb nədir?

**Cavab:** Riyanın gizli şirk adlanmasında səbəb odur ki, riyakar insan zahirdə əməlini Allah üçün etdiyini göstərir, lakin qəlbində əməlin başqası üçün olduğunu gizlədir. Ya da ona görə ki, riyakar insanın riyaya düşdüyünə bəzən heç özü də fikir vermir. Peyğəmbərin *(Allahın ona salavatı və salamı olsun)* bu sözü də buna dələlət edir: ***"Bu ümmətdə şirk gecənin zülmət qaranlığında daşın üzərində yeriyən qarışqanın ayaq izindən də gizlidir."*** [4]

---

[1] İbn Macə öz Sünən əsərində rəvayət edib, Zühd kitabı, "Riya və suma" bölümü. Şeyx Albani "Sahihul Cəmi" də həsən olduğunu deyib. (2607).

[2] İmam Əhməd "Müsnəd" əsərində rəvayət edib. (6\248-249). Şeyx Albani "Sahihul Cəmi" (1555) də səhih olduğunu deyib

[3] İmam Əhməd "Müsnəd" (4\126). Tabarani "Əl Kəbir" (7\337). Əl Həkim "Əl Mustədrək" (4\329). Hamısı Şəddəd ibn Əvsun rəvayət etdiyi bu hədisin səhih olduğunu deyiblər.

[4] Əl Həkim "Əl Mustədrək" (2\291) əsərində rəvayət etmiş və isnadının səhih olduğunu demişdir. Şeyx Albani əvvəlini səhihləşdirmişdir "Sahihul Cəmi" (3730).

## 2. Kiçik şirkin növlərindən İkincisi: “Əs-sum`a” (eşitdirmək)

### Birinci: Lüğəvi və şəri cəhətdən mənası:

**Sum`a lüğəvi cəhətdən** simə`un (eşitmək) və ismə`un (eşitdirmək) sözlərindən qaynaqlanır. Filankəs əməlini riyakarlıq və sum`ə ilə etdi dedikdə, yəni insanlar əməli görsünlər və eşitsinlər deyə etdi anlamına gəlir.[1]

**Sum`a sözünün şəri (istilahi) mənası:** İnsanın ibadəti başqasına eşitdirmək üçün izhar etməsi və ya onu tərifləsinlər deyə etdiyi əməlləri başqasına danışmasıdır. İnsanın gecə vaxtı bir yaxşı əməl etməsi, sonra gündüz vaxtı qalxıb onu insanlara danışması da bura daxildir.[2]

Riya ilə sum`a arasındakı fərq odur ki, riya görməklə, sum`a isə eşitməklə əlaqəlidir.[3]

### Sum`anın hökmü və buna dəlil:

Sum`a, Quran və Sünnədə varid olan açıq-aydın dəlillərə əsasən haramdır.

Qurandan dəlil Uca Allahın bu kəlamıdır: **“Kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə, yaxşı işlər görsün və icra etdiyi ibadətlərində Rəbbinə heç kəsi şərik qoşmasın!”[4].**

Sünnədən dəlil: Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurub: ***“Kim əməllərini eşitdirərsə, Allah da onu eşitdirər (eyiblərini başqalarına eşitdirər və onu rüsvay edər). Kim göstərmək məqsədi ilə əməl edərsə, Allah da onu göstərər. (riyakar olduğunu başqalarına göstərər və onu rüsvay edər)”[5]***

### Üçüncü: Riya və sum`a nə zaman kiçik şirkdən böyük şirkə çevrilir?

Bu üç halda riya və sum`a böyük şirk hökmünə daxil olur:

1. İnsanda riyakarlıq və ya sum`anın imanın əslində olması (yəni öz qanını və malını qorumaq üçün insanların qarşısında özünü mömin göstərməsi).

2. İnsanın əməllərində riya və sum`anın üstünlük təşkil etməsi.

---

[1] Bax: İbn Munzir “Lisənul Arab” (2\203-204) və “Mucəmul Vasit” (səh. 450).
[2] Bax: Siddiq Həsən Xan “Əd Dinul Xalis” (2\379).
[3] Bax: İbn Həcər “Fəthul Bəri” (11\336).
[4] Əl Kəhf, 110
[5] Sahih əl Buxari, Kitəbur Riqaq, “Riya və suma” bölümü

3. İnsanın əməlləri ilə çox vaxt dünyanı istəməsi və Allah üçün əməl etməməsi.

### Dördüncü: Riya və sum`a qarışan ibadətin hökmü:

Əgər ibadət edənin əvvəldən məqsədi insanlara göstərmək və ya eşitdirmək olubsa, bu onun ibadətini tamamilə puç edir. Amma əgər ibadətin əsli Allah üçün olarsa, lakin ibadət əsnasında riya və ya sum`a baş verərsə, o zaman iki şeyə baxılır. Əgər ibadətin əvvəli sonuna bağlıdırsa və eyni zamanda insan ona gələn riya və sumanı özündən dəf etməyə çalışmırsa, əksinə ona tərəf meyl edirsə, o zaman onun əməli bütünlüklə batil olur. Məsələn, namazı riyakarlıqla qılmaq kimi. Amma ibadətin əvvəli axırı ilə bağlı deyilsə, o zaman o ibadətin yalnız riya və sum`ə daxil olduğu hissə batil olur. Məsələn, yüz manat sədəqə vermək kimi. Əgər insan onun əlli manatını riyakarlıqla, qalanını ixlasla sədəqə veribsə, bu məbləğin ancaq riya və ya sum`a daxil olduğu hissəsi batil olur.[1]

## 3. Kiçik şirkin növlərindən üçüncüsü: İnsanın Axirət əməli ilə dünyanı istəməsi

### Birinci: Burada nə qəsd edilir?

Burada qəsd olunan odur ki, insan Allahın razılığını əldə etmək üçün saleh əməllər edir, lakin bu niyyətinə və istəyinə başqa şeylər də qarışır. Məsələn, insanın dünya malı və ya şan-şöhrət əldə etmək üçün saleh əməllər etməsi kimi. Döyüşür və ya elm öyrənir ki, buna görə dünya malına və ya hər hansı bir vəzifəyə nail olsun. Və ya Quran əzbərləyir və camaat namazında davamlı iştirak edir ki, məsciddə onu hansısa vəzifəyə təyin etsinlər və s.[2]

### Bu əməlin hökmü və buna dəlil:

İnsanın Axirət əməli ilə dünyanı istəməsi Quran və Sünnədə varid olan dəlillərə əsasən haramdır. Buna dair dəlillər:

1. Allahın kitabından. Uca və Qüdrətli Allah buyurur: **“Kim dünya həyatını və onun bərbəzəyini istəyirsə, onlara əməllərinin əvəzini orada tam verərik və**

---

[1] Bax: Şeyx ibn Useymin “Fətəvə əl Aqidəh” (səh. 200-201).

[2] Bax: Dr. İvad ibn Abdullah əl Mutiq “Badu Ənvaiş Şirkil Əsğar” (səh. 31).

**onlar orada zərər çəkməzlər. Onlar axirətdə özləri üçün oddan başqa heç bir şeyi olmayan kimsələrdir. Onların dünyada gördükləri işlər boşa çıxar və tutduqları əməllər puç olar".**[1] Bu ayədə Uca Allah xəbər verir ki, kimin məqsədi və tələbi dünya olarsa, Allah onun etdiyi yaxşılıqların əvəzini dünyada verər. Sonunda isə axirətdə ona qarşılıq verilməsi üçün heç bir əməli olmaz.[2]

2. Sünnədən dəlil. Əbu Hureyra *(Allah ondan razı olsun)* deyir ki, bir kişi belə dedi: ***"Ey Allahın elçisi! Bir nəfər cihad edir və bunun qarşılığında dünya malı əldə etmək istəyir. Allahın elçisi (Allahın ona salavatı və salamı olsun) dedi ki, onun üçün heç bir əcr yoxdur. Kişi bunu üç dəfə təkrar etdi, lakin Peyğəmbər (Allahın ona salavatı və salamı olsun) hər dəfə dedi ki, onun üçün heç bir əcr yoxdur."***[3]

**Üçüncü: Axirət əməli ilə dünyanı istəməklə riya və sum`a arasındakı fərq.**

Bunların hər üçündə insan saleh əməl edir, lakin özünü göstərən və eşitdirən insan başqalarının onu görüb tərifləməsini, təzim etməsini və onların gözündə ucalmasını istəyir. Amma Axirət əməli ilə dünya malı əldə etmək istəyən insan isə əməlini ancaq dirhəm və ya dünya mənfəəti əldə etmək üçün edir. İkinci birincidən daha ağıllıdır, buna baxmayaraq, onların hər ikisi ziyan içindədir. Allah bizləri bundan qorusun![4]

## Dördüncü: İnsanların əməl və məqsəd baxımından qismləri:

1. Bir qisim insanlar öz əməllərini ixlasla, yalnız Allahın rizası üçün edirlər və bununla Axirəti istəyirlər. Şəriətə uyğun olan da məhz budur.

2. Bir qisim insanlar əməlləri ilə ancaq dünya mənfəətinə nail olmaq istəyirlər. Onlar tamamilə Allah üçün əməl etmir və axirət üçün heç çalışmırlar. Bu, xalis riyadır və münafiqlərin düşdükləri böyük şirk də məhz budur.

3. Bir qisim insanlar əməllərini Allah üçün edirlər, lakin niyyətlərinə və istəklərinə başqa şeylər də qarışır. Məsələn, saleh əməl ilə insanları qəsd etmək kimi. Kiçik riya və sum`a ilə ibadət edən kəsi buna misal çəkmək olar. Və ya

---

[1] Hud, 15-16

[2] Bax: "Təfsiru ibn Kəsir" (2\439).

[3] İmam Əhməd "Musnəd" (2\290). Hakim "Mustədrək" (2\85) əsərində rəvayət edib və səhih olduğunu deyib. Əbu Davud "Sunən", Cihad kitabı, "Dünya malı əldə etmək üçün vuruşan kəs" bölümü. Şeyx Albani "Səhih Sunən Əbi Dəvud" da həsən olduğunu deyib. (2\478).

[4] Bax: Şeyx Suleyman ibn Abdullah "Təysirul Azizil Həmid" (səh. 534-535). Həmçinin bax: Dr. Əl Mutiq "Badu Ənvəiş Şirkil Əsğar" (səh. 31).

dünya malına və mənfəətinə nail olmaq üçün saleh əməl etmək kimi. Məsələn, insan evlənmək istədiyi qızın vəlisinin yanında saleh əməllər edir ki, qızını onunla evləndirməyə razı olsun. Və ya Quran əzbərləyir ki, onu məsciddə imam təyin etsinlər və s. Bunların hamısı kiçik şirkə daxildir. Bunu edən kəs öz niyyəti səbəbilə artıq həmin şeylərin quluna çevrilmişdir. Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* bu sözü də məhz ona aiddir: ***"Dinarın, dirhəmin, məxmərin və xəz paltarın qulu bədbəxt oldu. Əgər ona bu şeylər verilsə razı qalar. Yox əgər verilməsə, narazı olar."***[1]

4. Dördüncü qisim insanlar isə Allaha ixlasla itaət edirlər. Lakin onların böyük küfr olan elə əməlləri vardır ki, bu əməlləri onları İslam dinindən çıxarır.[2]

## 4. Kiçik şirkin növlərindən dördüncüsü: Ulduzlardan yağış istəmək:

### Birinci: Ulduzlardan yağış istəmək dedikdə nə nəzərdə tutulur?

Burada məqsəd yağışın yağmasını ulduzların mənzillərinə nisbət etməkdir. Bu mənzillərin sayı iyirmi səkkizdir. Ulduz hər on üç gündən bir müəyyən bir mənzilə enir və qərb tərəfdə bir ulduz batdıqda, onun əvəzinə şərq tərəfdə çıxır. Beləcə tam bir il ərzində bütün iyirmi səkkiz mənzilə ulduz çıxmış olur. (28*13=364)[3]

Ərəblər cahiliyyə dövründə etiqad edirdilər ki, ulduz bir mənzildə batdıqda və digər mənzildə çıxdıqda yağış yağır. Onlar yağışın yağmasını ulduzların mənzillərinə nisbət edirdilər və deyirdilər ki, filan mənzilə görə bizə yağış yağdı.[4]

---

[1] Sahih Əl Buxari, Kitəbur Riqaq, "Mal fitnəsindən qorxmaq" bölümü.
[2] Bu və digər qisimlər üçün bax: Şeyx Suleyman ibn Abdullah "Təysirul Azizil Həmid" (səh. 536-538). Həmçinin, Abdurrahman ibn Həsən "Fəthul Məcidi Şərhu Kitəbit Tovhid" (səh. 540-541). Dr. İvad ibn Abdullah əl Mutiq "Badu Ənvəiş Şirkil Əsğar" (səh. 34).
[3] Bax: Siddiq Həsən Xan "Əd Dinul Xalis" (2\129). Abdurrahman ibn Həsən "Fəthul Məcidi Şərhu Kitəbit Tovhid" (səh. 452). Şeyx Suleyman ibn Abdullah "Təysirul Azizil Həmid" (səh. 451).
[4] Bax: Siddiq Həsən Xan "Əd Dinul Xalis" (2\129). Abdurrahman ibn Həsən "Fəthul Məcidi Şərhu Kitəbit Tovhid" (səh. 452). Şeyx Suleyman ibn Abdullah "Təysirul Azizil Həmid" (səh. 451).

**İkinci: Dəlilləri ilə bu növün hökmü:**

Yağışın yağmasını ulduzların mənzillərinə nisbət etmək haramdır. Buna dair dəlillər:

1. Qurandan dəlil: Uca Allah belə buyurub: **"Sizə verilən ruziyə şükür etməyi, onu yalan saymaqla yerinə yetirirsiniz?"**[1] Əli ibn Əbu Talib *(Allah ondan razı olsun)* rəvayət edir ki, Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* bu ayəni təfsir edərək belə demişdir: **"Sizə verilən ruziyə şükür etməyi, onu yalan saymaqla yerinə yetirirsiniz?"** ***Deyirsiniz ki, filan ulduza görə, filan mənzilə görə bizə yağış yağdı.***[2]

2. Sünnədən dəlil: Zeyd ibn Xalid *(Allah ondan razı olsun)* deyir ki, Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* Hudeybiyyədə gecə yağan yağışdan sonra bizə sübh namazını qıldırdı və namazı bitirdikdən sonra üzünü insanlara tutaraq belə dedi: ***"Bilirsinizmi Rəbbiniz nə dedi?" Onlar, "Allah və Onun elçisi hamıdan yaxşı bilir" – deyə cavab verdilər. O dedi ki, Uca Allah belə buyurdu: "Mənim qullarımdan bir qismi Mənə iman edərək, bir qismi isə küfr edərək sabaha çıxdı. Allahın lütfü və rəhməti sayəsində bizə yağış yağdı deyənlər Mənə iman gətirir, ulduzlara isə küfr edirlər. Amma filan, filan ulduza görə bizə yağış yağdı deyənlər isə Mənə küfr edir və ulduzlara inanırlar."***[3]

**Üçüncü: Ulduzlardan yağış istəmək nə zaman böyük şirk və nə zaman kiçik şirk olur?**

**Cavab: Bu məsələdə təfsilat vardır.**

1. Kim yağışın ulduzlar tərəfindən yaradıldığını etiqad edərək onu ulduzlara nisbət etsə və etiqad etsə ki, Allahın istəyi olmadan ulduzların özü yağışın yağmasına təsir edir, onun bu əməli böyük şirk sayılır.

2. Kim etiqad etsə ki, ulduzlar özü Allahın istəyi ilə yağışın yağmasına təsir edir və Uca Allah ulduzları yağışın yağmasına səbəb edərək belə bir adət qoyub ki, həmin ulduz çıxdıqda yağış yağır, bu, haram və kiçik şirk sayılır.

---

[1] Əl Vaqiə, 82

[2] Tirmizi "Cəmius Sahih", Təfsir kitabı, "Vaqiə surəsindən" bölümü. Hədisə hökm verərək deyib ki, "Həsən Ğarib Səhih" hədisdir. Və İmam Əhməd "Musnəd" (1\108-131).

[3] Sahih Buxari, Namazın vəsfi kitabı, "İmamın salam verdikdən sonra insanlara üz tutması" bölümü. Sahih Muslim, İman kitabı, "Ulduzların mənzilinə görə bizə yağış yağdı deyənin küfr etməsinin bəyanı" bölümü.

Şeyx Siddiq Həsən Xan *(Allah ona rəhmət etsin)* deyir ki, "Filan ulduza görə bizə yağış yağdı" deyən kəsin halı bu iki şeydən kənara çıxmır: Əgər etiqad etsə ki, yağışın yağmasına ulduzun özü təsir edir, bu, böyük şirkdir. Cahilliyə dövründəki insanların etiqadı da məhz belə idi. Bu, eyni ilə onların ölülərə və qeybdə olanlara dua edib, onların fayda verəcəyinə və zərəri dəf edəcəyinə inandıqları kimidir. Amma əgər etiqad etsə ki, yağışı yağdıran məhz Allahdır, lakin Allah belə bir adət qoyub ki, filan ulduzun düşməsi ilə yağış yağır, daha doğru görüşə görə bu haramdır."[1] Bunu etiqad etmək kiçik şirkdir.[2] Çünki bu, Allahın nemətini Allahdan başqasına nisbət etməkdir. Uca Allah heç bir ulduzun mənzilini yağışın yağması üçün səbəb etməmişdir. Əksinə, bu məhz Uca və Qüdrətli Allahın lütfü və rəhməti sayəsində baş verir. Allah istədiyi zaman yağışı yağdırır və istədiyi zaman onu saxlayır.[3]

## 5. Kiçik şirkin növlərindən beşincisi: Allahdan qeyrisinə and içmək

### Birinci: Buna dair misallar:

Bir insanın, həyatıma and olsun, peyğəmbərə and olsun, atama and olsun, Kəbəyə and olsun, filankəsin qəbrinə and olsun kimi sözlərlə and içməsi kimi.

### İkinci: Allahdan qeyrisinə and içməyin hökmü və buna dəlil:

Bu haramdır və kiçik şirkdir. Kiçik şirk dedikdə böyük şirkə nisbətdə kiçik sayılır, amma həqiqətdə bu, heç də kiçik günah deyil, əksinə, digər bütün böyük günahlardan daha böyükdür. Allahın elçisi *(Allahın ona salavatı və salamı olsun)* şirkə aparan yolların qarşısını almaq və tövhidi qorumaq üçün bundan çəkindirmişdir. Qula isə Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* əmrlərinə təslim olmaq və Ona itaət etmək vacibdir.

---

[1] Bax: Siddiq Həsən Xan "Əd Dinul Xalis" (2\129-130). Abdurrahman ibn Həsən "Fəthul Məcid Şərhu Kitəbit Tovhid" (səh.455-456). Şeyx Suleyman ibn Abdullah "Təysirul Azizil Həmid" (səh. 454-455). Şeyx İbn Useymin "Məcmus Səmin" (2\139-140).
[2] Bax: Şeyx Suleyman ibn Abdullah "Təysirul Azizil Həmid" (səh. 455).
[3] Bax: Abdurrahman ibn Həsən "Fəthul Məcidi Şərhu Kitəbit Tovhid" (səh. 459).

Allahdan qeyrisinə and içməyin haram və şirk olması barədə dəlillər çoxdur. Bu dəlillərdən bəzisi:

1. Allahın elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurub: ***"Bilin ki, həqiqətən, Allah sizə atalarınıza and içməyi qadağan etmişdir. Sizdən kim and içməli olsa, ya Allaha and içsin ya da sussun."***[1]

2. Bir kişi Abdullah ibn Ömərın *(Allah onlardan razı olsun)* yanına gəlib soruşdu ki, mən Kəbəyə and içə bilərəmmi? Abdullah ibn Ömər *(Allah onlardan razı olsun)* belə dedi: "Kəbənin Rəbbinə and iç. Əvvəllər Ömər *(Allah ondan razı olsun)* öz atasına and içərdi. Allahın elçisi *(Allahın ona salavatı və salamı olsun)* ona belə dedi: ***"Atana and içmə! Kim Allahdan qeyrisinə and içərsə, artıq şirk etmişdir.""***[2]

3. Böyük səhabələrdən olan Abdullah ibn Məsud *(Allah ondan razı olsun)* belə demişdir: "Doğru danışıb Allahdan qeyrisinə and içməkdənsə, yalan danışıb Allaha and içmək mənim üçün daha sevimlidir."[3]

**Sual:** Nə üçün Abdullah ibn Məsud *(Allah ondan razı olsun)* Allaha yalandan and içməyi, Allahdan qeyrisinə doğrudan and içməkdən üstün tutdu? Bu suala şeyx Suleyman ibn Abdullah Əli Şeyx *(Allah ona rəhmət etsin)* belə cavab verir: "Çünki Allaha and içmək tövhiddir. Allahdan qeyrisinə and içmək isə şirkdir. Hətta fərz etsək ki, bir insan doğru danışaraq Allahdan qeyrisinə and içir, tövhidin əcri düz danışmağın əcrindən daha böyükdür. Yalanın günahı isə şirkin günahından daha yüngüldür."[4]

### Üçüncü: Allahdan başqasına içilən and yerinə yetirilməlidirmi?

Alimlər icma ediblər ki, yalnız Allaha və ya Allahın ad və sifətlərinə içilən andlar yerinə yetirilir. Şeyxülislam İbn Teymiyyə (*Allah ona rəhmət etsin)* belə deyir: "Allahdan qeyrisinə and içməyə gəldikdə, mələklərə, peyğəmbərlərə, şeyxlərə, padşahlara və başqalarına and içmək qadağandır və bütün imamların

---

[1] Sahih Buxari, İman kitabı, "Atalarınıza and içməyin" bölümü.

[2] İmam Əhməd "Musnəd" əsərində rəvayət edib (2\69, 86). Əbu Davud "Sunən" əsərində "Andlar və nəzirlər" kitabı, "Atalara and içməyin məkruh olması" bölümü. Tirmizi "Əl Cəmius Sahih", "Andlar və nəzirlər" kitabı, "Allahdan başqasına and içməyin məkruh olması" bölümündə rəvayət edib və həsən olduğunu deyib. Əl Həkim "Əl Mustədrək" (1\18) əsərində rəvayət edib və Buxari və Muslimin şərtlərinə uyğun olduğunu deyib.

[3] Abdurrazzaq Əs Sanani "Musannəf" (8\469). Heysəmi "Məcməuz Zəvəid" (4\177) əsərində rəvayət etmiş və demişdir ki, hədisi Tabarani "Kəbir" əsərində rəvayət edib və ravilərin hamısı etibarlıdır.

[4] Bax: Şeyx Suleyman ibn Abdullah "Təysirul Azizil Həmid" (səh. 455) bunu Şeyxulislam ibn Teymiyyənin *(Allah ona rəhmət etsin*) kitablarından nəql etdiyini qeyd etmişdir.

ittifaqı ilə bu cür andlar yerinə yetirilmir... Kim şeyxinə, onun yatdığı torpağa, həyatına, Allah üzərində olan haqqına, padşahlara, rəhbər nemətinə, qılınca, Kəbəyə, atasına, atasının yatdığı torpağa (qəbirinə) və ya buna bənzər şeylərə and içərsə, onun etdiyi bu əməl qadağandır və bu cür andlar müsəlmanların ittifaqı ilə yerinə yetirilmir."[1] Şeyx Muhəmməd Əmin Əş Şinqiti *(Allah ona rəhmət etsin)* belə deyir: "Bil ki, ancaq Allahın ad və sifətlərinə içilən andlar yerinə yetirilir. Heç bir kəsin hər hansı bir məxluqa and içməsi icazəli deyil."[2]

**Dördüncü: Allahdan qeyrisinə and içmək nə zaman böyük şirkə çevrilir?**

Allahdan qeyrisinə and içən and içdiyi məxluqu qəlbində Uca Allahı təzim etdiyi kimi əzəmətləşdirərsə, bu zaman onun Allahdan qeyrisinə and içməsi böyük şirk olur.[3] Daimi elmi araşdırmalar və fətvalar mərkəzinin fətvasında da bildirilir ki, əgər Allahdan qeyrisinə and içən kəs and içdiyi məxluqu qəlbində Allahı təzim etdiyi kimi əzəmətləşdirərsə, bu əməl böyük şirk sayılır. Əgər o cahil olarsa, öyrədilməlidir. Bildikdən sonra da bu əməlinə davam edərsə, əvvəldən bilən və sonradan öyrənən insan arasında heç bir fərq yoxdur, onların hər ikisi böyük şirk edən müşrik sayılır."[4]

## 6. Kiçik şirkin növlərindən altıncısı: "Mə şə Allahu və şitə" ("bunu Allah və sən istədin"), "Allah və sən olmasaydın" kimi sözlər

### Giriş

Bir şəxsin "Mə şə Allahu və şitə (tərc: Bunu Allah və sən istədin")", "Allah və sən olmasaydın", "Mənim üçün Allah və sən varsan", "Mən Allaha və sənə təvəkkül etmişəm", "Mənə Allah və sən yetərsən" və bu kimi insanların dillərində dolaşan və Allahla məxluqları bərabərləşdirən sözlər ifadə etməsi, sözlərdə olan şirkə daxildir.

---

[1] Şeyxulislam İbn Teymiyyə "Məcmuul Fətəvə" (11\506).
[2] Şeyx Əş Şinqiti "Ədvəul Bəyən" (2\123).
[3] Bax: İbn Əl Qeyyim "Əl Cəvəbul Kəfi" (səh. 235-236).
[4] Bax "Daimi Elmi Araşdırmalar Mərkəzi" (1\224).

**Birinci: Dəlilləri ilə bu növün hökmü:**

Bu cür sözləri istifadə etmək və dilə gətirməkdə səhlənkarlıq etmək icazəli deyil. Çünki bu, kiçik şirkin növlərindən biridir. Burada istifadə edilən "və" bağlayıcısı iki tərəfin bərabər olmasına dəlalət edir. Məsələn sən "Əhməd və Əli gəldi" dedikdə "və" bağlayıcısı ilə onların ikisini bir hökmdə, yəni "gəlmək" felində bərabər tutursan. Çünki "və" bağlayıcısı mütləq olaraq cəm etməyə dəlalət edir və nə tərtib, nə də ardıcıllıq bildirmir. Buna görə də Allahla hər hansı bir məxluq arasında bu bağlayıcını istifadə etmək olmaz, çünki bu, Xaliqlə məxluqu bərabər tutmaqdır. Məlumdur ki, Allahla hər hansı bir məxluqu bərabər tutmaq şirkdir. Uca Allah bildirib ki, müşriklərin azmasının səbəblərindən biri də onların məxluqları Allaha bərabər tutmaları olmuşdur. Həmçinin Uca Allah onların Cəhənnəmdə dediyi sözləri barədə xəbər verərək belə buyurur: **"Onlar orada höcətləşərək deyərlər: "Allaha and olsun ki, biz açıq-aydın azğınlıq içində idik, o vaxt ki biz sizi aləmlərin Rəbbinə tay tuturduq".**[1]

Bu növün şirk olmasına və haramlığına dəlillər çoxdur.

1. Uca və Qüdrətli Allah belə buyurub: **"Siz də bunu bildiyiniz halda, heç kəsi Allaha tay tutmayın".**[2] Abdullah ibn Abbas *(Allah onlardan razı olsun)* bu ayəni təfsir edərək belə deyir: "Bu ayədə "Tay tutmaq" şirkdir. Şirk isə gecənin zülmət qaranlığında qara daşın üstündə yeriyən qarışqanın ayaq izindən də gizlidir. Məsələn: bir şəxsin "Allaha və sənin həyatına and olsun, ey filankəs" yaxud "Həyatıma and olsun" deməsi kimi. Yaxud "Əgər həyətdə it olmasaydı, evə oğru girərdi" yaxud "Əgər evdə pişik olmasaydı, oğru evə girərdi" sözləri kimi. Həmçinin "bunu Allah və sən istədin" və ya "Allah və filankəs olmasaydı" kimi sözlər də şirk sayılır."[3]

2. Abdullah ibn Abbas *(Allah onların hər ikisindən razı olsun)* rəvayət edir ki, bir kişi, "Mə şə Allahu və şitə (bunu Allah və sən istədin)"deyə Peyğəmbərə *(Allahın*

---

[1] Əş Şüara, 96-98

[2] Əl Bəqərə, 22

[3] İbn əbi Hətim İbn Abbasdan "ceyyid" isnadla rəvayət edib. Bax: Əş Şovkəni "Fəthul Qadir" (1\52). Şeyx Suleyman ibn Abdullah "Təysirul Azizil Həmid" (səh. 587).

*ona salavatı və salamı olsun)* xitab etdi. Allahın elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə dedi: ***"Məni Allaha tay tutdun?! Əksinə, "Tək Allah istədi" de!"***[1]

3. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurub: ***"Əgər sizdən biriniz and içərsə, "Bunu Allah və sən istədin" deməsin. Əksinə, desin ki, "Allah, sonra sən istədin""***[2]

4. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurub: ***"Mə şə Allahu və fulən (Bunu Allah və filankəs istədi)" deməyin. "Mə şə Allahu summə şəə fulan (Allah istədi, sonra filankəs istədi)" deyin.***[3] Məşhur İslam alimi İbn Əl Qeyyim *(Allah ona rəhmət etsin)* bu hədisi izah edərək deyir ki, Uca Allah qulun da istəyinin olduğunu təsdiq edərək belə buyurub: **"Sizlərdən doğru yolda olmaq istəyənlər üçündür".**[4] Buna baxmayaraq, Peyğəmbər (*sallallahu aleyhi və səlləm*) Allahın istəyi ilə qulun istəyini yanaşı gətirməyi qadağan etdi. Belə olan halda, görün "Mən Allaha və sənə təvəkkül etdim", "Mənə Allah və sən yetərsən", "Mənim üçün Allah və səndən başqası yoxdur", "Bu Allahdan və səndəndir", "Bu Allahın və sənin bərəkətin sayəsindədir", "Mənim üçün səmada Allah, yerdə sənsən" kimi sözlər necə? Əgər bu sözləri "bunu Allah və sən istədin" sözü ilə müqayisə etsən, hansının daha pis olduğunu görərsən və sənə aydın olar ki, Peyğəmbərin *(Allahın ona salavatı və salamı olsun)* sözü bunların hamısını əhatə edir. Əgər Peyğəmbərə xitabən "bunu Allah və sən istədin" deyən kəs bu sözü ilə onu Allaha tay tutmuş sayılırsa, Allah elçisinə *(Allahın onasalavatı və salamı olsun)* tay olmayan kəsləri Allaha tay tutmaq necə? Bəzən də bu sözlər Peyğəmbərə düşmən olan, özünü Allaha tay tutan kəslərə deyilir."[5]

## İkinci: Bu şirkdən necə qorunmaq olar?

Bu şirkdən qorunmağın və ona düşməməyin ən gözəl yolu Peyğəmbərin *(Allahın ona salavatı və salamı olsun)* bizə öyrətdiyi kimi, "bunu Allah və sən istədin" sözündə olan "və" bağlayıcısını "sonra" sözü ilə əvəz etməkdir. Çünki

---

[1] İmam Əhməd "Musnəd" (1\214). Əhməd Şəkir *(Allah ona rəhmət etsin)* (3\254) isnadının səhih olduğunu demişdir.
[2] İbn Məcə "Sunən", Kəffarələr kitabı, ""Allah və sən istəsən" deməyin qadağan olması" bölümü. Şeyx Albani *(Allah ona rəhmət etsin)* "Sahih Sunən İbn Məcə" (1\362) də səhih olduğunu demişdir.
[3] İmam Əhməd "Musnəd" (5\384, 394, 398). Əbu Davud "Sunən Əbi Davud", Ədəb Kitabı. Şeyx Albani "Sahihu Sunən Əbi Davud" (3\940).
[4] Ət Təkvir, 28
[5] İbn əl Qeyyim "Əl Cəvəbul Kəfi" (səh. 239-240). Siddiq Həsən Xan "Əd Dinul Xalis" (1\312).

"və" bağlayıcısını istifadə etdikdə, Xaliq ilə məxluqu bərabər tutmuş olursan. Bu səbəbdən onu tərtib və ardıcıllıq bildirən "sonra" sözü ilə əvəz etməliyik. "Bunu Allah, sonra sən istədin" dedikdə, Uca və Qüdrətli Allahın istəyinin məxluqun istəyindən öncə və üstün olduğunu bildiririk və Xaliqin istəyi ilə məxluqun istəyi arasında fərq qoymuş oluruq.

Həmçinin baş verən hadisələrdə də belədir. Baş verən hadisəni ilk öncə Allaha, daha sonra məxluqa nisbət etməliyik. Məsələn: "Filankəs olmasaydı, belə olardı" deməyin əvəzinə, "Allahın yardımı, sonra filankəs olmasaydı belə olardı"deməliyik. Burada da etiqad etməliyik ki, səbəblər özü özlüyündə müstəqil şəkildə təsir etmir. Səbəblərin təsir etməsi Uca Allahın qüdrəti və istəyi ilə olur."[1]

## 7. Kiçik şirkin növlərindən yeddincisi: Şirk olan Ruqyə (Ovsun).

### Birinci: Ruqyənin tərifi:

Ruqyə lüğəvi cəhətdən ovsuna deyilir. El arasında qızdırma və epilepsiya kimi xəstəliklər üz verdikdə, həmçinin zəhərli heyvanlar sancdıqda şəfa tapması ümidi ilə xəstə üçün oxunan şeyə ruqyə deyilir.[2]

Ruqyənin lüğəvi mənası heç də şəri mənasından uzaq deyil. Şəriətdə ruqyə, Quran ayələrini, şəriətdə gələn duaları və ya başqa təcrübədən keçən icazəli duaları xəstə üçün oxumaqla onu müalicə etməkdir.[3]

### İkinci: Ruqyənin iki növü

Ruqyənin iki növü var: Şəri ruqyə və bidət olan ruqyə (ikinciyə şirk olan ovsun da daxildir). Aşağıdakı iki məqamda bunları izah edəcəyik:

---

[1] Bax: Əl Mutiqin "Badu Ənvəiş Şirkil Əsğar" (səh. 50).

[2] Bax: Ali ibn İsmail ibn Sədəh "əl Mukəmu vəl Muhitul Azam" (6\309). İbn Munzir "Lisənul Arab" (13\332). Əz Zəbəydi "Təcul Arusi" (10\154).

[3] Bax: Şeyxulislam İbn Teymiyyə "Məcmuul Fətəvə" (1\182, 328, ... 10\195).

**Birinci məqam: Şəri ruqyə (ovsun).**

Alimlər icma ediblər ki, əgər ruqyənin məlum şərtləri yerinə yetirilərsə, o zaman ruqyə şəriətlə icazəli sayılır.

**Şəri ruqyənin şərtləri:** Hafiz ibn Həcər *(Allah ona rəhmət etsin)* belə deyir: "Alimlər icma ediblər ki, əgər bu üç şərt cəm olarsa, o zaman ruqyə icazəlidir:

1. Uca Allahın kəlamı, adları və sifətləri ilə olmalıdır.
2. Ərəb dilində və ya mənası başa düşülən başqa dildə olmalıdır.
3. Etiqad edilməlidir ki, ruqyə özü-özlüyündə təsir etmir. Məhz Allahın izni ilə təsir edir."[1]

Deməli şəri ruqyədə mütləq bu şərtlər cəm olmalıdır:

1. Ya Allahın kəlamı ilə, ya Allahın ad və sifətləri ilə, ya da şəriətdə varid olan və ya mübah olan dualarla olmalıdır.
2. Ərəb dilində və ya mənası bilinən hər hansı başqa bir dildə olmalıdır.
3. Doğru əqidə üzərində olmalıdır. İnsan etiqad etməlidir ki, şəfa verən, fayda və zərər verən ancaq Uca və Qüdrətli Allahdır. Ruqyənin özü-özlüyündə şəfa verdiyini etiqad etməli deyil. Bu cür etiqad etmək böyük şirkdir. Əgər şəfanı məhz ruqyəyə bağlasa və etiqad etsə ki, ruqyəsiz şəfa hasil olmur, bu kiçik şirkdir.

**Şəri ruqyəyə dair bəzi dəlillər.** Az öncə qeyd edilən şərtlər daxilində şəri ruqyənin icazəli olmasına dair dəlillər çoxdur. Bu səbəbdən mən onları mövzulara ayıraraq hər dəlili öz mövzusu ilə gətirmişəm və hər mövzuya aid bir və ya iki misal çəkməklə kifayətlənmişəm.

1. **Bir dəstə səhabə öz ruqyələrini Allah elçisinə *(Allahın ona salavatı və salamı olsun)* ərz etdikdə onlarla razılaşması.** Auf ibn Məlik Əl Əşcəi *(Allah ondan razı olsun)* belə deyir: ***"Biz cahiliyyə dönəmində ruqyə edərdik. Bir dəfə dedik ki, ey Allahın elçisi, bu barədə fikrin nədir? O dedi: "Öz ruqyənizi mənə təqdim edin. Əgər onda şirk yoxdursa, ruqyə etməkdə bir problem yoxdur."***[2]

Cəbir ibn Abdullah *(Allah onlardan razı olsun)* belə deyir: ***"Allah elçisi (Allahın ona salavatı və salamı olsun) ruqyə etməyi qadağan etdi. Amr ibn Həzm ailəsi Allah elçisinin (Allahın ona salavatı və salamı olsun) yanına gələrək belə dedi:***

---

[1] İbn Həcər "Fəthul Bəri" (10\166). Həmçinin bax: Dr. Fəhd əs Suheymi "Əhkəmur Ruqa vət Təməim"səh. (36-41).

[2] Sahih Muslim, Salam kitabı, "Şirk olmadığı müddətcə, ruqyə etməkdə qəbahət yoxdur" bölümü.

***"Ey Allahın elçisi! Əqrəb sancdığı zamanı biz bildiyimiz bəzi şeylərlə ruqyə edirdik, sən isə ruqyə etməyi qadağan etdin. Cəbir ibn Abdullah deyir ki, onlar öz ruqiyyələrini Allahın elçisinə (Allahın ona salavatı və salamı olsun) təqdim etdilər. O, belə dedi: "Mən bunda bir qəbahət görmürəm. Sizdən kim qardaşına fayda verə bilirsə, qoy bunu etsin."***[1]

**2. Allah elçisinin** *(Allahın ona salavatı və salamı olsun)* **ruqyə edən bir dəstə səhabənin əməlini təsdiq etməsi.** Bir dəstə səhabə yol gedərkən ərəb qəbilələrindən birinin yanında dayandılar. Həmin qəbilənin başçısını əqrəb sancdı və səhabələrdən biri Fatihə surəsini oxuyaraq onu ruqyə etdi, bunun qarşılığında da onlardan bir neçə qoyun aldı. Peyğəmbər *(Allahın ona salavatı və salamı olsun)* ona belə dedi: ***"Sən haradan bilirdin ki, o ruqyədir? Siz doğru etmisiniz. Qoyunları aranızda bölün və mənə də ondan bir pay ayırın".***[2]

**3. Allah elçisinin** *(Allahın ona salavatı və salamı olsun)* **özünə ruqyə etməsi.** Aişə *(Allah ondan razı olsun)* belə deyir: ***"Allah elçisi (Allahın ona salavatı və salamı olsun) vəfat etməzdən əvvəl xəstələndiyi zaman, İxlas, Fələq və Nəs surələrini özü üçün oxuyardı. Xəstəliyi ağırlaşdığı zaman isə onları mən oxuyardım və mübarək olduğu üçün onun öz əlinə üfürüb ona sürtərdim."***[3]

**4. Peyğəmbərin** *(Allahın ona salavatı və salamı olsun)* **başqasına ruqyə etməsi.** Aişə *(Allah ondan razı olsun)* belə deyir: ***"Allahın elçisi (Allahın ona salavatı və salamı olsun) bəzi ailə üzvlərinə ruqyə edirdi. Sağ əlini ona sürtərək "Allahım, Ey insanların Rəbbi! Bu xəstəliyi apar! Sən Şəfa verənsən, şəfa ver! Sənin şəfandan başqa şəfa yoxdur! Ona elə şəfa ver ki, ondan sonra heç bir xəstəlik qalmasın!"***[4]

Həmçinin Aişə *(Allah ondan razı olsun)* deyir ki, Allahın elçisi *(Allahın ona salavatı və salamı olsun)* barmağını ağız suyu ilə isladıb onu torpağa vurar sonra onu xəstənin ağrıyan yerinin və ya yarasının ətrafına sürtüb belə deyərdi:

---

[1] Sahih Muslim, Salam kitabı, "Gözdəymə, qızdırma və eqzema zamanı ruqyə etməyin müstəhəb olması" bölümü
[2] Sahih əl Buxari, İcarə kitabı, "Ruqyəyə görə verilənlər" bölümü və Tibb kitabı, "Fatihə ilə ruqyə etmək" bölümü, və "Ruqyə zamanı üfürmək" bölümü.
[3] Sahih əl Buxari, Tibb kitabı, "Quranla və İxlas, Fələq, Nəs surələri ilə ruqyə etmək" bölümü, "Ruqyə zamanı üfürmək" bölümü, "Qadının kişini ruqyə etməsi" bölümü.
[4] Sahih əl Buxari, Tibb kitabı, "Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* ruqyəsi" bölümü. "Ruqyə edənin sağ əlini ağrı olan yerə sürtməsi" bölümü.

***“Allahın adı ilə, torpağımız və bəzilərimizin ağız suyu ilə xəstələrimiz şəfa tapır, Rəbbimizin izni ilə.”***[1] [2]

**5. Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* başqasına ruqyə etməyi buyurması.** Ummu Sələmə *(Allah ondan razı olsun)* rəvayət edir ki, Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* Ummu Sələmənin evində üzündə ləkə olan bir cariyəni gördü və belə dedi: ***“Onu ruqyə edin, çünki ona nəzər dəyib.”***[3]

Şeyxulislam İbn Teymiyyə *(Allah ona rəhmət etsin)* Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* ruqyə etməsi barədə belə deyir: “Allahın elçisi *(Allahın ona salavatı və salamı olsun)* həm özünü, həm də başqasını ruqyə edib. Amma heç kimdən özünü ruqyə etməyi tələb etməyib.”[4]

**Qeyd:** Nə Allahın kitabı, nə də Peyğəmbərin *(Allahın ona salavatı və salamı olsun)* sünnəsində olan ruqyə ilə müalicə olunmaq təvəkkülə zidd deyil. Çünki Uca Allah Öz elçisinin *(Allahın ona salavatı və salamı olsun)* vasitəsilə ruqyəni bir çox xoşagəlməz şeyləri dəf etmək üçün səbəb etmişdir. Peyğəmbərdən *(Allahın ona salavatı və salamı olsun)* ruqyə ilə bağlı çoxsaylı hədislər varid olub ki, o həm özünü, həm də başqasını ruqyə edib, həmçinin ruqyə etməyi əmr edib və ruqyə edən səhabələrin bu əməlini təsdiq edib.[5] Ruqyə etmək şəriətdə icazəlidir. Əgər ruqyə ilə yanaşı xəstənin niyyəti doğru və müalicə edənin Allaha yönəlməsi güclü olarsa, həmçinin qəlbdə Allah qorxusu və Allaha təvəkkül güclü olarsa, o zaman ruqyə Allahın izni ilə xəstəliyin aradan qalxması üçün faydalı səbəblərdən sayılır.[6]

### İkinci məqam: Bidət olan ruqyə (ovsun):

Buna şirk olan ruqyə də daxildir. Çünki bidətlərin içində şirk olanı da var.

Özündə şirk ehtiva edən bütün ruqyələr şirk olan ruqyəyə aiddir. Günəşə, aya, mələklərə, cinlərə və s. məxluqlara and içmək kimi. Həmçinin yalnız Allahın qadir olduğu bir şeyi məxluqdan istəmək və ya Allahdan başqasına sığınmaq

---

[1] Sahih əl Buxari, Tibb kitabı, “Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* ruqyəsi” bölümü, “Ruqyə edənin sağ əlini ağrı olan yerə sürtməsi” bölümü.

[2] Tərc: Bismilləh deyib barmağına ağız suyunu vurardı, sonra yaş barmağını torpağa vurub ağrayan yerin üzərinə qoyardı.

[3] Sahih əl Buxari, Tibb kitabı, “Gözdəyməyə görə ruqyə etmək” bölümü.

[4] Şeyxulislam ibn Teymiyyə “Məcmuul Fətəvə” (1\328).

[5] Dr. Ali əl Alyəni “Ər Ruqa alə Dəvi Aqidəti əhlis Sunnəti vəl Cəməəh” (səh. 33).

[6] Bax: İbn əl Qeyyim “əl Cəvəbul Kəfi” (səh. 35) və İbn Həcər “Fəthul Bəri” (10\100).

kimi əməllərin hamısı şirkdir. Allaha və Axirət gününə iman gətirən kəs belə ruqyəni etməz.[1]

**Ruqyə edildiyi zaman şəri ruqyənin şərtlərindən biri pozularsa, həmin ruqyə bidət olan ruqyə qisimlərinə daxil olur.[2] Bunlardan:**

1. Sehrlə olan ruqyə. Çünki Uca Allah sehri haram edib, onun küfr olduğunu bəyan edib və sehirbazın heç vaxt nicat tapmayacağını bildirib. Uca Allah buyurub: **"Onlar Süleymanın səltənətində şeytanların oxuduqlarının ardınca getdilər. Süleyman kafir olmadı. Lakin şeytanlar sehri və Babildə Harut və Marut adlı iki mələyə nazil olanı insanlara öyrədərək kafir oldular. Mələklər: "Biz ancaq bir sınağıq, sən gəl kafir olma!"– deməmiş onu heç kəsə öyrətmirdilər. Yəhudilər ərlə arvadı bir-birindən ayıracaq işləri onlardan öyrənirdilər. Lakin onlar Allahın izni olmadan heç kəsə zərər verə bilməzlər. Onlar özlərinə zərər verən, faydası olmayan şeyləri öyrənirdilər. Onlar bilirdilər ki, onu əldə edən kimsə üçün axirətdə heç bir pay yoxdur. Nəfslərinin əvəzində satın aldıqları şey necə də pisdir! Kaş bunu biləydilər!"[3]**

2. Mənası bilinməyən və başa düşülməyən ibarələrlə edilən ruqyə. Çünki mənası başa düşülməyən və mənşəyi bilinməyən ibarələrdə ola bilsin ki, şirk sözlər də olsun. Ona görə şirkə düşməmək üçün bu cür ruqyəni icra etmək icazəli deyil.[4]

3. Söyüş, təhqir və lənət etmək kimi haram sözlərlə edilən ruqyə. Uca Allah Muhəmməd *(Allahın ona salavatı və salamı olsun)* ümməti üçün şəfanı haram etdiyi şeylərdə qoymayıb. Peyğəmbər *(Allahın ona salavatı və salamı olsun)* belə deyib: ***"Həqiqətən də, Allah xəstəliyi də, dərmanı da endirmişdir və hər bir xəstəlik üçün dərman yaratmışdır. Bu səbəbdən də müalicə olunun, amma haramla müalicə olunmayın."***[5] Həmçinin Allahın elçisi *(Allahın ona salavatı və salamı olsun)* pis dərmanları da qadağan etmişdir.[6]

---

[1] Dr. Ali əl Alyəni "Ər Ruqa alə Dəvi Aqidəti əhlis Sunnəti vəl Cəməəh" (səh. 59-61).
[2] Dr. Ali əl Alyəni "Ər Ruqa alə Dəvi Aqidəti əhlis Sunnəti vəl Cəməəh" (səh. 59-73).
[3] Əl Bəqərə, 102
[4] Bax: Abdurrahman ibn Həsən "Fəthul Məcidi Şərhu Kitəbit Tovhid" (səh. 168-169). Şeyx Suleyman ibn Abdullah "Təysirul Azizil Həmid" (səh. 166-167).
[5] "Sunən əbi Davud", Tibb kitabı, "Haram olan dərmanlar" bölümü.
[6] İmam Əhməd "Musnəd" (2\305). "Sunən əbi Davud", Tibb kitabı, "Haram olan dərmanlar" bölümü. "Cəmiut Tirmizi", Tibb kitabı, "Özünü zəhər və buna bənzər əşyalarla öldürən kəs" bölümü. "Sunən ibn Məcə", Tibb kitabı, "Pis dərmanların qadağan olunması" bölümü. Şeyx Albani səhih olduğunu deyib. Bax: "Sahih sunən əbi Davud" (2\733) və "Sahih sunən ibn Məcə" (2\255).

4. Haram vəziyyətdə edilən ruqyə. Məsələn, insanın qəsdən cənabətli halda yaxud qəbirstanlıqda, ayaqyolunda, yaxud övrət yerləri açıq halda yaxud buna bənzər başqa hallarda ruqyə etməsi kimi.

5. Həmçinin həm ruqyə edən, həm də ruqyə edilən kəs elə zənn etməməlidir ki, ruqyə özü-özlüyündə şəfa verir və ya zərəri dəf edir. Əgər insan ruqyənin özü-özlüyündə təsir etdiyini etiqad edərsə, bu, böyük şirk olar. Çünki şəfa verən yalnız Uca və Qüdrətli Allahdır.

## 8. Kiçik şirkin növlərindən səkkizincisi: Təmimə (gözmuncuğu)[1]

### Birinci: Tərifi

Təmimə – muncuqlardan ibarət olan bir şeydir. Ərəblər qədimdə onu övladlarının boynundan asırdılar və iddia edirdilər ki, bu onları gözdəymədən qoruyur. Həmçinin təmimə üstündə dua və zikrlər yazılan dəri və ya kağız parçasına da deyilir. Bəzi insanlar şəri dəf etmək və ya şəfa tapmaq məqsədilə onu xəstələrin üstündən asırlar.[2]

### Bu tərifdən görürük ki, gözmuncuğunu iki məqsədlə istifadə edirdilər:

1. Ehtilmal olunan bir şəri, xəstəliyi və ya gözdəyməni baş verməzdən əvvəl dəf etmək üçün. (Uşaqların və atların boynunda, həmçinin evlərdə və maşınlarda asılan gözmuncuğu, həmail, nal və s. buna aiddir)

2. Artıq baş vermiş bir şəri uzaqlaşdırmaq üçün. (Xəstələrin üzərindən asılan həmail, gözmuncuğu və s. buna aiddir)

### İkinci: Gözmuncuğu asmağın hökmü:

Gözmuncuğu ümumilikdə səbəblər şirkinə daxildir. Bu da bəzən böyük, bəzən də kiçik şirk ola bilər. Bunun üçün gözmuncuğu asan kəsin, həmçinin boynunda

---

[1] (Tərc: Təmimə dedikdə təkcə gözmuncuğu deyil, xeyir əldə etmək və ya zərəri dəf etmək üçün muncuq, tilsim, amulet, qolbaq, ruzi duası, ağıl duası, ayələr yazılmış üçkünc dəri parçası, çaynik lüləsi, üzərlik, tikan, buynuz, nal, şəxslərin şəklini və s. asmaq da buna daxildir. Bunu etmək şirk və haramdır)

[2] İbn Həcər "Fəthul Bəri" (10\196). İbn əl Manzur "Lisənul Arab" (12\69-70).

həmail gəzdirən kəsin halına baxmaq lazımdır. Şeyx Abdulaziz ibn Abdullah ibn Bəz *(Allah ona rəhmət etsin)* gözmuncuğu haqqında belə deyir: "Əgər həmail asan kəs etiqad etsə ki, Allahın izni və istəyi olmadan həmail onu qoruyur və ya onda olan xəstəliyə şəfa verir və ya zərəri aradan qaldırır, o zaman bu böyük şirk olur."[1]

Həmçinin Şeyx *(Allah ona rəhmət etsin)* başqa yerdə belə deyir: "Doğru olan odur ki, gözmuncuğu asmaq dinə istehza etmək deyil. Əksinə, o, kiçik şirkdir və cahiliyyə dövründəki insanlara bənzəməkdir. Əgər gözmuncuğu asan kəs onun Allahın izni ilə deyil, özü-özlüyündə fayda və zərər verməyə qadir olduğunu və buna bənzər şeyləri etiqad edərsə, o zaman böyük şirk etmiş olur. Amma etiqad etsə ki, gözmuncuğu gözdəymədən, cindən və buna bənzər şeylərdən salamat qalmaq üçün bir səbəbdir, o zaman kiçik şirk etmiş olur. Çünki Uca Allah onu bu şeylərdən qorunmaq üçün səbəb etməyib. Əksinə, Uca Allah bundan çəkindirib və Elçisinin *(Allahın ona salavatı və salamı olsun)* dili ilə onun şirk olduğunu bildirib. Gözmuncuğu asan insan yalnız qəlbini o gözmuncuğuya bağladığı üçün və qəlbi ilə ona yönəldiyi üçün onu asır."[2]

Əgər gözmuncuğu asan kəs etiqad etsə ki, o baş verən və ya gözlənilən şərdən salamat qalmaq üçün bir səbəbdir, bu kiçik şirkdir.

Amma etiqad etsə ki, gözmuncuğu Allahın izni və istəyi olmadan özü-özlüyündə zərər və fayda verməyə qadirdir, bu böyük şirkdir.

### Üçüncü: Təmimənin iki növü:

Təmimə iki növdür: haram olan və haram olmasında ixtilaf edilən.

### Birinci: Haram olan təmimə (gözmuncuğu, həmail və s.)

Əgər təmimədə aşağıda qeyd edilən şeylər (onlardan hər hansı biri) varsa, həmin təmimə haram sayılır:

1. Əgər Qurandan və ya Sünnədən olmazsa, əksinə, yəhudilərin, müşriklərin və ya cindarların istifadə etdiyi tilsimlərdən olarsa.

[1] "Məcmuul Fətəvə İbn Bəz" (2\384).

[2] Şeyx bu sözləri, Şeyx Həmid əl Fiqiyinin "Fəthul Məcidə" etdiyi qeydlərinə fikir bildirərkən deyib. (133 nömrəli haşiyə)

2. Əgər muncuqlardan, iplərdən və ya bilərzik kimi dəmir halqalardan və s. ibarət olarsa. Şübhəsiz, bunları taxmaq haramdır, çünki bunlar icazəli səbəblərdən və ya hamının bildiyi məlum dərmanlardan deyil.[1]

3. Əgər onda Allahdan başqasından kömək istəmək kimi hər hansı bir şirk növü olarsa.

4. Əgər təmiməni asan və ya üstündə gəzdirən kəs onun özü-özlüyündə fayda verəcəyinə və ya gözmuncuğunu çıxardığı təqdirdə xəstəliyin getməyəcəyinə, əksinə, onda qalacağına etiqad edərsə, bunların hamısı haram təmiməyə daxildir.[2]

## Haram olan təmiməyə dair dəlillər:

Yuxarıda sadalanan şeylərdən hər hansı birini ehtiva edən təmimənin haram olmasına dair Quran və Sünnədə çoxlu dəlillər var:

1. Uca və Qüdrətli Allah buyurur: **"Əgər sən onlardan: "Göyləri və yeri kim yaratmışdır?"– deyə soruşsan, onlar mütləq: "Allah!"– deyəcəklər. De: "Bir deyin görək, əgər Allah mənə bir zərər toxundurmaq istəsə, sizin Allahdan başqa ibadət etdikləriniz Onun zərərini aradan qaldıra bilərlərmi? Ya da O mənə bir mərhəmət göstərmək istəsə, onlar Onun mərhəmətinin qarşısını ala bilərlərmi?" De: "Mənə Allah yetər. Təvəkkül edənlər yalnız Ona təvəkkül edirlər!"**[3]

2. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə deyib: ***"Kim gözmuncuğu asarsa, artıq Allaha şərik qoşmuşdur"***[4]

3. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə deyib: ***"Həqiqətən, ovsun, təmimə və tivələ***[5] ***şirkdir."***[6]

---

[1] Bax: Şeyx Suleyman ibn Abdullah "Təysirul Azizil Həmid" (səh. 152, 154, 156-162).

[2] Bax: Şeyx Hafiz Əl Həkəmi "Məaricul Qabul" (1\384). Dr. Ali əl Alyəninin "ət Təməimu fi Mizənil Aqidəh" (səh. 33).

[3] Əz Zumər, 38

[4] İmam Əhməd "Musnəd" (4\156). Həkim "Mustədrək" (4\219). Heysəminin dediyi kimi İmam Əhmədin raviləri siqadır. Bax: "Məcmuuz Zəvəid" (5\103). Şeyx Albani hədisi səhihləşdirmişdir "Silsilətus Sahihəh" (392).

[5] "Tivələ" Ərinin sevgisini cəlb etmək üçün qadının etdiyi bir sehr növüdür. Həmçinin deyiblər ki, kiminsə məhəbbətinə nail olmaq məqsədi ilə sehr oxunmuş ip və ya sehr yazılmış kağız parçasıdır. "Əd Dinul Xalis" (2\238)

[6] İmam Əhməd "Musnəd" (1\381). Həkim"Mustədrək" (4\217). Əbu Davud və İbn Məcə hər ikisi "Sunən" əsərində "Tibb kitabında" "Gözmuncuğu bağlamaq" bölümündə rəvayət ediblər. Şeyx Albani səhih olduğunu deyib "Silsilətus Sahihəh" (331).

4. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə deyib: ***"Kim (qorunmaq üçün) bir şey asarsa, onun öhtəsinə buraxılar".***[1]

## İkinci növ: Haram olmasında ixtilaf edilən təmimə.

Bu da aşağıdakı şərtləri özündə cəm edən təmimədir:[2]

1. Quran ayələrindən və ya səhih dualardan ibarət olması.
2. Ərəb dilində və ya mənası başa düşülən hər hansı başqa bir dildə olması.
3. Tilsimdən və şirkdən uzaq olması.
4. Təmiməni asan və ya boynunda gəzdirən kəsin doğru əqidəsi üzərində olması, yəni Allahdan başqasının fayda verəcəyini və ya zərəri dəf edəcəyini etiqad etməməsi.

## Bu növ təmimənin hökmü:

Alimlər bu növ təmimənin hökmündə ixtilaf ediblər. Bəziləri bu növün icazəli olduğunu desələr də, digər alimlər haram olduğunu bildiriblər. İmam Əhməd deyir ki: "Asılan şeylərə gəlincə, onların hamısı qadağandır. Amma ruqyəyə gəlincə, əgər Qurandan olarsa, bunda heç bir qəbahət yoxdur."[3]

## Bu növ təmimənin haram olduğunu deyən alimlərin gətirdiyi dəlillər:[4]

1. Heç bir istisna olmadan təmiməni qadağan edən ümumi dəlillər. Təmimə asmağı qadağan edən dəlillər təfsilatsız olaraq gəlmişdir. Əgər onu asmaq icazəli olsaydı, Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* ruqyəni insanlara bəyan etdiyi kimi, bunu da bəyan edərdi. O, ruqyə barədə belə demişdir: ***"Əgər onda şirk yoxdursa, ruqyə etməkdə bir qəbahət yoxdur."***[5]

2. İxtilaflı olan təmimənin icazəli olduğunu demək bəzən ittifaqla sünnə olan ruqyəni aradan qaldırır.

---

[1] İmam Əhməd "Musnəd" (4\310-311). Ət Tirmizi "əl Cəmius Sahih" Tibb kitabı, Şeyx Albani həsən olduğunu deyib "Səhih Sunən Ət Tirmizi" (2\208).
[2] Bax: Dr. Fəhd ibn Əs Suheymi "Əhkəmur Ruqa vət Təməim" (səh. 243, 253).
[3] "Məsəilul İməm Əhməd birivəyətil Kəvsəc" (2\169).
[4] Bax: Dr. Ali Alyəninin "Ət Təməimu fi Mizənil Aqidəh" (səh.46-50).
[5] Sahih Muslim, Salam kitabı, "Əgər onda şirk olmazsa, ruqyə etməkdə problem yoxdur" bölümü.

3. Təmimə asmaq icazəli və haram arasında tərəddüd olunan rəydir. Belə olan halda şübhələrdən qaçmaq və fəsada aparan qapını bağlamaq üçün bundan çəkinmək daha yaxşıdır.

4. Təmimə asmaq şirkə aparan yollardandır. Çünki onu asan şəxs etiqad edir ki, əgər bu təmimə olmasa, onun başına hər hansı bir iş gələ bilər. Beləcə insanın qəlbi bu təmiməyə bağlanır və onun özü-özlüyündə təsir göstərdiyini etiqad etməyə aparıb çıxarır. Bu da şirkdir. Şirkə aparan yolları bağlamaq isə vacibdir. Fəsadı dəf etmək, xeyir əldə etməkdən öndədir.[1]

5. Bu növ təmimə bəzən o yerə aparıb çıxarır ki, Quranın mənasını və dəyərini bilməyən və ona hörmət etməyən insanlar belə içində Quran ayələri və zikrlər olan duaları boyunda gəzdirirlər. Bəzən Quran ayələrinə qarşı hörmətsizlik edilir, həmin adam boynunda Quran ayələri yazılmış dua ilə ayaqyoluna və murdar yerlərə daxil olur. Həmçinin bəzən cənabət halında belə onun üstündə qalır. Həmçinin uşaqların nəcasətə bulaşmış paltarda olduqları halda onların üstündə olur. Bunların hamısı Qurana qarşı hörmətsizlikdir.

6. Çox vaxt bu növ duaları yazan, həmail və təmiməni istehsal edən və eləcə də onlardan istifadə edən kəslər doğru iman və saleh əməl sahibi kimi tanınmayan şəxslər olur.

7. Artıq bu növ təmimə Allahın Kitabı və Haqq dini ilə ticarət etməyə gətirib çıxarmışdır. Bu cür təmimənin icazəli olduğunu demək fırıldaqçılar və cadugərlar üçün şirk təmiməyə qapı açmışdır. Onlar "Qurani Kərimdəndir" bəhanəsi ilə bu cür şirk təmimələr (tilsim və dualar) yazıb onları insanlara satmaqla məşğul olurlar.

Yuxarıda qeyd olunan səbəblərdən görünür ki, təmimə asmağın qadağan olması barədə olan rəy daha doğrudur. Allah daha yaxşı bilir.[2] Bir çox səhabə, tabein və onlardan sonra gələn İslam alimləri də məhz bu rəydə olublar. İbrahim ibn Yəzid Ən Nəxai əl Kufi (vəfatı: 96 hicri) deyir ki, onlar Qurandan olan və olmayan bütün təmimələri haram sayardılar."[3] İmam ən Nəxai burada Abdullah

[1] Bax: Şeyx Hafiz əl Həkəmi "Məricul Qabul" (1\382).
[2] Bax: Şeyx İbn Useymin "Məcmuus Səmin" (1\58).
[3] "Musannəf ibn Əbi Şeybə" (7\374).

ibn Məsudun *(Allah ondan razı olsun)* tələbələrini qəsd edir. Onlar da böyük tabeinlərinlərdən idi.[1]

## 9. Kiçik şirkin növlərindən doqquzuncusu: Tətayyur (bədbinlik etmək, əlamətlərə və düşər-düşməzliyə inanmaq)[2]

**Birinci: Tətayyurun tərifi:** Hafiz ibn Həcər *(Allah ona rəhmət etsin)* belə deyir: “Tətayyurun əsli quş uçurmaqdan götürülüb. Cahiliyyə dövründə insanlar quşun uçmasına etimad edirdilər. Onlardan bəziləri hər hansı bir iş dalınca çıxmaq istədikdə sağ tərəfə uçan bir quş görərsə, bunu uğura yozar və işinə davam edərdi. Amma quşun sol tərəfə uçduğunu gördükdə, bunu uğursuzluğa yozar və geri qayıdardı. Bəzən də özü bir quşu qovub uçurar və o quşun uçmasına əsasən hərəkət edərdi. Şəriət gəldikdə isə bu əməli qadağan etdi.”[3]

Onlar bunu uğur və uğursuzluq olaraq adlandırırdılar. Quş soldan sağa uçduqda uğur əlaməti, əksinə sağdan sola uçduqda isə uğursuzluq əlaməti hesab edirdilər. Atdığı quş isə mütləq ona tərəf dönməli idi. Əslində quşun sağa və ya sola uçmasında onların etiqadına əsas verən bir şey yox idi, əksinə, bu heç bir əsası olmayan işin dalınca getməkdir. O quş nə danışmır, nə də bir şeyin yaxşı və ya pis əlamət olduğunu fərqləndirə bilmir ki, onun hansı tərəfə uçmasının bir mənası da olsun. Elmi mənbəyindən başqa yerdə axtarmaq isə bunu edənin cahil olduğunu göstərir.[4]

Əlamətlərə inanmaq təkcə quşlar və heyvanlarla məhdudlaşmırdı, bu etiqad yayılaraq quşlardan başqa şeylərə də keçmişdir. Bəzi insanlar ilin hansısa aylarını uğursuz hesab edirdilər. Məsələn bəziləri Səfər ayına uğursuz deyib, o ayda evlənmir və ya səfərə çıxmırdılar. Bəziləri xəstə insanları uğursuzluq

---

[1] Bax: Abdurrahman ibn Həsən “Fəthul Məcidi Şərhu Kitəbit Tovhid” (səh. 176-177). Şeyx Suleyman ibn Abdullah “Təysirul Azizil Həmid” (səh. 174).
[2] (Tərc: Tətayyur - bəzi heyvanları, səsləri, rəngləri, rəqəmləri, insanları, yerləri, zamanları və s. uğursuzluq və ya düşər-düşməzlik əlaməti hesab etməkdir. Məsələn tək və cüt asqırmağı, bayquş səsini, 13 və ya 666 rəqəmini, qara rəngi, qüsurlu insanı, səfər ayını və s. gördükdə və eşitdikdə, bunu uğur və ya əksinə uğursuzluq əlaməti olduğuna inanmaq)
[3] İbn Həcər “Fəthul Bəri” (10\212). Və Abdurrahman ibn Həsən “Fəthul Məcidi Şərhu Kitəbit Tovhid” (səh. 424).
[4] İbn Həcər “Fəthul Bəri” (10\212-213).

əlaməti hesab edib, onlarla bir yerdə oturmur və ya yemək yemirdilər. Həmçinin kor, topal və ya başqa qüsuru olan insanları bəd əlamət sayırdılar.

### İkinci: Tətayyurun (düşər-düşməzliyə inanmağın) haram olmasına dair bəzi dəlillər:

1. Uca Allah Fironun qövmü barədə belə deyir: **“Onlara bir yaxşılıq üz verəndə: "Bu, bizə məxsusdur!"– deyərdilər. Onlara bir pislik üz verdikdə isə, Musa və onunla birlikdə olanları uğursuzluq əlaməti sayardılar. Əslində onların uğursuzluğu Allah yanındadır, lakin onların çoxu bunu bilmir”.**[1] Fironun qövmü başlarına bir bəla gəldikdə və ya onlara quraqlıq üz verdikdə, Musanı və onunla birlikdə olanları uğursuzluq əlaməti sayırdılar və deyirdilər ki, bu, Musa və onun dostlarının ucbatından oldu. Uca Allah xəbər verir ki, onların başına gələnlər yalnız Allahın ayələrini və elçilərini yalan saydıqlarına və onlara küfr etdiklərinə görə idi. Bu ayədə tətayyurdan çəkindirmə və bunu edənlər üçün təhdid vardır.”[2]

2. Allahın elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə deyib: ***“Yoluxucu xəstəlik yoxdur[3], tiyara (düşər-düşməzlik) yoxdur...”[4]***

3. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə deyib: ***“Tiyara (düşər-düşməzlik) yoxdur. Onun xeyirlisi fəldir (xeyrə yozmaq).” Dedilər ki, fəl nədir? O belə dedi: “Sizdən birinizin (gözəl zənn doğuran) yaxşı sözlər eşitməsidir.”[5]***

### Sual: Bu hədisdə keçən fəl (xeyrə yozmaq) və tiyara (düşər-düşməzliyə inanmaq) arasındakı fərq nədir?

Tiyara (düşər-düşməzliyə inanmaq) Allah barədə pis zənn etmək, Uca Allahın haqlarından bəzisini başqasına vermək və heç bir fayda və zərər verə bilməyən

---

[1] Əl Əraf, 131

[2] Bax : Abdurrahman ibn Həsən “Fəthul Məcidi Şərhu Kitəbit Tovhid” (səh. 424).

[3] Qeyd: Burada Allah rəsulunun İnkar etdiyi yoluxucu xəstəlik cahiliyyə dönəmindəki müşrüklərin etiqad edib inandığı xəstəlik nəzərdə tutulur. Onlar xəstəliyin Allahın izni olmadan özü-özlüyündə başqasına yoluxduğunu etiqad edirdilər. Bu sözlə Allah elçisi həmin batil inancı puç edərək bildirir ki, Allahın izni olmadan kainatda heç bir şey baş verə bilməz. Bəli hər hansı bir yolxucu xəstəliyi olan xəstənin yanında oturmaq onun xəstəliyinin sənə keçməsinə səbəbdir. Lakin xəstəlik özü-özlüyündə deyil, yalnız Allahın istəyi və təqdiri ilə başqasına yoluxur. Məhz buna görə də, Peyğəmbərimiz cüzəm xəstəliyi olan insanla oturub-durmaqdan çəkindirərək belə deyib: ***“Cüzəm xəstəliyinə tutulan insandan aslandan qorxub qaçdığın kimi qaç”*** hədisi Buxari rəvayət etmişdir.

[4] Sahih əl Buxari, Tibb kitabı, “Tətayyur” bölümü. Sahih Muslim, Salam kitabı, “Yoluxucu xəstəliyin olmaması” bölümü.

[5] Sahih əl Buxari, Tibb kitabı, “Tətayyur” bölümü. Sahih Muslim, Salam kitabı, “Tətayyur” bölümü.

məxluqa qəlb bağlamaqdır. Fəl (xeyrə yozmaq) isə Uca Allah barədə gözəl zənn etməkdir. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* xeyrə yozmağı sevərdi. Çünki tətayyur (düşər-düşməzliyə inanmaq) heç bir həqiqi səbəb olmadan Uca Allah barədə pis zənn etməkdir. Fəl (xeyrə yozmaq) isə Uca Allah barədə gözəl zənn etməkdir. Möminə isə hər bir halında Allah barədə gözəl zənn etmək əmr olunub.[1]

4. Allahın elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurur: ***"Tiyəra şirkdir. Tiyəra şirkdir."Bizdən elə bir kəs yoxdur ki, onda bu olmasın, lakin Allah onu təvəkkül ilə aradan qaldırır."*** [2] "Bizdən elə bir kəs yoxdur ki, onda bu olmasın, lakin Allah onu təvəkkül ilə aradan qaldırır" sözü İbn Məsudun əlavəsidir. Yəni bizdən elə bir kəs yoxdur ki, onun qəlbində bu baş verməsin. Lakin o zaman ki, biz fayda əldə etmək və zərəri dəf etməkdə Allaha təvəkkül etdik, Uca Allah Ona təvəkkül etdiyimiz üçün onu bizdən uzaqlaşdırdı."[3]

### Üçüncü: Tətayyurun (düşər-düşməzliyə və əlamətlərə inanmağın) hökmü:

Şəriətə görə tətayyur haramdır və tövhidin kamilliyinə zidd olan kiçik şirk hesab olunur. Çünki onda Allah barədə pis zənn var və qəlb Allahdan başqasına bağlanır, həmçinin Allahın haqlarından bəzisi Allahdan qeyrisinə verilir. Əgər insan uğursuzluq hesab etdiyi şeylərin özü-özlüyündə nəsə etməyə qadir olduğuna və ya xeyir əldə etməkdə və zərəri dəf etməkdə təsir etdiyinə etiqad etsə, bu zaman böyük şirkə çevirir. Əvvəldə də Peyğəmbərin *(Allahın ona salavatı və salamı olsun)* ***"Tiyəra şirkdir..."*** sözünü qeyd etmişdik.

### Dördüncü: Bəzi möminlərdə tətayyurun baş verməsi və onun müalicəsi.

Sözlərdə və əməllərdə olan tətayyur bəzən möminlərdə də olur və insanın nəfsində tətayyurdan sayılan bəzi şeylər baş verir, lakin Uca Allaha təvəkkül etməklə bunlar yox olub gedir.

---

[1] İbn Həcər "Fəthul Bəri" (10\215). Abdurrahman ibn Həsən "Fəthul Məcidi Şərhu Kitəbit Tovhid" (səh. 434-436). Ətrum "Əl Əsilətu vəl Əcvibətu fil Aqidəh" (səh. 65).
[2] Əbu Davud "Sunən" , Tibb kitabı, "Tətayyur" bölümü. Tirmizi "Cəmi", Sira kitabı, "Tətayyur haqqında gələnlər" bölümü. Və demişdir ki, bu hədis Həsən Səhih hədisdir. İbn Macə "Sunən", Tibb kitabı, "Allahın elçisi *(Allahın ona salavatı və salamı olsun)* xeyrə yozmağı sevər, tətayyuru isə sevməzdi" bölümü. Şeyx Albani Səhih olduğunu deyib. "Əs Silsilətus Sahihəh" (429).
[3] Bax: Abdurrahman ibn Həsən "Fəthul Məcidi Şərhu Kitəbit Tovhid" (səh. 440).

Düşər-düşməzliyə inanmaq bəzən insanda baş verə bilir. Səhabələrdən biri Allah elçisinə *(Allahın ona salavatı və salamı olsun)* belə demişdir: ***"Bizim aramızda elə insanlar var ki, düşər-düşməzliyə inanır."*** Peyğəmbər*(Allahın ona salavatı və salamı olsun)* belə dedi: ***"Bu sadəcə sizdən birinizin özündə hiss etdiyi şeydir və qoy qətiyyən ona inanmasın."***[1] Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* bu hədisdə xəbər verir ki, insanın uğursuzluq əlamətlərinə inanması və bundan əziyyət çəkməsi, uğursuzluq saydığı şey səbəbindən deyil, insanın öz nəfsində və etiqadında olan bir şeydir. Onu işindən geri döndərən və uğursuzluğa inanmağa sövq edən şey yalnız nəfsində olan vahimə, qorxu və Allaha şərik qoşmasıdır.[2]

Səni işini davam etdirməyə sövq edən və ya əksinə, işindən geri döndərməyə səbəb olan şey tətayyurdur (düşər-düşməzliyə, uğur və uğursuzluq əlamətinə inanmağındır). Necə ki, Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurdu: ***"Kimi tətayyur öz işindən geri qaytararsa, artıq Allaha şərik qoşmuşdur."*** Dedilər ki: "Bəs bunun kəffarəsi nədir?" Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə dedi: ***"Allahummə lə xayra illə xayruk və lə tayra illə tayruk və lə iləhə ğayruk" deməyindir.***[3] *(Tərcüməsi: Allahım, Sənin xeyrindən başqa xeyir yoxdur, quşlar da yalnız sənin yaratdığın quşlardır (və başımıza gələn xoşagəlməz şeylər yalnız Sənin qədərinlə olur) və Səndən başqa ibadətə layiq məbud yoxdur.)*

Tətayyurun çarəsi bu duadır. İnsan bu duanı deyib qəlbinə düşən fikirdən üz çevirsə və ona məhəl qoymasa, Uca Allah əvvəldən onun qəlbinə düşən şeyi silib yox edər. Çünki bu duada Tək Allaha bel bağlamaq və Ondan başqa hər şeydən üz çevirmək vardır."[4]

Həmçinin insanın nəfsində baş verən bu tətayyuru Uca Allaha gözəl şəkildə təvəkkül etməklə, fayda və zərərin yalnız Allahın əlində olduğuna etiqad etməklə də müalicə etmək olur. Bizə qarşı şəfqətli olan və doğru yola yönəlməyimiz üçün həris olan Peyğəmbərimizin *(Allahın ona salavatı və salamı olsun)* bizə öyrətdiyi duanı da buna əlavə etmək olar: ***"Allahım, Sənin xeyirindən başqa xeyir yoxdur..."***

---

[1]Sahih Muslim, Salam Kitabı, "Kahinlik etməyin və kahin yanına getməyin haram olması" bölümü.
[2] Bax: Abdurrahman ibn Həsən "Fəthul Məcidi Şərhu Kitəbit Tovhid" (səh. 430).
[3] İmam Əhməd "Musnəd" (2\220). Tabarani "əl Mucəmul Kəbir" (5\105). Şeyx Albani səhih olduğunu deyib "Silsilətus Sahihəh" (1065).
[4] Bax: Abdurrahman ibn Həsən "Fəthul Məcidi Şərhu Kitəbit Tovhid" (səh. 441).

Həmçinin buna dair başqa dua da var. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurub: "Sizdən biriniz xoşuna gəlməyən bir şey gördükdə, belə desin: ***"Allahım, yaxşılıqları yalnız Sən verirsən, pislikləri də yalnız Sən dəf edirsən. Güc və qüdrət də yalnız Sənin sayəndədir".***[1] Bu duada fayda əldə etmək və ya zərəri dəf etmək üçün qəlbi Allahdan başqasına bağlamaq inkar edilir və bu da tövhidin özüdür. Bu, qəlbində tətayyur olan kəs üçün münasib bir duadır. Həmçinin bu duada açıq-aydın bildirilir ki, düşər-düşməzliyə inanmaq nə fayda vermir, nə də zərəri dəf etmir."[2]

[1] Əbu Davud "Sunən" Tibb kitabı, "Tətayyur" bölümü. İsnadı zəifdir, Şeyx Albani də zəif olduğunu demişdir. "Daiful Cəmi" (438)

[2] Bax: Abdurrahman ibn Həsən "Fəthul Məcidi Şərhu Kitəbit Tovhid" (səh. 438).

# Üçüncü mövzu: Tövhidə və onun kamilliyinə zidd olan şirkə aparan vəsilələr

**Özündə dörd məsələni ehtiva edir:**

**Birinci məsələ:** **Bidət olan təvəssül. İcazəli olan təvəssül və onun növləri.**

**İkinci məsələ:** **Qəbirləri məscid etmək, üzərində bina tikmək və qəbirlərə tərəf namaz qılmaq.**

**Üçüncü məsələ:** **Peyğəmbərlər və salehlər barədə həddi aşmaq və onlardan qalmış şeylərlə təbərruk etmək**

**Dördüncü məsələ:** **Bidət olan bayramlar və mərasimlər.**

# Giriş

Peyğəmbər *(Allahın ona salavatı və salamı olsun)* tövhidi, ona zidd olan və onu naqisləşdirən bütün şeylərdən qorumuş, öz ümmətini onlardan çəkindirmiş və tövhidə əks olan və onun kamilliyinə xələl gətirən bütün yolları bağlamışdır. O öz ümmətinin doğru yola yonəlməsinə necə həris olduğunu vəsf edərək belə buyurur: ***"Mənimlə bu insanların məsəli, ocaq qalayan kişinin məsəlinə bənzəyir. O vaxt ki, ocaq öz ətrafını işıqlandırır, pərvanələr və həşəratlar özlərini bu oda atmağa başlayırlar. Kişi onlara mane olmaq istəsə də, onlar ona qalib gəlib özlərini oda salırlar. Həmçinin mən də beləcə sizin paltarınızın belindən tutaraq, "oda tərəf getməyin, oda tərəf getməyin" deyirəm. Siz isə məni dinləmədən özünüzü israrla oda atırsınız."***[1] Peyğəmbər *(Allahın ona salavatı və salamı olsun)* öz ümmətinə qarşı rəhimli və şəfqətli idi. Onları azmalarına və həlak olmalarına səbəb olan bütün şeylərdən qorumağa həris idi.

Lakin bu ümmətdən bəzi insanlar Peyğəmbərin *(Allahın ona salavatı və salamı olsun)* qadağan etdiyi və çəkindirdiyi şeyləri etməklə ona asi olmuş və şeytanın onlara gözəl göstərdiyi və çağırdığı addımlarına tabe olmuşlar. Bu asiliyin nəticəsində onlar tövhidə zidd olan[2] və ya onun kamilliyini azaldan və onu naqisləşdirən şeylərə düşmüşlər.[3]

Şübhə yoxdur ki, onların bu problemlərə düşməsinə səbəb çəkinilməsi vacib olan şeylərdən çəkinməmələri və tərk olunması tələb olunan şeylərə üz tutmaları olmuşdur. Bu vəsilələri bilmək onlardan çəkinməyə səbəbdir və buna görə də biz aşağıda bunların bəzisini izah edəcəyik.

---

[1] Sahih Buxari, Kitəbur Riqaq. Sahih Muslim, Fəzilətlər kitabı, "Allah *elçisinin (Allahın ona salavatı və salamı olsun)* ümmətinə olan şəfqəti və onlara zərər verən şeylərdən onları şiddətlə çəkindirməsi" bölümü.

[2] Tövhidə zidd olan amillər: Qulu tamamilə Allahın dinindən çıxaran şeylərdir. Bunun səbəbi ilə o kafir olur və islam dinindən çıxaraq mürtəd hesab olunur. Bu amillər çoxdur və böyük şirkdə, böyük küfrdə və böyük nifaqda cəm olurlar. Bax: Dr. Abdullah ibn Cibrin "Muzəkkiratu Aqidətil İsləmiyyəh" (səh. 61).

[3] Tövhidin kamilliyinə zidd olan amillər: Tövhidi tamamilə deyil, onun "kamilliyini aradan qaldıran işlərdir. Əgər bu amillərdən hər hansı biri müsəlmanda olarsa, onun tövhidinin kamilliyini naqisləşdirir, lakin onu islam dinindən çıxarmır. Bunlar, böyük şirk, böyük küfr və böyük nifaq dərəcəsinə çatmayan günahlardır. Bu işlərin başında da kiçik şirk, kiçik küfr və kiçik nifaq gəlir. Bax: Dr. Abdullah ibn Cibrinin "Muzəkkiratu Aqidətil İsləmiyyəh" (səh. 61).

## Birinci məsələ: Bidət olan təvəssül. İcazəli olan təvəssül və onun növləri.

### Təvəssülün bu mövzuya daxil edilməsinə səbəb:

Təvəssül tövhidə zidd olan və onun kamilliyini aradan qaldıran şeylər sırasına daxil edilmişdir, çünki Allaha hər hansı bir məxluqun özü və ya hörməti ilə təvəssül etmək iki yöndən qadağandır: Birincisi, bunu edən kəs öz duasında Allaha məxluq adından and verir. Allahdan başqasına and içmək də daha öncə dediyimiz kimi icazəli deyil. İkincisi isə o etiqad edir ki, kiminsə Allahın üzərində haqqı vardır. Qulların isə Allahın üzərində Allahın Özünə vacib etdiyi şeylərdən başqa heç bir haqqı yoxdur. Uca Allah möminlərə yardım edəcəyini, tövhid əhlini qurtaracağını, itaət edənlərə mükafat verəcəyini və Ona dua edənlərin duasını qəbul edəcəyini Özünə vacib etmişdir.[1]

**Təvəssülün lüğəvi mənası:** Lüğəvi cəhətdən təvəssül yaxınlaşmaq deməkdir. Məsələn: İnsanın bir əməli edib onunla Allaha yaxınlaşmasına təvəssül deyilir.[2]

**Təvəssülün şəri mənası:** Allaha itaət və ibadət etməklə, Onun elçisinə *(Allahın ona salavatı və salamı olsun)* tabe olmaqla və Allahın sevdiyi və razı qaldığı əməlləri yerinə yetirməklə Allaha yaxınlaşmaqdır.[3] Və ya Allahın razılığına və Cənnətə nail olmaq üçün Ona ibadət etməkdir.[4]

### Şəri (icazəli) təvəssülə dair bəzi dəlillər:

1. Uca Allah buyurur: **"Ey iman gətirənlər! Allahdan qorxun, Ona yaxınlaşmaq üçün vasitə axtarın və Onun yolunda cihad edin ki, bəlkə nicat tapasınız".** [5]Yəni Allaha itaət edərək və Onun razı qaldığı əməlləri yerinə yetirərək Allaha yaxınlaşın.[6]

2. Uca Allah buyurur: **"Onların yalvardıqları məbudların özləri də Rəbbinə – hansı daha yaxın olacaq deyə vəsilə axtarırlar, Onun rəhmətini umurlar,**

---

[1] Bax: İbn Əbil İzz "Aqidətut Tahaviyyəh" (1\294-296).
[2] Bax: Zəməxşəri "Əsasul Bələğah" (səh. 675). Feyruz əl Əbədinin "Qamusul Muhit" (səh. 1378).
[3] Bax: Muhəmməd Nəsib Ər Rifəi "Ət Təvəssul ilə Həqiqətit Təvəssul." (Səh. 12).
[4] Bax: Şeyx İbn Useymin "Məcmuu Fətəvə və Rasəil" (5\279).
[5] Maidə, 35
[6] Bax: Qurtubi "Əl Cəmiu Liəhkəmil Quran" (6\159). İbn Kəsir "Təfsiru İbn Kəsir" (2\55).

**əzabından qorxurlar. Həqiqətən, Rəbbinin əzabından qorunmaq gərəkdir".**[1] Vəsilə yaxınlaşmaqdır.[2]

## Təvəssülün qisimləri:

Təvəssül iki qismə ayrılır: Şəri (icazəli) təvəssül və bidət olan təvəssül.

**Şəri (icazəli) təvəssül:** Şəriətdə sabit olan təvəssüldür. Yəni Quranda və ya Sünnədə onun icazəli olmasına dəlalət edən dəlillər vardır.

**Bidət olan təvəssül:** İcazəli olmasına dəlil olmayan və ya dəlil tapılsa da, səhih dəlillərlə sabit olmayan, əksinə, səhih dəlillərə zidd olan təvəssüldür.[3]

## Şəri (icazəli) olan təvəssülün növləri və dəlilləri:

**Şəri təvəssül,** Quran və Sünnədə icazəli olmasına açıq-aydın dəlillər varid olan təvəssüldür. Burada nəzərdə tutulan duanın qəbul olunması üçün vəsilə tutmaqdır, yəni dua edənin duasının qəbul olunması üçün səbəblər götürməsidir.[4] Bu cür təvəssül ancaq şəri yolla məlum ola bilər.

## Şəri təvəssülün bir neçə növü var. Onlardan:[5]

**1. Uca və Qüdrətli Allahla təvəssül etmək:** Allahın müqəddəs zatı ilə, gözəl adları ilə, uca sifətləri ilə, yaxud feilləri ilə təvəssül etmək. Uca və Qüdrətli Allahın bu sözü buna dəlildir: **"Ən gözəl adlar Allahındır. Ona bu adlar vasitəsi ilə dua edin və Onun adları barəsində haqdan sapanları tərk edin. Onlar etdikləri əməllərin cəzasını alacaqlar".**[6] Həmçinin Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* duası da buna dəlildir: ***"Allahım, Səndən bütün adlarınla istəyirəm, Özünü adlandırdığın, məxluqlarından hər hansı birinə öyrətdiyin, Öz kitabında endirdiyin və ya Öz dərgahında qeyb elmində saxladığın bütün adlarınla Səndən diləyirəm..."***[7]

---

[1] Əl İsra, 57
[2] Bax: "Təfsiru İbn Kəsir" 2\55. Və Şinqiti "Ədvəul Bəyən" (2\86).
[3] Bax: Həsən İbn Ali Əl İvaci "Şərhu Nəvəqidit Tovhid" (səh. 41).
[4] Bax: Şeyx Albani və şeyx ibn Useymin "Ət Təvəssul Hukmuhu və Əqsamuhu" (səh. 13).
[5] Bax: Həsən İbn Ali Əl İvacinin "Şərhu Nəvəqidit Tovhid" (səh. 13).
[6] Əl Əraf, 180
[7] İmam Əhməd "Musnəd" (1\391). Əhməd Şakir Musnədin təhqiqində (3712) deyir ki, isnadı səhihdir. Və Şeyx Albani də səhih olduğunu demişdir "Silsilətus Sahihəh" (199).

**2. Saleh əməllərlə təvəssül etmək:** Buna dəlil Uca və Qüdrətli Allahın kitabındandır. Uca Allah buyurur: **“Bir zaman İbrahim və İsmail evin (Kəbənin) bünövrəsini qaldırarkən belə dua etdilər: "Ey Rəbbimiz! Bunu bizdən qəbul et! Həqiqətən, Sən Eşidənsən, Bilənsən!”**[1] Sünnədən isə dəlil saleh əməlləri ilə təvəssül edən üç nəfərin qissəsidir. Onlardan biri valideynlərinə etdiyi yaxşılığı, biri Allahdan qorxub zinanı tərk etməsini, biri isə haqları tam ödəməsini zikr edərək bunu öz dualarında vəsilə etdilər, Uca Allah da onların duasını qəbul etdi.[2]

**3. Başqasının duası ilə təvəssül etmək:** Buna dəlil olaraq Uca Allah Öz kitabında Yaqub peyğəmbərin *(Allahın ona salavatı olsun)* övladlarının hekayəsini danışarkən belə buyurub: **“Onlar dedilər: "Ey atamız! Allahdan bizim günahlarımızın bağışlanmasını dilə. Doğrudan da, biz günahkar olmuşuq”.**[3] Sünnədən buna dəlil: Səhabələrdən olan Ukkəşə ibn Mihsan *(Allah ondan razı olsun)* Peyğəmbərdən *(Allahın ona salavatı və salamı olsun)*, onun yetmiş min nəfər haqq-hesabsız Cənnətə gedənlərdən olması üçün dua etməsini istədi və Peyğəmbər *(Allahın ona salavatı və salamı olsun)* onun üçün dua etdi.[4]

Təvəssülün növlərinə dair Quran və Sünnədə dəlillər çoxdur. Yuxarıda qeyd etdiklərimiz isə onların az bir hissəsidir.

## Bidət olan təvəssül:

Daha öncə icazəli təvəssülün növlərindən bəhs etdik və dedik ki, bu növlərdən biri də başqasının duası ilə təvəssül etməkdir. Buna da səhabənin Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* duası ilə təvəssül etdiyini misal gətirdik.

Lakin bəzi insanlar təvəssülün bu növünü düzgün başa düşməyib. Quran və Sünnəyə müxalif olan şəxslər elə zənn edirlər ki, burada nəzərdə tutulan Allah elçisinin (*Allahın ona salavatı və salamı olsun*) özü ilə təvəssül etməkdir. Halbuki

---

[1] Əl Bəqərə, 127

[2] Buxari və Muslim səhih əsərlərində rəvayət ediblər. Sahih əl Buxari, İcarə kitabı, “İcarəyə işçi götürüb icarə haqqını tərk edən kəs” bölümü. Və Sahih Muslim, Zikr, dua, “Tövbə və istiğfar kitabı, üç nəfər mağara yoldaşının qissəsi” bölümü.

[3] Yusuf, 97

[4] Buxari və Muslim səhih əsərlərində rəvayət ediblər. Sahih əl Buxari, Tibb kitabı, “Damğa vurduran və ya başqasına damğa vuran” bölümü. Və Sahih Muslim, İman kitabı, “Müsəlmanlardan bəzi dəstələrin sorğu sualsız Cənnətə girəcəklərinə dəlil” bölümü.

səhabələr *(Allah onlardan razı olsun)* sağlığında ikən Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* duası ilə təvəssül edərdilər. Başqa hədisdə Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* minbərdə xütbə verərkən bədəvi ərəb daxil oldu və ondan dua etməsini istədi.[1] Həmçinin Ukkaşə ibn Mihsan Peyğəmbərdən *(Allahın ona salavatı və salamı olsun)* istədi ki, onun sorğu-sualsız Cənnətə daxil olması üçün dua etsin [2] və s.

Bu növ təvəssül yalnız Peyğəmbərin *(Allahın ona salavatı və salamı olsun)* həyatda olduğu müddətdə olurdu, amma vəfatından sonra isə bu icazəli deyil. Məhz bu səbəbdən Ömərin *(Allah ondan razı olsun)* xəlifəliyi dövründə quraqlıq zamanı insanlar yağış üçün dua etməyi Allah elçisindən *(Allahın ona salvatı və salamı olsun)* istəmədilər. Əksinə, Ömər *(Allah ondan razı olsun)* Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* əmisi Abbasdan *(Allah ondan razı olsun)* yağış duası etməsini istəyərək belə dedi: "Allahım, biz Peyğəmbərimiz vasitəsi ilə Səndən yağış istəyirdik və Sən də bizə yağış göndərirdin. İndi isə Peyğəmbərimizin əmisi vasitəsi ilə Səndən yağış istəyirik, bizə yağış yağdır."[3] Uca Allah bunun ardınca onlara yağış yağdırardı. Bu da səhabələrin *(Allah onlardan razı olsun)* Abbas *(Allah ondan razı olsun)* həyatda ikən onun özü ilə deyil, duası ilə təvəssül etmələri idi. Bu, sağlığında ikən Peyğəmbərin *(Allahın ona salavatı və salamı olsun)* duası ilə təvəssül etmələrinə bənzəyir.

Şeyxulislam İbn Teymiyyə *(Allah ona rəhmət etsin)* belə deyir: "Amma səhabələrin *(Allah onlardan razı olsun*) Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* ilə təvəssül etmələri barədə sözlərinə gəldikdə, burada məqsəd Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* duası və şəfaəti ilə təvəssül etmələri idi."[4]

**Peyğəmbərin *(Allahın ona salavatı və salamı olsun)* duası ilə təvəssül etmək məsələsində iki qeyd var:**

---

[1] Sahih Buxari, Yağış duası kitabı, "Cümə xütbəsində yağış duası etmək" bölümü. Və Sahih Muslim, İstisqa (Yağış duası) namazı kitabı, "İsitisqa duası" bölümü.

[2] Buxari və Muslim səhih əsərlərində rəvayət ediblər. Sahih əl Buxari, Tibb kitabı, "Damğa vurduran və ya başqasına damğa vuran" bölümü. Sahih Muslim, İman kitabı, "Müsəlmanlardan bəzi dəstələrin sorğu sualsız Cənnətə girəcəklərinə dəlil" bölümü.

[3] Sahih Buxari, Yağış duası kitabı, "İnsanların quraqlıq zamanı imamdan yağış duası etməsini istəmələri" bölümü.

[4] Bax: İbn Teymiyyə "Qaidətu Cəliləh fit Təvəssuli vəl Vəsiləh" (səh. 80-81).

**Birinci:** Peyğəmbərin *(Allahın ona salavatı və salamı olsun)* həyatda olması. Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* vəfatından sonra Ömərin Abbasla *(Allah onlardan razı olsun)* təvəssül etməsi də bunu bildirir. Şeyxulislam İbn Teymiyyə *(Allah ona rəhmət etsin)* belə deyir: "Peyğəmbərin *(Allahın ona salavatı və salamı olsun)* duası və şəfaəti ilə təvəssül etməyə gəldikdə isə Ömərin dediyi kimi, Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* özü ilə deyil, məhz onun duası ilə idi. Elə buna görə də səhabələr Allah elçisinin *(Allahın salavatı və salamı olsun)* əvəzinə onun əmisi Abbasın duası ilə təvəssül etdilər. Əgər təvəssül Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* özü ilə olsaydı, o zaman onlar Abbasla deyil, Peyğəmbərin *(Allahın salavatı və salamı olsun)* özü ilə təvəssül edərdilər. Onların Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* ilə təvəssül etməyin əvəzinə Abbasla *(Allah ondan razı olsun)* təvəssül etmələrindən bəlli olur ki, Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* sağlığında etdikləri təvəssül artıq onun vəfatından sonra mümkün deyil. Amma Allah elçisinə *(Allahın ona salavatı və salamı olsun)* iman etmək və itaət etməklə təvəssül etmək isə daim icazəlidir."[1] Bunlar birinci şərtə aid olanlar idi.

**İkinci:** Bu, təvəssül edilən kəsə xasdır. Yəni bu təvəssül sağlığında ikən Allah elçisinə *(Allahın ona salavatı və salamı olsun)* aid idi və bunun üçün o mütləq nəsə əməl etməli idi. Bu da bir daha təsdiqləyir ki, təvəssül Peyğəmbərin *(Allahın ona salavatı və salamı olsun)* özü ilə deyil, yalnız onun duası və Allaha yalvarıb-yaxarması ilə edilirdi. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* minbərin üzərində olarkən bədəvi ərəbin gəlib onun duası ilə təvəssül etməsi də bunu bir daha aydınlaşdırır. Belə ki, həmin an Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* əllərini qaldıraraq belə dua etdi: ***"Allahım, bizə yağış yağdır. Allahım, bizə yağış yağdır."***[2]

**Deməli, icazəli olan təvəssül** həyatda ikən Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* duası ilə edilən təvəssüldür. Quran və Sünnəyə müxalif olaraq "Təvəssül dua ilə deyil, şəxsin özü, onun məqamı və hörməti ilə olur" deyənlərin başa düşdüyü kimi deyil. Onlar bununla Şəriətdə varid olmayan yeni bir ibadət

[1] Bax: İbn Teymiyyə "Qaidətu Cəliləh fit Təvəssuli vəl Vəsiləh" (səh. 82).
[2] Sahih Buxari, Yağış duası kitabı, "Cümə xütbəsində yağış duası etmək" bölümü. Sahih Muslim, İstisqa (Yağış duası) namazı kitabı, "İsitisqa duası" bölümü.

qoydular. Onların etdikləri bu yenilik bidət adlanır və sonradan qoyduqları bu təvəssülə "bidət təvəssül" deyilir.

Onlar elə dəlillərə əsaslanıblar ki, kim onların gətirdiyi həmin dəlillərə baxıb düşünsə, bu dəlillərin onların lehinə deyil, əksinə, əleyhinə olduğunu görər. Bu dəlillərdən biri də Ömərin Peyğəmbərin *(Allahın ona salavatı və salamı olsun)* əmisi Abbasın vasitəsilə təvəssül edərək yağış istəməsidir. Daha öncə qeyd etdik ki, bu, bir şəxsin ölümündən sonra deyil, əksinə, o, həyatda ikən və onun duası ilə təvəssül edilməsinə dəlildir. Çünki bu ümmətin ən fəzilətlisi olan səhabələr Peyğəmbərin *(Allahın ona salavatı və salamı olsun)* vəfatından sonra onunla təvəssül etməyin əvəzinə əmisi Abbasın *(Allah ondan razı olsun)* vasitəsi ilə təvəssül etməyə yönəldilər.[1]

Həmçinin onların gətirdiyi dəlillərdən biri də kor kişinin hədisidir. Bir dəfə kor kişi Peyğəmbərdən *(Allahın ona salavatı və salamı olsun)* istədi ki, onun sağalması üçün Allaha dua etsin. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* ona dua öyrətdi ki, dəstəmaz alıb iki rükət namaz qılmaqla təvəssül etdikdən sonra həmin duanı etsin.

İmam Əhməd, İmam Tirmizi, Hakim və başqaları Osman ibn Huneyfdən rəvayət edirlər ki, bir gün kor kişi Peyğəmbərin *(Allahın ona salavatı və salamı olsun)* yanına gələrək belə dedi: "Mənim üçün dua et ki, Allah mənə şəfa versin". O belə dedi: ***"İstəyirsən sənin üçün dua edərəm. Yaxud istəyirsən səbir et, bu sənin üçün daha xeyirlidir".*** O dedi ki, Allaha dua et. Peyğəmbər *(Allahın ona salavatı və salamı olsun)* ona gözəl şəkildə dəstəmaz almağı və bu duanı etməyi buyurdu: ***"Allahım, mən Səndən istəyirəm və rəhmət peyğəmbəri olan Muhəmmədin vasitəsilə Sənə üz tuturam. Səninlə Rəbbimə yönəldim ki, bu ehtiyacım verilsin. Allahım, Onu mənim üçün şəfaətçi et!"***[2]

Alimlər deyiblər ki, bu hədis Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* möcüzələrindən hesab olunur və onun peyğəmbər olmasına, duasının qəbul olunmasına dəlildir. Allah onun duasının bərəkəti ilə fövqəladə şeyləri üzə çıxardı və Peyğəmbərin *(Allahın ona salavatı və salamı olsun)* duası ilə Uca Allah həmin kor kişinin görmə qabiliyyətini geri qaytardı. Bu da həmin kişinin

---

[1] Bundan öncəki iki səhifəyə bax. Həmçinin "Təvəssul və Hukmuhu və Əqsamuhu" (səh. 45-57) kitabına bax

[2] İmam Əhməd "Musnəd" (4\138). Ət Tirmizi "Əl Cəmi", Dualar kitabı, (119 cu) bölümdə rəvayət edib və "Həsən sahih ğarib" olduğunu deyib. Hakim "Mustədrək" (1\519). İsnadının səhih olduğunu deyib və Zəhəbi də onunla razı olub.

Peyğəmbərin *(Allahın ona salavatı və salamı olsun)* özü ilə yaxud onun məqamı ilə təvəssül etməsinə görə deyildi. Əgər bunun sirri Peyğəmbərin duasında deyil, məhz kor kişinin etdiyi bu duada və Peyğəmbərin *(Allahın ona salavatı və salamı olsun)* zatı və hörməti ilə təvəssül etməsində olsaydı, başqa kor insanlar da ixlasla bu duanı edib ya həmin vaxt, ya da az sonra mütləq şəfa tapardılar.

Şeyxulislam İbn Teymiyyə *(Allah ona rəhmət etsin)* belə deyir: "Əgər başqa kor insanlar da həmin kor kişinin yerində ola bilsəydilər və Peyğəmbər *(Allahın ona salavatı və salamı olsun)* onlar üçün dua etmədən sadəcə onunla təvəssül edib gözlərini qaytara bilsəydilər, o zamn kor səhabələr və ya onlardan bəziləri görmək üçün mütləq həmin kor kişinin etdiyini edərdilər. Lakin onlar bunu etmədilər. Halbuki onlar ilk İslamı qəbul edən və hamını ötüb keçən ənsarlar, mühacirlər və gözəl şəkildə onların yoluna tabe olan kəslər idi. Onlar Allahı və Rəsulunu bizdən yaxşı tanıyırdılar. Hansı dua şəriətdə gəlib və faydalıdır, hansı dua şəriətdə gəlməyib və faydalı deyil və ya hansı dua daha faydalıdır, onlar bunu bizdən yaxşı bilirdilər. Onlar sıxıntı anında, aclıq və quraqlıq vaxtı dua edib sıxıntılarının aradan qalxmasını, çətin işlərinin asanlaşmasını, göydən yağış yağmasını bacardıqları qədər istəyirdilər və buna yol axtarırdılar. Lakin bir dəfə də olsun Peyğəmbərin özü və ya hörməti ilə təvəssül etmədilər. Bu da göstərir ki, şəriətə uyğun olan onların etdikləridir, tərk etdikləri deyil".[1]

**Müxaliflərin bir şəxsin özü və ya hörməti ilə təvəssül etməyin icazəli olmasına kor kişinin hədisini dəlil gətirmələri aşağıdakı səbəblərə görə qəbul edilmir:**

1. Həmin kor kişi ancaq Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* dua etməsini istəmək üçün gəlmişdi. Məsələ elə başlanğıcdan Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* duası ilə təvəssül etməkdən ibarət idi.

2. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* onun üçün dua edəcəyini vəd verdi, o isə heç vaxt vədinə xilaf çıxmırdı və buna görə onun üçün dua etdi.

3. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* kor kişiyə dua öyrətdi ki, həmin duanı etsin və bu duada ***"Allahım, onu mənim üçün, məni də onun üçün şəfaətçi et"*** sözləri var idi. Şəfaət elə duadır. ***"Onu mənim üçün şəfaətçi et"***, yəni Peyğəmbərin *(Allahın ona salavatı və salamı olsun)* mənim üçün etdiyi duanı qəbul

[1] Şeyxulislam ibn Teymiyyə "Məcmuul Fətəvə" (1\326).

et və gözlərimi qaytar. ***"Məni də onun üçün şəfaətçi et",*** yəni mənim də onun üçün etdiyim duanı, "onun duasına cavab ver" sözlərimi qəbul et.[1]

Onların dəlil gətirdikləri başqa dəlillər də var, lakin hamısı zəif hədislər sırasındadır və dəlil gətirilə bilməz.[2]

[1] Bax: ibn Teymiyyə "İqtidaus Siratil Mustəqim" (2\287-387). Muhəmməd Nəsib Ər Rifəi "Ət Təvəssul ilə Həqiqətit Təvəssul" (səh. 229-232) "Ət Təvəssul Hukmuhu və Əqsamuhu" (səh. 59-66).

[2] Bax: Şeyxulislam ibnm Teymiyyə "Məcmuul Fətəvə" (1\142-368). Həmçinin Əli ibn Huseyn əbu Luzun onların şübhələrini cəm etdiyi bu kitaba bax: "Əttəvəssul Hukmuhu və Əhkəmuhu" (səh. 79-103).

## İkinci məsələ: Qəbirləri məscid və səcdəgah etmək, üzərində bina tikmək və qəbirlərə qarşı namaz qılmaq şirkə aparan vəsilələrdəndir.

### Giriş

Daha öncə qeyd etdik ki, Peyğəmbər *(Allahın ona salavatı və salamı olsun)* tövhidi qorumağa həris idi.

Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* ümmətini qəbirləri məscid etmək, üzərində bina tikmək və qəbirlərə qarşı namaz qılmaq kimi şirkə aparan yollardan çəkindirdiyi çox sayda hədislər buna dəlildir.

**Aşağıda gələn mövzulara uyğun olaraq bu hədisləri zikr edəcəyik.**

### Birinci: Qəbirləri məscid etməyi yaxud üzərində bina tikməyi qadağan edən hədislər: Bunlardan:

1. Aişə *(Allah ondan razı olsun)* rəvayət edir ki, bir dəfə Ummu Sələmə *(Allah ondan razı olsun)* Allah elçisinə *(Allahın ona salavatı və salamı olsun)* Həbəşistanda gördüyü kilsələrdən və içindəki şəkillərdən danışırdı. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə dedi: ***"Onlar, öz aralarında saleh bir kişi və ya saleh bir qul vəfat etdikdə, onun qəbri üstündə kilsə tikirlər və içinə o şəkilləri çəkirlər. Onlar Allah dərgahında ən şərli insanlardır."***[1] Bu hədisdə Peyğəmbərin ***"Onlar Allah dərgahında ən şərli insanlardır"*** deməsi təhdid bildirir. Bu təhdid peyğəmbərlərin qəbirlərini məscid və səcdəgah edənlərə də aiddir. Qəbri məscid etmək, yəni onun üzərində məscid tikmək deməkdir.[2] Məlumdur ki, qəbirlər səbəbilə olan fitnə, bütlərlə olan fitnə kimidir və ya ondan da şiddətlidir.

Şeyxulislam ibn Teymiyyə *(Allah ona rəhmət etsin)* belə deyir: "Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* qəbirlərin üzərində məscid tikməyi qadağan etdi və bir çox ümmətlərin böyük və ya kiçik şirkə düşmələrinin səbəbi də məhz bu olmuşdur... Çünki saleh sayılan bir kişinin qəbri ilə edilən şirk insanların nəfsinə ağac və ya daş ilə edilən şirkdən daha yaxındır. Ona görə görürsən ki,

---

[1] Səhih Buxari "Namaz kitabı", Səhih Muslim "Məscidlər və namaz qılınan yerlər" kitabı, "Qəbirlərin üstündə məscid tikməyin qadağan edilməsi" fəsli.

[2] Bax: İbn Həcər "Fəthul Bəri" (1\524).

şirk əhli bu qəbirlərin yanında yalvararaq, qorxaraq, boynu bükük halda qəlbən elə ibadət edirlər ki, onlar bu cür əməlləri heç Allahın evləri olan məscidlərdə, nə də sübh vaxtı duaların qəbul olduğu vaxtda etmirlər. Onlardan bəzisi, hətta bu qəbirlərə səcdə edirlər. Bir çoxları məscidlərdə etdikləri ibadətlərdən daha çox qəbirlərin yanında qıldıqları namazlardan və etdikləri dualardan bərəkət umurlar..."[1] Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* qəbirlərin üzərinə məscid tikməyi qadağan edərək şirk ünsürünü aradan qaldırdı və şirkə aparan yolları bağladı.

2. Möminlərin anası Aişə, həmçinin İbn Abbas *(Allah onlardan razı olsun)* rəvayət edir ki, Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* ölüm yatağında ikən paltarını üzünə örtdü, sonra qızdırma səbəbindən nəfəsi daraldığı üçün onu üzündən çəkdi və ***"Allah yəhudi və nəsranilərə lənət etsin. Onlar peyğəmbərlərinin qəbirlərini məscid etdilər."*** deyərək onların etdiyi əməldən çəkindirdi. Aişə *(Allah ondan razı olsun)* deyir ki, əgər bu (qadağa və lənət) olmasaydı, onun qəbri aşkara çıxarılardı, lakin onun məscid edilməsindən qorxulduğu üçün belə edildi."[2] Yəni Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* qəbirlərin üzərində məscid tikmək qadağası olmasaydı, Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* qəbri aşkarda olardı və onun ətrafında divarlar olmazdı. Bu hədisdə Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* bizdən öncəkiləri lənətlədi və onların əməlini inkar etdi. Onların bu əməlini inkar etməsi iki şeyə görə idi. Birinci, onlar peyğəmbərlərinə təzim etmək üçün onların qəbirlərinə səcdə edirdilər. İkinci, onlar peyğəmbərlərinin dəfn edildiyi yerdə namaz qılmağı, qəbirlərinin üstündə səcdə etməyi, onların qəbrinə tərəf yönəlib namaz qılmağı və peyğəmbərləri ucaltmaqda həddi aşmağı icazəli görürdülər. Birinci açıq- aydın, ikinci isə gizli şirkdir. Buna görə də onlar lənətə layiq oldular.[3]

3. Cundub İbn Abdullah *(Allah ondan razı olsun)* rəvayət edir ki, mən Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* vəfatından beş gün öncə belə dediyini eşitdim: ***"Bilin ki, sizdən öncəkilər öz peyğəmbərlərinin və salehlərin***

---

[1] Şeyx Abdurrahman ibn Həsən "Fəthul Məcid Şərhu Kitəbit Tovhid" (səh. 312).
[2] Sahih əl Buxari, namaz kitabı, (55 ci) bölüm. Sahih Muslim, Məscidlər və namaz yerləri kitabı, "Qəbirlərin üzərinə məscid tikməyin qadağan olunması" bölümü.
[3] Bax: Şeyx Suleyman ibn Abdullah "Təysirul Azizil Həmid" (səh. 327).

***qəbirlərini məscid edirdilər. Mən sizə bunu qadağan edirəm."*[1] Məhz bu qadağaya görə müsəlmanlar Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* qəbrini şirk və bidətə aparan yollardan daha çox qorumağa çalışırdılar. Onlar Peyğəmbərin *(Allahın ona salavatı və salamı olsun)* qəbrinin ətrafını hündür etdilər, qəbirin yanında olan girişləri bağladılar və Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* qəbrini hər tərəfdən divarla əhatə etdilər. Sonra namaz qılanlar ona tərəf yönələndə Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* qəbrinin qiblə tərəfdə qalmasından qorxdular. Elə təsəvvür yarana bilərdi ki, insanlar qibləyə deyil, qəbirə tərəf namaz qılır və ona ibadət edirlər. Ona görə də qəbirin iki şimal küncündən başlayan iki divar tikdilər və o divarları qəbirin şimal tərəfində bir-birinə tərəf yönəldərək üçbucaq şəklində birləşdirdilər ki, heç kim Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* qəbrinə tərəf istiqamət ala bilməsin".[2]

4. Cabir ibn Abdullah *(Allah onların hər ikisindən razı olsun)* rəvayət edir ki, ***Allahın elçisi (Allahın ona salavatı və salamı olsun) qəbirə suvaq vurmağı, onun üstündə oturmağı və qəbirin üzərində nəisə tikməyi qadağan etdi.***[3]

Bu hədislərdə qəbirlərin üzərində tikili tikməyin qadağan edildiyini və bunu edən kəsin lənətləndiyini görürük. "Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* bundan çəkindirməsi və saleh kəslərin qəbri üzərində bina tikməkdə Kitab əhlinə bənzəməyi lənətləməsi, bunun açıq-aydın qadağan olduğunu bildirir. Həmçinin bu, onların etdiyi digər əməllərin də növündən çəkindirməyə dəlildir. Çünki onların digər əməllərinin də bu növdən olmayacağından arxayın olmaq olmaz. Məlumdur ki, bu ümmətdən bir çoxu həm qəbirlərin üzərində tikili və ya bina tikərək oranı məscid etdilər, həm də bina tikmədən oranı ibadətgaha çevirdilər və bununla da bəlaya düçar oldular. Bunların hər biri haramdır və bunu edənin lənətlənməsi barədə Sünnədə çoxsaylı dəlillər varid olmuşdur.[4]

5. Əbul Həyyəc Əl Əsədi rəvayət edir ki, Əli İbn Əbu Talib *(Allah ondan razı olsun)* mənə belə dedi: ***"Allah elçisinin (Allahın ona salavatı və salamı olsun) vaxtilə məni göndərdiyi bir işin dalınca səni göndərimmi? Məhv etmədiyin bir dənə də olsun şəkil, yerlə bərabər etmədiyin bir dənə də olsun hündür qəbir***

---

[1] Sahih Muslim, Məscidlər və namaz yerləri kitabı, "Qəbirlərin üzərinə məscid tikməyin qadağan olunması" bölümü.

[2] Qurtubi "əl Mufhəm Şərh Sahih Muslim" (2\932).

[3] Sahih Muslim, Cənazə kitabı, "Qəbirlərə suvaq vurmaq və üzərinə tikili tikməyin qadağan olunması" bölümü.

[4] Bax: İbn Teymiyyə "İqtidau Siratil Mustəqim" (1\295).

***qalmasın".***[1] ***"Məhv etmədiyin bir dənə də olsun şəkil qalmasın"*** deməsində ruhu olan məxluqların şəklini yox etmək əmr olunur.[2] ***"Yerlə bərabər etmədiyin bir dənə də olsun hündür qəbir qalmasın"*** yəni qəbir yerdən çox hündür və dik olmasın. Əksinə bir qarış hündürlüyündə və hamar olsun.[3]

Böyük İslam alimi Muhəmməd ibn Əli Əş Şəvkəni *(Allah ona rəhmət etsin)* belə deyir: "Bil ki, səhabələrin vaxtından bu günə qədər bütün alimlər ittifaq ediblər ki, qəbirləri ucaltmaq və üzərində bina tikmək bidətlərdən və dəlillərlə qadağan edilən əməllərdəndir. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* bunu edənləri şiddətli şəkildə hədələmişdir."[4] Şeyx Muhəmməd Əmin Əş Şinqiti *(Allah ona rəhmət etsin)* belə dedi: "Heç bir şübhə olmayan araşdırmalardan sonra qəti qərar budur ki, qəbirləri suvamaq və onların üstündə bina tikmək icazəli deyildir..."[5] Sonra isə öncə qeyd olunan iki hədisi dəlil gətirdi.

## İkinci: Qəbirlərə doğru namaz qılmağın və onları ziyarətgaha çevirməyin qadağan olunması.

Yuxarıda qəbirləri məscidə çevirməyi qadağan edən hədislər həmçinin qəbrə doğru namaz qılmağın da qadağan olduğunu bildirir. Çünki kim qəbirlərin yanında və ya onlara tərəf namaz qılmaq üçün oraya gedərsə, artıq oranı səcdəgaha və ziyarətgaha çevirmiş, Allah və Rasulunun qadağan etdiyi günahı etmiş və böyük şirkə aparıb çıxaran bir əmələ düşmüşdür.[6]

Qəbirlərə doğru namaz qılmağın və ya qəbirləri ziyarətgaha çevirməyin haram olmasına dəlalət edən bir çox hədislər var. Bunlardan:

1. Əbu Mərsəd Əl Ğanəvi *(Allah ondan razı olsun)* rəvayət edir ki, Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurdu: ***"Qəbirlərə doğru namaz qılmayın və onların üstündə oturmayın."***[7] Bu hədisdə qəbirlərə doğru namaz qılmağa açıq-aydın qadağa vardır. İmam Şafi *(Allah ona rəhmət etsin)* belə demişdir: "Bir insanın qəbrinin məscidə çevriləcəyi dərəcədə təzim edilməsini haram sayıram. Çünki həm onun özünün, həm də ondan sonra gələn insanların

---

[1] Bax: Sahih Muslim, Cənazə Kitabı, "Qəbirləri suvamağı və üzərinə bina tikməyin qadağan olunması" bölümü.
[2] Bax: şeyx Abdurrahman ibn Həmməd əli Amr "Əl İrşədu ilə Tovhidi Rabbil İbəd" (səh. 97).
[3] Bax: İmam Ən Nəvəvi "Şərhu alə Sahihi Muslim" (7\36).
[4] Bax: Əş Şəvkəni "Şərhus Suduri bi Təhrimi Rafil Qubur" (səh. 17).
[5] Bax: Şeyx Şinqiti "Ədvəul Bəyən" (3\177-178)
[6] Bax: şeyx Abdurrahman ibn Həmməd əli Amr "Əl İrşədu ilə Tovhidi Rabbil İbəd" (səh.97)
[7] Bax: Sahih Muslim, Cənazə Kitabı, "Qəbirləri suvamağı və üzərinə bina tikməyin qadağan olunması" bölümü.

fitnəyə düşəcəyindən qorxuram."[1] Şeyxulislam ibn Teymiyyə *(Allah ona rəhmət etsin)* bu hədisi şərh edərək belə deyir: "Bu səhih hədisə görə nə peyğəmbərlərin, nə də başqa birinin qəbrinə doğru namaz qılmaq olmaz. Müsəlmanlar arasında ixtilaf yoxdur ki, qəbirə doğru namaz qılmaq Şəriətdən deyil. Əksinə, bu, sonradan ortaya çıxan bir bidətdir. Həmçinin dua edərkən peyğəmbərlərin və salehlərin qəbrinə yönəlmək olmaz. Əgər Allaha dua etmək üçün qəbirə yönəlmək olmazsa, ölünün özünə dua etmək heç olmaz. Həmçinin qəbirə doğru namaz qılmaq icazəli deyilsə, deməli qəbir sahibi üçün namaz qılmaq heç olmaz".[2]

2. Əbu Hureyra *(Allah ondan razı olsun)* rəvayət edir ki, Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə dedi: ***"Evlərinizi qəbirlərə çevirməyin. Mənim qəbrimi də bayram yerinə (ziyarətgaha) çevirməyin. Mənə salavat gətirin. Həqiqətən də, siz harada olsanız, sizin salavatınız mənə çatır."***[3]
Yer üzündə ən fəzilətli qəbir Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* qəbridir. Əgər onun qəbri barədə belə deyilibsə, gör başqa insanların qəbri necə?! Şeyxulislam ibn Teymiyyə *(Allah ona rəhmət etsin)* bu hədisi şərh edərək belə deyir: "Bu hədisin dəlil hissəsi odur ki, Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* qəbrinin yer üzərində ən fəzilətli qəbir olmasına baxmayaraq, o öz qəbrini bayram yerinə (ziyarətgaha) çevirməyi qadağan etdi. Ondan başqasının qəbri, əlbəttə, bu qadağaya daha uyğundur. Daha sonra Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* əlavə edərək dedi ki, ***"Evlərinizi qəbirlərə çevirməyin".*** Yəni evlərinizdə namaz qılmağı, Quran oxumağı, dua və zikrləri tərk edərək onları qəbirlərə bənzətməyin. Beləliklə, o, ibadəti evlərdə etməyi əmr etdi, qəbirlərin yanında ibadət etməyi isə qadağan etdi."[4]

Şeyx Abdurrahman ibn Həsən *(Allah ona rəhmət etsin)* belə demişdir: "Qəbirlərin yanında namaz qılmaq, qəbirləri ibadətgaha çevirmək və onların üzərində məscid tikmək bidətlərə və şirkə aparan ən böyük vəsilələrdəndir.

---

[1] Bax: İmam Ən Nəvəvi "Şərhu alə Sahihi Muslim" (7\38).
[2] Bax: İbn Teymiyyə "Qəidətun Cəliləh fit Təvəssuli vəl Vəsiləh" (səh. 294-295).
[3] İmam Əhməd "Musnəd" (2\367). Əbu Davud "Sunən", Həcc ayinləri kitabı, "Qəbirləri ziyarət" bölümü. Şeyx Albani Səhih Sunən əbi Davudda səhih olduğunu deyib.
[4] Bax: İbn Teymiyyə "İqtidaus Siratil Mustəqim" (2\257).

Allah elçisindən *(Allahın ona salavatı və salamı olsun)* bunu sərt şəkildə qadağan edən çoxlu sayda dəlillər varid olmuşdur.[1]

Allah elçisindən *(Allahın ona salavatı və salamı olsun)* varid olan dəlillərin səhihliyinə və çoxluğuna görə, həmçinin bu haqda müxtəlif təhdidlər varid olduğu üçün istər Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* səhabələri, istər onlardan sonra gələn sələflər, istərsə də onların yolu ilə gedənlərin hamısı qəbirlərin üzərində məscid və ya hər hansı bir şey tikməyin və ya qəbirlərin yanında namaz qılmağın haram olmasında icma etmişlər.

Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* öz ümmətini onun və ümmətindən olan saleh insanların qəbrini məscidə çevirməkdən çəkindirmək üçün bunu edənləri lənətləmişdir. Lakin İslam dini o qədər qəribləşib ki, sonradan gələnlər arasında bu ümmətin bir çoxu həmin əməli etdilər və bunun Allaha yaxınlaşdıran əməllərdən olduğunu etiqad etdilər. Halbuki bu ən böyük günahlardan və ən çirkin əməllərdəndir. Onlar özləri də hiss etmirlər ki, bu əməl Allaha və Onun elçisinə *(Allahın ona salavatı və salamı olsun)* qarşı düşmənçilikdir."[2]

**Qeyd:** Qəbirləri təvaf etmək olmaz (qəbirdəkinə yaxınlaşmaq niyyəti ilə qəbri təvaf etmək) şirk hesab olunur (Əgər qəbri təvaf edən bu əməli ilə Allaha yaxınlaşmağı niyyət edərsə, bu haram və bidət hesab olunur). Çünki Kəbəni təvaf etmək Uca və Qüdrətli Allaha ibadətdir. Necə ki, Uca Allah buyurur: **"Sonra həcc ayinlərini tamamlasınlar, nəzirlərini yerinə çatdırsınlar və qədim evi (Kəbəni) təvaf etsinlər".**[3] Bu ibadəti Uca Allahdan başqasına aid etmək icazəli deyil. Qəbirləri təvaf etmək, həmin qəbrin sahibini əzəmətləşdirmək və ona ibadət etmək hesab olunur. Həmçinin burada Kəbəni təvaf etməyə bənzərlik vardır. Uca Allah yalnız Öz evini həcc etməyi və təvaf etməyi əmr etmişdir. Kəbədən başqa hər hansı bir yeri təvaf etməyi isə Şəriətdə buyurmamışdır. Uca Allahın evi olan Kəbəni təvaf etmək tövhid, ibadət və şirki inkar etməkdir. Çünki haqq-məbud olan Allah təvafı yalnız həmin məkanda və Onun üçün sərf etməyi buyurmuşdur. Uca Allah belə deyib: **"Bir zaman Biz İbrahimə evin (Kəbənin)**

---

[1] Bax: "Fəthul Məcidi Şərhu Kitəbit Tovhid" (səh. 313).
[2] Bax: "Fəthul Məcidi Şərhu Kitəbit Tovhid" (səh. 315).
[3] Həcc, 29

**yerini nişan verib: "Mənə heç bir şeyi şərik qoşma, evimi təvaf edənlər, namaza duranlar, rüku və səcdə edənlər üçün təmizlə!"– demişdik".** [1] [2]

[1] Bax: Şeyx Saleh Əl Ətrum "əl Əsilətu vəl Əcvibətu fil Aqidəh" (səh. 50).

[2] Həcc, 26

## Üçüncü məsələ: Peyğəmbərlər və salehlər haqqında həddi aşmaq və salehlərdən qalan (bədənlərindən ayrılan və ya istifadə etdikləri) şeylərdən bərəkət ummaq şirkə vəsilə olan əməllərdəndir.

### Giriş

Muhəmməd *(Allahın ona salavatı və salamı olsun)* ümməti orta ümmətdir. Bu ümmət hər hansısa şəxs barədə həddi aşmaqdan, eyni zamanda ona qarşı haqsızlıq etməkdən uzaqdır. Onlar nə ifrata varır, nə də səhlənkarlıq edirlər. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* bu ümmətə ifrata varmağı qadağan edərək belə buyurub: ***"Dində həddi aşmaqdan çəkinin. Çünki sizdən öncəkiləri həlak edən şey, dində həddi aşmaları olmuşdur."***[1]

Həddi aşmağı qadağan etmək, həmçinin şirki də qadağan edir. Çünki dində həddi aşmaq şirkə yol açan bir vasitədir. Şirk isə Allaha qarşı edilən ən böyük günahdır. Ona görə də, bu ümmət də şirkdən həzər etməlidir ki, əvvəlki ümmətlər kimi həlak olmasınlar və dünyalarını ziyana uğradıb, axirətlərini məhv etməsinlər.

Dində həddi aşmağın təzahürlərindən biri də, peyğəmbərlər və salehlər haqqında həddi aşmaqdır. Həqiqətən, şeytanlar saleh şəxslər barədə ifrata varmağa və həddi aşmağa sövq etməklə insanları Allahın yaratdığı fitrətdən çıxara bilirlər. Onlardan biri öz yoldaşlarına tövsiyə edərək belə demişdir: **"Öz məbudlarınızı tərk etməyin; Vəddi, Suvaı, Yəğusu, Yəuqu və Nəsri tərk etməyin!"**[2]

Aşağıda gələn məqamlara toxunmaqla ifrata varmağın təzahürlərini izah edəcəyik:

---

[1] Nəsai "Sunən", Həcc ayinləri kitabı, "Daş atmaq" bölümü. Həmçinin İbn Macə "Sunən", Həcc ayinləri kitabı, "Atılan daşların sayı" bölümü. Şeyx Albani "Sahih Sunən ibn Macə" (2\176-177) əsərində səhih olduğunu deyib.
[2] Nuh, 23

## Birinci məqam: Şəxsləri təriflməkdə həddi aşmaq

Məxluqun müəyyən bir dərəcəsi və məqamı vardır ki, onu aşa bilməz. Əgər insanlar bu məxluqu təriflməkdə həddi aşsalar və onu aid olmadığı dərəcəyə nisbət etsələr, artıq onun barədə ifrata varmış sayılırlar. İnsanların bütlərə ibadət etməsinə səbəb də məhz bu olmuşdur. İlk öncə onlar hansısa məxluqu təriflməkdə həddi aşmış və onu aid olmadığı məqama yüksəltmişlər, nəticədə insanlar bu məxluqu Uca Allaha bənzətmiş və ona ilahlıqdan pay verilmişlər. Uca Allah isə bu cür bənzətmənin batil olduğunu bildirmiş və bunu inkar etmək və bu insanlara cavab vermək üçün elçilər göndərmişdir."[1]

Muhəmməd *(Allahın ona salavatı və salamı olsun)* Adəm övladlarının ağası, elçilərin və peyğəmbərlərin ən üstünü, ən birinci şəfaət edən və ən birinci şəfaəti qəbul olunan kəsdir. Buna baxmayaraq, o özü barədə həddi aşmaqdan və onu *(Allahın ona salavatı və salamı olsun)* tərfiləməkdə ifrata varmaqdan çəkindirmişdir. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurur: ***"Nəsranilər Məryəm oğlu İsanı təriflməkdə həddi aşdıqları kimi, siz də məni təriflməkdə həddi aşmayın. Mən yalnız Allahın quluyam. Deyin ki, "Allahın qulu və elçisi".***[2]

Bir zaman insanlar Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* yanına gələrək "Ey bizim xeyirlimiz, xeyirlimizin oğlu, bizim ağamız, ağamızın oğlu" deyə ona müraciət etdilər. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* onlara belə dedi: ***"Ey insanlar! Sözünüzü deyin, lakin qoy şeytan sizi aldadıb haqdan yayındırmasın. Mən Allahın qulu və elçisi Muhəmmədəm. Məni Uca Allahın qoyduğu dərəcədən yuxarı qaldırmağınızı istəmirəm."***[3]

Əgər Allah elçisini *(Allahın ona salavatı və salamı olsun)* həddindən artıq təriflmək barədə belə qadağa gəlibsə, deməli, ondan başqasını həddən artıq təriflmək heç olmaz.

Allah elçisini *(Allahın ona salavatı və salamı olsun)* təriflməkdə həddi aşmaq onu sevməyə dəlil deyil. Allah elçisinə *(Allahın ona salavatı və salamı olsun)* olan sevgi, ona olan tabeçilikdən bilinir. Əgər Allah elçisini *(Allahın ona salavatı və salamı olsun)* təriflməkdə həddi aşanlar, doğrudan da, onu sevsəydilər, o zaman

---

[1] Bax: Siddiq Həsən Xan "Əd Dinul Xalis" (2\445).
[2] Sahih Buxari, Peyğəmbərlərin hədisləri kitabı, "Uca Allahın "Ey kitab əhli, dininizdə həddi aşmayın" kəlamı bölümü.
[3] İmam Əhməd "Müsnəd" (3\153, 241).

onu tərifləməkdə ifrata varmazdılar. Çünki Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* özü bundan çəkindirib və bizə də əmr edib ki, onun çəkindirdiyi şeylərdən çəkinək. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurub: ***"Əgər mən sizə bir şeyi qadağan etdimsə, ondan çəkinin. Əgər sizə bir şeyi əmr etdimsə, ondan bacardığınız qədər yerinə yetirin."***[1] Biz Peyğəmbəri *(Allahın ona salavatı və salamı olsun)* çox sevirik və o bizə özümüzdən, valideynimizdən, ailəmizdən, övladlarımızdan, mal-dövlətimizdən də sevimlidir. Həmçinin biz bilirik ki, Peyğəmbərə *(Allahın ona salavatı və salamı olsun)* tabeçilikdən və onun əmrlərini yerinə yetirib, qadağan etdiyi və çəkindirdiyi şeylərdən çəkinməkdən başqa, Allaha tərəf gedən yolumuz yoxdur. Bu səbəbdən də biz onun qadağan etdiyi şeyləri etmirik, onu tərifləməkdə ifrata varmırıq və onun dəyərli şəxsiyyəti barədə həddi aşmırıq.

## İkinci məqam: Peyğəmbərlər və salehlərin şəkillərini çəkmək və onların heykəllərini düzəltmək.

Adəm övladları arasında şirkin ilk dəfə baş vermə səbəbi, salehlər haqqında həddi aşmaq, onları müqəddəsləşirmək və heykəllərini düzəltmək olmuşdur. Böyük İslam alimi İmam Əl Buxari öz "Səhih" əsərində İbn Abbasın *(Allah ondan və atasından razı olsun)* belə dediyini rəvayət edir: "Nuh qövmündə olan bütlər sonradan ərəblərdə idi. Vədd, Dəvmət əl Cəndəl şəhərindəki Kəlb qəbiləsinin bütü idi. Suva, Huzeyl qəbiləsinin bütü idi. Yəğus, Murad qəbiləsinin, daha sonra Cəufda (Yəməndə olan bir vadinin adıdır) Səbənin yanında olan bəni Ğutayf qəbiləsinin bütü idi. Yauq, Həmzən qəbiləsinin bütü idi. Nəsr isə Himyərdə Zil Kilə ailəsinin bütü idi. Bunlar vaxtı ilə Nuh qövmündə olan saleh insanların adlarıdır. Həmin saleh şəxslər öldükdən sonra şeytan onların qövmünə vəsvəsə verdi ki, oturduqları məclislərdə onların heykəllərini qoysunlar və onları salehlərin adları ilə adlandırsınlar. Onlar belə də etdilər, amma hələ onlara ibadət edilmirdi. O zaman ki, həmin nəsil öldü və elm aradan qalxdı, insanlar bu bütlərə ibadət etməyə başladılar."[2]

---

[1] Sahih Əl Buxari, Kitəbul İtisam, "Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* sünnəsinə tabe olmaq" bölümü.
[2] Sahih Əl Buxari, Təfsir Kitabı, "Vəddi, Suvaı, Yəğusu, Yəuqu və Nəsri tərk etməyin!" bölümü.

İlk dəfə bütlər Nuh peyğəmbərin *(Allahın ona salavatı və salamı olsun)* zamanında ortaya çıxmışdır. O zaman övladlar valideynlərinə qarşı xeyirxah idilər. Onlardan bir kişi vəfat etdikdə övladı buna çox üzülür və səbr edə bilmirdi, bu səbəbdən onun surətində bir heykəl düzəldir və hər dəfə onun üçün darıxdıqda həmin heykələ baxırdı. Müəyyən vaxtdan sonra o özü də dünyasını dəyişir və ondan sonra gələnlər də onun etdiyini edirdilər və bu ardıcıl olaraq davam edirdi. Bir müddət sonra bunlar da vəfat etdi və sonrakı nəsillər dedilər ki, bu şəxslər ata-babalarımızın ilahları olub deyə onların heykəlini qoyublar. Beləliklə, insanlar həmin bütlərə ibadət etməyə başladılar.[1]

Onların saleh şəxslərin şəkillərini çəkməkdə və bu şəkilləri öz məclislərindən asmaqda səhlənkarlıq etmələri, sonradan övladlarının Uca Allahı qoyub bu şəkillərə və heykəllərə ibadət etmələrinə səbəb olmuşdur. İmam Qurtubi *(Allah ona rəhmət etsin)* belə deyir: "Əvvəlkilər bunu edirdilər ki, onların heykəllərinə baxdıqda rahatlıq tapsınlar, onların saleh əməllərini xatırlasınlar, qəbirləri yanında Uca Allaha ibadət etsinlər və Allaha ibadətdə onlar kimi çalışa bilsinlər. Müəyyən bir vaxt keçdikdən sonra onların ardınca onların məqsədini bilməyən və bu heykəlləri nə üçün qoyduqlarından cahil olan bir toplum gəldi. Şeytan onlara vəsvəsə verdi ki, sizin ata-babalarınız bu heykəllərə ibadət edir və onlara təzim edirdilər. Beləcə onlar bu heykəllərə və şəkillərə ibadət etməyə başladılar. Bu səbəbdən də, Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* insanları bu cür əməllərdən şiddətli şəkildə çəkindirmiş, bunun pis bir əməl olduğunu bildirmiş, onu edənləri şiddətli əzabla hədələmiş və bu cür əməllərə aparan bütün yolların qarşısını almışdır."[2]

Şəkil asmaq insanların aldanmasına və Allahı qoyub bu şəkillərə ibadət etməsinə aparıb çıxarır. Bu səbəbdən də şəkil çəkməyin haram olmasına dair bir çox hədislər varid olmuşdur. Bu hədislərdən:

1. Əbul Həyyəc Əl Əsədi rəvayət edir ki, Əli İbn Əbu Talib *(Allah ondan razı olsun)* mənə belə dedi: ***"Allah elçisinin (Allahın ona salavatı və salamı olsun) vaxtilə məni göndərdiyi bir işin dalınca səni göndərimmi? Məhv etmədiyin bir***

---

[1] Bax: İbn Həcər "Fəthul Bəri" (8\669).

[2] Bax: Qurtubi "əl Mufhəmu Şərhu Sahihi Muslim" (2\931-932). Həmçinin bax: Qurtubi "əl Cəmiul Əhkəmil Quran" (18\198-199). Şeyx İbn Useyminin "Məcmuus Səmin" (2\249).

***dənə də olsun şəkil, yerlə bərabər etmədiyin bir dənə də olsun hündür qəbir qalmasın".***[1]

2. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə deyib: ***"Həqiqətən, Qiyamət günü ən şiddətli əzaba düçar olanlar, şəkil çəkənlər olacaqdır."***[2] Bu hədis heyvanların da şəklini çəkməyin haram olmasına dəlalət edir. İmam Nəvəvi *(Allah ona rəhmət etsin)* demişdir: "Alimlər deyir ki, heyvanların şəklini çəkmək də şiddətli şəkildə haram edilən böyük günahlardandır. Çünki şəkil çəkənlər üçün şiddətli təhdid vardır və istər təzim edilən, istərsə də dəyərsiz sayılan bir şey olsun, canlıların şəklini çəkmək haramdır."[3]

3. Bir kişi Abdullah ibn Abbasın *(Allah ondan və atasından razı olsun)* yanına gələrək belə dedi: "Ey Abbasın atası! Mən elə bir adamam ki, mənim dolanışığım əlimin sənəti ilə olur və mən belə şəkillər düzəldirəm. İbn Abbas ona dedi ki, mən sənə yalnız Allah elçisindən *(Allahın ona salavatı və salamı olsun)* eşitdiklərimi deyəcəyəm. Bir dəfə Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* belə dediyini eşitdim: ***"Kim bir şəkil çəkərsə, ona ruh üfürmədikcə Uca Allah həmin kəsə əzab verər. Əlbəttə ki, o heç vaxt ona ruh üfürən deyil".*** Kişi bunları eşidib çox qorxdu, köksü daraldı və üzü saraldı. İbn Abbas ona belə dedi: "Əgər sən mütləq bu işi görməli olsan, o zaman ağac kimi ruhu olmayan hər bir şeyin şəkilini çəkə bilərsən."[4]

4. Bir dəfə Əbu Hureyra *(Allah ondan razı olsun)* Mərvan ibn Həkəmin evinə daxil oldu və orada şəkillər görüb belə dedi: "Mən Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* belə dediyini eşitmişəm: "Uca və Qüdrətli Allah belə buyurub: ***"Mənim yaratdığım kimi yaratmaq istəyən kəsdən daha zalım kim ola bilər?! Əgər bacarırsa, qoy bir qarğıdalı dənəsi, yaxud buğda və ya arpa dənəsi yaratsın."***[5]

---

[1] Bax: Sahih Muslim, Cənazə Kitabı, "Qəbirləri suvamağı və üzərinə bina tikməyin qadağan olunması" bölümü.
[2] Sahih Buxari, libas kitabı, "Şəkil çəkənlərə Qiyamət günü əzab verilməsi" bölümü. Sahih Muslim, Zinət və geyim kitabı, "Heyvan şəkillərinin çəkilməsinin haram olması və yataq və başqa yerlərdə alçaldılmayan şəkilləri əldə etməyin haramlığı" bölümü.
[3] İbn Həcər "Fəthul Bəri" (10\384).
[4] Sahih Buxari, Alqı satqı kitabı, "Ruhu olmayan varlıqların şəkillərinin satışı və bunlardan bəyənilməyənlər" bölümü. Sahih Muslim, Zinət və geyim kitabı, "Heyvan şəkillərinin çəkilməsinin haram olması" bölümü.
[5] Sahih Buxari, Geyim kitabı, "Şəkillərin pozulması" bölümü. Sahih Muslim, Zinət və Geyim kitabı, "Heyvan şəkilinin şəkilməsinin haram olması" bölümü.

**Üçüncü məqam: Peyğəmbərlərdən və salehlərdən qalan (bədənlərindən ayrılan və ya istifadə etdikləri) şeylərdən bərəkət ummaq**

Təbərruk, bərəkət istəməkdir. Bərəkət isə xeyrin çox olması, artması və davamlı olmasıdır.[1]

Bərəkət umulan bir şeydə bəzən dini cəhətdən, bəzən də dünyəvi cəhətdən bərəkət olur. Bəzən isə bir şeydə həm dini, həm də dünyəvi xeyirlər cəm olunur.

**Birinciyə misal:** Buna üç məscidi, əl-Məscidul Haramı, Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* məscidini və Aqsa məscidini misal göstərmək olar. Bu məscidlərdə qılınan namazın əcrinin böyüklüyünə və onlarda olan başqa dini xeyirlərə görə.

**İkinciyə misal:** Buna isə su və südü misal çəkmək olar. Onlarda dünyəvi cəhətdən çoxlu xeyirlər və faydalar vardır.

**Üçüncüyə misal:** Buna isə Qurani Kərimi misal göstərmək oilar. Onda həm dini, həm də dünyəvi cəhətdən çoxlu xeyirlər vardır. Kim ona möhkəm sarılarsa, həm dünyada, həm də Axirətdə nicat tapar. Həmçinin Quran həm qəlblər, həm də bədənlər üçün şəfadır.[2]

Bizim bu mövzuda danışmaq istədiyimiz isə müəyyən şəxslərdən bərəkət ummaq barədədir.

Bu da iki qismə ayrılır:

1. Onların özlərindən bərəkət ummaq.
2. Onlardan sonra qalan (bədənlərindən ayrılan yaxud istifadə etdikləri) şeylərdən bərəkət ummaq.

Əgər təbərruk edən təbərruk etdiyi kəsin özünün bərəkət bəxş etdiyini, müstəqil olaraq hər hansı bir şeyə bərəkət verdiyini etiqad edərsə, və ya ondan yalnız Allahın qadir olduğu bir şeydə xeyir umarsa, bu zaman yuxarıdakı iki qismin hər biri *böyük* şirk hesab olunur.

Buna şirk deməyimizin səbəbi budur ki, bərəkəti var edən və onu insanlara verən yalnız Uca və Qüdrətli Allahdır, qullar isə sadəcə bir səbəbdir. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* barmaqlarının arasından su çıxdığı zaman belə dedi: ***"Bərəkət Allahdandır."***[3] Həmçinin O *(Allahın ona salavatı və salamı*

---

[1] İbn Fərisi "Mucəmul Məqəyəisil Luğəh" (1\230). Əzhərinin "Təhzibul Luğəh" (10\231).
[2] Bax: Dr. Nəsir ibn Abdurrahman əl Cədin "Ət Təbərruk, Ənvəuhu və Əhkəmuhu" (səh. 43). Dr. Abdullah ibn Cibrin "Muzəkkirətu Aqidətil İsləmiyyəh" (səh. 93).
[3] Sahih Buxari, İçkilər kitabı, "Bərəkətli su və bərəkətli içki" bölümü.

*olsun)* öz Rəbbinə xitab edərək belə buyurur: ***"Bütün xeyirlər Sənin iki əlindədir."***[1]

Amma əgər təbərruk edən şəxs təbərruk etdiyi kəsin bərəkət verdiyini etiqad etməzsə, əksinə, bərəkəti Allaha nisbət edərsə, bu zaman məsələdə təfsilat var. Çünki təbərruk edilən kəs həm Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)*, həm də başqa övliya və salehlər ola bilər.

## Bərəkət umulan şəxslərin növləri:

**Birinci: Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* ilə təbərruk etmək (onun vasitəsilə bərəkət ummaq).**

Əgər təbərruk edilən Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* olarsa, şəkk yoxdur ki, Allah elçisinin hərəkətləri və davranışları mübarək olduğu kimi, onun özü və ondan sonra qalan şeylər də mübarəkdir.[2]

Səhabələr *(Allah onlardan razı olsun)* Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* özü ilə, həmçinin Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* həyatda ikən ondan ayrılan hissi şeylərlə təbərruk edirdilər, Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* də bunu görüb təsdiq edirdi və onlara etiraz etmirdi. Həmçinin səhabələr və onlardan sonra gələn saleh sələflər Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* vəfatından sonra ondan qalan şeylərlə təbərruk edirdilər, bu da təbərrukun Şəriətlə icazəli olmasına dəlalət edir.[3] Necə ki, möminlərin anası Aişə *(Allah ondan razı olsun)* Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* əli ilə təbərruk edərdi, Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* ağrıları artdığı zaman onun ovucuna İxlas, Fələq və Nəs surələrini oxuyaraq bədəninə sürtərdi və özü də dediyi kimi bundan bərəkət umardı. Səhabələr *(Allahın onlardan razı olsun)* bərəkət umaraq Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* əllərini özlərinə sürtər və onları öz üzlərinə

---

[1] Sahih Muslim, Müsafirlərin namazı və namazı qısaltmaq kitabı, "Gecə namazında dua" bölümü.

[2] Bax: Dr. Nəsir ibn Abdurrahman əl Cədii "Təbərruk: Ənvəuhu və Əhkəmuhu" (səh. 243).

[3] Bax: Dr. Nəsir ibn Abdurrahman əl Cədii "Təbərruk: Ənvəuhu və Əhkəmuhu" (səh. 243).

qoyardılar.[1] Həmçinin onlar Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* saçı ilə təbərruk edərdilər, o da bunu görüb bir söz deməzdi, hətta özü onlara öz saçından paylayardı.[2] Həmçinin onlar Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* təri[3] və ağız suyu[4] ilə təbərruk edib, onu üzlərinə və dərilərinə sürtərdilər.[5] Bu ümmətin ən xeyirlisi olan səhabələrin Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* həyatda ikən, həm də onun vəfatından sonra onunla təbərruk etmələri barədə Sünnə kitablarında kifayət qədər dəlillər vardır.[6]

Onların nail olduqları ən böyük bərəkət isə Allah elçisinə *(Allahın ona salavatı və salamı olsun)* tabeçilik və onun yolu ilə getmək idi. Şeyxulislam ibn Teymiyyə *(Allah ona rəhmət etsin)* belə deyir: "Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* Mədinəyə gəldiyi zaman Mədinə əhli ona iman gətirib itaət etdikləri üçün bərəkət içində yaşadılar və onun bərəkəti ilə həm dünyada, həm də Axirətdə səadətə nail oldular. Eləcə də Allah elçisinə *(Allahın ona salavatı və salamı olsun)* iman gətirən və itaət edən hər bir mömin imanına və itaətinə görə həm dünyada, həm də Axirətdə onun bərəkətinə nail olur."[7]

### İkinci: Allah elçisindən *(Allahın ona salavatı və salamı olsun)* savayı övliyalar və salehlərlə təbərruk etmək (bərəkət ummaq):

Allah elçisindən *(Allahın ona salavatı və salamı olsun)* başqası ilə təbərruk etməyin icazəli olmasına dair Şəriətdə heç bir dəlil varid olmayıb. Bu səbəbdən də salehlərin və övliyaların bədənləri ilə və ya onlardan qalan şeylərlə təbərruk etmək bidət olan təbərrukə daxildir. Ona görə də nə səhabələrin, nə də tabeinlərin hər hansı bir saleh insanla təbərruk etmələri varid olmamışdır. Onlar Allah elçisindən *(Allahın ona salavatı və salamı olsun)* sonra nə bu ümmətin ən

---

[1] Sahih Buxari, Kitəbul mənəqib, "Allah elçisinin *(Allahın ons salavatı və salamı olsun)* vəsfləri" bölümü. Sahih Muslim, Fəzilətlər kitabı, "Allah elçisinin *(Allahın ons salavatı və salamı olsun)* insanlara yaxınlığı və onunla təbərruk etmələri" bölümü.
[2] Sahih Muslim, Həcc kitabı, "Bayram günü daş atıb, qurban kəsib sonra saçı qırxmağın sünnə olmasının izahı" bölümü.
[3] Sahih Muslim, Fəzilətlər kitabı, "Allah elçisinin *(Allahın ons salavatı və salamı olsun)* tərinin gözəl iyi və onunla təbərrük edilməsi" bölümü.
[4] Sahih Byxari, Əqiq kitabı, "Əqiq kəsilməyən və təhnik (xurmanı ağızda əzərək körpəyə verilməsi) edilməyən yeni doğulan körpəyə səhəri gün ad qoymaq" bölümü. Sahih Muslim, Ədəblər kitabı, "Yeni doğulan körpəyə təhnik (xurmanı ağızda əzərək körpəyə verilməsi) edilməsinin müstəhəb olması" bölümü.
[5] Sahih Buxari, Şərtlər kitabı, "Cihaddakı şərtlər və  müharibə edənlərlə sülh bağlamaq" bölümü.
[6] Bu haqda təfsilata  bax: Dr. Nəsir ibn Abdurrahman əl Cədii "Təbərruk, Ənvəuhu və Əhkəmuhu" (243-260).
[7] Şeyxulislam ibn Teymiyyə "Məcmuul Fətəvə" (11\113).

fəzilətlisi olan Əbu Bəkr, nə Cənnətlə müjdələnən on səhabə, nə Əhli beyt, nə də başqa birisi ilə təbərruk etməyiblər. Əgər bu xeyirli bir iş olsaydı, onlar mütləq bu işdə bizi qabaqlayardılar. Çünki onlar xeyir işlərə və yaxşı əməllərə çox həris idilər."[1]

Səhabələr Allah elçisindən *(Allahın ona salavatı və salamı olsun)* başqa kiminsə bədəni ilə və ya ondan qalan şeylərlə təbərruk etməyi tərk etməkdə icma etmişdilər.[2] Bu da bu cür təbərrukun Şəriətlə icazəli olmadığına dəlildir.

**Həmçinin bilmək lazımdır ki, Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* ilə başqasını müqayisə etmək icazəli deyil. Bu bir neçə səbəbə görədir. Onlardan:**

1. Onlar fəzilət və bərəkətdə nəinki Allah elçisinə *(Allahın ona salavatı və salamı olsun)* bərabər olmaq, heç ona yaxın ola bilməzlər. Övliya və salehlərdən heç biri Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* ilə fəzilət və bərəkət baxımından müqayisə edilə bilməz.

2. Salehliyin dəqiqləşdirilə bilinməməsi. Çünki bu ancaq qəlbin salamatlığı ilə gerçəkləşir və bunu da ancaq açıq-aydın dəlillə bilmək mümkündür. Məsələn, səhabələr kimi. Onları Uca Allah və Onun elçisi tərifləmişdir. Həmçinin tabeinlərdən olan və dində əməlisaleh olmaları ilə tanınan imamlar, hansı ki, böyük İslam alimləri onların saleh olmaları barədə şahidlik etmişlər. Amma başqalarına gəldikdə isə biz onlar haqqında ancaq saleh olmaları barədə zənn edib onlar üçün ümid edə bilərik.

3. Hətta biz bir şəxsin saleh olmasını zənn etsək belə, onun sonluğunun pis olmayacağına əmin ola bilmərik. Çünki əməllər sonluğuna görə ölçülür. Bu səbəbdən də onlar təbərruk ediləcək kəslər deyil.

4. Səhabələr *(Allah onlardan razı olsun)* nə Alah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* sağlığında, nə də onun vəfatından sonra Allah elçisindən başqası ilə təbərruk etməyiblər. Əgər bunda xeyir olsaydı, onlar mütləq bizi bu işdə qabaqlayardılar.

---

[1] Dr. Abdullah ibn Cibrin "Muzəkkirətu Aqidətil İsləmiyyəh" (səh. 95).

[2] Onların bu məsələdə icma etməsini nəql etmişlər: İmam Şatibi "İtisam" (2\8-9). Alləmə Siddiq Həsən Xan "Əd Dinul Xalis" (2\249-250). Şeyx Suleyman ibn Abdullah "Təysirul Azizil Həmid" (səh. 186). Şeyx Abdurrahman ibn Həsən "Fəthul Məcid" (səh.188) və başqaları

Deməli, Allah elçisindən *(Allahın ona salavatı və salamı olsun)* başqa heç bir saleh insanın və ya övliyanın bədəni ilə, nə də ondan qalan şeylərlə təbərruk etmək, onlardan bərəkət ummaq icazəli deyil. Çünki səhabələr Allah elçisindən *(Allahın ona salavatı və salamı olsun)* başqasının bədəni və ya ondan qalan şeylərlə təbərruk etməyi tərk etməkdə icma etmişlər.

## Dördüncü məsələ: Şirkə aparan vəsilələrdən biri də bidət bayramlar və mərasimlərdir

### Giriş

Uca Allah Muhəmməd *(Allahın ona salavatı və salamı olsun)* ümməti üçün il ərzində iki bayram, həftə ərzində isə bir bayram təyin etmişdir. "Dünyada möminlərin üç bayramı var. Həftədə bir dəfə olan bayram hər həftə təkrarlanır. İldə iki dəfə olan bayram isə il ərzində hərəsi bir dəfə olur və təkrarlanmır."[1] Bunlar Ramazan və Qurban bayramıdır.

Bunlardan savayı bayramlar və mərasimlər uydurmaq icazəli deyil və sonradan ortaya çıxan bayramların hamısı Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* qadağan etdiyi bidətə daxildir. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurub: ***"İşlərin ən şərlisi dində sonradan ortaya çıxan yeniliklərdir. Hər bir bidət isə zəlalətdir."***[2]

Hafiz İbn Rəcəb *(Alah ona rəhmət etsin)* belə deyir: "Bu məsələdə əsas odur ki, müsəlmanlar şəriətdə bayram olmasına dair dəlil olmayan bir günü bayram etmirlər. Şəriətdə gələn bayramlar Ramazan bayramı, Qurban bayramı və təşriq günləridir. Bunlar il ərzində olan bayramlardır. Cümə günü isə həftədə bir dəfə olan bayramdır. Bunlardan əlavə hansısa günü və ya mövsümü bayram etmək, şəriətdə heç bir əsası olmayan bidətdir."[3]

Sonradan insanlar Allahın və Rəsulunun *(Allahın ona salavatı və salamı olsun)* təyin etmədiyi bayramlar uydurdular, Allahın dinində bidətlər etdilər, bu dində nəsə artırıb-əksiltməklə Uca Allahın bu sözünə qarşı çıxdılar: **"Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və bir din olaraq sizin üçün İslamı bəyənib seçdim".**[4]

---

[1] İbn Rəcəb əl Hənbəli "Lətaiful Məarif fimə Liməvəsimil Aami minəl Vəzaifi" (səh. 480).
[2] Sahih Muslim, Cümə kitabı, "Xütbəni və namazı yüngülləşdirmək" bölümü.
[3] İbn Rəcəb əl Hənbəli "Lətaiful Məarif fimə Liməvəsimil Aami minəl Vəzaifi" (səh. 228).
[4] Maidə, 3

**Dr. Abdullah ibn Cibrin insanların sonradan uydurduğu bidət bayram və mərasimləri üç növə ayırıb:**[1]

**Birinci növ:** Şəriətlə təzim edilməyən və heç bir mühüm hadisə baş verməyən günlər.

Bu növə dair misallardan, Rəcəb ayında sonradan dinə əlavə edilən namaz, oruc, zəkat kimi ibadətlər. Hafiz ibn Rəcəb belə deyir: "Namaza gəlincə Rəcəb ayına məxsus xüsusi bir namaz barədə heç bir səhih dəlil yoxdur. Rəcəb ayının ilk cümə gecəsində olan "Rəğaib" namazının fəzilətləri haqqında rəvayət olunan bütün hədislər isə yalan və batildir, bunun heç bir əsası yoxdur. Bu namaz cumhur alimlərə görə bidətdir."[2] "Xüsusi olaraq Rəcəb ayında oruc tutmağa gəldikdə isə, nə Allah elçisindən, *(Allahın ona salavatı və salamı olsun)* nə də səhabələrdən *(Allah onlardan razı olsun)* bunun fəziləti barədə səhih dəlil varid olmayıb."[3] "Rəcəb ayında zəkat verməyə gəldikdə isə bu ölkələrin əhalisi zəkatı bu ayda çıxartmağa vərdiş ediblər, Sünnədə isə bunun heç bir əsası yoxdur, nə də sələflərdən hər hansı birinin bu cür əməl etməsi məlum deyil."[4]

**İkinci növ:** Şəriətdə fəzilətinə dair dəlillər varid olan günlər və gecələr.

Əgər Şəriətdə həmin günlərdə hansısa ibadətin edilməsinə dair səhih dəlil varsa, müsəlman yalnız o ibadətləri edə bilər və həmin günlərdə Şəriətdə əsli olmayan ibadətlər ortaya çıxara bilməz. Məsələn, Şaban ayının on beşinci gecəsində min rükət namaz qılmaq və ya başqa bidət əməllər kimi. İbn Əl Qeyyim *(Allah ona rəhmət etsin)* deyir ki, bu namaz Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* hicrətindən dörd yüz il sonra İslam dininə əlavə edilmiş bir yenilikdir.[5]

**Üçüncü növ:** Müəyyən günlərdə və ya gecələrdə mühüm hadisələr baş verib, lakin onların fəzilətinə dair yaxud həmin günlərdə Allaha xüsusi ibadətlər etməyin və mərasimlər keçirməyin icazəli olmasına dair Şəriətdə heç bir dəlil varid olmayıb.

---

[1] Dr. Abdullah ibn Cibrin "Muzəkkirətu Aqidətil İsləmiyyəh" (səh. 161-169).
[2] İbn Rəcəb əl Hənbəli "Lətaiful Məarif fimə Liməvəsimil Ami minəl Vəzaifi" (səh. 228)
[3] İbn Rəcəb əl Hənbəli "Lətaiful Məarif fimə Liməvəsimil Ami minəl Vəzaifi" (səh. 228)
[4] İbn Rəcəb əl Hənbəli "Lətaiful Məarif fimə Liməvəsimil Ami minəl Vəzaifi" (səh. 231)
[5] Bax: İbn Əl Qeyyim "Əl Mənərul Munif fis Sahihi vəd Daif" (səh. 99)

## Buna dair misallar:

### 1. İsra və Merac hadisəsi:

Həm İsra, həm də Merac hadisəsi Allahın kitabında və Elçisinin *(Allahın ona salavatı və salamı olsun)* sünnəsində varid olmuş gerçək hadisələrdir. Lakin bu hadisələrin konkret hansı gün baş verdiyi haqqında səhih və ya zəif bir hədis varid olmamışdır. Hətta hansı ay baş verməsini təyin etmək üçün etibar ediləcək bir məlumat yoxdur. Şeyxulislam İbn Teymiyyə *(Allah ona rəhmət etsin)* belə deyir: "Bunun nə hansı ayda, nə hansı on günlükdə, nə də hansı gündə baş verməsi barədə məlum bir dəlil yoxdur. Əksinə bu haqda olan nəqllərin hamısının sənədi ixtilaflı və qırıqdır, onlarla qəti hökm vermək olmur". [1]

Hətta əgər bu hadisənin baş verdiyi gecə dəqiq bilinsəydi belə, Şəriətdə dəlil olmadığı üçün bu gecəni xüsusiləşdirmək və bu gecədə əlavə ibadətlər etməklə onu başqa gecələrdən üstün tutmaq icazəli deyil. Kim bu əməllərdən hər hansı birini edərsə, artıq Allahın dininə ondan olmayan yenilik gətirmiş olar. Şeyx Əli Məhfuz *(Allah ona rəhmət etsin)* Allahın heç bir dəlil nazil etmədiyi və bu əsrdə yaşayanların uydurduğu mərasimlər barədə belə deyir: "Bunlardan biri də Merac gecəsidir ki, Uca Allah o gecədə qoyduğu Şəri hökmlə bu ümməti şərəfləndirmişdir. Artıq bu zəmanədə yaşayan bəzi insanlar həmin gecədə məscidlərdə toplaşmaq, məscidlərdə və minarələrdə israfçılıqla şamlar və çıraqlar yandırmaq, zikr etmək və Quran oxumaq üçün toplaşmaq və Merac qissəsini danışmaq kimi növbənöv bidətlər və münkər əməllər ortaya çıxarmışlar" [2].

### 2. Peyğəmbərin doğum günü hadisəsi:

Alimlər Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* nəinki doğulduğu gecəni, hətta doğulduğu ayı belə dəqiqliyi ilə təyin edə bilməyiblər və bu haqda alimlər arasında məşhur fikir ayrılığı vardır. Onlardan bəziləri Peyğəmbərin *(Allahın ona salavatı və salamı olsun)* Rəcəb ayında, bəziləri isə Ramazan ayında doğulduğunu deyiblər. Bəzi alimlər isə deyib ki, O *(Allahın ona salavatı və salamı olsun)* Rabiul Əvvəl ayında doğulub. Hətta Allah elçisinin *(Allahın ona salavatı və*

---

[1] Bu haqda ondan tələbəsi ibn əl Qeyyim nəql edib. Bax: "Zədul Məad" (1\57). Həmçinin bax: İbn Həcər "Fəthul Bəri" (7\203). Burada insanların bu hadisələrin baş vermə tarixində böyük ixtilaf etdiklərini qeyd edir.
[2] "Əl İbdəu fi bəyənil-ibtidəi" (s. 141)

*salamı olsun)* Rabiul Əvvəl ayında doğulduğunu deyənlər özləri onun hansı gündə doğulduğu barədə fikir ayrılığına düşüblər. "Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* ayın ikisi, səkkizi, onu, on ikisi, on yeddisi, on səkkizi yoxsa iyirmi ikisimi doğulub?" – deyə ixtilaf ediblər.[1]

Hicrətin dördüncü əsrində Ubeydilər Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* doğumunun Rabiul Əvvəl ayının on ikisi olduğunu iddia etdilər və doğum günü mərasimi bidətini ortaya çıxararaq [2]müsəlmanların dörd əsr boyunca getdikləri yola müxalif oldular. Baxmayaraq ki, onların dediyini təsdiqləyən heç bir dəlil yox idi.

**Alimlərin icma etdikləri odur ki,** İslam ümməti bu ayda ən böyük müsibətlərdən biri ilə qarşılaşıblar, o da Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* vəfat etməsidir. Həmçinin cumhur alimlərin rəyi budur ki, bu hadisə Rabiul Əvvəl ayının on ikisi olub.[3]

Bu səbəbdən də, kim Rabiul Əvvəl ayının on ikisi Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* doğum günü mərasimini qeyd edirsə, o ümmətin ən böyük müsibətini bayram edir. Çünki, alimlər icma ediblər ki, Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* Rabiul Əvvəl ayında və həftənin birinci günü vəfat etmişdir. Cumhur alimlər də onun Rabiul Əvvəl ayının on ikisi vəfat etdiyini deyiblər. Buna görə də, Peyğəmbərin *(Allahın ona salavatı və salamı olsun)* ölüm gününü bayram etmək heç də onu sevmək deyildir.

Hətta Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* doğumu Rabiul Əvvəl ayının on ikisi olsaydı belə, yenə də bu günü bayram etmək icazəli olmazdı, çünki Şəriətdə bunun icazəli olmasına dəlalət edən heç bir Şəri dəlil yoxdur. Həm də ona görə ki, səhabələr *(Allah onlardan razı olsun)* Allah elçisinə *(Allahın ona salavatı və salamı olsun)* tabe olmağa şiddətli şəkildə həris idilər və onların Allah elçisinə *(Allahın ona salavatı və salamı olsun)* olan sevgisi, sonradan gələnlərin sevgisindən daha çox idi, lakin buna baxmayaraq onlar onun doğum gününü qeyd etməyiblər. Həmçinin üç fəzilətli əsrdə yaşayanlardan da heç kim bunu etməyib. Əgər bu işdə xeyir olsaydı, onlar bizi bu işdə ötüb keçərdilər.

---

[1] Bax: İbn Səd "Tabaqatul Kubra" (1\100-101). Və İbn Hişam "Siratun Nəbəviyyəh" (1\158). Və Zəhəbi "Tərixul İsləmi-Qismus Sira" (səh. 25-26). İbn Kəsir "Bidəyə vən Nihəyəh" (3\373-380).

[2] Bax: Məqrizi "əl Məvəiz vəl İtibər bizikril Xutati vəl Əsəri" (1\423-433).

[3] Bax: İbn Səd "Tabaqatul Kubra" (2\272-275). Və Zəhəbi "Tərixul İsləmi-Qismus Sira" (səh. 568-571). İbn Həcər "Fəthul Bəri" (8\129). İbn Rəcəb əl Hənbəli "Lətaiful Məarif fimə Liməvəsimil Aami minəl Vəzaifi" (səh. 212).

Şeyxulisləm ibn Teymiyyə *(Allah ona rəhmət etsin)* Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* doğum gününü bayram edənlər barədə belə demişdir: "O vaxt bunu gərəkdirən səbəb mövcud idi[1] və bunu etməyə heç bir maneə də yox idi, bununla yanaşı sələflər Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* ad gününü qeyd etmədilər. Əgər bu iş tamamilə xeyir olsaydı və ya xeyir cəhətləri daha çox olsaydı, o zaman sələflər bunu etməyə bizdən daha layiq idilər. Onlar Allah elçisini *(Allahın ona salavatı və salamı olsun)* bizdən çox sevir və uca tuturdular, həmçinin onlar xeyir işlərə də bizdən daha həris idilər. Həqiqətən Allah elçisini *(Allahın ona salavatı və salamı olsun)* sevməyin və ucaltmağın kamilliyi, ona tabe olmaqda, itaət etməkdə, əmrini yerinə yetirməkdə, gizlində və aşkarda onun sünnəsini həyata keçirməkdə, onunla göndəriləni yaymaqda və bunun yolunda qəlblə, dillə və əllə cihad etməkdədir. Həqiqətən, xeyir işlərdə hamını ötüb keçən mühacir və ənsarların, həmçinin onların yoluna ən gözəl şəkildə tabe olanların yolu budur."[2]

"Saleh sələflərin Allah eliçisinin *(Allahın ona salavatı və salamı olsun)* doğum gününü qeyd etməmələrinə ən yaxşı dəlil, onun doğum gününün hansı gündə olması barədə ixtilaf etmələridir. Əgər doğrudan da dində bu günə məxsus hansısa ibadətlər olsaydı, səhabələr bu günün hansı gün olduğunu mütləq müəyyən edərdilər, buna maraq göstərərdilər və bu gün onların arasında məlum və məşhur bir gün olardı.[3]

Xülasə budur ki, Uca Allahı və Onun elçisini *(Allahın ona salavatı və salamı olsun)* özündən və övladından çox sevən hər bir müsəlmana vacibdir ki, sevimli Muhəmməd ibn Abdullahın *(Allahın ona salavatı və salamı olsun)* getdiyi yol ilə getsin, ona nazil olan kitabı çox oxusun və əzbərləsin, ilin bütün günlərində onun sünnəsi və həyatı barədə öyrənsin, ona çoxlu salavat və salam desin, xüsusilə də hər həftənin cümə günü və gecəsi ona salavat deməyi çoxaltsın."

---

[1] (Tərc: Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* ad gününü keçirənlər özlərinə bəraət qazandıraraq deyirlər ki, Allah elçisini *(Allahın ona salavatı və salamı olsun)* sevmək vacibdir, bu səbəbdən biz onun ad gününü qeyd edirik. Onlara cavab olaraq deyirik ki, Allah elçisini *(Allahın ona salavatı və salamı olsun)* sevmək o zaman da vacib idi, lakin bu səbəb mövcud ola-ola və bunu etməyə heç bir maneə olmadığı halda sələflər bunu etməyiblər).

[2] Şeyxulisləm ibn Teymiyyənin "İqtidau Siratil Mustəqim" 2\615.

[3] Bax: Dr. Nəsir ibn Abdurrahman əl Cədii "Təbərruk, ənvəuhu və əhkəmuhu" (səh. 363).

# İkinci Fəsil: Küfr və onun növləri

**Özündə üç mövzunu əhatə edir:**

**Birinci mövzu:** Küfrün mənası.

**İkinci mövzu:** Böyük küfrün növləri.

**Üçüncü mövzu:** Kiçik küfrün növləri.

# Birinci mövzu: Küfrün mənası

## Küfrün lüğəvi mənası:

Küfr lüğəvi cəhətdən inkar deməkdir. Bu sözün əsli kəfr, yəni örtmək, pərdə çəkmək sözündən götürülüb. Məsələn: Deyilir ki, əkinci toxumun üstünü torpaqla örtdü, gecənin qaranlığı hər şeyi bürüyüb örtdü. Bu misallarda kəfərə sözü örtdü, bürüdü mənalarında işlədilir. Bir şeyə "küfr" etmək, onu örtmək, gizlətmək deməkdir. Allahın nemətinə küfr etmək, onu inkar etmək, gizlətmək mənasına gəlir.[1]

## Küfrün şəri mənası:

Küfr imanın əksidir. Şəriətdə ona belə tərif verilmişdir: "Küfr – İslamın hasil olması üçün tələb olunan bir şeyi inkar etməkdir. Və ya İslamın kamilliyinin hasil olması üçün tələb olunan bir şeyi inkar etməkdir." [2]

**Lüğəvi və şəri məna arasındakı bağlılıq:** Haqqı inkar edən sanki onun üstünü örtmüş olur. Həmçinin Allahın nemətini inkar edən sanki onu örtmüş və gizlətmiş olur.[3]

**Mühüm qeyd:** Təkfir, şəriətdə olan əhkamlardan biridir. Heç kimə mücərrəd olaraq nəfsi istəyinə və ya ağlı ilə etdiyi qiyasa görə təkfir etmək icazəli deyil. Təkfir Allahın və Onun elçisinin *(Allahın ona salavatı və salamı olsun)* haqqıdır və bu vəsf yalnız layiq olan kəslərə aid edilməlidir. Şeyxulislam ibn Teymiyyə *(Allah ona rəhmət etsin)* belə deyir: "Həqiqətən, bir şeyi vacib və ya haram etmək, savab və cəza vermək, kafir və ya fasiq hökmü vermək Allaha və Onun elçisinə *(Allahın ona salavatı və salamı olsun)* aiddir. Allah və Rəsulundan başqa heç kim bu məsələdə hökm verə bilməz. İnsanların üzərinə düşən isə Allahın və Elçisinin vacib etdiyi şeyi vacib saymaq, haram etdiyi şeyi də haram saymaqdır."[4]

---

[1] Bax: Zəməxşəri "Əsəsul Bələğah" (səh. 547). İbn Fəris "Mucəmu Məqayisil Luğəh" (5\9). Feyruz Əbədinin "Əl Qamusul Muhit" (səh. 605-606). İbn Mənzurun "Lisənul Arab" (5\144). Əsfəhəninin "Mufradətu Ğaribil Quran" (səh. 434). "Mucəmul Vəsit" (səh. 791-792).

[2] Bax: Hafiz Əl Həkəmi "Ələmus Sunnətil Mənşura" (səh.146). Buraykənin "əl Mədxalu Lid Dirasətil Aqidətil İsləmiyyəh" (səh. 181).

[3] Feyruz Əbədi "Əl Qamusul Muhit" (səh. 605).

[4] Şeyxulisləm ibn Teymiyyə "Məcmuul Fətəvə" (5\545).

## İkinci mövzu: Böyük küfrün növləri

**Küfrün iki növü var:** Böyük küfr və kiçik küfr. Böyük küfr etiqadda olur və insanı imandan tamamilə çıxarır. Kiçik küfr isə əməldə olur və imanın kamilliyinə ziddir, insanı tamamilə imandan çıxarmır, lakin imanını naqis edir.[1]

Burada etiqadda olan böyük küfrdən bəhs edəcəyik. Bu da imana zidd olan, insanı dindən çıxaran və Cəhənnəmdə əbədi qalmasını vacib edən etiqadi küfrdür. Uca Allah buyurur: **"Həqiqətən, kafir olan Kitab əhli və müşriklər Cəhənnəm odunda olacaq və orada əbədi qalacaqlar. Onlar məxluqatın ən şərlisidir".**[2]

Bu növə etiqadi küfr dedik, çünki onun yeri qəlbdir.

Dediyimiz kimi, böyük küfr imana ziddir. Biz öyrəndik ki, iman, söz və əməldir: "Qəlbin sözü və əməli, dilin sözü və əzaların əməli." Əgər bu dördü aradan qalxarsa, iman bütünlüklə aradan qalxar. Əgər qəlbin təsdiqi aradan qalxarsa, geridə qalanlar heç bir fayda verməz.[3] Kafir isə az öncə izah etdiyimiz kimi təsdiq etmir, əksinə, inkar edir.

Böyük küfrün bir çox növü vardır. Kim bu növlərin hər hansı biri ilə Allahla qarşılaşarsa, onun bu günahı bağışlanmaz. Böyük İslam alimi İbn Əl Qeyyim *(Allah ona rəhmət etsin)* böyük küfrün növlərindən bəzilərini zikr edərək belə buyurub: "Böyük küfrə gəldikdə isə onun beş növü var: Təkzib etmək küfrü, təsdiq eməklə yanaşı təkəbbürlük göstərmək və boyun əyməkdən imtina etmək küfrü, üz döndərmək küfrü, şəkk etmək küfrü və nifaq küfrü."[4]

Həmçinin büğz etmək küfrü və qeybi bildiyini iddia etmək küfrü də böyük küfrün növlərindəndir.

Allahın izni ilə qarşıda gələn məqamlarda küfrün bəzi növləri barədə müxtəsər olaraq danışacağıq.

---

[1] Bax: Hafiz Əl Həkəmi "Ələmus Sunnətil Mənşura" (səh. 147).
[2] Bəyyinə, 6
[3] Şeyxulisləm ibn Teymiyyə "Məcmuul Fətəvə" (5\545)
[4] İbn Əl Qeyyim "Mədəricus Səlikin" (1\366).

# Birinci məqam: Böyük küfrün növlərindən: Kufrul cuhud (İnkar etmək küfrü)

## Birinci: Tərifi

Bu, insanın qəlbində haqqı bildiyi halda, onu dili ilə təsdiq və etiraf etməməsi, nəticədə əzaları ilə də buna əməl etməməsidir. Qəlbində bildiyi halda, zahirdə onu inkar etməsidir.[1]

## İkinci: Dəlilləri ilə yanaşı buna dair bəzi misallar

**1. Fironun və qövmünün küfrü.** Belə ki, onlar qəlblərində bildikləri halda, dilləri ilə Allahı inkar edirdilər. Necə ki, Uca Allah onlar haqqında belə buyurur: **"Buna qəti inandıqları halda, haqsızcasına və təşəxxüslə onları inkar etdilər. Gör fəsad törədənlərin aqibəti necə oldu!"**[2] Uca Allah onlar haqqında xəbər verərək buyurur ki, onlar inkar etmələrinin səbəbini belə izah edirdilər: **"Onlar dedilər: "Bunların tayfası bizə kölə olduğu halda, biz özümüz kimi iki adama inanacağıq?"**[3]

**2. Yəhudilərin küfrü.** Belə ki, onlar bizim peyğəmbərimiz Muhəmmədin peyğəmbərliyini *(Allahın ona salavatı və salamı olsun)* inkar etdilər, onun barədə olan məlumatları və öz kitablarında olan vəsflərini gizlətdilər. Halbuki onlar onu öz övladlarını tanıdıqları kimi tanıyırdılar. Uca Allah onlar haqqında belə buyurub: **"Kitab verdiyimiz şəxslər onu (Peyğəmbəri) öz oğullarını tanıdıqları kimi tanıyırlar. Həqiqətən də, onlardan bir dəstə haqqı bilə-bilə gizlədir".**[4] Həmçinin Uca Allah buyurub: **"Onlara tanıdıqları peyğəmbər gəldikdə isə onu inkar etdilər. Allah kafirlərə lənət etsin!"**[5]

## Üçüncü: İnkar küfrünün iki növü

Böyük İslam alimi İbn Əl Qeyyim *(Allah ona rəhmət etsin)* inkar küfrünü iki növə ayırır: Ümumi-mütləq inkar və xüsusi-müəyyən inkar. **Ümumi inkar**

---

[1] Bax: Hafiz Əl Həkəmi "Ələmus Sunnətil Mənşura" (səh. 148). Osman Cumua Əd Damiriyyə "Əl Mədxalu Lid Dirasətil Aqidətil İsləmiyyəh" (səh. 337).
[2] Ən Nəml, 14
[3] Muminun, 47
[4] Bəqərə, 146
[5] Əl Bəqərə, 89

Allahın nazil etdiklərini və Onun elçilər göndərməsini bütünlüklə inkar etməkdir. **Müəyyən-xüsusi inkar** isə İslamda olan vaciblərdən hər hansı bir vacibi, və ya dində haram olan bir şeyin haramlığını, və ya Allahın Özünü vəsf etdiyi sifətlərdən hansısa sifəti, və ya Allahın verdiyi xəbərlərdən hansısa xəbəri qəsdən yaxud müxalif olanın sözünü hansısa məqsədə görə Allahın sözündən üstün tutaraq inkar etməkdir."[1]

### Dördüncü: Diqqət edilməsi lazım olan bir məsələ:

Müəyyən və xüsusi inkara daxil olan bu şeylərdən hər hansı birini cahillik və təvil səbəbi ilə inkar edən kəs üzürlü hesab edilir və buna görə kafir olmur. Allahın qüdrətini inkar edən və ailəsinə öldükdən sonra onu yandırmalarını və küləyə səpələmələrini əmr edən kişini buna misal çəkmək olar. Belə etməsinə baxmayaraq, Allah o kişini bağışladı və cahil olduğu üçün ona rəhm etdi. Çünki Allahın onu geri qaytarmağa qadir olduğunu inkar etməsi inadkarlıqdan və ya bilib yalan saydığı üçün deyildi, sadəcə ona çatan elmə əsasən bunu etmişdir."[2]

## İkinci məqam: Böyük küfrün növlərindən: İstikbər və ibə (Təkəbbürlük və boyun əyməkdən imtina etmək) küfrü.

### Birinci: Tərifi

Bu, insanın qəlbi ilə haqqı bilməsi və dili ilə onu etiraf etməsi, lakin ya lovğalıq və təkəbbürlük səbəbindən, ya haqqa və haqq əhlinə xor və həqarətlə baxdığı üçün, ya da başqa bir səbəbə görə haqqı qəbul etməkdən və ona əməl etməkdən imtina etməsidir.[3]

---

[1] İbn əl Qeyyim "Mədəricus Səlikin" (1\367). Sahih Buxari, "Tövhid kitabı" (h. 7508).
[2] Bax: Hafiz Əl Həkəmi "Ələmus Sunnətil Mənşura" (səh. 149). Osman Cumua Əd Damiriyyə "əl Mədxalu Lid Dirasətil Aqidətil İsləmiyyəh" (səh. 338).
[3] Bax: Hafiz Əl Həkəmi "Ələmus Sunnətil Mənşura" (səh. 149). Osman Cumua Əd Damiriyyənin "əl Mədxalu Lid Dirasətil Aqidətil İsləmiyyəh" (səh. 338).

## İkinci: Dəlillərlə bu növə aid bəzi misallar

**1. İblisin küfrü.** Çünki o, Allahın əmrini inkar etmədi. O, Allahın əmrini təkəbbürlə qarşıladı və Onun əmrinə boyun əyməkdən imtina etdi.[1] Uca Allah bu haqda buyurur: **“Bir zaman Biz mələklərə: "Adəmə səcdə edin!"– dedikdə, İblisdən başqa hamısı səcdə etdi. O isə imtina edib təkəbbür göstərdi və kafirlərdən oldu”.**[2]

**2.** Həmçinin buna Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* doğruluğunu və Allah tərəfindən haqq ilə göndərildiyini bilən, onu tanıyan, təsdiq edən və onun doğruluğunda şəkk etməyən, lakin təkəbbürlük səbəbindən ona boyun əyməkdən imtina edən kəsin küfrünü misal çəkmək olar. Bəzən də onun doğruluğunu bilə-bilə öz ata-babalarına təzim və təəssübkeşlik edərək onların dinini tərk etmək istəmir və onların kafir olduğuna şahidlik etmək istəmir deyə, Allah elçisinə *(Allahın ona salavatı və salamı olsun)* itaətdən imtina edir.[3] Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* əmisi Əbu Talibin küfrü də məhz bu idi. O öz qardaşı oğlunun doğru danışdığını bilirdi, hətta öz şeirlərində bunu etiraf da etmişdir:

*“Artıq mən bildim ki, Muhəmmədin dini,*
*Odur dinlər içində ən xeyirli din.*
*Qınaqdan, danlaqdan qorxmasaydım mən,*
*Onu xoşluqla qəbul etdiyimi görərdin”.*[4]

Lakin bunları bilməsi və təsdiq etməsi ona fayda vermədi. Çünki o, insanların onun haqqında “filankəs atalarının və babalarının dinini tərk etdi” demələrindən qorxaraq təslim olmadı və “Lə iləhə illəllah, Muhəmmədun rasulullah” şəhadətini deməkdən üz döndərdi. Abbas *(Allah ondan razı olsun)* Əbu Talibin axirətdəki halı barədə Allah elçisindən *(Allahın ona salavatı və salamı olsun)* soruşduğu zaman, Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* ona belə cavab verdi: ***“O, Cəhənnəmin dərin olmayan bir yerindədir. Əgər mən***

---

[1] Bax: İbn əl Qeyyim “Mədaricus Səlikin” (1\366).
[2] Əl Bəqərə, 34
[3] Bax: İbn əl Qeyyim “Mədaricus Səlikin” (1\366).
[4] İbn Əbil İzzil Hənəfi “Şərhul Aqidətit Tahaviyyəh” (2\461).

***olmasaydım, o Cəhənnəmin ən aşağı təbəqəsində olardı."***[1] O, Cəhənnəmdə əbədi qalacaq, lakin onun əzabı digərlərinə nisbətən daha yüngül olacaqdır.

## Üçüncü məqam: Böyük küfrün növlərindən: Qeybi bildiyini iddia etmək küfrü

### Birinci: Tərifi

Bu, Uca Allahdan başqa kiminsə qeybi bildiyini etiqad etməkdir. Bu da Allahın bu sözünə əks olduğu üçün küfr hesab olunur: **"De: "Allahdan başqa göylərdə və yerdə olanların heç biri qeybi bilməz. Onlar nə zaman diriləcəklərini belə bilmirlər".**[2] Həmçinin Uca Allah buyurur: **"Qeybin açarları Onun yanındadır, Onları yalnız O bilir".**[3]

### İkinci: Buna dair bəzi misallar

Bu növə dair misallar çoxdur. Aşağıda gələn məsələlərdə onlardan bəzisini izah edəcəyik.

## Birinci məsələ: Sehr

### Birinci: Tərifi

**Sehr, lüğəvi cəhətdən** səbəbi gizli və incə olan bir şeydir.[4]

**Amma şəri termin kimi sehr:** Bədənlərə, qəlblərə və ağıllara təsir edən, insanı xəstələndirmək, öldürmək, ər-arvadı bir-birindən ayırmaq üçün edilən ovsunlar, düyünlər, danışılan və ya yazılan bəzi kəlmələr və edilən bəzi əməllərdir.[5]

---

[1] Sahih Muslim, İman kitabı, "Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* əmisi Əbu Talibə şəfaəti və bunun səbəbi ilə onun əzabının yüngülləşdirilməsi" bölümü.
[2] Ən Nəml, 65
[3] Əl Ənam, 59
[4] Bax: əl Cəvhəri "Əs Sihəh" (5\678). Feyruz əl Əbədinin "Qamusul Muhit" (səh. 519).
[5] İbn Qudəmə "əl Muğni" (8\150).

**İkinci: Sehrin qisimləri.** Sehrin iki qismi var:[1]

Birinci qisim: İnsanı qorxuya salan, qəlbinə təsir edən, həqiqətdə isə olmayan xəyallar (gipnoz, fokus, illüziya, gözbağlayıcı kimi). Fironun sehrbazlarının etdiyi sehr belə idi. Uca Allah buyurub: **"Sehrləri sayəsində ona elə gəldi ki, onların kəndirləri və çomaqları hərəkətə gəlib sürünür".**[2]

İkinci qism: Düyünlərə üfürməklə, bitkilərlə, dərman içirməklə və s. şeytan əməlləri ilə edilən həqiqi sehr. Yəhudi Ləbid ibn Əsamın Allah elçisinə *(Allahın ona salavatı və salamı olsun)* etdiyi sehr belə idi.[3] Aişə *(Allah ondan razı olsun)* deyir ki, Allah elçisinə *(Allahın ona salvatı və salamı olsun)* sehr olunmuşdu. Bəzən etmədiyi bir şey ona elə gəlirdi ki, onu edib. Sonra iki mələk gəldi, biri Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* ayaqları, digəri isə başının yanında əyləşərək ona sehr edən həmin yəhudinin əməli, onun bu sehri daraq və üstündəki tüklərlə etdiyini və xurma ağacının budağından düzəlmiş qaba qoyub Zi-Ərvan quyusunda basdırdığını xəbər verdilər. Sonra Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* həmin quyudan sehri çıxardı.[4]

**Üçüncü: Dəlillərlə sehrin hökmü:**

Sehr Quran, Sünnə və İcma ilə haramdır və həlakedici ən böyük günahlardandır.

Allahın kitabından buna dəlil: **"Onlar Süleymanın səltənətində şeytanların oxuduqlarının ardınca getdilər. Süleyman kafir olmadı. Lakin şeytanlar sehri və Babildə Harut və Marut adlı iki mələyə nazil olanı insanlara öyrədərək kafir oldular. Mələklər: "Biz ancaq bir sınağıq, sən gəl kafir olma!"– deməmiş onu heç kəsə öyrətmirdilər. Yəhudilər ərlə arvadı bir-birindən ayıracaq işləri onlardan öyrənirdilər.**

**Lakin onlar Allahın izni olmadan heç kəsə zərər verə bilməzlər. Onlar özlərinə zərər verən, faydası olmayan şeyləri öyrənirdilər. Onlar bilirdilər ki, onu əldə edən kimsə üçün axirətdə heç bir pay yoxdur. Nəfslərinin əvəzində satın aldıqları şey necə də pisdir! Kaş bunu biləydilər!"**[5] Bu ayə sehrin küfr olmasına

---

[1] Şeyx İbn Useymin "Məcmuus Səmin" (2\134).
[2] Ta ha, 66
[3] Sahih Buxari, Tibb kitabı, "Sehr və sehr çıxarılırmı" bölümü. Sahih Muslim, Əssələm kitabı, "Sehr" bölümü.
[4] Şeyx İbn Useyminin "Məcmuus Səmin" (2\134).
[5] Əl Bəqərə, 102

və sehrbazların ərlə-arvadı bir-birindən ayırmasına dəlildir. Həmçinin ayədən məlum olur ki, sehr özü-özlüyündə heç bir zərər və ya fayda vermir və yalnız Allahın izni ilə təsir edir. Çünki xeyri də, şəri də yaradan Uca Allahdır. Həmçinin ayə dəlildir ki, sehri öyrənənlər heç bir fayda verməyən, əksinə, özlərinə zərər verən bir şey öyrənirlər. Bunu etdiklərinə görə Allah yanında onların heç bir payı və nəsibi yoxdur. Bu onlar üçün əzəmətli bir təhdiddir və onların dünya və axirətdə böyük ziyana uğrayacaqlarına dəlalət edir. Həqiqətən, onlar öz nəfslərini ucuz qiymətə satmış kimsələrdir."[1]

Sehrin haram olmasına Sünnədən dəlil: Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurub: ***"Həlak edici günahlardan çəkinin! Bunlar Allaha şərik qoşmaq, sehr..."***[2]

Deməli, sehr həlak edici günahlardandır. İmam Ən Nəvəvi *(Allah ona rəhmət etsin)* sehr haqqında belə demişdir: "Sehrə əməl etmək haramdır və sehr icma ilə ən böyük günahlardandır. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* sehri yeddi həlakedici günahlardan saymışdır. Sehrdən eləsi var ki, küfrdür. Eləsi də var ki, küfr deyil, lakin böyük günahdır. Əgər onda küfrü gərəkdirən söz və ya əməl olarsa, o zaman küfr sayılır, əks təqdirdə isə küfr olmur. Sehri öyrətmək və öyrənmək haramdır."[3] Sehr bəzən küfr olur. Əgər sehrdə Allahdan başqasına: cinlərə, şeytanlara, ulduzlara və s. təzim olarsa, həmçinin əgər onu edənin qeybi bildiyi iddia edilərsə, o zaman küfr sayılır.

"Alimlərin çoxuna görə sehrbazlar kafirdir və onların öldürülməsi vacibdir."[4] Sehrbazın cəzası hədisdə də gəldiyi kimi ***"Boynunun qılıncla vurulmasıdır"***[5] Həmçinin imam Əhmətdən sehrbaz haqqında soruşduqda, o belə dedi: "Əgər bununla tanınar və özü də bunu təsdiq edərsə, öldürülür."[6][7]

---

[1] Şeyx İbn Bəz "Risələtu fi Hukmis Sihri vəl Kəhənəh" (səh. 7).
[2] Sahih Buxari, tibb kitabı, "Şirkin və sehrin həlak edicilərdən olması" bölümü.
[3] İbn Həcər İmam Ən Nəvəvidən nəql edib "Fəthul Bəri" (10\224). Eyni yerdə Hafiz İbn Həcərin sehrin və sehri öyrənməyin hökmü haqqında qeydlərinə bax. Həmçinin bax: "Təfsiru ibn Kəsir" (1\258). Əş Şinqiti "Ədvəul Bəyən" (4\456).
[4] Şeyxulisləm ibn Teymiyyə "Məcmuul Fətəvə" (29\384).
[5] İmam Məlik "Muvatta" (2\871) və Əl Həkim "Mustədrək" (4\360) əsərlərində mərfu (Peyğəmbərin sözü) olaraq rəvayət etmişlər, amma mərfu olması doğru deyil. Doğru olan odur ki, məvqufdur (səhabənin sözüdür).
[6] Bax: "Məsəil imam Əhməd bi rivəyəti vəldihi Abdullah" (səh. 247). Xalləlin "Əhkəmu Əhlil Miləl" (səh. 207).
[7] (Tərc: Qeyd etmək lazımdır ki, sehrbazın ölümü ilə bağlı fərman və bunun icrası Şəriət məhkəməsində, rəhbərlər və qazilər tərəfindən həyata keçirilir).

### Dördüncü: Sehrin müalicəsi

Sehr olunmuş şəxsə İxlas, Fələq, Nəs surələrini, Ayətül-kursini, həmçinin sehr zikr edilən başqa ayələri oxumaqla onu müalicə etmək olur. Xüsusən də Yunus surəsində olan bu ayələri: **"Sizin gördüyünüz iş sehrdir. Həqiqətən, Allah onu boşa çıxaracaq. Çünki Allah fitnə-fəsad törədənlərin işini düzəltməz".**[1] Lakin bir şərtlə ki, bu əməl ixlasla, sidqlə, Allaha təvəkkül ilə, fayda və zərərin yalnız Allahın əlində olduğuna qəti şəkildə imanmaqla olsun. Bundan əlavə, yeddi ədəd sidir ağacının yaşıl yarpağını əzərək suya qatmaq və qeyd edilən surə və ayələri həmin suya oxumaq, sonra sehr olunmuş kəsin bu sudan üç qurtum içməsi və qalanı ilə yuyunması da yaxşıdır.[2]

## İkinci məsələ: Kahinlik

### Birinci: Kahinliyin tərifi

Kahin, qeybi bildiyini iddia edən şəxsdir. "Bu, baxıcılara, qumla fala baxanlara, daşları vuraraq fala baxanlara və münəccimlərə verilən ümumi addır."[3] Gələcəkdəki qeybi hadisələrdən xəbər verən hər kəs kahindir. Həmçinin qeyb elmindən bir şey bildiyini iddia edən hər kəs ya kahin adına daxil olur, ya da mənaca o adla ortaq olur və kahinliyə aid edilir.[4]

**Fayda:** İmam Əhməd *(Allah ona rəhmət etsin)* "Kahin daha şərlidir yoxsa sehrbaz?" deyə soruşulduqda, o belə cavab vermişdir: "Hamısı şərdir."[5]

### İkinci: Dəlili ilə kahinlik etməyin hökmü:

Kahinlik etmək Quran, Sünnə və İcma ilə haramdır.

Uca və Qüdrətli Allah Öz elçisinə *(Allahın ona salavatı və salamı olsun)* xitab edərək belə demişdir: **"Onlara xatırlat! Sən öz Rəbbinin neməti sayəsində nə kahinsən, nə də dəli!"**[6] Bu ayə kahinlik etməyin haram olmasına dəlildir. Çünki

---

[1] Yunus, 81

[2] Bax: İbn Həcər "Fəthul Bəri" (1\233-234). Əş Şinqiti "Ədvəul Bəyən" (4\464). Şeyx İbn Bəz "Risələtu fi Hukmis Sihri vəl Kəhənəh" (səh. 8-13). Şeyx İbn Useyminin "Məcmuus Səmin" (1\155).

[3] Bax: İbn Həcər "Fəthul Bəri" (10\216).

[4] Bax: Şeyx Abdurrahman ibn Həsən "Fəthul Məcidi Şərhu Kitəbit Tovhid" (səh. 414).

[5] Bax: Xalləl "Əhkəmu Əhlil Miləl" (səh. 208).

[6] Tur, 29

Uca Allah bu ayədə Öz elçisindən *(Allahın ona salavatı və salamı olsun)* kahinliyi inkar etdi. Çünki kahinlər qeyb elmini bildiklərini iddia edirlər. İnsanın qeybi bildiyini iddia etməsi açıq-aydın küfrdür. Bu səbəbdən də Uca Allah kahinlikdən uzaq olmağı nemət adlandırdı. Buradan da başa düşülür ki, İslam neməti ilə kahinlik bir-birinə ziddir.[1]

Kahinliyin haram olmasına Sünnədən dəlillər: Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurub: ***"Kim tətayyur etsə, yaxud tətayyur elətdirsə[2], kim sehr etsə, yaxud sehr elətdirsə, kim fala baxsa, yaxud fala baxdırsa, o kəs bizdən deyil. Kim kahinin yanına getsə və onun dediklərini təsdiqləsə, artıq Muhəmmədə (Allahın ona salavatı və salamı olsun) nazil olunanı inkar etmişdir."[3]*** Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* ***"Kim kahinlik etsə yaxud kahinlik elətdirsə"*** sözündə işarə vardır ki, kim kahinliyi öyrənərsə, Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* o kəsdən uzaqdır. Bu hədisdə kahinlərin, falçıların və onlar kimi qeybi bildiyini iddia edənlərin sözünü təsdiqləməsə belə, onların yanına gedən kəs üçün çəkindirmə və təhdid vardır. Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* bu sözü də həmin mənadadır: ***"Falçının yanına gedən və ondan hər hansı bir şey haqqında soruşan kimsənin qırx gün namazı qəbul olunmaz."[4]*** Bu kahindən nə isə soruşan, lakin onun dediklərini təsdiqləməyən kəsə aiddir. Amma əgər kahindən bir şey soruşar və onun dediklərini təsdiqləyərsə, bunun cəzası daha şiddətlidir. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurur: ***"Kim baxıcı yanına gedər və onun dediklərini təsdiqləyərsə, həmçinin kim qadınla heyizli ikən yaxud arxadan yaxınlıq edərsə, o kəs artıq Uca Allahın Muhəmmədə (Allahın ona salavatı və salamı olsun) nazil etdiyindən uzaqdır."[5]***

---

[1] Bax: Əş Şinqiti "Ədvəul Bəyən" (7\456).
[2] Ərəblər cahiliyyə dövründə bir işə başlamazdan və ya səfərə çıxmazdan öncə havaya quş uçururdular. Əgər quş sağ tərəfə uçsa, bunu uğur rəmzi hesab edir və işlərinə davam edirdilər. Yox əgər quş sol tərəfə uçardısa, bunu uğursuzluq kimi qiymətləndirir və işlərini təxirə salardılar və ya o işdən əl çəkərdilər.
[3] Heysəmi "Məcmuuz Zəvəid" (5\117) əsərində belə deyir: "Bu hədisin raviləri Səhihin raviləridir. Yalnız İshaq ibn Rabidən başqa, o da siqadır". Munziri "Tərğib və Tərhib" (4\33) də deyir ki, Əl Bəzzər bunu ceyyid isnadla rəvayət edib
[4] Sahih Muslim, Salam Kitabı, "Kahinliyin və kahin yanına getməyin haram olması" bölümü.
[5] Əbu Davud "Sunən", Tibb kitabı, "Kahin" bölümü. Tirmizi "Əl Cəmiu", Təmizlik kitabı, "Heyizli qadınla cinsi əlaqədə olmağın qadağan olması" bölümü. İbn Macə "Sunən", Təmizlik kitabı, "Heyizli qadınla cinsi əlaqədə olmağın qadağan olması" bölümü. Şeyx Albani bu hədisin səhih olduğunu deyib "Sahih sunən Əbi Davud" (2\739). Həmçinin "Sahih sunən Ət Tirmizi" (1\44).

Şeyx Abdurrahman ibn Həsən Əli Şeyx *(Allah ona rəhmət etsin)* bu hədisi şərh edərək belə deyir: "Hədis zahirən onu göstərir ki, hər hansı bir şəkildə kahinin doğruluğunu etiqad edən kəs küfr etmiş olur."[1]

Əgər kahinin yanına gedən kəsin halı belədirsə, gör kahinin öz halı necə olar?!

## Üçüncü məsələ: Münəccimlik

### Birinci: Tərifi

Münəccimlik (bununla məşğul olanların iddiasına görə) ulduzların vəziyyətinə baxaraq yer üzündə baş verən hadisələr barədə əvvəldən xəbər verməkdir.[2] Münəccimlər dünyada baş verəcək şeylərdən xəbər verirlər və iddia edirlər ki, ulduzların seyr etməsinə, getdiyi yerlərə, onların bir-birinə yaxınlaşıb-uzaqlaşmasına baxmaqla bu elmə nail olurlar. Onlar iddia edirlər ki, ulduzların yerdə olan hadisələrə təsiri vardır.[3]

### İkinci: Münəccimliyin hökmü və buna dəlillər:

Münəccimliyin hökmünü qeyd etməzdən öncə yaxşı olar ki, münəccimliyin növləri ilə tanış olaq. Münəccimliyin iki növü var:

**Birinci növü** icazəlidir. Bu da hesablama yolu ilə bilinən şeylərdir. Məsələn, günəşin və ayın tutulmasını hesablamaq, rəsədxanada astronomik müşahidələr aparmaq, küləklərin istiqamətini öyrənmək və s. Kainatda hər şeyin Uca Allahın qəza və qədəri ilə baş verdiyini qəti şəkildə etiqad etməklə yanaşı, bunları hesablamaq icazəlidir. Lakin bu şeylərin baş verməsini ehtimal etdikdə və bu barədə xəbər verdikdə "Allahın istəyi ilə" ifadəsini qeyd etmək lazımdır. Alimlər bunun icazəli olduğunu deyiblər və bu, danışdığımız məsələyə daxil deyil.[4]

**İkinci növ isə** ulduzların vəziyyətinə baxıb onları yerdə baş verən hadisələrə dəlil gətirmək. Məsələn, münəccim iddia edir ki, ulduzların vəziyyətinə

---

[1] Bax: Şeyx Abdurrahman ibn Həsən "Fəthul Məcidi  Şərhu Kitəbit Tovhid" (səh. 411).

[2] Bax: Şeyxulislam ibn Teymiyyə "Məcmuul Fətəvə" (35\192).

[3] Bax: Dr. Abdulməcid əl Məşəbi "ət Təncimu vəl Munəccimin və Hukmuhum fil İsləm" (35\192).

[4] Bax: Şeyx Abdurrahman ibn Həsən "Fəthul Məcidi  Şərhu Kitəbit Tovhid" (səh. 448). Şeyx İbn Useymin "Məcmuus Səmin" (2\141-142). Həmçinin bax: Dr. Abdulməcid əl Məşəbi "ət Təncimu vəl Munəccimin və Hukmuhum fil İsləm" (160-162, 305-320).

baxmaqla yer üzündə hansı hadisələrin baş verəcəyini bilmək mümkündür. Yəni ulduzlara baxmaqla hansı dəstənin qalib gələcəyini, hansının məğlub olacağını, kimin öləcəyini, kimin dünyaya gələcəyini, nəyin yox olacağını, nəyin ortaya çıxacağını, kimin qazanacağını və kimin ziyana uğrayacağını öncədən bilmək olur. Bizim danışmaq istədiyimiz də münəccimliyin məhz bu növüdür. Bunun hökmü haramdır və bunu edən kəs əgər ulduzların yer üzündə baş verən hadisələrə birbaşa özünün təsir etdiyini etiqad edərsə, o açıq-aydın kafir hesab olunur.

### Münəccimliyin haram olmasına dair bəzi dəlillər:

Həqiqətən, Uca və Qüdrətli Allah ulduzları səma üçün bir bəzək, şeytanlara atılan alovlar və doğru yolu tapmaq üçün istifadə olunan əlamətlər kimi yaratmışdır. Uca Allah ulduzları yerdə baş verəcək hadisələri təyin etmək üçün yaratmamışdır. Uca Allah belə buyurub: **"Biz sizə yaxın olan göyü ulduzlarla bəzədik və onları şeytanlara atılan alovlar etdik. Biz onlar üçün yandırıb-yaxan od əzabı hazırlamışıq".**[1] Başqa ayədə belə buyurub: **"Qurunun və dənizin qaranlıqlarında yolu tapa biləsiniz deyə sizin üçün ulduzları yaradan Odur. Artıq Biz ayələri bilən bir qövmə izah etdik".**[2]

Həmçinin Sünnədə münəccimliyin haramlığına dair dəlillər vardır. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurub: ***"Kim münəccimlikdən bir şey öyrənərsə, artıq sehrdən bir qisim öyrənmişdir. Ondan nə qədər çox öyrənərsə, bunu da bir o qədər öyrənmiş olar."***[3] Həmçinin Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* buyurub: ***"Axır zamanlarda (Qiyamətə yaxın) ümmətimə görə ən çox qorxduğum şey ulduzlar, qədərin inkar edilməsi və sultanların zülmüdür."***[4]

---

[1] Mülk, 5

[2] Əl Ənam, 97

[3] Əbu Davud "Sunən", Tibb kitabı, "Ulduzlar" bölümü. İbn Məcə "Sunən", Ədəb kitabı, "Ulduzlar haqqında öyrənmək" bölümü. Şeyx Albani səhih olduğunu deyib. "Silsilətus Sahihəh" (793) və "Sahih Sünən əbi Davud" (2\739) və "Sahih Sünən İbn Macə" (2\305).

[4] Tabarani "Mucəmul Kəbir". Heysəmi "Məcmuuz Zəvəid" (7\203) əsərində rəvayət edib və deyib ki, isnadda Leys ibn Səlim var. O leyyindir. Geri qalan ravilər siqadır. Şeyx Albani deyib ki, bu hədisi təsdiq edən çoxlu hədislər var və bu da onu səhih dərəcəsinə qaldırır. "Silsilətus Sahihəh" (3\119-1127 nömrəli hədis).

# Üçüncü mövzu: Kiçik küfrün növləri

## Giriş

Kiçik küfr, küfrün iki növündən biridir.

## Birinci: Kiçik küfrün tərifi

Şəriətin iman adı qalmaq şərti ilə küfr adlandırdığı bütün günah əməllər kiçik küfrdür.[1] Bu da imanın əslindən çıxarmayan, əməldə olan günahlardır. Kiçik küfr sahibinin Cəhənnəmə girməsini gərəkdirir, lakin orada əbədi qalmasını vacib etmir. Küfr xislətlərdən olduğuna görə belə adlanmışdır.[2]

## İkinci: Kiçik küfrlə böyük küfr arasında olan bəzi fərqlər:[3]

1. Böyük küfr bütün əməlləri puç edir. Necə ki, Uca Allah bu haqda belə buyurub: "**Rəbbini inkar edənlərin məsəli – onların əməlləri, qasırğalı bir gündə küləyin şiddətlə sovurduğu külə bənzəyir. Onlar gördükləri işlərə görə savab qazanmazlar. Dərin azğınlıq da elə budur".**[4] Kiçik küfr isə əməlləri naqisləşdirsə də, onları puç etmir.

2. Böyük küfr etiqadi küfrdür. Kiçik küfr isə əməli küfrdür.

3. Böyük küfr insanı İslam dinindən çıxarır, kiçik küfr isə İslamdan çıxarmır. Kiçik küfr sahibi imanı naqis mömin hesab olunur.

4. Qul böyük küfr üzərində ölərsə, bağışlanmır. Amma kiçik küfr üzərə ölərsə, onun bağışlanması Allahın istəyi altındadır. Allah istəsə onu bağışlayar, isətəsə ona əzab verər. Onun cəzaya layiq olması əfv edilməsinə mane olmur.

5. Böyük küfr Cəhənnəmdə əbədi qalmağı vacib edir. Necə ki, Uca Allah buyurur: **"Həqiqətən, Kitab əhlindən və müşriklərdən kafir olanların məskəni Cəhənnəm odu olacaq və orada əbədi qalacaqlar. Onlar məxluqatın ən pisləridir".**[5] Amma kiçik küfr sahibi isə Cəhənnəmə girsə belə, orada əbədi qalmayacaq.

---

[1] Bax: Şeyx Hafiz əl Həkəminin "Ələmus Sunnətil Mənşura" (səh. 149).
[2] Bax: İbn əl Qeyyim "Mədaricus Səlikin" (1\364). İbn Həcər "Fəthul Bəri" (1\83-85).
[3] Dr. İbrahim Əl Buraykən "Əl Mədxəlu li Dirasətil Aqidətil İsləmiyyəh" (səh. 182-183).
[4] İbrahim, 18
[5] Əl Bəyyinə, 6

### Üçüncü: Kiçik küfrün ən məşhur növlərindən:

Kiçik küfrün növləri çoxdur. Bunun əsas meyarı isə tərifdə qeyd olunduğu kimidir: "Şəriətin iman adı qalmaq şərti ilə küfr adlandırdığı bütün günah əməllər kiçik küfrdür." Bu növlərin bəzilərini qarşıda gələn məqamlara toxunaraq izah edəcəyik.

## Birinci məqam: Kiçik küfrün növlərindən: Nemətə küfr etmək

### Birinci: Burada nə nəzərdə tutulur?

Yəni Uca və Qüdrətli Allahın verdiyi nemətləri Allahdan başqasına nisbət etmək və ya bu nemətləri Allahın razı qalmadığı yerlərdə istifadə etməkdir. İsrafçılıq və bədxərclik, haram olan şeylərə pul xərcləmək və ya bu nemətləri səfehlərə vermək kimi. Uca Allah buyurur: **"Dolanışığınız üçün Allahın sizə vasitə etdiyi mallarınızı ağılsızlara verməyin. Onlara o maldan yedirdib geyindirin və onlara yaxşı nəsihətlər verin".**[1]

### İkinci: Buna dair bəzi dəlillər

Uca Allah buyurur: **"Allahın sizə verdiyi halal və pak ruzilərdən yeyin və əgər Allaha ibadət edirsinizsə, Onun nemətinə şükür edin".**[2]

2. Uca Allah buyurur: **"Onlar Allahın neməti haqqında bildikləri halda, sonradan onu inkar edirlər. Onların çoxu kafirdir".**[3] Onlar Allahın nemətlərini tanıyır və bu nemətlərin onlara məhz Allah tərəfindən verildiyini bilirdilər. Lakin bunu inkar etdilər və bu nemətlərin onlara ata-babalarından qaldığını iddia etdilər.[4]

3. Üç nəfərin; kor, dərisi ləkəli və keçəlin hekayəsi. Uca Allah onlara nemət verdi, onların halını düzəltdi və onlara mal-qara verdi. Onlardan ikisi bu nemətləri danaraq dedilər ki, biz bu malı öz böyüklərimizdən miras olaraq əldə etmişik. Amma kor olan kəs isə Allahın nemətini etiraf edərək dedi ki, mən kor

---

[1] Ən Nisa, 5
[2] Ən Nəhl, 114
[3] Ən Nəhl, 83
[4] Bax: Ət Tabari "Cəmiul Bəyən" (7\629). İbn Useymin "Qavlul Mufidi alə Kitəbit Tovhidi" (2\201-202).

idim, Allah mənə görməyimi geri qaytardı... Mələk isə ona belə dedi: "Malını özündə saxla. Həqiqətən, siz imtahan edildiniz və Allah səndən razı qaldı. Sənin iki yoldaşına isə qəzəbləndi."[1]

Şeyx Abdurrahman ibn Həsən əli Şeyx bu hədisi şərh edərək belə deyir: "Bu çox əzəmətli bir hədisdir və bunda diqqət edilməsi vacib olan məsələlər var. O iki nəfər Allahın nemətlərini dandı və bu nemətlərin Allah tərəfindən verildiyini təsdiq etmədi. Nemətləri onu verənə nisbət etmədilər və Allahın haqqını vermədilər deyə, Allahın qəzəbi onlara vacib oldu. Amma kor kişi isə Allahın nemətini etiraf etdi və neməti onu verənə nisbət etdi. Allahın onun malında olan haqqını verdi, nemətə görə şükr etdi və şükrün üç rüknunu yerinə yetirərək Allahın razılığını qazandı. Şükr də bu üç şeylə yerinə yetirilir; neməti etiraf etmək, neməti onu verənə nisbət etmək və onu vacib olan yerə sərf etmək.[2]

## İkinci məqam: Kiçik küfrün növlərindən: Nəsəbə tənə etmək və ölünün üzərinə fəryad çəkərək ağlamaq

### Birinci: Burada nə nəzərdə tutulur?

Bir insanın nəsəbini eyibləmək, ona tənə etmək və ölən şəxsin üzərində fəryad qoparıb, onun fəzilətlərini sadalayaraq səsi ucaltmaq. Bunların ikisi də əməli küfrün növlərindəndir. Çünki bu, İslamdan əvvəlki kafirlərin əməllərinə bənzəyir.[3]

### İkinci: Bu ikisinin küfr olmasına dair bəzi dəlilər:

1. Allah elçisi *(Allahın salavatı və salamı olsun)* belə buyurur: ***"İnsanlarda iki şey vardır ki, bu onlarda küfrdür. Nəsəbə tənə etmək və ölü üzərində fəryad edib ağlamaq."***[4] İnsanlarda olan bu iki xislət küfrdür. Çünki bu əməllər cahiliyyə dövrünün əməllərdindəndir və Allahın qoruduğu şəxslər istisna olmaqla, çox

---

[1] Sahih Buxari, Peyğəmbərlərin hədisləri kitabı, "Kor, keçəl və dərisi ləkəlinin hədisi" bölümü. Sahih Muslim, Kitəbuz Zuhdi vər Raqaiq, 10 nömrəli bölüm.

[2] Bax: Şeyx Abdurrahman ibn Həsən əli Şeyx "Fəthul Məcid Şərhu Kitəbit Tovhid" (səh. 636).

[3] Bax: Şeyx Abdurrahman ibn Həsən əli Şeyx "Fəthul Məcid Şərhu Kitəbit Tovhid" (səh. 520).

[4] Sahih Muslim, İman kitabı, "Nəsəbə tənə etməyin və ölü üzərində fəryad edib ağlamağın küfr adlandırılması" bölümü.

insanda bu iki xislət vardır.[1] İmam Ən Nəvəvi *(Allah ona rəhmət etsin)* Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* ***"İnsanlarda iki şey vardır ki, bu onlarda küfrdür"*** sözünün mənası barədə belə demişdir: "Bu haqda çox söz deyilib, lakin onlardan ən doğrusu odur ki, bu iki əməl kafirlərin əxlaqından və cahiliyyə dövrünün əməllərindəndir."[2] Buna görə də alimlər bu iki xisləti əməli küfrdən hesab etmişlər.

2. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurub: ***"Yanağlarına vuran, yaxasını cıran və cahiliyyə dövründəki kimi (ölü üzərində) fəryad edən kəs bizdən deyil."***[3]

## Üçüncü məqam: Kiçik küfrün növlərindən: Müsəlmanla döyüşmək

**Birinci: Burada nəzərdə tutulan,** müsəlmanın digər müsəlmanla haqsız yerə döyüşməsidir. Bu əməli küfrün bir növüdür və imanın kamilliyinə ziddir.

### İkinci: Buna dair bəzi dəlillər

1. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurub: ***"Müsəlmanı söymək fasiqlik, onunla döyüşmək isə küfrdür."***[4] Bu hədisdə Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* müsəlmanın haqqının əzəmətli olduğunu və haqsız yerə onunla döyüşən kəsin hökmünü bəyan etmək üçün müsəlmanla savaşmağı "küfr" adlandırdı. Bu əməli küfrdür. Çünki burada kafirlərin əməllərinə bənzərlik vardır. Bu inkar küfrü deyil, İslam qardaşlığına qarşı edilən küfrdür.[5]

2. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurur: ***"Məndən sonra dönüb bir-birinin boynunu vuran kafirlər olmayın."***[6]

---

[1] Bax: Şeyx Abdurrahman ibn Həsən əli Şeyx "Fəthul Məcidi Şərhu Kitəbit Tovhid" (əh. 520).
[2] İmam ən Nəvəvi "Şərhu alə Sahihi Muslim" (2\57).
[3] Sahih Buxari, Cənazə kitabı, "Paltarlarını cıranlar bizdən deyil" bölümü. Sahih Muslim, İman kitabı, "Üzə vurmağın haram olması" bölümü.
[4] Sahih Buxari, İman kitabı, "Müsəlmanın özü də hiss etmədən əməllərinin puç olmasından qorxması" bölümü. Sahih Muslim, İman kitabı, "Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* "Müsəlmanı söymək fasiqlik, onunla savaşmaq isə küfrdür." sözünün izahı" bölümü.
[5] İmam ən Nəvəvi "Şərhu alə Sahihi Muslim" (2\54).
[6] Sahih Buxari, İman kitabı, "Müsəlmanın özü də hiss etmədən əməllərinin puç olmasından qorxması" bölümü. Sahih Muslim, İman kitabı, "Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* "Müsəlmanı söymək fasiqlik, onunla savaşmaq isə küfrdür" sözünün izahı" bölümü.

Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* bu iki hədisdə müsəlmanların bir-biri ilə savaşmasını "küfr", bu işi görənləri də "kafirlər" adlandırdı. Lakin burada nəzərdə tutulan insanı dindən çıxaran böyük küfr deyil. Çünki Uca Allah möminlərdən bir-biri ilə savaşan iki dəstədə "mömin" adını saxladı. Uca Allah buyurdu: **"Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları barışdırın. Əgər onlardan biri digərinə qarşı təcavüz etsə, təcavüzkar dəstə ilə o, Allahın əmrini yerinə yetirməyə qayıdanadək vuruşun. Əgər o qayıtsa, hər iki dəstəni ədalətlə barışdırın və insaflı olun. Sözsüz ki, Allah insaflıları sevir".**[1] Sonrakı ayədə isə onları mömin adlandıraraq belə dedi: **"Həqiqətən də, möminlər qardaşdırlar. Elə isə qardaşlarınızı barışdırın və Allahdan qorxun ki, sizə rəhm edilsin".**[2] Onlarda imanın və iman qardaşlığının olmasını təsdiq etdi və bu şeylərdən heç birini onlardan inkar etmədi.[3] Buradan da məlum olur ki, bu küfr insanı İslam dairəsindən çıxarmayan əməli küfrdür və kiçik küfrün növlərindəndir.[4]

---

[1] Əl Hucurat, 9
[2] Əl Hucurat, 10
[3] Bax: Şeyx Hafiz əl Həkəmi "Ələmus Sunnətil Mənşura" (səh. 150).
[4] İmam ən Nəvəvi "Şərhu alə Sahihi Muslim" (2\55).

# Üçüncü fəsil: Nifaq və onun növləri

**Özündə üç mövzunu əhatə edir:**

**Birinci mövzu: Nifaqın mənası.**

**İkinci mövzu: Böyük nifaq.**

**Üçüncü mövzu: Kiçik nifaq.**

# Birinci mövzu: Nifaqın mənası.

## Nifaqın lüğəvi mənası:

Nifaq lüğəvi cəhətdən bir şeyi gizlətmək və onu izhar etməməkdir. Məsələn, başqa bir çıxışı olan yuvaya "nəfəq" deyilir. Buna görə ərəbdovşanının yuvasının ikinici çıxışına "nəfiqa" və "nufəqə" deyiblər. Çünki o həmin çıxışı gizlədir, başqa çıxışı isə izhar edir və ona bir təhlükə gəldikdə, gizli saxladığı çıxışı başı ilə vuraraq yuvadan çıxır.[1]

## Nifaqın şəri mənası:

Şəri cəhətdən nifaq insanın haqqa müvafiq olan şeyləri üzdə göstərməsi, haqqa müxalif olan şeyləri isə gizlətməsidir. Kim insanların qarşısında haqqı izhar etsə, həqiqətdə isə batil etiqad və ya əməl üzərində olsa, o, münafiqdir. Onun etiqadı və ya əməli isə nifaqdır.[2]

## Bu iki məna arasında bağlılıq:

Münafiq öz etiqadını və ya əməlini gizlədir. Onun bu gizli saxlamasının məsəli ərəbdovşanının məsəli kimidir. Ərəbdovşanı yuvasına açıq olan bir dəlikdən daxil olur. Amma bir təhlükə hiss etdikdə, görünməmək üçün gizli saxladığı başqa dəlikdən çıxır. Münafiq də bu cür edir. İslama açıq bir qapıdan daxil olur, şəhadət gətirir, insanlarla birgə namaz qılır və s. Amma qəlbində isə İslamın əksini gizlədir, müsəlmanların başına bəla gələcəyini və küfrün üstün olmasını gözləyir ki, onu izhar edənlərin sırasına keçsin. Uca Allah münafiqlər barədə belə buyurub: **"Onlar sizə göz qoyurlar (gözləyirlər ki sizə bir bəla gəlsin). Əgər Allahdan sizə bir qələbə gəlsə: "Məgər biz də sizinlə deyildikmi?"– deyərlər. Əgər kafirlərə bir qələbə nəsib olsa: "Məgər biz möminlərlə birlikdə sizə qalib gələ bilməzdikmi, sizi möminlərdən qorumadıqmı?"– söyləyərlər".**[3]

**Nifaqın iki növü var:**

1. Etiqadda olan "böyük nifaq".
2. Əməldə olan "kiçik nifaq".

---

[1] Zəməxşəri "Əsəsul Bələğah" (648-649). İbn Fərisi "Mucəmu Məqayisil Luğah" (5\454-455). Feyruz əl Abadinin "Qamusul Muhit" (səh. 1195-1196). İbn Manzurun "Lisənul Arab" (1\358-359). "Mucəmul Vəsit" (səh. 942).

[2] Dr. İbrahim Əl Buraykən "Əl Mədxəlu li Dirasətil Aqidətil İsləmiyyəh" (səh. 190). "Mucəmul Vəsit" (səh. 942).

[3] Ən Nisa, 141

## İkinci mövzu: Böyük (etiqadi) nifaq

### Birinci: Böyük nifaqın tərifi:

Bu, bir insanın müsəlmanlar yanında Allaha, Onun mələklərinə, kitablarına, elçilərinə, axirət gününə iman etdiyini izhar etməsi, daxilində isə bu deyilənlərdən uzaq olması və onları yalanlamasıdır.[1] O, zahirdə təsdiq etdiyini və boyun əydiyini göstərsə də, daxilində bundan üz döndərmişdir.[2]

### İkinci: Böyük nifaqın hökmü

Böyük nifaq etiqadda olan nifaqdır və onun yeri qəlbdir. Böyük nifaq sahibi kafir hesab olunur və əgər tövbə etməsə əbədi olaraq Cəhənnəmdə, hətta Cəhənnəmin ən alt təbəqəsində qalacaqdır.[3] Necə ki, Uca Allah buyurur: **"Həqiqətən, münafiqlər Odun ən aşağı təbəqəsində olacaqlar və sən onlara heç bir köməkçi tapa bilməzsən".**[4] "Uca Allah Quranda münafiqlərin həqiqi simalarını bəyan etmiş və onların iç üzünü göstərmişdir. Uca Allah onları Öz qullarına bəyan etmişdir ki, onlar nifaq əhlindən həzər etsin və öz ehtiyatlarını götürsünlər... Həqiqətən, münafiqlər İslam dini üçün bir bəladır. Çünki onlar zahirən İslama nisbət olunur və müsəlmanlara dost, yardımçı olduqlarını göstərirlər, amma həqiqətdə isə onlar İslamın düşmənləridir."[5]

### Üçüncü: Böyük nifaqı olan münafiqlərin sifətləri:

Artıq Uca və Qüdrətli Allah Quranda münafiqlərin örtüyünü açmış və onların sirlərini bildirmişdir. Bir çox ayələrdə onların vəsfləri, hədəfləri, dini məhv etmək və ya müsəlmanları zəiflətmək üçün istifadə etdikləri çirkin vəsilələr barədə xəbər verilmişdir.

Böyük nifaq sahiblərinin bir çox xüsusiyyətləri və vəsfləri vardır. Bu vəsflərdən bəzisini müxtəsər olaraq zikr edəcəm ki, heç bir möminin qəlbinə bunlardan bir şey düşüb onun dünya və axirətini puç etməsin. Onlardan:

---

[1]Bax: İbn Əl Qeyyim "Mədəricus Səlikin" (1\376-377). Feyruz əl Abadi "Qamusul Muhit" (səh. 1196)
[2] Bax: Şeyx Hafiz əl Həkəmi "Ələmus Sunnətil Mənşura" (səh. 149).
[3] Bax: İbn Əl Qeyyim "Mədəricus Səlikin" (1\376)
[4] Ən Nisa, 145
[5] Bax: İbn Əl Qeyyim "Mədəricus Səlikin" (1\377)

**1. Allah elçisini (*Allahın ona salavatı və salamı olsun)* zahirdə deyil, qəlblərində təkzib etmələri:** Buna dəlil Uca Allahın bu kəlamıdır: **"Münafiqlər sənin yanına gəldikləri zaman: "Biz şəhadət veririk ki, sən Allahın Elçisisən!"– deyirlər. Allah da bilir ki, sən Onun Elçisisən. Allah şahiddir ki, münafiqlər əsl yalançıdırlar".**[1] Onlar zahirən yalandan şahidlik edir və and içirdilər, qəlblərində isə şahidlik etdikləri şeyi təkzib edirdilər. Kim dili ilə bir şey desə və onun əksini etiqad etsə, o yalançı hesab olunur.[2]

**2. Kafirlərlə dostluq etmək və müsəlmanlara qarşı müharibədə onlara yardım etmək.** Bu vəsfə dair dəlil Uca Allahın bu ayəsidir: **"Münafiqlərin Kitab əhlindən kafir olan qardaşlarına: "Əgər siz yurdunuzdan qovulsanız, biz də sizinlə birlikdə çıxıb gedəcək və sizə qarşı heç vaxt heç kəsə tabe olmayacağıq. Əgər müsəlmanlar sizə qarşı vuruşsalar, mütləq sizə kömək edəcəyik!"– dediklərini görmədinmi? Allah onların yalançı olduğuna şahiddir".**[3] Həmin münafiqlər kitab əhlindən olan kafir qardaşlarına ümid verirdilər ki, onlara yardım edəcəklər və müsəlmanlara qarşı onlara dəstək olacaqlar və and içirdilər ki, onları qorxutsalar da, qınasalar da, onlar bu işi tərk etməkdə heç kimə itaət etməyəcəklər. Həmçinin vəd verirdilər ki, əgər müsəlmanlarla döyüşsələr, o zaman müsəlmanlara qarşı onlara yardım edəcəklər.[4]

**3. Müsəlmanlara qarşı hiylə qurmaq və pislik etmək.** Onların bu vəsfinə dəlil Uca Allahın bu kəlamıdır: **"Onlar öz günahlarını insanlardan gizlədir, Allahdan isə gizlətmirlər (Ondan çəkinmirlər). Halbuki onlar Allahın razı qalmadığı sözləri gecələr xəlvətdə söylədikləri vaxt belə, O, onların yanında olur. Allah onların nə etdiklərini əhatə edir".**[5] Münafiqlərdə insanlardan qorxu Allah qorxusundan daha böyük olur. Bu səbəbdən münafiqləri görərsən ki, insanlar yanında rüsvay olmasınlar deyə, halal və ya haram olan hər bir vəsiləyə əl atırlar. Amma Allahın qarşısına isə böyük günahlarla çıxırlar və Allahın razı qalmadığı sözlər danışırlar, bununla yanaşı, Allahın onları görməsinə və onlardan xəbərdar olmasına heç bir əhəmiyyət vermirlər.[6]

---

[1] Münafiqlər, 1
[2] Qurtubi "Cəmiul Əhkəmil Quran" (18\80).
[3] Əl Həşr, 11
[4] Şeyx Abdurrahman ibn Sədi "Təysirul Kərimir Rahmən fi Təfsiri Kələmil Mənnən" (7\338).
[5] Ən Nisa, 108
[6] Şeyx Abdurrahman ibn Sədi "Təysirul Kərimir Rahmən fi Təfsiri Kələmil Mənnən" (2\154).

**4. Müsəlmanların dininin alçalmasına sevinirlər və onların qələbə çalmasını istəmirlər.** Buna dəlil Uca Allahın bu ayəsidir: **“Onlar əvvəllər də fitnəkarlıq etməyə çalışmış və sənin əleyhinə hiylələr qurmuşdular. Axırı ki, haqq yerini tapdı və onlar istəmədikləri halda Allahın hökmü qələbə çaldı”.**[1] Həmin münafiqlər əvvəldən şər istəyirdilər. Müsəlmanların işlərinin dağılması və dinlərinin məhv olması üçün hiyləgərlik edirdilər. Lakin münafiqlər istəməsələr belə, Uca Allah Öz dininə zəfər verdi və Öz ordusunu izzətləndirdi.[2] Həmçinin Uca Allah onlar barədə belə buyurub: **“Sənə bir uğur nəsib olsa, bu onları kədərləndirər. Sənə bir müsibət üz versə: "Biz ehtiyat tədbirimizi əvvəlcədən görmüşük!"– deyər və sevinə-sevinə çıxıb gedərlər”.**[3] Uca Allah xəbər verir ki, Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* və onunla olanların qələbə çalması və qənimət əldə etməsi münafiqləri pis edirdi. Amma müsəlmanlara ölüm və ya məğlubiyyət üz verdikdə isə “biz öz ehtiyatımızı götürmüşük və bu səbəbdən sizinlə birlikdə döyüşə çıxmadıq” deyirdilər və müsəlmanlara üz verən müsibətə və özlərinin salamat qalmasına sevinərək çıxıb gedirdilər.[4]

[1] Ət Tövbə, 48
[2] İbnul Cəvzi “Zədul Məsir fi İlmit Təfsir” (3\448).
[3] Ət Tövbə, 50
[4] İbnul Cəvzi “Zədul Məsir fi İlmit Təfsir” (3\450).

# Üçüncü mövzu: Kiçik (əməldə olan) nifaq.

## Birinci: Kiçik nifaqın tərifi

Aşkarda dini məsələlərə riayət etmək, gizlində isə onları qorumağı tərk etməkdir.[1]

## İkinci: Kiçik nifaqın hökmü

Kiçik nifaq əməldə olan nifaqdır. Kiçik nifaq sahibi Uca Allaha iman etdiyini və Onun elçisinə *(Allahın ona salavatı və salamı olsun)* itaət etdiyini iddia edir, lakin onda Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* nifaqdan saydığı əməllər vardır. Kiçik nifaq sahibi dünyada İslam dinindən çıxmır, Axirətdə isə cəzaya layiq görülür. Lakin əgər o, Cəhənnəmə daxil olarsa, orada əbədi qalmayacaqdır.

## Üçüncü: Kiçik nifaq sahibi olan münafiqlərin əlamətləri

Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* bir çox hədislərdə açıq-aydın əlamətlər sadalamışdır ki, kimdə bu vəsflər olarsa, o kəs əməlində münafiqlərə bənzəmiş olar. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* bu sifətlər barədə xəbər vermişdir və onları bəyan etmişdir ki, biz məzəmmət olunan həmin sifətlərdən çəkinək. Çünki onlar nifaqın əlamətlərindəndir və əməldə olan bu nifaqın insanı daha sonra etiqadi nifaqa aparıb çıxarmasından qorxulur (Allah qorusun). [2]

## Bu vəsflərdən bəziləri

1. Danışarkən yalan danışmaq. İnsanlara bir şey danışır və onlar ona inanırlar, halbuki danışanda yalan danışır.
2. Vədinə xilaf çıxmaq. Vəd verir, qəlbində isə bu vədi yerinə yetirməyəcəyini niyyət edir. Həmçinin vəd verir, sonradan heç bir üzr olmadan vədinə xilaf çıxmaq qərarına gəlir.
3. Əmanətə xəyanət etmək. Əgər ona bir şey əmanət edilərsə, onu yerinə yetirməz.

---

[1] Bax: Osman Cumətu Əd Damiriyyə "Mədxalu lidirasətil Aqidətil İsləmiyyəh" (səh. 348).
[2] Bax: Əs Siddiqi "Şərhu Riyadis Salihin" (4\578).

4. Əhdə vəfasızlıq etmək. Əhd bağladıqda onu pozur və əhdinə vəfalı olmur.

5. Mübahisə zamanı əxlaqsızlıq etmək. Mübahisə edərkən qəsdən haqdan yayınar və haqqı batil, batili isə haqq kimi göstərər.[1]

Bu beş əlaməti Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* bu hədisində cəm etmişdir: ***"Kimdə bu dörd xislət olarsa, o xalis münafiqdir. Kimdə də bu xislətlərdən biri olarsa, onu tərk etmədikcə o kəsdə münafiqlikdən bir xislət olar; əmanət edildiyi zaman xəyanət edər, danışdığı zaman yalan danışar, əhd verdiyi zaman əhdini pozar və mübahisə etdiyi zaman facirlik edər (söyüş söyər, təhqir edər, böhtan atar, zülm edər və s.)"***[2] Həmçinin Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə demişdir: ***"Münafiqin üç əlaməti var; danışdığı zaman yalan danışar, vəd verdikdə vədinə xilaf çıxar, ona əmanət edildiyi zaman xəyanət edər."***[3]

**Diqqət:** Əməli (kiçik) nifaq, etiqadi (böyük) nifaqın başlanğıcıdır. Əməli nifaqla vəsf olunan kəs əməl cəhətdən etiqadi münafiqlərə oxşayır və onun üçün böyük nifaqdan qorxulur. Buna baxmayaraq, o, etiqadi münafiqlərin küfrü yaxud etiqadı üzərində olmuş sayılmır. Möminə vacibdir ki, bu vəsflərin hamısından çəkinsin. Çünki iman bu əməlləri qadağan edir. Həmçinin biz bilməliyik ki, kimdə bu vəsflər cəm olar və əməllərini üstələyərsə və qəlbində bundan çəkinməyə sövq edəcək bir şey olmazsa, o kəs (Allah qorusun) xalis münafiqdir.[4] Uca Allahdan diləyirik ki, müsəlmanları bu çətin sağalan xəstəlikdən qorusun. Həqiqətən, Allah Səxavətli və Əliaçıqdır.

---

[1] Bax: İbn Rəcəb "Cəmiul Ulumi vəl Hikəm" (2\486).

[2] Sahih Buxari, İman kitabı, "Münafiqin əlamətləri" bölümü. Sahih Muslim, İman kitabı, "Münafiqin xüsusiyyətlərinin izahı" bölümü.

[3] İmam ən Nəvəvi "Şərhu alə Sahihi Muslim" (2\47).

[4] İmam ən Nəvəvi "Şərhu alə Sahihi Muslim" (2\47).

# Üçüncü bölüm: Əl-Vəla vəl-bəra (dostluq və düşmənçilik)

**Özündə beş fəsli cəm edir:**
**Birinci fəsil: Quran və Sünnədən dostluq və düşmənçilik haqqında dəlillər.**
**İkinci fəsil: Dostluq və düşmənçilik anlayışı və onun dində yeri.**
**Üçüncü fəsil: Dostluq kiminlə edilir?**
**Dördüncü fəsil: Düşmənçilik kimə qarşı edilir?**
**Beşinci fəsil: Dostluq və düşmənçiliyin hökmü.**

## Birinci fəsil: Quran və Sünnədən dostluq və düşmənçilik haqqında dəlillər.

Quran və Sünnədə möminlərlə dostluq etməyi əmr edən və kafirlərlə dostluq etməkdən çəkindirən və onlardan uzaq olmağa çağıran dəlillər çoxdur. Bu dəlillərdən bəzisini qeyd edəcəyəm.

**Birinci: Qurani Kərimdən dostluq və düşmənçilik haqqında dəlillər:**

1. Uca Allah buyurur: **“Sən onların dininə tabe olmayınca, nə yəhudilər, nə də xaçpərəstlər səndən razı qalmayacaqlar. De: "Yalnız Allahın haqq yolu doğru yoldur!" Əgər sənə gələn elmdən sonra onların istəklərinə uysan, səni Allahdan nə bir qoruyan, nə də bir xilas edən olar”.**[1] Bu ayədə yəhudi və nəsranilərin nəfsi istəklərinə tabe olmaq və onların dininə məxsus işlərdə onlara bənzəmək qadağan olunub.[2]

2. Uca Allah buyurur: **“Möminlər möminləri qoyub kafirləri dost tutmasınlar! Bunu edən kimsə bilsin ki, Allah ilə onun heç bir əlaqəsi yoxdur. Ancaq onlardan gələn təhlükədən çəkinməklə ehtiyat etməyiniz istisnadır.**

[1] Əl Bəqərə, 120
[2] Şeyx İbn Sədi “Təysirul Kərimir Rahmən” (1\133).

**Allah sizi Özündən çəkindirir. Dönüş də ancaq Allahadır".**[1] Uca Allah bu ayədə möminlərə, kafirləri dost və yoldaş tutmağı, müsəlmanlara qarşı onlara dəstək olmağı və möminlərin zəif cəhətlərini kafirlərə bildirməyi qadağan edir. Həmçinin xəbər verir ki, bu əməllərdən hər hansı birini edən kəs Allahdan uzaqdır. Allahın dinindən dönüb mürtəd olduğuna və küfrə düşdüyünə görə, Allah da ondan uzaqdır.[2]

3. Uca Allah buyurur: **"Ey iman gətirənlər! Yəhudi və xaçpərəstləri dost tutmayın! Onlar bir-birinin dostudurlar. Sizlərdən kim onları özünə dost tutarsa, o da onlardandır. Allah zalım adamları doğru yola yönəltməz".**[3] Uca Allah bu ayədə xəbər verir ki, kim müsəlmanara qarşı yəhudi və nəsranilərə kömək edər və onlara dəstək olarsa, küfrdə və cəzada onların da hökmü yəhudi və nəsranilərin hökmü kimidir.[4]

4. Uca Allah buyurur: **"Kafirlər də bir-birinə dostdurlar. Əgər siz bunu etməsəniz (bir-birinizə yardımçı olmasanız), yer üzündə fitnə və böyük bir fəsad baş verər".**[5] Uca Allah bu ayədə kafirlərlə möminlərin arasında dostluq bağlarını qırmışdır. Möminləri bir-birinə, kafirləri də bir-birinə dost etmişdir. Onlar dinlərində bir-birinə yardım edir və etiqadlarına uyğun münasibət göstərirlər.[6]

5. Uca Allah buyurur: **"Allaha və Axirət gününə iman gətirən elə bir camaat tapa bilməzsən ki, onlar Allaha və Onun Elçisinə düşmən olanlarla – öz ataları, oğulları, qardaşları, qohum-əqrəbaları olsalar belə, – dostluq etsinlər".**[7] Uca Allah bu ayədə xəbər verir ki, Allaha və Axirət gününə həqiqi iman etmiş möminləri ən yaxın qohumları olsa belə, Allaha və elçisinə qarşı düşmənçilik edənlərlə dostluq etdiyini görməzsən.[8]

6. Uca Allah buyurur: **"Ey iman gətirənlər! Mənim düşmənimi də, öz düşməninizi də özünüzə dost tutmayın! Onlar sizə gələn həqiqəti inkar etdikləri halda, siz onlara mehribanlıq göstərib sirrinizi açıb deyirsiniz.**

[1] Əli İmran, 28
[2] Bax: İbn Cərir ət Tabari "Cəmiul Bəyən" (3\227).
[3] Əl Maidə, 51
[4] Bax: Qurtubi "əl Cəmiu li Əhkəmil Quran" (6\141).
[5] Əl Ənfal, 73
[6] Bax: Qurtubi "əl Cəmiu li Əhkəmil Quran" (6\141).
[7] Əl Mucədilə, 22
[8] Dr. Muhəmməd Nəim Yəsin "Kitəbul İmən: Ərkənuhu, Həqiqətuhu, Nəvəqiduhu" (səh. 186).

**Rəbbiniz olan Allaha iman gətirdiyiniz üçün onlar Peyğəmbəri və sizi yurdunuzdan qovub çıxardırlar. Əgər siz Mənim yolumda və Mənim razılığımı qazanmaq uğrunda cihada çıxmısınızsa, onlara gizlində mehribanlıq göstərirsiniz. Mən sizin gizli saxladığınızı da, aşkar etdiyinizi də bilirəm. Sizlərdən kim bunu etsə, doğru yoldan sapmış olar".**[1] Uca Allah kafirlərlə dostluq etməyi və ya onlara sevgi göstərməyi qadağan edir və xəbər verir ki, bu imana ziddir və İbrahimin *(Allahın ona salavatı olsun)* dininə müxalif olan əməldir. Həmçinin bu ağıla da ziddir, çünki ağıl da düşməndən çəkinməyi tələb edir.[2]

7. Uca Allah buyurur: **"Ey iman gətirənlər! Allahın qəzəbinə gəlmiş adamlarla dostluq etməyin. Kafirlər qəbirdəkilərin bir daha diriləcəyinə inanmadıqları kimi, Axirət gününə də ümid etmirlər".**[3] Uca Allah kafirlərlə dostluq etməyi, onlara sevgi göstərməyi və onlara yardım etməyi qadağan edir və xəbər verir ki, onlar axirət xeyrindən məhrum olan kəslərdir və Axirətdə onların heç bir payı yoxdur. Sonra mömin qullarını kafirlərlə dostluq etməkdən, şər işlərində və şirk əməllərində onlara müvafiq olmaqdan çəkindirir ki, onlar da kafirlər kimi axirət xeyrindən məhrum olmasınlar.[4]

## İkinci: Peyğəmbərin sünnəsindən dostluq və düşmənçilik barədə dəlillər

1. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurub: ***"Yəhudi və xaçpərəstlərlə salama birinci başlamayın. Əgər onlardan hər hansı biri ilə yolda qarşılaşsanız, yolu onlar üçün genişləndirməyin."***[5]

2. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* ona beyət edən səhabələrdən birinə belə deyir: ***"Sözləşirik ki, Allaha ibadət edəcəksən, namaz qılacaqsan, zəkat verəcəksən, müsəlmanlara nəsihət edəcəksən və müşriklərdən ayrılacaqsan."***[6]

---

[1] Əl Mumtəhənə, 1
[2] Şeyx İbn Sədi "Təysirul Kərimir Rahmən" (7\348-349).
[3] Əl Mumtəhənə, 13
[4] Şeyx İbn Sədi "Təysirul Kərimir Rahmən" (7\363-364).
[5] Sahih Muslim, Salam kitabı, "Kitab əhli ilə salama ilk başlamağın qadağan olması və onlara necə cavab verilməlidir" bölümü.
[6] İmam Əhməd "Musnəd" (4\365). Nəsai "Sunən", Beyət kitabı, "Müşriklərdən ayrılmağa görə beyət etmək" bölümü. Şeyx Albani səhih olduğunu deyib. Bax: "Silsilətus Sahihəh" (636) və "Sahih Sunən ən Nəsəi" (3\875).

3. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurur: ***"Müsəlmanın qanı və malı başqa müsəlmanlara haramdır. Onlar bir-birinə yardım edən qardaşlardır. Müşrik olan bir kimsə İslamı qəbul etdikdən sonra müşriklərdən ayrılıb müsəlmanlarla bir olmayınca Uca və Qüdrətli Allah onun heç bir əməlini qəbul etməz."***[1]

4. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurur: ***"Kişi öz dostunun dinindədir. Bu səbəbdən də, qoy sizdən biriniz kiminlə dostuq etdiyinə baxsın."***[2]

5. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurur: ***"Ancaq möminlə dostluq et və yeməyini də yalnız Allahdan qorxanlar yesin."***[3]

6. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* münafiqlərin başçısı Abdullah ibn Ubeyy haqqında belə deyir: ***"Mən yəhudiləri sevməyi sənə qadağan etmişdim."***[4]

7. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurur: ***"Kişi sevdiyi ilə birlikdədir."***[5]

## İkinci fəsil: Lüğəvi və şəri cəhətdən dostluq və düşmənçilik məfhumu.

Öncəki fəsildə möminlərlə dostluq etməyə həvəsləndirən, müşriklərdən və kafirlərdən uzaq olmağa yönəldən, kafirlərlə dost olmağı və onları sevməyi, həmçinin möminlərlə düşmənçilik etməyi və onlardan uzaqlaşmağı qadağan edən bir çox şəri dəlillər qeyd etdik. Bu səbəbdən də dostluq və düşmənçiliyin

---

[1] Nəsai "Sunən". Hakim "Mustədrək" (4\600) əsərində rəvayət edib və səhih olduğunu bildirib, Zəhəbi də onunla razılaşıb. Şeyx Albani həsən olduğunu deyib "Silsilətus Sahihəh" (369).

[2] Əbu Davud "Sunən", Ədəb kitabı, "Kimlərlə yoldaşlıq etmək əmr olunub" bölümü. Tirmizi "Cəmius Sahih", Zühd bölümləri, 32 nömrəli bölüm. Tirmizi hədisin həsən olduğunu deyib. Həmçinin Şeyx Albani səhih olduğunu deyib. "Sahih Sunən əbi Davud" (3\917). "Səhih Sunən ət Tirmizi" (2\280). "Silsilətus Sahihəh" (927).

[3] Tirmizi "Cəmius Sahih", Zühd bölümləri, "Möminlə dostluq etmək haqqında gələnlər" bölümü. Əbu Davud "Sunən", Ədəb kitabı, "Kimlərlə yoldaşlıq etmək əmr olunub" bölümü. Şeyx Albani səhih olduğunu deyib. "Səhih Sunən ət Tirmizi" (2\285). Sahih Sunən əbi Davud" (3\917). "Sahihul Cəmi" (7341).

[4] Əbu Davud "Sunən", Cənazə kitabı, "Xəstə ziyarəti" bölümü. Şeyx Albani "Sahih Sunən əbi Davud" (2\598) əsərində isnadının zəif olduğunu, amma köynək qissəsinin səhih olduğunu deyib.

[5] Sahih Buxari, Ədəb kitabı, "Allah üçün sevməyin əlaməti" bölümü. Sahih Muslim, "Yaxşılıq, qohumluq əlaqələri və ədəblər" kitabı, "Kişi sevdiyi ilə bərabərdir" bölümü.

mənasını öyrənməliyik ki, hər bir müsəlman ondan nəyi yerinə yetirmək və nəyi tərk etmək tələb olunduğunu bilsin.

Bu səbəbdən də, dostluq və düşmənçiliyin lüğəvi və şəri mənalarını öyrənməliyik.

## Birinci mövzu: Dostluq və düşmənçiıiyin lüğəvi və şəri mənası

### Birinci: Dostluğun lüğəvi mənası

Dostluq lüğətdə – sevmək, yaxın tutmaq, tərəfini saxlamaq, yaxın olmaq anlamına gəlir. Dost – müttəfiq deməkdir. Səninlə birgə olur, sənin səbəbinlə güclənir. Həmçinin dost düşmənin əksidir. Dost insanı sevən, onunla dostluq edən və ona yardım edən kəsdir.[1]Deməli, lüğətdə dostluq sevgi, yaxın olmaq və yardım etməkdir.

### İkinci: Düşmənçiliyin lüğəvi mənası

Düşmənçilik lüğəvi cəhətdən bir kəsdən uzaq olmaq, ona nifrət etmək və ondan xilas olmaqdır.[2]

### Üçüncü: Dostluğun şəri mənası

Şəri cəhətdən dostluq – sevmək, yardım etmək, yaxşılıq etmək, ehtiram göstərmək və insanın zahirən və qəlbən sevdikləri ilə bir yerdə olmasıdır.[3] Bu da insanın dost tutduğu kəsə yaxın olması və sözlərində, əməllərində və niyyətində ona sevgi göstərməsidir. Əgər sözlərdə, əməllərdə və niyyətlərdə olan bu sevgi və yaxınlıqda qəsd olunan Allah, Onun elçisi və möminlərdirsə, bu hər bir müsəlmana vacib olan şəri dostluqdur. Yox əgər sözlərdə, əməllərdə və niyyətlərdə olan sevgi və yaxınlıqda qəsd olunan kafirlərdirsə, bu küfr olan və insanı dindən çıxaran dostluqdur. Kafirlər və onların hökmündə olan münafiq və mürtədlər bir-birinin dostudur və onların belə olması heç də təəccüblü deyil.[4]

---

[1] Bax: Zəməxşəri "Əsəsul Bələğah" (səh. 689). Feyruz əl Abadi "əl Qamusul Muhit" (səh. 1732). İbn Manzur "Lisənul Arab" (15\406-414). "Mucəmul Vasit" (səh. 1057)

[2] Bax: Zəməxşəri "Əsəsul Bələğah" (səh. 34). Feyruz əl Abadi "əl Qamusul Muhit" (səh. 42). İbn Manzur "Lisənul Arab" (1\31-34). "Mucəmul Vasit" (səh. 46).

[3] Bax: Muhəmməd ibn Səid ibn Səlim əl Qahtani "əl Vələ vəl Bəra fil İsləm" (səh. 92)

[4] Dr. Muhəmməd Nəim Yəsin "Kitəbul İmən, Ərkənuhu, Həqiqətuhu, Nəvəqiduhu" (səh. 188).

## Dördüncü: Düşmənçiliyin şəri mənası

Şəriətdə düşmənçilik, üzr axtardıqdan və xəbərdarlıq etdikdən sonra bir kəsdən uzaqlaşmaq, qurtulmaq və ona qarşı ədavət bəsləməkdir.[1]Bu da Uca Allahın düşmənlərinə nifrət etmək, onlarla düşmənçilik etmək, onlardan uzaqlaşmaq və onlarla əlbir olmamaq,[2] onların batil və çirkin əməllərindən uzaq olmaq və onlara bənzəməməkdir.[3]

## İkinci mövzu: İslam dinində dostluq və düşmənçiliyin yeri

Şəriətdə dostluq və düşmənçilik əqidəsinin yeri böyükdür.

1. Həqiqətən, hər bir müsəlman gün ərzində dostluq və düşmənçilik əqidəsini dəfələrlə təkrarlayır. O, hər dəfə ixlas kəlməsi olan "Lə iləhə illəllah" şəhadətini dedikdə, bunu təkrar etmiş olur. Çünki bu kəlmənin mənası Allahdan başqa ibadət olunanlardan uzaq olmaq deməkdir. Həqiqətən, şəhadət kəlməsi bu etiqaddan başqa, bütün bağları qırır və bütün əlaqələri yox edir.

2. "Lə iləhə illəllah" şəhadətinin doğru olması üçün Allah üçün sevmək və Allah üçün nifrət etmək şərtdir. Çünki bu kəlməni, onun dəlalət etdiyi şeyləri, onu tələffüz edənləri və ona dəvət edənləri sevmək və ona zidd olan şeylərə nifrət etmək, bu kəlmənin şərtlərindəndir.

3. Həqiqətən, dostluq və düşmənçilik əqidəsi imanın ən möhkəm bağıdır. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurur: ***"İmanın ən möhkəm bağı Allah üçün dostluq etmək, Allah üçün düşmənçilik etmək, Allah üçün sevmək və Allah üçün nifrət etməkdir."***[4]

4. Həqiqətən, dostluq və düşmənçilik əqidəsini həyata keçirmək imanı kamilləşdirən səbəblərdəndir. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurub: ***"Hər kim Allah üçün sevər, Allah üçün qəzəblənər, Allah üçün verər və Allah üçün imtina edərsə, bununla onun imanı kamilləşmiş olar."***[5]

---

[1] Bax: Muhəmməd ibn Səid ibn Səlim əl Qahtani "əl Vələ vəl Bəra fil İsləm" (səh. 92)
[2] Bax: Seyyid Said AbdulĞaniyy "Həqiqatul Vələ vəl Bəra fi Mutəqadi Əhliss Sunnəti vəl Cəməah" (səh. 33)
[3] Bax: Osman Cumə əd Damiriyyə "Mədxalu li Dirasətil Aqidətil İsləmiyyəh" (səh. 367)
[4] Tabarani "Kəbir" də İbn Abbasdan rəvayət edib. Şeyx Albani səhih olduğunu deyib "Sahihul Cəmi əs Sağir" (1\497. 2539 nömrəli hədis) və "Əs Silsilətus Sahihəh" (1728 nömrəli hədis).
[5] Əbu Davud "Sunən", Sünnə kitabı, "İmanın armasının və azalmasının dəlili" bölümü. Şeyx Albani səhih olduğunu demişdir: "Sahih Sunən Əbi Davud" (3\886). "Sahihu Cəmius Sağir" (2\1024. 5965 nömrəli hədis). "Əs Silsilətus Sahihəh" (380 nömrəli hədis).

5. Dostluq və düşmənçilik əqidəsini tam həyata keçirən insan Uca Allahın dostluğuna və himayəsinə nail olur. Abdullah ibn Abbas *(Allah ondan və atasından razı olsun)* buyurur: ***"Kim Allah üçün sevər, Allah üçün nifrət edər, Allah üçün dostluq edər və Allah üçün düşmənlik edərsə, bununla Allahın sevgisinə (dostluğuna, himayəsinə) nail olar."***[1]

6. Allah üçün dostluq və düşmənçilik etmək qəlbin imanın şirinliyini dadmasına səbəbdir. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurub: ***"Bu üç xislət kimdə olarsa, o kəs imanın şirinliyini dadar; Allah və Elçisi ona hər şeydən sevimli olsun, sevdiyi bir kəsi ancaq Allah üçün sevsin və Allah onu küfrdən çıxardıqdan sonra oda atılmağı sevmədiyi kimi yenidən küfrə qayıtmağı sevməsin."*** [2]

7. Allah üçün sevmək böyük mükafata nail olmağa səbəbdir. Belə ki, Allah üçün bir-birini sevən iki nəfəri Uca Allah Qiyamət günü Öz (Ərşinin) kölgəsində kölgələndirəcəkdir. Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurur: ***"Həqiqətən, Uca Allah Qiyamət günü belə deyəcəkdir: "Mənim xatirimə bir-birini sevənlər haradadır? Bu gün, Mənim kölgəmdən (Ərşin kölgəsindən) başqa bir kölgənin olmadığı bir gündə Mən onları Öz kölgəmdə kölgələndirəcəyəm."***[3] Allah üçün bir-birini sevmək, Allahın sevgisini qazanmağa səbəbdir.

## Üçüncü fəsil: Dostluq kiminlə olur?

Həqiqətən, hər bir müsəlman Allahın razılığını qazanmaq istəyir. Bu səbəbdən ona vacibdir ki, kiminlə dostluq etməyin və kimi sevməyin vacib olduğunu bilsin və öz sevgisini və dostluğunu yalnız onlara yönəltsin ki, Allahın razılığına nail olsun.[4]

Artıq Uca Allah bizlərə kimi sevəcəyimizi və dost tutacağımızı Öz kitabında bəyan etmişdir. Uca Allah buyurur: **"Sizin himayədarınız yalnız Allah, Onun Elçisi və iman gətirənlərdir. Onlar Allaha boyun əyərək namaz qılır və zəkat**

[1] Əsbəhəni "Hilyətul Əvliyə" (1\312).
[2] Bax: Sahihul Buxari, İman kitabı, "İmanın şirinliyi" bölümü. Sahih Muslim, İman kitabı, "Kim bu xislətlərə sahib olarsa, imanın şirinliyini hiss edər" bölümü.
[3] Sahih Muslim, Yaxşılıq etmək, "Qohumluq əlaqələrini qorumaq və ədəblər" kitabı, "Allah üçün sevməyin fəziləti" bölümü.
[4] Bax: Seyyid Said AbdulĞaniyy "Həqiqatul Vələ vəl Bəra fi Mutəqadi Əhliss Sunnəti vəl Cəməah" (səh. 645)

**verirlər. Kim Allahı, Onun Elçisini və iman gətirənləri özünə dost tutarsa, bilsin ki, qələbə çalanlar da məhz Allahın firqəsidir".**[1] Kim Allaha və Onun elçisinə *(Allahın ona salavatı və salamı olsun)* dost olarsa, bu dostluğun kamilliyindəndir ki, o kəs Allah və Elçisinin dostluq etdiyi kəslərlə dostluq etsin. Onlar da zahirdə və batində iman gətirən, Allaha ibadətdə ixlaslı olan, namazı şərtlərinə, vaciblərinə və kamilliyinə riayət edərək qılan, insanlara yaxşılıq edən, mallarının zəkatını haqqı çatan kəslərə verən və Allaha itaət edən və boyun əyən möminlərdir. Kim bu dostluğu həyata keçirərsə, məhz onlar Allahın dəstəsi, Onun həqiqi qulları və dostları hesab olunurlar. Dünya və axirətdə gözəl aqibət onlara məxsusdur və qalib olanlar da məhz Allahın dəstəsidir.[2]

Bu iki ayədən məlum olur ki, dostluq ancaq Allah üçün, Allahın dini, kitabı, elçisi, həmçinin Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* sünnəsi, doğru yolu və ümumən bütün möminlər üçün edilir.

1. Uca Allahı sevməyə və dost tutmağa gəldikdə, bunda ən güclü və ən kamil sevgi və dostluq tələb olunur. Necə ki, Uca Allah bu haqda belə buyurub: **"İnsanlardan elələri də vardır ki, Allahdan qeyrilərini Ona tay tutur, onları da Allahı sevdikləri kimi sevirlər. İman gətirənlərin isə Allaha olan sevgisi daha güclüdür. Kaş zülm edənlər əzabı gördükləri zaman bütün qüdrət və qüvvətin Allaha məxsus olduğunu və Allahın şiddətli əzab verdiyini görəydilər".**[3]

2. Allah elçisini *(Allahın ona salavatı və salamı olsun)* sevməyə və onunla dostluq etməyə gəldikdə isə, burada Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* sevgisini övladdan, valideyindən, ailədən, qohum-əqrabadan, mal-dövlətdən və insan üçün dəyərli olan hər bir şeydən önə çəkmək tələb olunur. Uca Allah buyurub: **"De: "Əgər atalarınız, oğullarınız, qardaşlarınız, zövcələriniz, yaxın qohumlarınız, qazandığınız mallar, iflasa uğramasından qorxduğunuz alış-verişiniz və bəyəndiyiniz məskənlər sizə Allahdan, Onun Elçisindən və Onun yolunda cihaddan daha əzizdirsə, Allah (əzaba) əmr verincəyə qədər gözləyin. Allah günahkarları doğru yola yönəltməz".**[4] Bu ayə Allah elçisini *(Allahın ona salavatı və salamı olsun)* sevməyin vacibliyinə dəlalət edir. Allaha və Elçisinə

---

[1] Əl Maidə, 55-56
[2] Şeyx İbn Sədi "Təysirul Kərimir Rahmən fi Təfsiril Kələmil Mənnən" (2\310-311).
[3] Əl Bəqərə, 165
[4] Ət Tövbə, 24

*(Allahın ona salavatı və salamı olsun)* olan sevgi bütün sevimlilərdən üstün və öndə tutulmalıdır. [1]

Allah elçisini *(Allahın ona salavatı və salamı olsun)* hər şeydən çox sevmək imanın vacib kamilliyinin hasil olmasına səbəbdir. Necə ki, Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* bu haqda belə buyurub: ***"Sizdən biriniz məni öz övladından, valideynindən və bütün insanlardan çox sevməyincə (kamil) iman etmiş olmaz."***[2] Həmçinin bu, qəlbdə imanın şirinliyini dadmağa səbəbidir. Necə ki, Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* belə buyurub: ***"Kimdə bu üç xislət olarsa, o kəs imanın şirinliyini dadar..."*** və həmin hədisdə deyilir ki, ***"Allah və Elçisi onun üçün başqa hər kəsdən sevimli olsun..."***[3]

3. Bütün möminləri sevməyə və onları dost tutmağa gəldikdə isə onlara olan sevgi eyni deyil, müxtəlif dərəcədə olur:

**Birinci:** Peyğəmbərlər, siddiqlər, şəhidlər və salehlər kimi xalis sevgi ilə sevilməsi vacib olan xalis möminlər. Onları sevmək vacibdir və bu sevgiyə ən çox layiq olan isə Adəm övladlarının ağası Muhəmməddir *(Allahın ona salavatı və salamı olsun).* Həqiqətən, insan onu özündən, övladından, valideynindən və bütün insanlardan daha çox sevməlidir. Ondan sonra möminlərin analarını, yəni Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* zövcələrini, onun əhli beytini və səhabələrini, xüsusi ilə də rəşidi xəlifələri və Cənnətlə müjdələnmiş on səhabəni, mühacir və ənsarları, Bədr döyüşündə iştirak edənləri, Ridvan beyətinin iştirakçılarını, sonra isə qalan bütün səhabələri *(Allah onlardan razı olsun)*, sonra tabeinləri, sonra fəzilətli üç əsrdə yaşayanları və bu ümmətin sələflərini və imamlarını sevmək ona vacibdir.[4]

**İkinci:** Həm saleh əməl, həm da pis əməl sahibi olan möminlərdir. Onlar bir cəhətdən sevilir, digər cəhətdən isə onlara nifrət edilir. Onlara qarşı həm sevgi, həm də düşmənçilik cəm olur. Onlar günahkar müsəlmanlardır, imanlarına görə sevilir, küfr və şirkdən aşağı olan günahlarına görə isə onlara nifrət olunur. Onlara olan sevgi insanı onlara nəsihət etməyə və pis əməllərdən çəkindirməyə sövq edir. Çünki onların günahlarına susmaq olmaz, əksinə, onların pis

---

[1] Bax: Qurtubi "Cəmiul Əhkəmil Quran" (8\95).

[2] Sahih Muslim, İman kitabı, "Allah elçisini *(Allahın ona salavatı və salamı olsun)* övladdan, valideyindən, ailədən və bütün insanlardan çox sevməyin vacib olması" bölümü.

[3] Bax: Sahihul Buxari, İman kitabı, "İmanın şirinliyi" bölümü. Sahih Muslim, İman kitabı, "Kim bu xislətlərə sahib olarsa, imanın şirinliyini hiss edər" bölümü.

[4] Dr. Saleh əl Fovzan "Əl İrşədu İlə Sahihil İtiqad" (səh. 317)

əməllərinə etiraz edilməlidir və onlara yaxşılığı əmr etmək və onları pis əməllərdən çəkindirmək lazımdır. Həmçinin günahlardan əl çəksinlər və tövbə etsinlər deyə, onlara şəri cəzalar və hədlər tətbiq olunur. Lakin xəvariclərin şirkdən aşağı olan böyük günah sahiblərinə qarşı etdikləri kimi onlara xalis nifrət və düşmənçilik edilmir. Nə də murciyələrin sevgisi və dostluğu kimi onlara qarşı xalis sevgi və dostluq olmur. Əksinə, daha öncə qeyd etdiyimiz kimi, Əhli Sünnə vəl Camaat bütün məsələlərdə necə orta yol tutubsa, bunda da orta yol tutulmalıdır.[1]

## Dördüncü fəsil: Düşmənçilik kiminlə edilir?

Hər bir müsəlman kimi düşmən tutmaq vacibdir onu bilməli və düşmənçiliyə aid olan mənaları ona yönəltməlidir ki, dostluq tam həyata keçmiş sayılsın. Çünki dostun əksini düşmən tutmadıqca dostluq həyata keçmiş sayılmır.

Kim Quran və Sünnədə dostluq və düşmənçilik barədə varid olan dəlilləri və onların təfsirlərini oxusa, ona bəlli olar ki, Allaha, Onun dininə, Onun elçisinə *(Allahın ona salavatı və salamı olsun)* və ya elçilərindən birinə küfr edən, Allahla və Onun hənif şəriəti ilə müharibə edən, Allahın dininə qarşı hiylə quran, qəlbində Allaha və Onun elçisinə *(Allahın ona salavatı və salamı olsun)* qarşı ədavət bəsləyən kafirləri, müşrikləri, münafiqləri, ateistləri və onlara bənzəyənləri düşmən tutmaq və onlardan uzaq olmaq vacibdir. Necə ki, Uca Allah buyurub: **"Allaha və Axirət gününə iman gətirən elə bir camaat tapa bilməzsən ki, onlar Allaha və Onun Elçisinə düşmən olanlarla – öz ataları, oğulları, qardaşları, qohum-əqrəbaları olsalar belə, – dostluq etsinlər. Allah onların qəlbinə iman salmış və onları Öz tərəfindən bir ruhla dəstəkləmişdir. Allah onları ağacları altından çaylar axan Cənnət bağlarına daxil edəcəkdir. Onlar orada əbədi qalacaqlar. Allah onlardan razıdır, onlar da Allahdan razıdırlar. Onlar Allahın firqəsidirlər. Həqiqətən, məhz Allahın firqəsi nicat tapanlardır".**[2] Bu ayə dəlildir ki, Allah və Onun elçisi *(Allahın ona salavatı və salamı olsun)* ilə düşmənçilik edənləri sevmək və onlarla dostluq etmək icazəli deyil. Əksinə, bu ayə onlara nifrət etməyin, onlara qarşı açıq-aşkar düşmənçilik və ədavət

---

[1] Dr. Saleh əl Fovzan "əl İrşədu İlə Sahihil İtiqad" (səh. 318-319)
[2] Əl Mucadilə, 22

bəsləməyin, kafirlərdən və onların küfrlərindən uzaq durmağın vacibliyini bildirir və Allahı və Onun elçisini *(Allahın ona salavatı və salamı olsun)* dost tutmağı vacib edir. [1]

Şeyxülislam İbn Teymiyyə *(Allah ona rəhmət etsin)* bu ayə ilə bağlı belə deyir: "Uca və Qüdrətli Allah bu ayədə xəbər verir ki, iman etmiş bir kəsi Allah və Onun elçisi ilə düşmənçilik edənlərlə dostluq etdiyini görməzsən. Çünki iman özü onlarla dostluq etməyə ziddir. Bir-birinə zidd olan iki şeydən biri digərini necə inkar edirsə, bu da elədir. Əgər bir şəxsdə iman varsa, onun əksi aradan qalxmalıdır. Allahın düşmənləri ilə dostluq etmək də imana zidd olan əməldir. Əgər insan qəlbi ilə Allaha düşmənçilik edənlərlə dostluq edir və onları sevirsə, bu dəlildir ki, onun qəlbində vacib olan iman yoxdur."[2]

Növlərinin fərqli olmasına baxmayaraq, bütün kafirlərə, müşriklərə, münafiqlərə, mürtədlərə və ateistlərə sevmədən və dost tutmadan hamısına xalis düşmənçilik və nifrət edilməlidir.[3]

## Beşinci fəsil: Dostluq və düşmənçiliyin hökmü

Uca Allah bizə xəbər vermişdir ki, möminlər bir-birinin dostudurlar. Uca Allah belə buyurur: **"Mömin kişilərlə mömin qadınlar bir-birinin dostlarıdır. Onlar insanlara yaxşı işlər görməyi buyurur, pis əməllərə qadağa qoyur, namaz qılır, zəkat verir, Allaha və Onun Elçisinə itaət edirlər. Allah onlara rəhm edəcəkdir. Həqiqətən, Allah Qüdrətlidir, Hikmət sahibidir".**[4] Həmçinin Uca Allah xəbər verir ki, kafirlər də bir-birinin dostudur: **"Kafirlər də bir-birinə dostdurlar. Əgər siz bunu etməsəniz (bir-birinizə yardımçı olmasanız), yer üzündə fitnə və böyük bir fəsad baş verər".**[5] Bununla da Uca Allah möminlərlə kafirlərin arasında dostluğu kəsmiş və bildirmişdir ki, möminlər necə bir-birinin dostudursa, kafirlər də eləcə bir-birinin dostudur. Möminlərlə dostluq etmək, kafirlərlə düşmənçilik etməyi vacib edir. Möminlərlə dostluq etmək vacib olduğu kimi, kafirlərlə də düşmənçilik etmək də vacibdir. Kim desə ki, mən

[1] Bax: Seyyid Said AbdulĞaniyy "Həqiqatul Valə vəl Bəra fi Mutəqadi Əhliss Sunnəti vəl Cəməah" (səh. 649)
[2] Bax: İbn Teymiyyə "Kitəbul İmən" (səh. 17).
[3] Dr. Saleh əl Fovzan "əl İrşədu İlə Sahihil İtiqad" (səh. 318).
[4] Ət Tövbə, 71
[5] Əl Ənfal, 73

möminləri sevirəm, amma kafirlərlə düşmənçilik etmirəm və ya onlarla düşmənçilik edirəm, amma onlara kafir demirəm, deməli haqqı ilə müsəlmanlarla dostluq etmir. Çünki Allaha və Onun elçisinə dost olmağın şərtlərindəndir ki, Allah və Elçisinin düşmənlərinə nifrət edib, dostlarını sevəsən. Deməli, hər bir müsəlmana kafirlərlə düşmənçilik etmək vacib, dostluq etmək isə haramdır.

Şeyx Həməd ibn Ali ibn Muhəmməd ibn Atiq *(Allah ona rəhmət etsin)* belə demişdir: "Kafir və müşriklərlə düşmənçilik etməyə gəldikdə isə bil ki, Uca Allah bunu müsəlmanlara qəti şəkildə vacib etmişdir. Həmçinin onlarla dostluq etməyi şiddətli şəkildə haram etmişdir. Belə ki, Allahın kitabında tövhidin vacibliyi və şirkin haramlığından sonra ən çox varid olan dəlillər dostluq və düşmənçilik barədədir.[1] Şeyx Suleyman ibn Abdullah Əli Şeyx *(Allah ona rəhmət etsin)* demişdir: "Bilmək lazımdır ki, Uca Allah kafirlər və münafiqlərlə düşmənçilik etməyi möminlərə fərz buyurmuşdur... Həmçinin Uca Allah möminlərlə kafirlər arasında dostluq əlaqələrini kəsmiş və xəbər vermişdir ki, kim onlarla dostluq etsə, o da onlardandır."[2]

Böyük İslam alimi İbnul Qeyyim *(Allah ona rəhmət etsin)* bu barədə öz şeirində belə demişdir:

*"Allahı sevdiyini iddia edirsən və bununla yanaşı, Onun düşmənlərini sevirsən? Bu mümkün deyil.*

*Həmçinin Onun sevdikləri ilə düşmənçilik edirsən? Hardadı sənin Allaha sevgin, ey şeytanın qardaşı?*

*Sevginin şərti odur ki, sevdiyinə tam müvafiq olasan,*
*Əgər Onu sevdiyini iddia edirsən və sevgidə Ona müxalif olursansa, deməli sən yalançısan.*

*Onların sevgisi Allah üçün olsaydı əgər,*
*Onun iman üzərində olan sevimliləri ilə düşmənçilik etməzdilər"*

Möminin Allah üçün nifrət etdiyi düşmənləri və Allah üçün sevdiyi dostları vardır. Çünki yer üzü Allahın, İslamın və müsəlmanların düşmənlərindən xali deyil. Əgər onlar peyğəmbərlərin və elçilərin *(Allahın onlara salavatı və salamı olsun)* zamanında olublarsa, gör fitnələrin çox olduğu axır zamanlarda necə?!

---

[1] Şeyx Həməd ibn Atiq "Səbilun Nəcəti vəl Fikəki minəl Məvələtil Murtəddin və Əhlil İşrak" (səh. 31).
[2] Şeyx Suleyman ibn Abdullah "Əvsəqu Ural İmən" (səh. 26-27).

Uca Allah buyurub: **"Beləliklə, Biz hər bir peyğəmbər üçün insanlar və cinlərdən olan şeytanlarından düşmənlər müəyyən etdik. Bunlar aldatmaq məqsədilə bir-birlərinə təmtəraqlı sözlər təlqin edirlər. Əgər Rəbbin istəsəydi, onlar bunu etməzdilər. Onları uydurduqları şeylərlə birlikdə tərk et.**[1] Həmçinin Uca Allah buyurub: **"Beləcə, Biz hər peyğəmbər üçün günahkarlardan bir düşmən etdik. Doğru yolu göstəricisi və yardımçı kimi Rəbbin sənə yetər".**[2]

**Qeyd:** Kafirlərdən və müşriklərdən uzaq olmaq o demək deyil ki, biz müsəlman dövlətinin himayəsi altında yaşayan və zimmə əhlindən olan kafirlərə pislik etməliyik. Əksinə, müsəlmanlar gərək onlarla yumşaq və gözəl davransın, xeyirxahlıq və əlaqə qurmaq baxımından onlara müəyyən qədər mal ilə yardım etsin və onları İslam dininə daxil olmağa məcbur etməsinlər. Necə ki, Uca Allah buyurur: **"Allah din uğrunda sizinlə vuruşmayan və sizi öz diyarınızdan qovub çıxartmayan kimsələrə yaxşılıq etmənizi və onlarla insafla davranmanızı sizə qadağan etmir. Şübhəsiz ki, Allah insaflı olanları sevir".**[3] Onlara yaxşılıq etmək olar. Lakin bir şərtlə ki, bu yaxşılıq zahirdə olsun və qəlbdə onlara qarşı haram sevgiyə aparıb çıxarmasın. Çünki onları sevmək, müsəlmanlara qarşı onlara yardım etmək və dəstək olmaq bizə qadağandır. Allaha və Onun elçisinə *(Allahın ona salavatı və salamı olsun)* iman gətirən müsəlman əmr olunan və qadağan olunan iki şeyi cəm edə bilir. Onlara yaxşılıq etmək və onlarla gözəl davranmaq əmr olunub. Onları sevmək və onlarla dostluq etmək isə qadağan edilib. Qayda olaraq bilməliyik ki, bu ikisindən biri əmr olunub, digəri isə haram edilib.[4] Şeyx Suleyman ibn Abdullah *(Allah ona rəhmət etsin)* belə deyir: "Həqiqətən, Allah müsəlmanlarla vuruşmayan kəslərə yaxşılıq etməyi qadağan etməyib... Amma onları sevməyə, dostluq və ikram etməyə isə icazə verməyib."[5]

Uca Allahdan diləyirəm ki, bizləri qorusun və sözü eşidib yaxşısına tabe olanlardan etsin. Həqiqətən, O Yaxındır, dualara Cavab verəndir.

---

[1] Əl Ənam, 112
[2] Əl Furqan, 31
[3] Əl Mumtəhənə, 8
[4] Bax: Osman Cumə əd Damiriyyə "Mədxalu li Dirasətil Aqidətil İsləmiyyəh." (səh. 374).
[5] Bax: Şeyx Suleyman ibn Abdullah "Əvsəqu Ural İmən" (səh. 64-65).

Peyğəmbərimiz Muhəmmədə, onun ailəsinə və səhabələrinə Allahın salavatı və salamı olsun. Sonda isə həmd olsun Aləmlərin Rəbbi olan Allaha.

## Mündəricat


Müqəddimə ... 2
Giriş ... 4
Birinci mövzu: Bəzi terminlərin izahı ... 5
Birinci məsələ: Əqidənin lüğəvi və terminoloji mənasının izahı ... 5
Birinci məqam: “Əqidə” kəlməsinin lüğəvi mənası ... 5
İkinci məqam: “Əqidə” kəlməsinin terminoloji (şəri termin kimi) mənasının izahı 6
İkinci məsələ: İslam əqidəsinə verilən bəzi adların izahı ... 7
1. Əqidənin “Tövhid” adlandırılması haqqında ... 8
“Tövhid” kəlməsinin lüğəvi mənası: ... 8
“Tövhid” kəlməsinin şəri (istilahi) mənası: ... 8
Əqidə və Tövhid anlayışının bir-birinə uyğunluğu ... 8
Əqidə və tövhid arasındakı fərq: ... 9
“Tövhid” adı ilə adlandırılan əqidə kitabları: ... 9
2. Əqidə elminin “Dinin əsasları” adlandırılması haqqında ... 10
Dinin əsasları deyildikdə nə qəsd olunur? ... 10
“Üsul əd Din” (dinin əsasları) termininin şəriətdə həqiqi mənası: ... 11
“Dinin əsasları” adı altında əqidə elminə dair yazılmış kitablar: ... 11
3. Əqidə elminin “Sünnə” adlandırılması haqqında ... 12
Sünnə sözünün lüğəvi və şəri (istilahi) tərifi: ... 12
Əqidə və Sünnə adlarının arasındakı uyğunluq: ... 13
Əqidə elmində “Sünnə” adı altında yazılan kitablar: ... 14
4. Əqidənin “Əl Fiqhul əkbər” adlandırılması haqqında ... 15
“Fiqh” sözünün lüğəvi və şəri (istilahi) mənası: ... 15
Əqidəni “Əl Fiqhul əkbər” (böyük fiqh) adlandırmağın səbəbi: ... 15
Əqidə elmində “əl Fiqhul Əkbər” (böyük fiqh) adı altında yazılan kitablar: ... 15
Üçüncü məsələ: İslam əqidəsinə sahib olanlara verilən bəzi adların izahı ... 17
1. Əhlüs Sünnə vəl Camaat ... 17
Əhlüs Sünnə vəl Camaatın tərifi: ... 17
2. “Sələf” ... 19
Sələf sözünün tərifi: ... 19
Sələf alimlərinə görə “xələf” sözünün məfhumu: ... 21

3. “Hədis əhli.” ........ 22
“Hədis əhli” termininin tərifi: ........ 22
İkinci mövzu: İslam əqidəsinin əhəmiyyəti və onun mənbələri. ........ 23
İslamda ağılın yeri və əhatə dairəsi: ........ 24
Sağlam ağılın açıq-aydın dəlillərə zidd olmaması. ........ 25
Üçüncü mövzu: İslam əqidəsinin bəzi xassələri ........ 26
“Xassələr” sözünün tərifi: ........ 26
Birinci məsələ: İslam əqidəsinin xüsusiyyətlərindən biri onun tovqifi olmasıdır ........ 26
Əqidənin tovqifi olması nələri gərəkdirir? ........ 27
İkinci məsələ: İslam əqidəsinin xüsusiyyətlərindən biri də onun qeybi olmasıdır ........ 27
İslam əqidəsinin qeybi olması nəyi gərəkdirir? ........ 28
Üçüncü məsələ: İslam əqidəsinin xüsusiyyətlərindən biri onun əhatəli olmasıdır. ........ 29
İslam əqidəsinin əhatəli olmasının əlamətləri ........ 29
İslam əqidəsinin əhatəli olmasına misallar: ........ 29
Dördüncü məsələ: İslam əqidəsinin xüsusiyyətlərindən biri onun orta yol olmasıdır. ........ 30
İslam əqidəsinin orta yol olmasının təzahürləri ........ 30
Birinci məqam: İslam ümmətinin başqa ümmətlər arasında orta yolda olması ........ 31
1. Allahı təkləşdirməkdə və Allahın sifətləri barədə İslam əqidəsi yəhudi və nəsranilər (xristianlar) arasında orta yoldadır. ........ 31
2. Allahın peyğəmbərlərinə və elçilərinə münasibətdə də İslam ümməti yəhudi və nəsranilər arasında orta yoldadır. ........ 31
3. İslam əqidəsi şəriət əhkamlarında da yəhudi və nəsranilər arasında orta yoldadır. ........ 32
4. Halal və haramlarda da İslam əqidəsi yəhudi və nəsranilər arasında orta yoldadır. ........ 32
5. İslam ümməti ibadətlərdə də yəhudi və nəsranilər arasında orta yoldadır. ........ 33
İkinci məqam: Əhli Sünnə vəl Camaatın azmış firqələr arasında orta yolda olması 34
Əhli sünnə vəl camaatın firqələr arasında orta yolda olmasının təzahürlərindən: 35
1. Onlar Allahın ad və sifətlərində, Allahın sifətlərini inkar edənlərlə, Allahın sifətlərini məxluqların sifətlərinə bənzədənlər arasında orta yoldadırlar. ........ 35
2. Əhli Sünnə vəl Camaat qədər mövzusunda da Qədərilər və Cəbrilər arasında orta yoldadır. ........ 36

3. Əhli sünnə vəl camaat, vəd və vəid (hədə) bildirən dəlillərdə də Murciyə və Vəidiyyələr (Xavaric, Mötəzilə) arasında orta yoldadır. ........ 38
Əhli sünnə vəl camaata görə ümid və qorxu: ........ 40
4. Əhli sünnə vəl camaat adlarda və əhkamlarda da Murciə ilə Vəidiyyələr (Xavaric, Mötəzilə) arasında orta yoldadır. ........ 40
Birinci: Böyük günah sahiblərinə verilən adlarda onların üç qismə bölünməsi. ... 41
İkinci: Böyük günah sahiblərinin axirət əhkamlarında olan ayrılıq. ........ 41
5. Əhli sünnə vəl camaat Allah elçisinin *(Allahın ona salavatı və salamı olsun)* səhabələri barədə də ifrata varanlarla, onlara qarşı haqsızlıq edənlər arasında orta yoldadır. ........ 42
Birinci bölüm: Tövhid. ........ 44
Giriş ........ 45
Birinci məsələ: Tövhidin tərifi ........ 45
İkinci məsələ: Tövhid həm tarix, həm də fitrət baxımından bəşəriyyətdə əsldir. Şirk isə sonradan baş vermişdir. ........ 46
Birinci hissə: Tövhid tarix baxımından bəşəriyyətdə əsldir (təməldir) ........ 46
İkinci hissə: Tövhid fitrət baxımından insanda əsldir. ........ 48
Üçüncü hissə: Bəşəriyyətdə şirk sonradan baş vermişdir. ........ 50
Birinci fəsil: Tövhidin növləri ........ 53
Giriş ........ 54
Bil ki, tövhidin üç qismi var. ........ 54
Birinci mövzu: Rububiyyət tövhidi ........ 55
Birinci məqam: “Rəbb”sözünün lüğəvi mənası ........ 55
İkinci məqam: Rububiyyət tövhidinin şəri (istilahi) mənası: ........ 55
Üçüncü məqam: Rububiyyət tövhidinə iman gətirmək nəyi tələb edir? ........ 55
Dördüncü məqam: Rububiyyət tövhidinə aid bəzi şəri dəlillərin xatırlanması ..... 55
Beşinci məqam: Fitrətin rububiyyət tövhidinə dəlalət etməsi ........ 57
Altıncı məqam: Müşriklərin rububiyyət tövhidində mövqeyi ........ 57
Yeddinci məqam: İnsanın islama daxil olması üçün təkcə rububiyyət tövhidini qəbul etməsi kifayətdirmi? ........ 58
İkinci mövzu: Ad və sifətlər tövhidi ........ 59
Birinci məqam: Ad və sifətlər tövhidinin tərifi. ........ 59

İkinci məqam: Ad və sifətlər tövhidində Əhli sünnə və camaatda olan bəzi üsullar haqqında. .......... 59
Üçüncü mövzu: Uluhiyyət tövhidi. .......... 61
Giriş .......... 61
Birinci məqam: “İlah” sözünün lüğəvi mənası. .......... 61
İkinci məqam: Uluhiyyət tövhidinin tərifi .......... 61
Üçüncü məqam: Uluhiyyət tövhidinin tövhidin digər növləri arasında yeri .......... 62
Dördüncü məqam: Uluhiyyət tövhidinə dair şəri dəlillər. .......... 62
Beşinci məqam: Tövhidin digər iki növünü qəbul edən, lakin uluhiyyət tövhidinə əməl etməyən kəsin hökmü. .......... 63
Altıncı məqam: Rububiyyət tövhidi ilə uluhiyyət tövhidi arasında olan bağlılıq. 64
1. Rububiyyət tövhidi uluhiyyət tövhidini gərəkdirir. .......... 64
2. Uluhiyyət tövhidi özündə rububiyyət tövhidini əhatə edir. .......... 65
Yeddinci məqam: Rububiyyət tövhidi ilə uluhiyyət tövhidi arasındakı fərqlər. .......... 65
İkinci fəsil: Uluhiyyət tövhidi haqqında bəzi təfsilatların öyrənilməsi .......... 68
Birinci mövzu: “Lə iləhə illəllah” şəhadəti .......... 69
Giriş .......... 69
Birinci məsələ: “Lə iləhə illəllah” şəhadətinin mənası .......... 69
İkinci məsələ: “Lə iləhə illəllah”şəhadətinin rüknları. .......... 70
Üçüncü məsələ: “Lə iləhə illəllah” şəhadətinin şərtləri .......... 71
Bu şərtlərin “Lə iləhə illəllah”şəhadətində yeri. .......... 71
Birinci şərt: Elm (cahilliyin əksidir). .......... 72
İkinci şərt: Yəqin olmaq. (Yəqinlik şəkkin əksidir). .......... 73
Üçüncü şərt: Qəbul etmək. (rədd etməyin əksidir). .......... 74
Dördüncü şərt: İtaətlə boyun əymək (tərk etməyin və məhəl qoymamağın əksidir) .......... 75
Beşinci şərt: Doğruluq (yalanın və ikiüzlülüyün əksidir). .......... 76
Altıncı şərt: İxlas (şirkin əksidir). .......... 77
Yeddinci şərt: Məhəbbət (nifrət etməyin əksidir). .......... 78
Səkkizinci şərt: Allahdan başqa ibadət olunanları inkar etmək. .......... 79
Dördüncü məsələ: “Lə iləhə illəllah” şəhadətini pozan amillər. .......... 81
1. “Lə iləhə illəllah” şəhadətini pozan birinci amil: “Allaha şərik qoşmaq” .......... 81

2. "Lə iləhə illəllah" şəhadətini pozan ikinci amil: Kim özü ilə Allah arasında vasitəçi və şəfaətçi tutub Allahla yanaşı onlara dua etsə, və ya Allahı qoyub yalnız onlara dua etsə, onlardan şəfaət istəsə, və ya onlara təvəkkül etsə, kafir olur....... 82
3. "Lə iləhə illəllah" şəhadətini pozan üçüncü amil: Müşrikləri təkfir etməmək (kafir hesab etməmək), onların küfründə şəkk etmək və ya onların tutduğu yolu haqq saymaq........ 83
4. "Lə iləhə illəllah" şəhadətini pozan dördüncü amil: Kim Peyğəmbərin *(Allahın ona salavatı və salamı olsun)* yolundan başqa yolun onun yolundan daha mükəmməl olduğunu və ya başqasının hökmünün onun hökmündən daha yaxşı olduğunu etiqad etsə kafir olur........ 85
5. "Lə iləhə illəllah" şəhadətini pozan beşinci amil: Kim Peyğəmbərin *(Allahın ona salavatı və salamı olsun)* gətirdiyi hansısa bir şeyə büğz etsə (kin və ədavət bəsləsə və ya nifrət etsə, ona əməl etsə belə) kafir olur........ 86
6. "Lə iləhə illəllah" şəhadətini pozan altıncı amil: Kim Peyğəmbərin *(Allahın ona salavatı və salamı olsun)* dinindən olan hansısa bir şeylə, yaxud onun mükafatı və ya cəzasıyla istehza etsə kafir olur........ 87
7. "Lə iləhə illəllah" şəhadətini pozan yeddinci amil: "Sehrlə məşğul olmaq. Ərlə-arvadı qovuşdurmaq və ya ayırmaq üçün edilən ovsun da sehrdən hesab olunur." ........ 89
8. "Lə iləhə illəllah" şəhadətini pozan səkkizinci amil: Müşriklərə arxa-dayaq olmaq və müsəlmanların əleyhinə onlara yardım etmək. ........ 90
9. "Lə iləhə illəllah" şəhadətini pozan doqquzuncu amil: Kim etiqad etsə ki, Xızır Musanın şəriətindən kənar çıxdığı kimi, bəzi insanlar da Muhəmmədin *(Allahın ona salavatı və salamı olsun)* şəriətindən kənar çıxa bilər, kafir olur........ 92
10. "Lə iləhə illəllah" şəhadətini pozan onuncu amil: Allahın dinindən üz çevirib onu öyrənməmək və ona əməl etməmək........ 94
"Lə iləhə illəllah" şəhadətini pozan amillər haqqında son söz: ........ 96
İkinci mövzu: İbadət, onun növləri və rüknləri........ 97
Birinci məsələ: Lüğəvi və şəri cəhətdən ibadətin mənası........ 98
İkinci məsələ: Şəri dəlillər işığında qulluğun geniş məfhumu........ 99
Üçüncü məsələ: İbadətin növləri........ 102
Birinci: Etiqadla bağlı olan ibadətlər: ........ 102
İkinci: Qəlbi ibadətlər:........ 102

Üçüncü: Dil ilə edilən ibadətlər ........ 103
Dördüncü: Bədən üzvləri ilə edilən ibadətlər ........ 103
Beşinci: Mal ilə edilən ibadətlər ........ 104
Dördüncü məsələ: İbadətin rüknları və əsasları ........ 105
Birinci rükn: Uca və Qüdrətli Allahı sevmək. ........ 105
İkinci rükn: Allaha ümid. ........ 107
Üçüncü rükn: Allahdan qorxmaq. ........ 109
Allaha bu rüknların hər üçü ilə birlikdə ibadət etmək. ........ 111
İkinci bölüm: Tövhidə və onun kamilliyinə zidd olan amillər ........ 112
Giriş ........ 112
Birinci fəsil: Şirk və onun növləri ........ 114
Birinci mövzu: Şirkin mənası. ........ 114
İkinci mövzu: Şirkin növləri. ........ 115
Böyük və kiçik şirk arasındakı fərqlərdən bəziləri: ........ 115
Birinci məqam: Böyük şirk ........ 117
Birinci: Böyük şirkin tərifi. ........ 117
İkinci: Dəlillərə əsasən böyük şirkin hökmü. ........ 117
Üçüncü: Böyük şirkin qisimləri. ........ 118
Birinci məsələ: Böyük şirkin qisimlərindən biri rububiyyətdə şirkdir. ........ 118
Birinci: Rububiyyətdə şirkin tərifi. ........ 118
İkinci: Rububiyyətdə şirkin növləri. ........ 119
1. (Tatil) İnkar etmək şirki: ........ 119
2. (Təmsil) Bənzətmək şirki: ........ 119
İkinci məsələ: Böyük şirkin qisimlərindən ikincisi, ad və sifətlərdə şirk ........ 120

Üçüncü məsələ: Böyük şirkin qisimlərindən üçüncüsü, uluhiyyətdə və ibadətdə şirkdir. .......... 121
1. Uluhiyyətdə və ibadətdə şirkin növlərindən birincisi: Duada şirk. .......... 122
2. Uluhiyyətdə və ibadətdə olan şirkin növlərindən ikincisi: Şəfaətdə şirk .......... 125
3. Uluhiyyətdə və ibadətdə şirkin növlərindən üçüncüsü: Niyyətdə, istəkdə və məqsəddə şirk. .......... 128
4. Uluhiyyətdə və ibadətdə şirkin növlərindən dördüncüsü: İtaətdə şirk .......... 129
5. Uluhiyyətdə və ibadətdə olan şirkin növlərindən beşincisi: Sevgidə şirk .......... 135
6. Uluhiyyətdə və ibadətdə olan şirkin növlərindən altıncısı: Qorxuda şirk .......... 137
İkinci məqam: Kiçik şirk .......... 140
Birinci: Kiçik şirkin tərifi .......... 140
İkinci: Dəlillərlə kiçik şirkin hökmü: .......... 140
Üçüncü: Kiçik şirkin bəzi növləri. .......... 141
1. Kiçik şirkin növlərindən birincisi: Az miqdarda olan riya .......... 141
2. Kiçik şirkin növlərindən İkincisi: “Əs-sum`a” (eşitdirmək) .......... 143
3. Kiçik şirkin növlərindən üçüncüsü: İnsanın Axirət əməli ilə dünyanı istəməsi... 144
4. Kiçik şirkin növlərindən dördüncüsü: Ulduzlardan yağış istəmək: .......... 146
5. Kiçik şirkin növlərindən beşincisi: Allahdan qeyrisinə and içmək .......... 148
6. Kiçik şirkin növlərindən altıncısı: “Mə şə Allahu və şitə” (“bunu Allah və sən istədin”), “Allah və sən olmasaydın” kimi sözlər .......... 150
7. Kiçik şirkin növlərindən yeddincisi: Şirk olan Ruqyə (Ovsun) .......... 153
Birinci məqam: Şəri ruqyə (ovsun). .......... 154
İkinci məqam: Bidət olan ruqyə (ovsun): .......... 156
8. Kiçik şirkin növlərindən səkkizincisi: Təmimə (gözmuncuğu) .......... 158
9. Kiçik şirkin növlərindən doqquzuncusu: Tətayyur (bədbinlik etmək, əlamətlərə və düşər-düşməzliyə inanmaq) .......... 163
Üçüncü mövzu: Tövhidə və onun kamilliyinə zidd olan şirkə aparan vəsilələr . 168
Giriş .......... 169

Birinci məsələ: Bidət olan təvəssül. İcazəli olan təvəssül və onun növləri. 170
İkinci məsələ: Qəbirləri məscid və səcdəgah etmək, üzərində bina tikmək və qəbirlərə qarşı namaz qılmaq şirkə aparan vəsilələrdəndir. 178
Üçüncü məsələ: Peyğəmbərlər və salehlər haqqında həddi aşmaq və salehlərdən qalan (bədənlərindən ayrılan və ya istifadə etdikləri) şeylərdən bərəkət ummaq şirkə vəsilə olan əməllərdəndir. 185
Birinci məqam: Şəxsləri təriflməkdə həddi aşmaq 186
İkinci məqam: Peyğəmbərlər və salehlərin şəkillərini çəkmək və onların heykəllərini düzəltmək. 187
Üçüncü məqam: Peyğəmbərlərdən və salehlərdən qalan (bədənlərindən ayrılan və ya istifadə etdikləri) şeylərdən bərəkət ummaq 190
Birinci: Allah elçisi *(Allahın ona salavatı və salamı olsun)* ilə təbərruk etmək (onun vasitəsilə bərəkət ummaq). 191
İkinci: Allah elçisindən *(Allahın ona salavatı və salamı olsun)* savayı övliyalar və salehlərlə təbərruk etmək (bərəkət ummaq): 192
Dördüncü məsələ: Şirkə aparan vəsilələrdən biri də bidət bayramlar və mərasimlərdir 195
1. İsra və Merac hadisəsi: 197
2. Peyğəmbərin doğum günü hadisəsi: 197
İkinci Fəsil: Küfr və onun növləri 200
Birinci mövzu: Küfrün mənası 201
Küfrün lüğəvi mənası: 201
Küfrün şəri mənası: 201

İkinci mövzu: Böyük küfrün növləri ........ 202
Birinci məqam: Böyük küfrün növlərindən: Kufrul cuhud (İnkar etmək küfrü) ........ 203
İkinci məqam: Böyük küfrün növlərindən: İstikbər və ibə (Təkəbbürlük və boyun əyməkdən imtina etmək) küfrü. ........ 204
Üçüncü məqam: Böyük küfrün növlərindən: Qeybi bildiyini iddia etmək küfrü ........ 206
Birinci məsələ: Sehr ........ 206
İkinci məsələ: Kahinlik ........ 209
Üçüncü məsələ: Münəccimlik ........ 211
Üçüncü mövzu: Kiçik küfrün növləri ........ 213
Birinci məqam: Kiçik küfrün növlərindən: Nemətə küfr etmək ........ 214
İkinci məqam: Kiçik küfrün növlərindən: Nəsəbə tənə etmək və ölünün üzərinə fəryad çəkərək ağlamaq ........ 215
Üçüncü məqam: Kiçik küfrün növlərindən: Müsəlmanla döyüşmək ........ 216
Üçüncü fəsil: Nifaq və onun növləri ........ 218
Özündə üç mövzunu əhatə edir: ........ 218
Birinci mövzu: Nifaqın mənası. ........ 218
İkinci mövzu: Böyük nifaq. ........ 218
Üçüncü mövzu: Kiçik nifaq ........ 218
Birinci mövzu: Nifaqın mənası. ........ 219
İkinci mövzu: Böyük (etiqadi) nifaq ........ 220
Üçüncü mövzu: Kiçik (əməldə olan) nifaq. ........ 223
Üçüncü bölüm: Əl-Vəla vəl-bəra (dostluq və düşmənçilik) ........ 225
Birinci fəsil: Quran və Sünnədən dostluq və düşmənçilik haqqında dəlillər. ........ 225
Birinci: Qurani Kərimdən dostluq və düşmənçilik haqqında dəlillər: ........ 225
İkinci: Peyğəmbərin sünnəsindən dostluq və düşmənçilik barədə dəlillər ........ 227
İkinci fəsil: Lüğəvi və şəri cəhətdən dostluq və düşmənçilik məfhumu. ........ 228
Birinci mövzu: Dostluq və düşmənçiıiyin lüğəvi və şəri mənası ........ 229
İkinci mövzu: İslam dinində dostluq və düşmənçiliyin yeri ........ 230
Üçüncü fəsil: Dostluq kiminlə olur? ........ 231
Dördüncü fəsil: Düşmənçilik kiminlə edilir? ........ 234
Beşinci fəsil: Dostluq və düşmənçiliyin hökmü ........ 235
Mündəricat ........ 239